# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# İYİRMİ SƏKKİZİNCİ KİTAB

## DEKABR 2007 - FEVRAL 2008

AZƏRNƏŞR
BAKI - 2016

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI - 2016**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2016, səh. 416.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində Nazirlər Kabinetinin 2007-ci ilin sosial-iqtisadi inkişafın yekunlarına və 2008-ci ildə qarşıda duran vəzifələrə, həmçinin regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördillik yekunlarına həsr olunmuş konfranslardakı nitqləri yer almışdır.

Prezidentin Macarıstana dövlət səfəri zamanı bu ölkənin prezidenti Laslo Şoyom ilə görüşləri, ikitərəfli sənədlərin imzalanması, dövlət başçımıza Macarıstanın nüfuzlu Korvinus Universitetinin Fəxri doktoru adının verilməsi, habelə keçirdiyi maraqlı görüşləri, çıxış və bəyanatları öz əksini tapmışdır.

Regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi ilə əlaqədar Əli Bayramlı, Ağdam və Ağcabədi rayonlarına səfəri, bu bölgənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş çıxışları, nitqləri və ictimaiyyət nümayəndələri ilə görüşlərinə həsr olunmuş materiallar verilmişdir.

Həmçinin bu cilddə Müdafiə Sənayesi Nazirliyinin «Telemexanika» və «Peyk» zavodlarında keçirdiyi görüşlər, Dövlət Bayrağı Meydanının təməlqoyma mərasimi, Bakının rayonlarında yeni yolötürücülərinin açılışı, habelə Əjdərbəy, Bibiheybət və Təzəpir məscidlərində yenidənqurma işləri ilə tanışlığı zamanı etdiyi çıxış və nitqləri də öz əksini tapmışdır.

**İSBN 978-9952-8100-7-3**

$$Я\ \frac{0801000000}{M-651(07)-2016}$$

**ББК - 32**

© Azərnəşr, 2016

**YAPONİYANIN İMPERATORU**
**ƏLAHƏZRƏT AKİHİTOYA**

Əlahəzrət!

Yaponiyanın milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Biz Azərbaycan ilə Yaponiya arasındakı dostluq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Ümidvaram ki, əlaqələrimizin genişlənməsi, əməkdaşlığımızın dərinləşməsi prosesləri bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və səadət, dost Yaponiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 dekabr 2007-ci il*

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YASUO FUKUDAYA**

Hörmətli cənab Baş nazir!

Milli bayramınız – İmperatorun Təvəllüd günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Yaponiya münasibətləri ardıcıl və dinamik inkişaf etməkdədir. Əminəm ki, dost ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə möhkəmlənməsi, əməkdaşlıq sahəsində nailiyyətlərimizin daha da artması üçün səylərimizi bundan sonra da qarşılıqlı şəkildə davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, dost Yaponiya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 dekabr 2007-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN *bp* ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ ENDRYU İNQLİS İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*17 dekabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Prezident sarayında bp şirkətinin vitse-*prezi-*denti Endryu İnqlisi qəbul etmişdir.*

*Endryu İnqlis yenidən ölkəmizə səfər etməkdən məmnunluğunu söylədi. O, «Şahdəniz» yatağından qaz hasilatının artmasını razılıq hissi ilə vurğuladı və bu sahədə işlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əmin olduğunu bildirdi.*

*Prezident İlham Əliyev «Şahdəniz» yatağından çıxarılan qazın artmasının ölkəmizin mühüm qaz hasilatçısı və ixracatçısı kimi rolunu daha da yüksəldəcəyini vurğuladı. O, uzun illər ərzində Azərbaycan ilə bp şirkəti arasında həyata keçirilən uğurlu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

## BELARUS RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ LEONİD MALTSEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 dekabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Prezident sarayında Belarusun Müdafiə naziri Leonid Maltsevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Belarus arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq, əməkdaşlığımızın inkişafında yüksək səviyyədə qarşılıqlı dövlət səfərlərinin əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev nəzərdə tutulan birgə layihələrin yüksək templə həyata keçirildiyini və Azərbaycan–Belarus tərəfdaşlıq münasibətlərinin regionda təhlükəsizliyin daha da möhkəmləndirilməsi işinə töhfə verdiyini bildirdi. Dövlətimizin başçısı Belarusun Müdafiə nazirinin ölkəmizə bu səfərinin ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Leonid Maltsev ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən müdafiə nazirlikləri arasında əməkdaşlığın uğurla inkişaf etdiyini qeyd etdi. Qonaq ölkəmizə səfəri zamanı Bakıda qısa müddət ərzində böyük inkişafın şahidi olduğunu vurğuladı. Belarusun Müdafiə naziri Azərbaycana səfərinin müdafiə nazirlikləri arasında əməkdaşlığımızın inkişafına xidmət edəcəyini bildirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKININ NƏRİMANOV RAYONU ƏRAZİSİNDƏ SALINMIŞ YENİ YOLUN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*19 dekabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 19-da Bakının Nərimanov rayonu ərazisində salınmış yeni yolun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı bu il sentyabrın 1-dən inşasına başlanmış yolun açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Həsən Əliyev prospektini, Maqsud Əlizadə, Teymur Əliyev və Salamzadə küçələrini Əhməd Rəcəbli küçəsi ilə, Aşıq Molla Cümə küçəsini isə Ziya Bünyadov prospekti ilə birləşdirən bu yol ərazidə nəqliyyatın hərəkətini tənzimləyəcəkdir. Altızolaqlı ikitərəfli yolun uzunluğu 1,5 kilometr, yolun eni isə 24 metrdir. Ümumiyyətlə, paytaxtda yol-nəqliyyat strukturunu yaxşılaşdırmaq üçün Bakı Şəhər İcra Hakimiyyətinin sərəncamı ilə Nərimanov rayonunda 5 yeni küçənin salınması başa çatdırılmışdır. Heydər Əliyev və Ziya Bünyadov prospektlərini birləşdirən Aşıq Molla Cümə küçəsi istifadəyə hazırdır.*

*Bundan əlavə, Həsən Əliyev prospektini Əhməd Rəcəbli küçəsi ilə bağlayan 500 metrlik yolun çəkilişi də tamamlanmışdır. Ümumilikdə, bu ərazidə 60 min kvadratmetr asfalt döşənmiş, xaricdən gətirilmiş 4 mindən çox dekorativ bəzək kolları, habelə palma ağacları əkilmişdir. Salınan yaşıllıqları suvarmaq üçün xüsusi su xətləri çəkilir, işıqlandırma sistemi quraşdırılır.*

*Nərimanov rayonu ərazisində daha üç yolun salınması davam etdirilir.*

*Prezident İlham Əliyev yolun layihəsi, eləcə də bu ərazidə yerləşən «Qardaşlıq məzarları» xatirə kompleksinin eskiz layihəsi ilə tanış oldu, qəbiristanlığın vəziyyətini əks etdirən fotoşəkillərə baxdı.*

*Bildirildi ki, sahəsi 11220 kvadratmetr olacaq xatirə kompleksinin tikintisinə 1,552 milyon manat xərclənəcək və 2008-ci ilin mayın 9-da tamamlanacaqdır. Tikinti işləri «Dəvəli» və «İlandağ» məhdud məsuliyyətli cəmiyyətləri tərəfindən görüləcəkdir.*

*Dövlətimizin başçısı bu cür yolların əhəmiyyətini, paytaxtın digər ərazilərində də belə yollara ehtiyac duyulduğunu vurğuladı, yenidən yaradılacaq komplekslə bağlı tövsiyə və tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVANIN KANAL-4 TELEVİZİYASINA MÜSAHİBƏSİ

*Prezident sarayı*

*19 dekabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 19-da Prezident sarayında Moldovanın «Kanal-4» televiziyasına müsahibə vermişdir.*

**– Hörmətli cənab Prezident, sizin ölkəniz Avropaya inteqrasiya etmək əzmində olduğunu sözün tam mənasında yetərincə qətiyyətlə bəyan etmişdir. Lütfən deyin, bu baxımdan Azərbaycanın hansı uğurlarından danışmaq olar, Azərbaycan Avropaya nə dərəcədə yaxınlaşmışdır?**

– Biz artıq bir ildir ki, Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nın üzvüyük. Mənim fikrimcə, bu, Avropa İttifaqı ilə münasibətlərimizin çox mühüm elementidir. Bu proqram çərçivəsində bizim əməkdaşlığımızı möhkəmləndirən tədbirlər həyata keçirilir, eləcə də çox ciddi siyasi və iqtisadi islahatlar aparılır. Biz çalışırıq ki, siyasi sistemin və iqtisadi inkişafın, vətəndaşların sosial təminatının bütün meyarları Avropa İttifaqının meyarlarına yaxın olsun. Biz çalışırıq ki, vətəndaşlarımız üçün Avropa İttifaqında vətəndaşlar üçün mövcud olan yüksək həyat səviyyəsini və azadlıqların səviyyəsini təmin edək. Bizim əməkdaşlığımız çoxplanlıdır, siyasi və iqtisadi sahələrdə əməkdaşlıq edirik, energetika spektri bizim münasibətlərimizin mühüm elementidir, biz Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalamışıq. Yəni bu əməkdaşlıq çox genişdir, bu, ikitərəfli hərəkət olan küçəyə bənzəyir. Biz Avropa

İttifaqı ilə sıx qarşılıqlı əlaqələrdən, təmaslardan özümüzə lazım olanı götürürük, eləcə də bizim regionda təhlükəsizlik sisteminin, o cümlədən enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə töhfəmizi veririk. Deməliyəm ki, bütövlükdə, əməkdaşlığın səviyyəsindən razıyıq, bu daim yüksəlir.

**– Qarşınızda çox kəskin şəkildə duran Qarabağ probleminin həlli məsələsində Avropa İttifaqından dəstək gözləyirsinizmi və əgər gözləyirsinizsə, bu dəstək nədən ibarət olmalıdır?**

– Bu gün biz münaqişənin həlli məsələsində bütün dünya birliyi tərəfindən tam siyasi dəstək alırıq. Dünya birliyi, o cümlədən Avropa İttifaqı və bilavasitə tənzimləmə ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri – Rusiya, Fransa, ABŞ bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə birmənalı şəkildə tərəfdar olduqlarını bildirir. Azərbaycanın ərazi bütövlüyü bütün dünya birliyi tərəfindən, BMT tərəfindən tanınmışdır və bu məsələ bizim apardığımız danışıqların mövzusu deyildir. Bu mənada biz Avropa İttifaqı tərəfindən də siyasi və mənəvi dəstək alırıq, bu, «Yeni qonşuluq siyasəti» barədə Avropa İttifaqı ilə imzaladığımız sənəddə öz əksini tapmışdır. Bu, başqa məsələdir ki, hələlik bu dəstək tənzimləmə üçün zəruri tədbirlərin, daha dəqiq desək, Ermənistan dövləti tərəfindən Azərbaycana qarşı aparılmış etnik təmizləmənin nəticələrinin aradan qaldırılması, bütün qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və beləliklə, münaqişənin tənzimlənməsi tədbirlərinin praktik şəkildə həyata keçirilməsinə çevrilməmişdir. Görünür, burada xalis siyasi, diplomatik bəyanatlar kifayət deyildir. Təəssüf ki, təcavüzkar dövlət olan Ermənistan XXI əsrdə özünü orta əsrlər dövrünün deyil, XXI əsrin reallıqlarına uyğun şəkildə aparmaq barədə dünya birliyinin çağırışlarına hələlik məhəl qoymur. Təəssüf ki, ermənilərin bu məsələyə yanaşmasında məhz orta əsrlər üçün səciyyəvi olan münasibət müşahidə olunur. Bu, qeyri-

müəyyənliyə aparan yoldur, onlar heç vaxt Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına nail ola bilməyəcəklər, dünya birliyi heç vaxt Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayacaqdır və Azərbaycan heç vaxt buna razılıq verməyəcəkdir. Münaqişənin həlli yolları üzdədir, bu yollar bütün ölkələr üçün, o cümlədən Moldova üçün də eynidir. Bizim üzləşdiyimiz problemlər təcavüzkar separatizmdir. Dağlıq Qarabağ, Dnestryanı bölgə, Abxaziya, Cənubi Osetiya problemlərinin kökləri eyni, səbəbləri eyni və təəssüf ki, nəticələri də eynidir. Buna görə də onlar məhz beynəlxalq hüquq prinsipləri əsasında həll olunmalıdır. Ümidvaram ki, Ermənistanda sağlam düşüncə üstün gələcək və ermənilər yaranmış vəziyyətdən, beynəlxalq praktikanın reallıqlarından və regionda qüvvələr nisbətinin dəyişməsi reallıqlarından düzgün nəticə çıxaracaqlar.

**– Biz özümüz də yəqin edə bilmişik ki, Bakıda müxtəlif dinlərin nümayəndələri özlərini çox rahat hiss edirlər, pravoslav məbədləri, məscidlər, sinaqoqlar çox rahat işləyir. Sizin fikrinizcə, bu faktlar da Azərbaycanın avropasayaqlığının təzahürləridir?**

– İctimai formasiyadan asılı olmayaraq, tolerantlıq Azərbaycanda həmişə həyat norması olmuşdur. Bu, indiki dövrün səciyyəvi hadisəsi və bizim Avropa İttifaqı ilə əməkdaşlığımızın nəticəsi deyildir. Biz Rusiya imperiyasının tərkib hissəsi olduğumuz dövrdə də belə idi, Sovet İttifaqının tərkib hissəsi olduğumuz vaxtda da belə idi, indi – müstəqil dövlət olduğumuz şəraitdə də belədir. Ölkəmizdə müxtəlif xalqların, müxtəlif dinlərin çoxsaylı nümayəndələri yaşayır və onların hamısı bir ailə kimidir. Azərbaycanda heç vaxt dini və ya etnik zəmində münaqişələr olmamışdır. Bizim ölkədə bütün dinlərin nümayəndələrinin bir ailə kimi yaşaması faktı dövlətimizi möhkəmləndirir. Ermənistan isə monodövlətdir və onun əhalisinin, demək olar ki, yüz faizini erməni milləti təşkil edir, yeri gəlmişkən, ada-dövlətlər müstəsna olmaqla, bu vəziyyət heç bir normal dövlət üçün norma sayılmamalıdır. Dövlətin

siyasəti və dövlətin milli azlıqlara münasibəti həm də dövlətin milli tərkibini müəyyənləşdirir. Vaxtilə Ermənistanda başqa millətlərin çoxlu nümayəndələri, o cümlədən üç yüz mindən artıq azərbaycanlı yaşayırdı. Bütün başqa millətlərin nümayəndələri kimi, azərbaycanlılar da bu torpaqdan qovulmuşlar. Biz Azərbaycanda çox sevinirik ki, milli sülh ölkəmizin dinamik inkişafına kömək edir. Bundan sonra da mümkün olan hər şeyi edəcəyik ki, Azərbaycanda yaşayan bütün xalqlar arasında həmrəylik, sülh və qardaşlıq münasibətləri inkişaf etsin.

**– Yan keçə bilmədiyimiz bir sual. Bildiyimizə görə, keçən il Azərbaycan iqtisadiyyatında artım göstəricisi 35 faizə çatmışdır. Deyə bilərsinizmi, bu Azərbaycan möcüzəsinin sirri nədədir?**

– Əlbəttə, bu, ilk növbədə, hələ ötən əsrin 90-cı illərindən başlanmış cəsarətli iqtisadi islahatlarla bağlıdır. Ölkəmizin müstəqilliyinin bərpa edilməsinin ilk illərində biz vətəndaş müharibəsinin, xaosun, dağıntıların çox ağır nəticələri ilə üzləşmişik. Lakin 1993-cü ildə bütün mənfi meyillər dayandırıldı və 1996-cı ildən 2004-cü ilə qədər biz dinamik şəkildə inkişaf etdik. İqtisadiyyatın həcmi orta hesabla ildə 10 faiz artırdı. Bu, yaxşı göstəricidir və demək olar ki, 10 il müddətində hər il vəziyyət belə olmuşdur. 2005-ci il 90-cı illərdə başlanmış və 2000-ci illərdə davam etdirilmiş bütün islahatların bir növ inikası olmuşdur. 2005-ci ildə bizdə iqtisadi artım göstəricisi 26 faiz səviyyəsində idi. 2006-cı ildə isə sizin qeyd etdiyiniz kimi, 2005-ci ilin 26 faizlik bazası əsasında bu artım 35 faizə çatmışdır. Artıq cari ilə yekun vurulur, bu il iqtisadi artım göstəricisi 30 faiz həddində olacaqdır. Bu o deməkdir ki, biz üç ildə ÜDM-i faktiki olaraq iki dəfə artırırıq. Əlbəttə, burada enerji amili – neft və qaz hasilatının artırılması, eləcə də islahatların fəal aparılması, iqtisadiyyatın liberallaşdırılması, özəl sektorun stimullaşdırılması mühüm rol oynayır. Biz özəl sektora hər il təqribən yüz milyon dollar məbləğində güzəştli kreditlər veririk.

**– Bu çox cəsarətli qərardır.**

– Elədir. Üstəlik, biz kənd təsərrüfatına çox kömək edirik. Əhalinin yarısı kənd yerlərində yaşayır. Buğda yetişdirilən torpaqların hər hektarına görə kəndlilərə 50 dollar verilir. Bundan əlavə, biz kəndlilərə gübrə sarıdan ciddi kömək etməyi planlaşdırırıq və artıq bu işə başlamışıq. Biz dövlət xətti ilə texnika alırıq və istehsalın artırılması üçün bu texnikanı güzəştli qiymətlə kəndlilərə icarəyə veririk. Bir daha demək istəyirəm ki, iqtisadiyyat maksimum dərəcədə liberallaşdırılmışdır. Bizdə özəl sektorun ÜDM-də payı 80 faizdən çoxdur. Onu da nəzərə almaq lazımdır ki, neft və qaz sahəsi dövlətin inhisarındadır, bunlar isə iqtisadiyyatın əsasıdır. Buna görə də bütün amillərin məcmusu və əlbəttə, vəziyyətin sabitləşməsi, xarici investorların Azərbaycana inamı bu uğurları qazanmağımıza imkan vermişdir. Əlbəttə, üç il dalbadal təqribən 30 faiz və daha artıq iqtisadi artıma nail olmaq, demək olar ki, dünya rekordudur. Lakin mənim üçün hətta bunlar da çox mühüm göstərici deyildir. Ölkədə yoxsulluğun azalması daha mühüm göstəricidir, çünki ÜDM-in səviyyəsi hələ o demək deyil ki, bu imkanlardan hamı istifadə etmişdir. Yoxsulların sayı 2003-cü ildəki 50 faizdən 2007-ci ildə 20 faizə qədər azalmışdır. 2007-ci ilin yekunlarına görə isə, bizdə olan məlumatlara əsasən, bu göstərici daha aşağı olacaqdır. Bu, əsas göstəricilərdən biridir. Son 4 ildə biz regional inkişaf proqramını həyata keçirməklə ölkədə 600 mindən çox yeni iş yeri açmağa nail olmuşuq. Təkcə Bakı deyil, bütün bölgələr inkişaf edir. Biz infrasrukturun inkişafına külli məbləğdə vəsait sərf edirik. Gələn il, ilk dəfə olaraq, daxili investisiyaların həcmi xarici investisiyaların həcmini aşacaq, xarici investisiyalar isə ildə bir neçə milyard dollar deməkdir. Buna görə də ölkəmiz iqtisadi hərc-mərclik dövrünün bütün çətinliklərini geridə qoymuşdur və indi biz inamla inkişaf edirik. Son 5 ildə biz dövlət xərclərini, demək olar ki, 10 dəfə artırmağa nail olmuşuq. 2003-cü ildə bu xərclərin məbləği bir milyard dollardan bir qədər artıq olduğu

halda, 2008-ci ildə on iki milyard dollara çatacaqdır. Bunlar bizim icmal büdcəsinin parametrləridir.

**– Bəli, cənab Prezident, Azərbaycan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin çəkilməsində xüsusi fəallıq göstərmişdir, bu kəmərlərlə enerji daşıyıcılarını nəql edir. İndi isə eşitdiyimizə görə, tezliklə Bakı–Tbilisi–Qars dəmir yolu da işə salınacaqdır. Xahiş edirəm, səhv etsəm səhvimi düzəldin. Deyə bilərikmi Azərbaycan regionda lider dövlətə çevrilir?**

– Hər halda, regionda mühüm rol oynayan dövlətə xas olan bütün parametrlər bizdə mövcuddur. Bizim ölkəmiz karbohidrogen ehtiyatları ilə zəngindir, bu həmişə belə olmuşdur. Biz sahildən uzaqda, dənizin dərinliyində yerləşən yataqlardan neft çıxarmağa, neft və qaz kəmərləri çəkməyə başlamışıq. Bizim dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Yeri gəlmişkən, neft hasil edən ölkələr arasında bizimlə eyni vəziyyətdə olanlar azdır. Həmin ölkələrin əksəriyyətinin dünya bazarlarına birbaşa çıxışı vardır. Buna görə də biz nefti çıxarmaqla, sahilə çatdırmaqla bərabər, onu iki ölkə ərazisindən keçməklə dünya bazarlarına nəql etməli idik. Bu gün bizim üç neft kəmərimiz var: Bakı–Tbilisi–Ceyhan, Qara dənizə çıxan Bakı–Supsa və Bakı–Novorossiysk kəmərləri. Bundan əlavə, qazı qonşu ölkələrə çatdıran Bakı–Tbilisi–Ərzurum qaz kəmərimiz mövcuddur. Artıq indi Azərbaycanda hasil edilən qaz Gürcüstan, Türkiyə və Yunanıstan bazarlarına daxil olur. Gələcəkdə biz istehlakçılarımızın coğrafiyasını genişləndirməyi nəzərdə tuturuq. Azərbaycan qazını Yunanıstana satmaqla biz Avropa İttifaqı bazarına çıxırıq. Bu çox yaxşı başlanğıcdır, onun yaxşı perspektivləri vardır. Bakı–Tbilisi–Qars dəmir yolunun layihəsi ən azı 10 il müzakirə edildi. Lakin maliyyə mənbələri olmadığına görə, bu layihə kağız üzərində qalmışdı. Biz bu prosesi, necə deyərlər, ölü nöqtədən tərpətməyə nail olduq. Bu, ölkəmiz üçün, eləcə də Gürcüstan üçün, Türkiyə üçün və bütövlükdə Mərkəzi Asiya regionu üçün, Avropa üçün tarixi layihədir. Çünki bu dəmir yolu Avropa ilə Asiyanı çox

etibarlı və qısa yolla birləşdirəcəkdir. Bu, İpək Yolu layihəsinin əməli təcəssümüdür. Bu layihənin təşəbbüsçüsü bizik, üstəlik, bundan ötrü zəruri vəsaitin yarısını – təqribən 200 milyon dollar pul ayırmışıq. Lap bu yaxınlarda biz Gürcüstanda mərasim keçirdik, Gürcüstan, Türkiyə və Azərbaycan prezidentləri dəmir yolunun tikintisinin təməlini qoyduq. Bütün bu amillər, eləcə də Azərbaycanın geosiyasi əhəmiyyətinin getdikcə artması, regionda baş verən proseslərə təsir göstərmək imkanı sayəsində ölkəmiz Cənubi Qafqazın adi bir ölkəsindən regional problemlərin həllində fəal iştirak edən ölkəyə çevrilmişdir. Özü də bütün regional layihələrimiz, bütün təşəbbüslərimiz əməkdaşlığa, təhlükəsizlik, o cümlədən Avropa üçün enerji təhlükəsizliyi tədbirlərinin möhkəmlənməsinə, Xəzər, Qara dəniz, Baltik dənizi, Mərkəzi Asiya regionu, Qafqaz və Avropa arasında regional əməkdaşlığa yönəlmişdir.

**– Deməliyəm ki, sizin Moldovadakı səfirliyiniz çox fəal işləyir. Bu il baş vermiş dəhşətli quraqlıqdan sonra bizə sanballı maliyyə yardımı göstərən ilk ölkə Azərbaycan olmuşdur. Moldova–Azərbaycan əməkdaşlığı sahəsində hansı perspektivlər var?**

– Zənnimcə, bu sahədə çox gözəl perspektivlər var. Bizim qarşılıqlı siyasi əlaqələrimiz çox yaxşı səviyyədədir. Sizin qeyd etdiyiniz kimi, biz Moldovada səfirlik açmışıq və o, artıq fəal işləyir. Biz GUAM təşkilatı çərçivəsində əməkdaşlıq edirik, regional əməkdaşlıq məsələlərini orada da fəal müzakirə edirik. Bildiyiniz kimi, GUAM-ın təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatında dondurulmuş münaqişələr məsələsi müzakirə ediləcəkdir. Bu da çox vacibdir. Münaqişələrin həlli üçün GUAM çərçivəsində səylərimizi birləşdirmişik, çünki yuxarıda dediyim kimi, bu münaqişələrin hamısı eyni təbiətlidir, təcavüzkar separatizmlə bağlıdır və bu münaqişələrin hamısı az və ya çox dərəcədə etnik təmizləmələrlə müşayiət olunmuşdur. Bu münaqişələr nəticəsində Moldovanın, Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Buna görə də biz qarşıya qoyulmuş məqsədə çatmaq, müstəqilliyimizi

möhkəmləndirmək, ölkələrimizin ərazi bütövlüyünün bərpa edilməsinə nail olmaq üçün qüvvələrimizi daha sıx əlaqələndirməli, səylərimizi birləşdirməliyik. Ölkələrimiz arasında münasibətlərin inkişaf perspektivləri kifayət qədər genişdir. Bu münasibətlər siyasi və iqtisadi qarşılıqlı əlaqələri, Avropaya inteqrasiya məsələlərini əhatə edir. Sizin də qeyd etdiyiniz kimi, biz tərəfdaşlarıq, dostlarıq, deməli, bir-birimizə kömək etməliyik. Kənd təsərrüfatının Moldova iqtisadiyyatı üçün nə qədər əhəmiyyətli olduğunu başa düşürük, ona görə də sizin ölkədə quraqlıq olanda biz dərhal maliyyə yardımı göstərməyi qərara aldıq. Məndə olan məlumata görə, sizə ən çox maliyyə yardımı göstərən biz olmuşuq və bu iş sizin müraciətinizdən dərhal sonra görülmüşdür. Biz qarşılıqlı maraq doğuran layihələrin həyata keçirilməsi istiqamətində əvvəllər də əməkdaşlıq edirdik. Bundan əvvəl Azərbaycandan Moldovaya göndərilən enerji daşıyıcılarının həcminin artırılmasına zərurət olanda biz bunu da təmin etmişdik.

**– Gələn il Azərbaycanda seçkilər ilidir. Siz öz qələbənizə əminsinizmi?**

– Bəli, əminəm. Biz nəzərdə tutduğumuz tədbirlərin hamısını həyata keçirmişik. Mənim 2003-cü ildə verdiyim bütün vədlərə əməl edilmişdir. Yadımdadır, mən Azərbaycan regionlarının inkişafı proqramı ilə çıxış edəndə demişdim ki, bu bizim inkişafımızın əsas istiqamətlərindən biridir, təkcə Bakı şəhəri deyil, bütün regionlar inkişaf etdirilməlidir. Mən demişdim ki, prezident seçiləcəyim təqdirdə, 5 il ərzində Azərbaycanda 600 min iş yeri açılacaqdır. Yadımdadır, o vaxt mənim bədxahlarımdan bəziləri bu vədləri şübhə altına almağa çalışır, məni populizmdə və seçiciləri aldatmaqda ittiham edirdi. Mən bunu heç vaxt özümə rəva görməmişəm və indi – prezident seçiləndən 5 il sonra deyil, 4 il sonra 600 mindən artıq iş yeri yaradılmışdır. Bu müddətdə dövlət xərcləri on dəfə artırılmış, 1200 məktəb, onlarca xəstəxana, avtomobil yolları, 6 elektrik stansiyası tikilmişdir – hamısını saymaqla qurtarmaz. İqtisadi sahədə artım təmin olunmuş, bütün transmilli enerji layihələri

reallaşdırılmışdır. Buna görə də mən seçkilərə inamla gedirəm, mənim insanlara deməyə sözüm var, mən insanların ovqatına bələdəm. Bizimlə rəqabət aparmağa cəhd göstərənlər bu 4 ildə öz kabinetlərindən bayıra çıxmamışlar. Görünür, onlar kabinetlərdən çıxmağa xəcalət çəkirlər, çünki onlar özlərini çoxdan gözdən salıblar və adamlara deməyə sözləri yoxdur. Bu gün Azərbaycanda ənənəvi müxalifətin fəaliyyət meydanı həmişəkindən daha məhduddur. Ona görə yox ki, biz kimisə sıxışdırır və problemlər yaradırıq. Xeyr, ona görə ki, biz nəyi nəzərdə tutmuşduqsa, ölkəmiz üçün, onun möhkəmlənməsi üçün, təhlükəsizliyi, inkişafı üçün nə lazımdırsa, hamısını edirik. Buna görə də hesab edirəm ki, 2008-ci il əvvəlki illərdən fərqlənməyəcək, bizim 2003-cü ildə nəzərdə tutduğumuz bütün planların həyata keçirilməsi ili olacaqdır.

**– Yəqin ki, uşaqlıqda prezidentlik arzusunda olmamısınız?**

– Yox.

**– Sirr deyilsə, kim olmaq istəyirdiniz?**

– Uşaqlıqda mən general olmaq istəyirdim. Atam Heydər Əliyev general olanda mənim 6 yaşım vardı. Əlbəttə, hərbi forma, general poqonları bütün uşaqlar üçün xüsusi ehtiram predmetidir. Uşaqlıqda biz hamımız müharibə oyunları oynayırdıq, hamımız özümüzü böyük sərkərdələr kimi təsəvvür edirdik. Mənə gəldikdə isə, hər gün generalı evimizdə görürdüm. Buna görə də təbii ki, mən də atam kimi general olmaq arzusunda idim. Mən general olmadım, lakin bütün başqa məsələlərdə atam kimi olmağa çalışıram.

**– Müsahibəyə görə Sizə bir daha təşəkkür edirəm.**

– Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜASİR TİPLİ KÖRPÜNÜN VƏ YENİ YOLUN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

*19 dekabr 2007-ci il*

*Azərbaycan Respublikası Prezidentinin «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006–2007-ci illər üçün Tədbirlər Planının təsdiq edilməsi haqqında» 2006-cı il 2 fevral tarixli sərəncamına uyğun olaraq, paytaxtda inşa ediləcək 9 yol qovşağının – körpünün sayca yeddincisi dekabrın 19-da istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.*

*Mərasimə toplaşan inşaatçılar, paytaxt sakinləri dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladılar.*

*Nəqliyyat naziri Ziya Məmmədov prezidentə məlumat verdi ki, üçüncü mikrorayon dairəsindəki bu yol ötürücüsünün ümumi uzunluğu 1249 metr, eni 19,8 metr, hərəkət hissəsi isə 17 metrdir. Əsas körpünün uzunluğu 776,7 metrdir. Cavad xan və Alı Mustafayev küçələrinin kəsişməsində yerləşən və tikintisinə ötən ilin iyununda başlanan yol ötürücüsü dörd istiqamətlidir. Nəqliyyat Nazirliyinin sifarişi ilə «Körpübinatikinti» MMC tərəfindən tikilmiş yol ötürücüsündə 23,53 min kubmetr dəmir-beton işləri görülmüşdür.*

*Prezident İlham Əliyev yol ötürücüsünün tikintisini əks etdirən fotoşəkillərə baxdı, salınmış yolların keyfiyyəti, nəqliyyatın bütün istiqamətlərə hərəkətinin tənzimlənməsi ilə maraqlandı.*

*Bildirildi ki, bu körpü həm də əvvəllər hərəkətin nizamsız vəziyyətdə olduğu bu ərazidə tənzimləyici rol oynayır. 20 Yanvar dairəsindən üçüncü mikrorayon bazarınadək və əks istiqa-*

*mətdə nəqliyyatın maneəsiz hərəkətini təmin edəcəkdir. Həmçinin körpüdən Asif Məhərrəmov küçəsinə köməkçi yollar ayrılır. Bu da hərəkətin intensiv olduğu üçüncü mikrorayon dairəsində tıxacların qarşısını alacaqdır. Demək olar ki, hərəkətin təhlükəsizliyi üçün hər cür şərait yaradılmışdır. Sağ və sol yollar tamamilə genişləndirilmiş, hərəkətin bütün istiqamətində yaşıllıqlar salınmışdır. Tikintidə milli memarlıq elementlərindən və müasir texnologiyadan istifadə olunmuşdur. Körpünün inşasında yerli, habelə Rusiya və İtaliya istehsalı olan material və avadanlıqdan istifadə edilmişdir.*

**İlham Əliyev:** Sizi təbrik edirəm. Nə qədər yaxşı iş görmüsünüz. Bakının nəqliyyat sisteminin yaxşılaşması üçün çox böyük işlər görülür. Körpülər, yol qovşaqları, tunellər tikilir, şəhər gözəlləşir. Körpülər həm də memarlıq abidələridir, şəhərimizə əlavə gözəllik verir. Həm də insanların rahatlığı üçün yaxşı şərait yaradılır. Körpü elə bir qurğudur ki, buraya qoyulan vəsait geri qayıtmır. Zavod, fabrik deyil ki, oradan gəlir gəlsin. Sadəcə olaraq, dövlət bu vəsaiti qoyur ki, insanların rahatlığı təmin olunsun, vaxtlarını tıxaclarda keçirməsinlər, rahat hərəkət etsinlər. İnsanların yaşayış səviyyəsi yaxşılaşır, imkanları artır, hamı maşın almaq istəyir. Maşınların çoxalması da istər-istəməz nəqliyyat problemlərinin yaranmasına gətirib çıxarır. Ona görə biz bəri başdan bütün tədbirləri gördük. Nəqliyyat Nazirliyinə bütün göstərişlər verilmişdir. Bu işlər böyük plan çərçivəsində görülür. Artıq yeddinci körpü istismara verilibdir. Bir neçə yerdə tikintilər davam edir. Nəqliyyat Nazirliyinə göstəriş verilibdir, onlar növbəti proqram hazırlayırlar. Yəqin ki, yaxın zamanlarda Bakıda yeni körpülərin, yol ötürücülərinin, qovşaqların tikintisi üçün lazımi tədbirlər görüləcəkdir. Beləliklə, Bakıda tıxac problemi aradan qalxmalıdır.

Bununla yanaşı, başqa tədbirlər də görülür. Bakıda nəqliyyatın hərəkətinin idarə edilməsinin xüsusi intellektual sistemi yaradılacaq, yol hərəkəti kompyuter vasitəsilə tənzimlənəcəkdir.

Beləliklə, bütün şəhərimiz üçün, şəhərin infrastrukturu üçün lazım olan tədbirlər görüləcəkdir.

Çox şadam ki, bu tikintidə yerli şirkətlər işləyir. Əvvəlki illərdə daha çox xaricdən dəvət edirdik. İndi də dəvət edirik, amma az. O vaxt bizim təcrübəmiz yox idi, imkanımız yox idi, texnikamız yox idi. Amma indi hər şey var və pul Azərbaycanda qalır. Bu pulu Azərbaycan vətəndaşları qazanırlar. Azərbaycan şirkətləri güclənir və böyük şirkətlərə çevrilir. Gələcəkdə onlar həm Azərbaycanda, həm də başqa ölkələrdə işləyəcəklər. Yəqin ki, burada işləyənlərin maaşı da yaxşıdır. 800, 1000, 1500 manat alanlar var. Çox gözəl.

Onu da demək istəyirəm ki, bu körpülər çox yüksək keyfiyyətlə, böyük təminatla tikilir. Xarici görünüşü mütləq gözəl olmalıdır. Çünki bu həm də şəhərin gözəlliyidir. Maşınların hərəkəti üçün körpü tikmək olar. Amma biz gözəl körpülər tikirik. Baxanda adamın ürəyi sevinir.

Buradakı təhlükəsizlik sədləri də indi Azərbaycanda istehsal olunur, xaricdən gəlmir. Biz bir müddət bundan əvvəl təhlükəsizlik sədləri və qalvanizasiya zavodunun açılışında iştirak etdik. Bütün lazımi materiallar Azərbaycanda istehsal olunmalıdır və ölkə iqtisadiyyatı belə inkişaf edəcəkdir. Əgər Azərbaycanda son illər ərzində yol tikintisinə, körpülərin tikintisinə bu qədər böyük vəsait qoyulmasaydı, onda bu zavodun tikintisinə də ehtiyac olmazdı. Bu zavod tikilib və fəaliyyət göstərəcək, ustalar işləyəcəklər.

**Ziya Məmmədov:** Cənab Prezident, bu təhlükəsizlik sədlərinin elastikliyi var, avtomobil dəyəndə onu geri atır. Yəni avtomobil digər istiqamətə aşmır. Doğrudur, təhlükəsizlik səddini zədələyib sıradan çıxarır, amma xəsarət olmur.

**İlham Əliyev:** Bəli, bunu əyir, amma sonra bunu bərpa etmək olur.

**Ziya Məmmədov:** Cənab Prezident, Sizin tapşırığınızla biz təkcə Bakıda yox, respublikanın müxtəlif bölgələrində buna bənzər körpülər inşa edirik. Oğuzda, Qəbələdə, Qazaxda təqribən 4 körpü istismara verilməyə hazırdır.

**İ l h a m  Ə l i y e v:** Bəli, gedin açılışlarını edin. Körpülər hər yerdə tikilir və hər yerdə də tikilməlidir.

Sizi qarşıdan gələn bayramlar münasibətilə bir daha təbrik edirəm. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi. Lövhədə* «Yolötürücü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı əsasında 2006–2007-ci illərdə inşa edilmişdir» *sözləri yazılmışdır.*

*Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.*

*Prezident İlham Əliyev körpünün üzərindən yardımçı yolları və ətraf ərazini seyr etdi, körpünün alt hissəsində müxtəlif istiqamətlərə çəkilmiş yollara, Salamzadə küçəsindəki körpüdə aparılan əsaslı yenidənqurma işlərinə baxdı.*

*Dövlətimizin başçısı körpünün müasir, möhkəm olması, küçələrin, yardımçı yolların genişləndirilməsi və ətraf ərazidə abadlıq işlərinin aparılması barədə müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Mehrabpur şəhəri yaxınlığında sərnişin qatarının qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 dekabr 2007-ci il*

## ƏJDƏRBƏY MƏSCİDİNDƏ VƏ ONUN ƏRAZİSİNDƏ APARILAN TƏMİR-TİKİNTİ, ABADLIQ İŞLƏRİ İLƏ TANIŞLIQ

*20 dekabr 2007-ci il*

*Dekabrın 20-də Azərbaycan prezidenti İlham Əliyev paytaxtın Əjdərbəy məscidində və onun ərazisində aparılan təmir-tikinti və abadlıq işləri ilə tanış olmuşdur.*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə dövlətimizin başçısına məscid barədə məlumat verdi və bildirdi ki, ərazidə işlərə bu ilin aprelindən başlanılmışdır. Təmir-bərpa işlərində müasir texnologiyalardan istifadə olunsa da, məscidin tarixi abidə olması nəzərə alınır və təmir-bərpa işlərindən sonra da ilkin görkəminə uyğun olacaqdır. Məscidin ətrafında daxili həyət inşa olunur. Burada qurbangah, namazgah və yardımçı otaqlar yerləşəcəkdir.*

*Prezident İlham Əliyev məscidin daxilində aparılan işlərlə də maraqlandı. Bildirildi ki, məscidin daxilindəki əsas çilçıraq dəyişdiriləcək, işıqlandırma sistemi müasir üslubda qurulacaqdır. Tavan və divarları Qurani-Kərimin ayələri bəzəyəcəkdir.*

*Prezident İlham Əliyev ətraf ərazini gəzdi, məscidin xarici görünüşünə xüsusi diqqət yetirilməsinin, təmir-bərpa işlərinin yüksək səviyyədə davam etdirilməsinin zəruriliyini söylədi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİBİHEYBƏT ZİYARƏTGAH KOMPLEKSİNDƏ

*20 dekabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Qurban bayramı günü – dekabrın 20-də Bibiheybət ziyarətgah kompleksində olmuşdur.VII əsrin yadigarı, müqəddəs qəbirlərin sayına görə islam dünyasının 3-cü ziyarətgahı sayılan Bibiheybətdə Peyğəmbər nəslinin 4 nümayəndəsi uyuyur. İmam Museyi Kazımın qızı həzrəti Hökümə xanımın məzarı da həmin ziyarətgahdadır. Azərbaycanın say-seçmə övladları ilə yanaşı, maddi-mədəniyyət abidələrimiz, o cümlədən xalqımızın iman və inanc yeri olan Bibiheybət ziyarətgahı da sovet dövründə repressiyaya məruz qalmış, 1934-cü ildə buradakı məscid dağıdılmışdır.*

*Azərbaycanın müasir tarixində müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin prinsipial mövqeyi, iradəsi, milli-mənəvi dəyərlərimizə dərindən bağlılığı sayəsində bu ziyarətgaha yenidən həyat verilmişdir. Ümummilli lider 1994-cü ilin martında Qurban bayramı günündə bu müqəddəs ocağı ziyarət etmiş, 1997-ci il iyulun 23-də, Peyğəmbərin mövludu günündə burada yeni məscid kompleksinin bünövrəsini qoymuşdur. Bir il sonra, yenə də Peyğəmbərin mövludu günündə məscidin əsas korpusunun açılış mərasimində iştirak etmişdir.*

*Heydər Əliyev ideyalarına sadiq qalan və uğurla davam etdirən prezident İlham Əliyevin maddi-mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar sırasında Bibiheybət məscid kompleksinin genişləndirilməsi də əksini tapmışdır. Dövlətimizin başçısı 2005-ci ilin oktyabrında buranı ziyarət edərkən fikirlərini bölüşmüş, tövsiyələrini vermişdir. Hazırda*

*Bibiheybət ziyarətgah kompleksinin inşası sürətlə davam etdirilir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ərazinin relyefinin mürəkkəbliyi nəzərə alınaraq, ziyarətgahın və buradan keçən magistral yolun genişləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Köhnə evlər sahiblərinə yeni mənzillər verilməklə və ya konpensasiya ödənilməklə sökülmüşdür. Tikintinin ümumi sahəsi 1800 kvadratmetrdən çoxdur. Məscidin yaxınlığından keçən magistralın 1,8 kilometri genişləndirilərək, 30–34 metrə çatdırılmışdır. Müsəlmanların digər möhtəşəm ziyarətgahlarında olduğu kimi, bu məsciddə də ilk dəfə muzey və kitabxana zəvvarların ixtiyarına veriləcəkdir. Burada aparılan yenidənqurma tədbirləri ölkəmizdə dini dəyərlərə nə qədər həssaslıqla yanaşılmasının bariz nümunəsidir. Dövlətimizin başçısına məlumat verildi ki, məsciddə eyni vaxtda təxminən 3 min nəfərin namaz qılması mümkündür. Qadınlar və kişilərin ayrılıqda namaz qılmaları üçün müvafiq şərait yaradılmışdır. Namaz qılınacaq yerin döşəməsinin altında xüsusi istilik sistemi quraşdırılmışdır. İnşaat və tərtibat işləri klassik Şərq memarlığı üslubunda yerinə yetirilir.*

*Kompleksdə çoxlu yardımçı otaqlar da tikilmişdir.*

*Hər cür şəraiti olan qurbangah da yaradılmışdır. İndiki Qurban bayramı münasibətilə bu ziyarətgahda kəsilən qurbanlar Bibiheybət qəsəbəsində yaşayan aztəminatlı insanlara və şəhid ailələrinə paylanılmışdır. Kompleksdə yeməkxana, meyitlərin yuyulması üçün xüsusi yer də olacaqdır.*

*Ziyarətgahın axundu Hikmət Əlizadə bildirdi ki, layihəçilər, inşaatçılar bütün işləri yüksək səviyyədə görürlər. Buranın ayrıca qazanxanası, su təchizatı sistemi vardır. Bütün kommunikasiya sistemi mükəmməl şəkildə quraşdırılır.*

*Dövlətimizin başçısına kompleksin üst hissəsində görülən işlər barədə də məlumat verildi. Bildirildi ki, burada geniş meydança olacaq, yay aylarında ziyarətgaha gələnlərin istirahəti üçün hər cür şərait yaradılacaqdır.*

*Prezident İlham Əliyev Xəzərin sahilinin bu hissəsində görüləcək digər işlərdən də danışdı, ziyarətgahda davam etdirilən yenidənqurma tədbirləri barədə tapşırıqlarını verdi, buradan paytaxtın mənzərəsini seyr etdi. Dövlətimizin başçısı burada xatirə şəkli çəkdirdi.*

*Sonra prezident İlham Əliyev həzrəti Hökümənin məzarını ziyarət etdi. Şeyxülislam Allahşükür Paşazadə həzrəti Hökümənin və imamın burada dəfn edilmiş 3 nəvəsinin ruhuna dua oxudu.*

*Prezident İlham Əliyev ziyarətgahda nəzir verdi.*

*Dövlətimizin başçısına məsciddə yüksək zövqlə aparılan tərtibat işləri barədə geniş məlumat verildi. Bildirildi ki, məscidin mərkəzi salonu, foyenin tavanı, divarlar incə naxışlarla bəzədiləcəkdir. Məscidin günbəzində Qurani-Kərimdən surə yazılacaqdır. Ümumiyyətlə, məscidin müxtəlif guşələrində Quranın müxtəlif surələri əksini tapacaqdır.*

*Dindarlar bildirdilər ki, demokratik prinsiplərin, dini etiqad və vicdan azadlığının bərqərar olduğu Azərbaycanda bütün dini ocaqlarda bu cür yüksək səviyyədə yenidənqurma işlərinin aparılması böyük razılıq doğurur. Azərbaycan prezidentinin bu işlərə bilavasitə nəzarət etməsi isə xüsusi rəğbət doğurur.*

*Prezident İlham Əliyev dini ocaqlarda ən müasir standartlara cavab verən əsaslı təmir və yenidənqurma işlərinin bundan sonra da davam etdiriləcəyini vurğuladı, Bibiheybət ziyarətgahında görülən işlərdən razılığını bildirdi, müqəddəs Qurban bayramı münasibətilə ən xoş arzularını çatdırdı.*

# TƏZƏPİR MƏSCİDİNDƏ APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*Bakı*

*20 dekabr 2007-ci il*

*Dekabrın 20-də Azərbaycan prezidenti İlham Əliyev Təzəpir məscidində aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Paytaxtımızın memarlıq simasında özünəməxsus yeri olan Təzəpir məscidində prezident İlham Əliyevin tapşırığı ilə aparılan əsaslı təmir və yenidənqurma işlərinin yarıdan çoxu görülmüşdür. Məscidin yanında yeni kompleks də tikilir. Kompleksə Qafqaz Müsəlmanları İdarəsinin və İslam Universitetinin inzibati binaları, xaricdən gələn ziyarətçilər üçün qonaq evi, geniş konfrans salonu daxildir. Burada qurbangah, yardımçı otaqlar da tikilmişdir.*

*Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, kompleksin tikintisində milli memarlıq üslubuna xüsusi diqqət yetirilir. Kompleksin elektrik, istilik və su təchizatı sisteminin quraşdırılması da son mərhələyə daxil olur.*

*Məscidin özündə isə daxili tərtibat işlərinə başlanmışdır. Bu incə və böyük ustalıq tələb edən işə tanınmış rəssam-bərpaçılar cəlb olunmuşdur. İnteryerdə istifadə olunan rənglər, xüsusilə qızılı rəng xaricdən gətirilmişdir. Təzəpir məscidinin bərpası və genişləndirilməsi dövlətimizin başçısının tariximizin keçmişinə, mənəvi və dini dəyərlərimizə göstərdiyi diqqət və qayğının daha bir əyani nümunəsidir.*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə prezident İlham Əliyevə məlumat verdi ki,*

*məscid yenidən qurularkən onun memarlıq üslubu qorunub saxlanılmışdır.*

*Bildirildi ki, ümumi sahəsi 7600 kvadratmetr olan kompleksin 6 min kvadratmetrində yenidənqurma işləri aparılır. Məscidin fasadı xüsusi özəlliyi ilə seçilən naxışlarla bəzədilmişdir. Oyma naxışlar girişdə daha çoxdur. Burada memarlıq elementləri üstünlük təşkil edir.*

*Daha sonra məscidin interyeri ilə tanış olan prezident İlham Əliyevə burada görülən işlər barədə də məlumat verildi. Günbəzdəki naxışlar diqqəti daha çox cəlb etdi. Quran ayələrinin yazılmasında müxtəlif rəng çalarlarından istifadə edilmişdir. Dövlətimizin başçısı şəbəkədən hazırlanmış pəncərələrə də xüsusi diqqət yetirdi.*

*Prezident İlham Əliyev kompleksə daxil olan binaları gəzdi. Dövlətimizin başçısına məlumat verildi ki, inzibati binalarda işçilərin fəaliyyəti üçün bütün şərait yaradılacaqdır.*

*Daha sonra prezident İlham Əliyev kompleksə daxil olan binanın üst qatından ərazini seyr etdi. Məlumat verildi ki, məscidin günbəzinə qızıl təbəqə çəkilmişdir. Ümumiyyətlə isə məsciddə 320 kvadratmetr sahə qızıl təbəqə ilə işlənmişdir.*

*Dövlətimizin başçısı konfrans, ehsan salonları ilə də tanış oldu, məscidin ətrafında abadlıq işlərinin aparılması ilə bağlı tapşırıqlarını verdi.*

*Bildirildi ki, dini ayinlər zamanı insanların təhlükəsizliyinin təmin olunması məqsədi ilə yenidənqurma işləri başa çatdıqdan sonra Tolstoy küçəsinin məscidin yanından keçən hissəsi avtomobillərin hərəkəti üçün bağlanacaqdır.*

*Prezident İlham Əliyev burada işlərin gedişindən razılığını bildirdi və keyfiyyət məsələlərinə bundan sonra da xüsusi diqqət yetirməyi tövsiyə etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV «PEYK» ZAVODUNUN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*Bakı*

*21 dekabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Müdafiə Sənayesi Nazirliyinin Müdafiə, Kəşfiyyat, Naviqasiya və Rabitə Sistemləri İstehsalat Birliyinin əsaslı yenidənqurmadan sonra istifadəyə verilən «Peyk» zavodunun açılış mərasimində iştirak etmişdir.*

*Ulu öndər Heydər Əliyev Bakıda bu cür istehsal sahələrinin yaradılmasına böyük diqqət yetirirdi. Hələ SSRİ vaxtında tikintisinə başlanmış zavod 1993-cü ilin sentyabrında istifadəyə verilmiş, ümummilli lider onun açılışında iştirak etmişdi.*

*2006-cı ilin martından zavod Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyindədir. Ötən müddətdə dövlətimizin başçısının tapşırığına əsasən dünyanın aparıcı şirkətlərinin yaxından iştirakı ilə tamamilə yenidən qurulmuş müəssisə hərbi və mülki təyinatlı məhsul – çap lövhələri buraxır. İllik gücü 80 min kvadratmetr olan zavodda bütün istehsal prosesi avtomatlaşdırılmışdır. Müəssisəyə xammal Belçika, Hollandiya və başqa ölkələrdən gətirilir.*

*Prezident İlham Əliyev əvvəlcə ulu öndər Heydər Əliyevin büstünü ziyarət etdi. Sonra dövlətimizin başçısı müəssisənin yenidənqurmadan əvvəlki və indiki vəziyyətini və ulu öndərin 1993-cü ildə müəssisənin açılışında iştirakını əks etdirən fotoguşəyə və qısa filmə baxdı.*

*Prezident İlham Əliyev zavodun rəmzi açılışını bildirən lenti kəsdi, istehsal prosesi ilə tanış oldu.*

*Müdafiə Sənayesi naziri Yavər Camalov məlumat verərək dedi ki, zavodda ABŞ, Almaniya, Fransa, İtaliya və digər ölkələrdən alınmış və ən son elmi-texniki nailiyyətlər əsasında yaradılmış avadanlıq quraşdırılmışdır. Artıq Hollandiya, Türkiyə, İsrail, İsveç və başqa ölkələrdən sifarişlər daxil olmuşdur. Məhsullar yüksək keyfiyyətli olduğundan sifarişlər artır. Ayda 20–30 min kvadratmetr çap lövhəsi istehsal ediləcəkdir. Hazırda dünyada ildə 500 milyard dollarlıq çap lövhəsi hazırlanır, bunun təqribən 75 faizi Şərqi Asiya ölkələrinin payına düşür. Tələbat isə hər il orta hesabla 10 faiz artır. Rəqabətə davamlı məhsul istehsal etməyi qarşısına məqsəd qoyan müəssisə dünya, o cümlədən Avropa bazarında layiqli yerini tutmaq əzmindədir. Hazırda zavodda 100 nəfər çalışır, 2008-ci ildə işçilərin sayını 250 nəfərə çatdırmaq nəzərdə tutulmuşdur.*

*Zavodla yaxından tanış olan prezident İlham Əliyev qeyri-neft sektorunu köklü şəkildə inkişaf etdirməyi prioritet məqsəd kimi qarşıya qoyan Azərbaycanda müasir texnologiyaların tətbiq olunduğu müəssisələrin yaradılması üçün tədbirlərin daha da genişləndiriləcəyini bildirdi.*

**İlham Əliyev:** Əgər biz Müdafiə Sənayesi Nazirliyini yaratmasaydıq, bu zavod da olmayacaqdı. Bu həm də dünyadakı yüksək texnologiya və istehsalatdır. Biz buna doğru gedirik, iqtisadiyyatımızı bu istiqamətdə inkişaf etdiririk. Əlbəttə, bu həm də yeni iş yeridir. Müəssisə gəlirlə işləyəcək, vəsaitləri yeni istehsal sahələrinə qoyacaqsınız. Eyni zamanda, dövlət tərəfindən də vəsait ayrılır. Burada intellektual məhsul istehsal edilir. Bu çox vacibdir.

Bəzi hallarda Azərbaycanda istehsal olunan məhsullar alınmır, xaricdən gətirirlər. Burada isə yüksək keyfiyyətə, texnologiyaya malik məhsul istehsal olunur. Bütün yerli qurumlar buradan almalıdır. Əlbəttə, siz də təbliğat, reklam işi təşkil edin, hamı bilsin ki, Azərbaycanda nələr istehsal olunur.

**Y a v ə r C a m a l o v :** Cənab Prezident, bütün kollektivimiz adından Sizə minnətdarlığımı bildirirəm ki, bizi dəstəklədiniz, belə şərait yaratdınız və bu zavodu bərpa etdik. Bu, bilavasitə Sizin sayənizdə mümkün olmuşdur.

**İ l h a m Ə l i y e v:** Bu sizin bərpa etdiyiniz birinci zavod deyil.

**Y a v ə r C a m a l o v:** Bəli, dörd zavod bərpa etmişik. İnşallah, hər biri ilə tanış olacaqsınız.

**İ l h a m Ə l i y e v:** 2008–2009-cu illərdə bu sahəyə böyük investisiyalar qoyulacaqdır. Azərbaycanda həm müdafiə sənayesi, həm də belə yüksək texnoloji prinsiplərə əsaslanmış müəssisələr yaradılmalıdır. Bu, gələcək üçündür. İndi bizim yaxşı imkanlarımız var, təbii sərvətlərimiz var, sənaye istehsalı var. Amma bu müəssisə məni xüsusilə sevindirir, yüksək texnologiyaya əsaslanan intellektual istehsalatdır və Azərbaycanı gələcəyə aparan yoldur. Sizə bu işdə uğurlar arzulayıram. Mən heç təsəvvür etmirdim ki, bu qısa müddət ərzində yüksək dünya standartlarına uyğun belə gözəl sənaye obyekti yaradılacaqdır. Artıq sizin istehsal etdiyiniz məhsula Avropada maraq var. Bölgədə, MDB məkanında bu zavodun analoqu yoxdur. Çox sevindirici haldır. Sizə uğurlar arzulayıram. Sağ olun.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV «İQLİM» ELM-İSTEHSALAT MÜƏSSİSƏSİNDƏ OLMUŞDUR

*21 dekabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Bakıda «İqlim» elm-istehsalat müəssisəsində olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə ulu öndərin büstü önünə gül dəstəsi qoydu, Heydər Əliyev muzeyinə baxdı. Muzeydə müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin həyat və fəaliyyətinin ən müxtəlif dövrlərini əks etdirən çoxsaylı fotoşəkillər nümayiş etdirilir. Onların arasında ümummilli liderin xüsusi əhəmiyyət verdiyi ordu quruculuğu ilə bağlı fotolar da diqqəti cəlb edir.*

*Burada prezident İlham Əliyevin fəaliyyətini əks etdirən fotolar da toplanmışdır.*

*Muzeylə tanışlıqdan sonra dövlətimizin başçısı müəssisəni gəzdi. Prezidentə məlumat verildi ki, müəssisə ən yüksək standartlar səviyyəsində yenidən qurulmuş, bütün istehsal sahələri müasirləşdirilmişdir.*

*Azərbaycan prezidenti müəssisənin əvvəlki və indiki vəziyyətini əks etdirən slaydlara baxdı, ayrı-ayrı istehsal sahələri ilə tanış oldu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HACIQABUL–KÜRDƏMİR AVTOMOBİL YOLUNUN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

*24 dekabr 2007-ci il*

*Dekabrın 24-də Bakı–Ələt–Qazax əsas avtomobil magistralı üzərində yerləşən 85 kilometrlik Hacıqabul–Kürdəmir avtomobil yolunun 75 kilometrlik hissəsinin təntənəli açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı inşaatçılar böyük ehtiramla, hərarətli alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev yolun əsas iqtisadi göstəriciləri ilə tanış oldu.*

*Doğum günü münasibətilə prezident İlham Əliyevi təbrik edən Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, Bakı–Ələt–Qazax avtomobil yolunun mühüm hissəsini təşkil edən Hacıqabul–Kürdəmir yolunun tikintisi dövlət büdcəsi vəsaiti və Avropa Yenidənqurma və İnkişaf Bankının krediti hesabına maliyyələşdirilmişdir. Yolun yenidən qurulması ilə bağlı elan olunmuş müsabiqədə İtaliyanın «Todini Konstrakşn» şirkəti və yerli «Azərinşaatservis» Məhdud Məsuliyyətli Cəmiyyət qalib gəlmişdir. 2005-ci ilin mayın 16-da isə yolun tikintisinə başlanmışdır. Böyük İpək Yolunun bir hissəsini təşkil edən bu yolun ümumi uzunluğu 85 kilometrdir. Layihəyə hazırda fəaliyyətdə olan yolun 75 kilometrlik hissəsinin yenidən qurulması, Kürdəmir rayonu ərazisində 10 kilometrlik yeni yolun, eləcə də Kürdəmir dairəvi avtomobil yolunun tikintisi daxildir. Ümumi dəyəri 97,16*

*milyon ABŞ dolları olan layihə çərçivəsində Padar çayı üzərində iki körpü, habelə 4 mal-qara keçidi tikilmiş, yerüstü suların axınını təmin edəcək 165 ədəd boru çəkilmişdir. Körpülərin ümumi uzunluğu 72,25 metr, eni isə 33,40 metrdir. İstifadəyə verilmiş avtomobil yolunun birinci dərəcəli hissəsinin uzunluğu 5,7 kilometr, eni 27,5 metrdir. Yolun qalan, ikinci dərəcəli hissəsinin uzunluğu 78,2 kilometr, eni 15 metrdir. Yolun tikintisi zamanı 1,73 milyon kubmetr torpaq və 490 min ton asfalt işləri görülmüşdür. Tikinti işlərində 623 yerli, 16 xarici mütəxəssis çalışmışdır.*

*Azərbaycan prezidenti yolun tikintisini və işin gedişatını əks etdirən fotoşəkillərlə tanış oldu.*

*Bildirildi ki, istifadəyə verilmiş yol Bakı–Ələt–Qazax–Gürcüstan dövlət sərhədinədək olan 503 kilometrlik magistral avtomobil yolunun 14,9 faizini təşkil edir. Gürcüstan sərhədinə qədər əsas magistral yolun tam tikintisi üçün artıq maliyyə imkanları tapılmışdır və yol 2010-cu ildə istifadəyə veriləcəkdir. Ümumi layihə əsasında hissə-hissə Kürdəmir–Ucar, Ucar–Yevlax və Yevlax–Gəncə avtomobil yollarının tikintisi nəzərdə tutulmuşdur. Bundan başqa, Kürdəmirdən Yevlaxadək əlavə 2 zolaqlı yeni yol da çəkiləcəkdir.*

*Azərbaycanda yol infrastrukturunun yenidən qurulması Almaniya, İtaliya, Çexiya, Türkiyə, Koreya və digər dövlətlərin aparıcı yol tikintisi şirkətlərinin diqqət mərkəzindədir və onlar Nəqliyyat Nazirliyinin təşkil etdiyi müsabiqələrdə iştirak edirlər. Bakıdan Kürdəmirədək yol genişləndiriləcək və onun kənarlarında qalvanik təhlükəsizlik sədləri qoyulacaqdır.*

**İlham Əliyev:** Təkcə bu yol tikilmir, Bakı–Rusiya, Bakı–İran sərhədlərinə qədər yollarda da tikinti başlanmışdır.

**Ziya Məmmədov:** Bəli, bütün istiqamətlərdə – həm şimalda, həm də cənubda. Eyni zamanda, Şamaxı istiqamətində də yenidənqurma işləri gedir. Bütün bu layihələrin həyata keçirilməsində xarici kreditlərlə bərabər, Azərbaycan hökumətinin də payı vardır.

**İ l h a m  Ə l i y e v:** Bəli, bu, əvvəldən belə nəzərdə tutulmuşdu. Amma bundan başqa, biz əlavə vəsaitin ayrılması üçün də müvafiq göstərişlər vermişik.

**C a v i d  Q u r b a n o v:** Bu yolun tikintisinə Azərbaycan hökuməti 50 milyon manat vəsait qoymuşdur. Qalan vəsaiti isə Avropa İnkişaf və Yenidənqurma Bankı kredit vermişdir.

**Z i y a  M ə m m ə d o v:** Cənab Prezident, həqiqətən də Sizin şəxsi təşəbbüsünüz, dəstəyiniz və tapşırıqlarınız olmasaydı, bu yollar belə sürətlə inşa edilə bilməzdi. Çünki beynəlxalq kredit təşkilatları ilə danışıqlar gec baş tutur, müəyyən prosedur qaydaları gec həyata keçirilir. Bir layihəni işləyib başa çatdırmaq üçün iki il vaxt gedir.

**İ l h a m  Ə l i y e v:** Həm danışıqlar, həm də daxili prosedurlar orada çox mürəkkəbdir. Ona görə, əlbəttə, həm beynəlxalq maliyyə qurumlarının imkanlarından, həm də öz imkanlarımızdan, artan maliyyə resurslarımızdan istifadə edəcəyik.

* * *

*Sonra prezident İlham Əliyev rəmzi açılışı bildirən qırmızı lenti kəsdi.*

*Dövlətimizin başçısına xatirə hədiyyələri təqdim olundu.*

*Prezident İlham Əliyev avtomobilin sükanı arxasına əyləşərək hərəkətin təhlükəsizliyinə, nəqliyyatın normal hərəkətinə hərtərəfli imkan yaradan, tarixi İpək Yolunun bir hissəsi olan yeni yolun keyfiyyətini yoxladı.*

*Dövlətimizin başçısı inşaatçıları təbrik etdi, görülən işləri yüksək qiymətləndirərək dedi ki, Azərbaycanın bütün yolları belə olmalıdır. Bundan sonra daha da böyük işlər görüləcəkdir. Ölkəmizin bütün yolları belə gözəl, rahat olmalıdır. Bu isə son illər ərzində tikilən yollardan ən yüksək keyfiyyətlisidir.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ƏLİ BAYRAMLI ŞƏHƏRİNƏ SƏFƏRİ

*Əli Bayramlı*

*24 dekabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 24-də Əli Bayramlı şəhərində olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə Əli Bayramlı Müalicə-Diaqnostika Mərkəzinin təntənəli açılış mərasimində iştirak etmişdir.*

*Mərkəzin qarşısına toplaşan minlərlə sakin prezident İlham Əliyevi, xanımı Mehriban Əliyevanı və qızı Leyla Əliyevanı böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar.*

*Prezident İlham Əliyev mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Səhiyyə naziri Oqtay Şirəliyev və Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev məlumat verdilər ki, təməli 2006-cı ilin martında prezident İlham Əliyevin iştirakı ilə qoyulmuş üçmərtəbəli mərkəzdə Yaponiya, Almaniya, Türkiyə və Rusiya istehsalı olan ən müasir avadanlıq quraşdırılmışdır.*

*ARDNŞ-in vəsaiti hesabına təxminən il yarıma tikilən mərkəzin stasionar şöbəsi 20, reanimasiya şöbəsi isə 6 çarpayılıqdır.*

*Yeni müalicə ocağında poliklinika, qəbul və şüa diaqnostikası, rentgen, cərrahiyyə, anesteziologiya və reanimasiya şöbələri, dializ, intensiv terapiya bölmələri, eləcə də əməliyyat və sterilizasiya bloku yerləşir.*

*Prezident İlham Əliyev ayrı-ayrı mərtəbələrdə yerləşən şöbələrlə tanış oldu, eləcə də həkim, kompyuter tomoqrafiyası, əməliyyat otaqlarına baxdı, tibbi avadanlığın iş prinsipləri ilə maraqlandı. Bildirildi ki, burada ən müasir avadanlıq vasitəsilə*

*müxtəlif xəstəliklərin müalicəsi və müayinəsi üçün hər bir şərait yaradılmışdır. Mərkəzdə 250 nəfər işçi çalışır.*

*Sonra mərkəzin açılışına həsr edilmiş mərasim oldu.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gün bu gözəl Müalicə-Diaqnostika Mərkəzinin açılışı münasibətilə təbrik edirəm.

Təxminən il yarım bundan əvvəl biz bu gözəl binanın təməl daşını birlikdə qoyduq və bu gün onun açılışında iştirak edirik. Çox şadam ki, qısa müddət ərzində Əli Bayramlıda çox gözəl və müasir tibb ocağı yaradılmışdır. Mən indi mərkəzlə tanış oldum və gördüm ki, burada ən yüksək səviyyəli avadanlıq quraşdırılıb, bu bina çox yüksək keyfiyyətlə tikilibdir. Yüksək səviyyəli tibbi xidmət almaq üçün burada hər bir şərait var. Bu onu göstərir ki, bizim sosial siyasətimiz öz bəhrəsini verməkdədir. Bütün bölgələrdə belə gözəl diaqnostika və müalicə mərkəzləri tikilir ki, bizim insanlarımız ən yüksək səviyyəli tibbi xidmət ala bilsinlər. Bu bina həm memarlıq baxımından çox gözəldir, həm də daxili, dizaynı da çox müasirdir. Ən mühümü isə ondan ibarətdir ki, burada ən müasir avadanlıq quraşdırılıbdır. Dünyada hansı ən gözəl avadanlıq varsa, onlar burada quraşdırılıbdır. Bu bizim siyasətimizdir. Biz istəyirik ki, Azərbaycanda bütün infrastruktur, tətbiq olunan, gətirilən və insanlara xidmət edən bütün avadanlıq ən yüksək keyfiyyətə malik olsun.

İndi Azərbaycanın müxtəlif yerlərində 10-dan çox belə gözəl binalar, xəstəxanalar tikilir. Dövlət Neft Şirkətinin xətti ilə tikilən birinci xəstəxana Lənkəranda istifadəyə verilmişdir. Sonra Naxçıvanda, bu gün isə Əli Bayramlıda. Birinci mərhələdə ən azı, 10 şəhər və rayonda buna oxşar gözəl tibb

ocaqları tikiləcəkdir. Ondan sonra isə hər bir rayonda belə mərkəzlər tikilməlidir.

Bununla bərabər, Səhiyyə Nazirliyinin xətti ilə Azərbaycanın müxtəlif bölgələrində, Bakıda və rayonlarda yeni, gözəl xəstəxanalar, poliklinikalar tikilir. Köhnə, yararsız vəziyyətdə olan xəstəxanalar təmir olunur. Bu məqsədlərə böyük vəsait ayrılır və Azərbaycanın dövlət büdcəsində səhiyyə xərclərinə çox böyük diqqət göstərilir. Müqayisə üçün deyə bilərəm ki, 5 il bundan əvvəl Azərbaycanda səhiyyə xərcləri 56 milyon dollar səviyyəsində idi, gələn il isə bu, 411 milyon dollar səviyyəsində olacaqdır. Bu vəsait həm bu sahədə çalışanların əmək haqlarının artırılmasına, həm də yeni xəstəxanaların tikintisinə sərf edilir.

Biz çox geniş proqram üzərində işləyirik və istəyirəm ki, Azərbaycanda tibbi xidmət ən yüksək səviyyədə olsun. Bu, sosial siyasətin vacib əlamətidir. Azərbaycanda sosial proqramların icrası çox uğurla gedir. Qısa müddət ərzində insanların həyat səviyyəsinin yaxşılaşması üçün lazımi tədbirlər görülübdür. Əməkhaqları, pensiyalar artırılır və gələn il də artırılacaqdır. Yanvarın 1-dən minimum pensiya və minimum əməkhaqqı yenə də qaldırılacaqdır. Sonra, ilin ortasında da biz bunu nəzərdə tutmuşuq. Bir sözlə, Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşamalıdır. Bunun üçün iqtisadi şərait yaradılır və büdcədən maliyyələşən təşkilatlarda işləyən insanların əməkhaqları artırılır və artırılacaqdır.

Səhiyyə sahəsinə indi böyük investisiyalar qoyulur. Bakıda bir neçə böyük xəstəxana tikilir, yaxud da əsaslı təmir olunur. Klinik xəstəxana, göz xəstəxanası tikilir, onkoloji xəstəxana tikilir, Azərbaycan Dövlət Tibb Universitetinin Terapevtik klinikası tikilir. Böyrəkköçürmə mərkəzinin yaradılması haqqında mənim tərəfimdən bu yaxınlarda sərəncam verilmişdir. Doğum evləri, bir sözlə, tibb infrastrukturunun inkişafı üçün biz bundan sonra da əməli-praktik işlər görəcəyik.

O ki qaldı digər sosial məsələlərin həllinə, bu sahədə də irəliləyiş var. 200 mindən artıq insan ünvanlı sosial yardım alır,

dediyim kimi, pensiyalar və əməkhaqları artırılır. Gələcəkdə bizim iqtisadi imkanlarımız artdıqca, əlbəttə ki, bu sahəyə daha da böyük diqqət göstəriləcəkdir. Bizim bütün uğurlarımızın təməlində Azərbaycanda aparılan siyasi və iqtisadi islahatlar dayanır. Əgər biz sürətli iqtisadi artıma nail olmasaydıq, indi büdcəmiz də bu qədər böyük olmazdı. Deyə bilərəm ki, son 5 il ərzində Azərbaycanın dövlət büdcəsi, büdcə xərcləri 10 dəfə artıbdır. Bu bəlkə də dünyada analoqu olmayan bir nəticədir. Qısa müddət ərzində biz bütün imkanlarımızı səfərbər etmişik. Azərbaycanda liberal islahatlar, həm siyasi, həm də iqtisadi islahatlar sayəsində, iqtisadiyyatımızın liberallaşması nəticəsində özəl sektorun inkişaf etməsi və dövlət siyasətinin düzgün istiqamətdə aparılması nəticəsində biz buna nail ola bilmişik.

2003-cü ilin dövlət büdcəsi 1 milyard dollardan bir qədər çox idi, 2008-ci ilin icmal büdcəsi isə 12 milyard dollar səviyyəsindədir. Bu nəinki bölgədə, hətta dünya miqyasında adambaşına düşən büdcə xərclərinin həcminə görə çox yüksək nəticə hesab olunur. Əlbəttə ki, bu hələ son hədd deyil, biz növbəti illərdə büdcəmizin daha da böyüməsi üçün bütün imkanlardan istifadə edəcəyik. Azərbaycanın artan iqtisadi gücü, əlbəttə, sosial məsələlərin həllində də öz əksini tapır, belə gözəl xəstəxanalar tikilir. Bu gün səhər mən Hacıqabul–Kürdəmir avtomobil yolunun açılışında iştirak etdim. Azərbaycanda bütün istiqamətlərdə yeni magistral yollar, şəhərlərarası yollar salınır. Bakı şəhərində, digər şəhərlərdə nəqliyyat infrastrukturuna böyük vəsait qoyulur. Son 4 il ərzində 1200 məktəb tikilibdir. Bu gün Əli Bayramlıda vaxtilə qəza vəziyyətində olan məktəbin açılışında iştirak edəcəyəm. Bu onu göstərir ki, bizim iqtisadi imkanlarımız və potensialımız Azərbaycanın hərtərəfli inkişafına yönəldilmişdir. İqtisadi, siyasi islahatlar, müvafiq sahələr üzrə dövlət proqramlarının, o cümlədən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icrası ölkəmizin hərtərəfli inkişafına gözəl şərait yaradır.

Biz artıq 4 ildir ki, regionların inkişafı üçün proqramı icra edirik və deyə bilərəm ki, bu illər ərzində onun əsas məqsədlərinə artıq nail olunubdur. Onu da deyə bilərəm ki, biz 2004-cü ilin fevralında regionların inkişafına dair proqramı qəbul edəndə orada, əlbəttə ki, ölkəmizin inkişafı üçün lazım olan bütün tədbirləri nəzərdə tuta bilmirdik. Hətta bu gözəl xəstəxana da o proqrama daxil deyildi.

Bu gün təməlini qoyacağımız Əli Bayramlı elektrik stansiyasının tikintisi də o proqramda nəzərdə tutulmurdu. Yəni proqramdan əlavə çox böyük, vacib qərarlar və böyük investisiya layihələri qəbul edilibdir. Ancaq bununla bərabər, proqramın icrasında müəyyən yubanmalar da var. Biz onu da bilirik və bu məsələlərin aradan qaldırılması üçün lazımi tədbirləri görürük. Bir sözlə, bu 4 il ərzində Azərbaycanda regionların inkişafı təmin olundu. İqtisadiyyatımızın şaxələndirilməsi təmin olundu, özəl sektorun inkişafı təmin olundu. Bu gün Azərbaycan iqtisadiyyatında özəl sektorun xüsusi çəkisi 80 faizdən çoxdur.

Bu illər ərzində Azərbaycanda yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşmüşdür. Əminəm ki, 2007-ci ilin yekunlarına görə – indi bu məlumatlar hesablanır – Azərbaycanda yoxsulluğun səviyyəsi daha da aşağı düşəcəkdir. Azərbaycanda son 4 il ərzində 600 mindən çox yeni iş yeri açılmışdır ki, onlardan 450 mini daimi iş yerləridir. Demək olar ki, biz bu sahədə beşillik proqramımızı 4 ildə yerinə yetirə bilmişik. Hər açılan iş yeri həm məşğulluqdur, həm də ölkə iqtisadiyyatına töhfədir. Bizim iqtisadiyyatımız dünyada görünməmiş sürətlə artır. Keçən il 35 faiz, ondan əvvəlki ildə 26 faiz artmışdır, bu il təxminən 25–30 faiz həddində gözlənilir. Deyə bilərəm ki, bu, heç bir başqa ölkədə heç vaxt müşahidə olunmamış bir nəticədir. Biz bu gün bunun nəticəsini görürük. Azərbaycanın möhkəmlənməsində, hərtərəfli inkişafında iqtisadi və siyasi gücümüzün artmasında, dünyadakı mövqelərin möhkəmlənməsində və ilk növbədə, insanların daha da yaxşı yaşamasında görürük.

Bu sahədə daha da çox işlər görülməlidir. Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Deyə bilərəm ki, biz qəbul edilmiş proqramların icrasının təxminən ortasındayıq. Növbəti illərdə daha da fəal işləməliyik ki, Azərbaycanda yoxsulluq, işsizlik tamamilə aradan qaldırılsın. Yeni zavodlar, fabriklər daha da sürətlə işə başlasın, Azərbaycanın hərtərəfli və dayanıqlı davamlı inkişafı təmin olunsun. Bunu etmək üçün bizim bütün imkanlarımız var: ilk növbədə, Azərbaycanda hökm sürən ictimai-siyasi sabitlik, xalqla iqtidar arasındakı birlik, beynəlxalq mövqelərimizin möhkəmlənməsi, güclü enerji siyasətimiz, regionların inkişafı, sosial infrastrukturun möhkəmlənməsi, sahibkarlığın inkişafı və Azərbaycanda böyük şirkətlərin yaranması. Biz sahibkarlıqla məşğul olmaq istəyənlər üçün də gözəl şərait yaradırıq, onların işini asanlaşdırırıq. İndi bizneslə məşğul olmaq üçün bir ay vaxt sərf etmək lazım olmayacaq. Bizneslə məşğul olmaq istəyənlər «bir pəncərə prinsipi» əsasında cəmi bir neçə günə öz işinə başlaya bilərlər. Dövlət tərəfindən isə bu sahədə çalışanlara bundan sonra da yardımlar göstəriləcəkdir.

Gələn il də özəl sektora ayrılacaq kreditlərin məbləği təxminən 100 milyon dollar səviyyəsində olacaq. Bu il də belə idi, əvvəlki ildə də belə idi. Bu məbləğin verilməsi ilə, əlbəttə, bölgələrdə yeni iş yerləri açılır. Bütün zavodlar, fabriklər, bölgələrdə bütün sənaye müəssisələri özəl sektor tərəfindən yaradılır, dövlət tərəfindən yaradılmır.

Dövlət şərait yaradır. Kreditləri ayırır, iqtisadiyyatı liberallaşdırır, yollar çəkir, elektrik stansiyaları tikir, su xətləri, qaz xətləri çəkir ki, infrastruktur yaradılsın. Bu infrastrukturun mövcudluğu, əlbəttə, özəl sektorun inkişafına təkan verəcəkdir. Son iki il ərzində Azərbaycanda 5 elektrik stansiyası istismara verilibdir və bu gün «Cənub» elektrik stansiyasının təməli qoyulacaqdır. Əminəm ki, iki il yarım ərzində biz bu stansiyanın istismara verilməsinə nail olacağıq və bütün bu bölgə elektrik enerjisi ilə daha da böyük həcmdə təmin ediləcəkdir.

2007-ci il artıq başa çatır. 2007-ci ilin nəticələri sevindiricidir. Bir daha demək istəyirəm ki, Azərbaycan bu il ərzində öz mövqelərini daha da möhkəmləndirdi, bölgədə gedən proseslərə öz təsirini gücləndirdi. Biz bölgə üçün, ölkəmiz üçün lazım olan böyük layihələrin başlanmasına nail ola bilmişik. Bu il Bakı–Tbilisi–Ərzurum qaz kəməri istismara verilibdir və Azərbaycan Avropa üçün, Avropanın enerji təhlükəsizliyinin təmin olunması üçün çox önəmli və deyə bilərəm ki, əvəzolunmaz ölkəyə çevrilibdir. Əlbəttə ki, bu bizim həm iqtisadi, həm siyasi dayaqlarımızı yüksək dərəcədə möhkəmləndirəcəkdir. Bu il uzun illər ərzində layihəsini reallaşdırmağa çalışdığımız Bakı–Tbilisi–Qars dəmir yolunun təməl daşı qoyulubdur. Bunun çox böyük tarixi əhəmiyyəti var. Bu, Azərbaycanı Türkiyə ilə, Avropa ilə birləşdirir. Orta Asiyanı Azərbaycan vasitəsilə Avropa ilə birləşdirir. Bunun həm böyük siyasi, iqtisadi və həm də regional əhəmiyyəti var. Azərbaycan bu işlərdə öz müsbət rolunu oynamışdır, həm siyasi addımlarla, həm iqtisadi imkanın yaradılması, maliyyə resurslarının ayrılması ilə buna nail olmuşuq. Ümid edirəm ki, qısa müddət ərzində bu yol istismara veriləcək və bölgəyə yeni nəfəs gətirəcəkdir.

Deyə bilərəm ki, 2007-ci ildə biz qarşıda duran vəzifələri icra etmişik. Elə məsələ yoxdur ki, biz onu icra edə bilməmişik. Biz bunu Azərbaycan xalqı ilə birlikdə, xalqla iqtidar arasında olan birlik sayəsində etmişik. Azərbaycanın uğurlu inkişafı bundan sonra da təmin olunacaqdır. Bildiyiniz kimi, mən bölgələrə tez-tez gedir, vəziyyətlə tanış oluram. İstəyirəm ki, Azərbaycan bölgələri daha da sürətlə inkişaf etsin. Bölgələrdə bütün lazımi infrastruktur, sosial-iqtisadi, sənaye infrastrukturu yaradılmalıdır, müəssisələr işləməlidir, insanlar işlə təmin olunmalıdırlar, abadlıq-quruculuq işləri aparılmalıdır, məktəblər, xəstəxanalar, yəni insanın həyatı üçün bütün şərait olmalıdır və özü də ən yüksək səviyyədə. Azərbaycanda tikilən xəstəxanalar bu xəstəxana kimi olmalıdır, tikilən məktəblər yüksək standartlara cavab verməlidir. Azərbaycan xalqı buna

layiqdir. Mən çox sevinirəm ki, ölkəmizin inkişafı həm daxildə gedən prosesləri gücləndirir, həm də Azərbaycanı dünya çapında çox önəmli ölkəyə çevirir. Bizim böyük imkanlarımız var, təbii sərvətlərimiz, gözəl coğrafi vəziyyətimiz, istedadlı xalqımız, siyasi iradə – bütün bu amillər Azərbaycanı gözəl gələcəyə aparacaqdır.

Eyni zamanda, biz indi yeni il ərəfəsindəyik. Dünya azərbaycanlılarının həmrəyliyi günü ərəfəsindəyik. Bu sahədə də biz böyük işlər görürük. Azərbaycan dövləti dünyada yaşayan bütün azərbaycanlıları birləşdirmək üçün lazımi tədbirləri görür. Bakıda keçirilən dünya azərbaycanlılarının qurultayları, digər mühüm tədbirlər, o cümlədən xaricdə keçirilən tədbirlər bütün azərbaycanlıları birləşdirir.

Əziz dostlar, əziz bacılar və qardaşlar, mən qarşıdan gələn bütün bayramlar münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm. Arzu edirəm ki, 2008-ci il də Azərbaycan xalqı üçün uğurlu olsun, ölkəmiz inkişaf etsin, çiçəklənsin. Sağ olun.

## MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN «TELEMEXANİKA» ZAVODUNDA GÖRÜŞ

*24 dekabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 24-də Müdafiə Sənayesi Nazirliyinin Əli Bayramlıda yerləşən «Telemexanika» zavodunda olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə ulu öndər Heydər Əliyevin zavodun həyatindəki büstü önünə gül dəstələri qoydular.*

*Sonra dövlətimizin başçısı zavodda yaradılmış Heydər Əliyev muzeyinə baxdı. Muzeydə ümummilli liderin həyat və fəaliyyətinin müxtəlif dövrlərini, xüsusilə ordu quruculuğuna göstərdiyi diqqət və qayğını əks etdirən, həmçinin prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı maraqlı fotoşəkillər toplanmışdır.*

*Prezident İlham Əliyev muzeyin Xatirə kitabına ürək sözlərini yazdı:*

«Azərbaycan müdafiə sənayesinin yaradılması üçün lazımi tədbirlər görülür. Qısa müddətdə ölkəmizin hərbi gücünü artıran müəssisələr yaradılır. 1970–80-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə müasir müdafiə sənayesinin sənaye bazası yaradılmışdır. O illərdə tikilən hərbi zavodlar indi təmir olunur, yenidən qurulur və işğal altında olan torpaqlarımızı erməni qəsbkarlarından azad etmək üçün lazımi şərait yaradılır.

Azərbaycan hərbi sənayesinə yeni uğurlar arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

24.12.2007-ci il».

*Sonra dövlətimizin başçısı zavodun dünəni və bu gününü əks etdirən filmə baxdı.*

*Məlumat verildi ki, tamamilə yenidən qurulmuş zavod ən müasir texnoloji avadanlıqla təmin edilmişdir.*

## ƏLİ BAYRAMLIDA YAĞ EMALI ZAVODUNUN AÇILIŞ MƏRASİMİ

*Əli Bayramlı*

*24 dekabr 2007-ci il*

*Dekabrın 24-də Əli Bayramlıda MKT–İstehsalat Kommersiya Məhdud Məsuliyyətli Cəmiyyətinin yağ emalı zavodu istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev bu münasibətlə təşkil olunmuş mərasimdə iştirak etmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanı zavodun kollektivi böyük hörmət və ehtiramla qarşıladı, onlara gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev müəssisənin rəmzi işə düşməsini bildirən düyməni basdı.*

*Dövlət başçısına məlumat verildi ki, burada əsasən pambıq çiyidindən marqarin yağı istehsal olunur. İldə 80 min ton çiyiddən 14 min ton yağ alınır. Məhsul əsasən Orta Asiya ölkələrinə ixrac olunur. Yerli xammaldan istifadə olunduğundan hazır məhsulun qiyməti də münasibdir. Müəssisəyə 6,4 milyon manat sərmayə qoyulmuşdur. Burada Türkiyə və Almaniyadan alınmış müasir avadanlıq quraşdırılmışdır. Hazırda zavodda 246 nəfər işləyir, orta aylıq əməkhaqqı 300–400 manatdır.*

*Prezident İlham Əliyev istehsal prosesi ilə tanış oldu, hazır məhsulun çeşidinə baxdı.*

*Dövlətimizin başçısı görülən işləri yüksək qiymətləndirərək, bu cür müəssisələrə ehtiyac duyulduğunu, ölkədə sahibkarlığın dinamik inkişaf etdiyini bildirdi, özəl sektorun inkişafına gələcəkdə də diqqət göstəriləcəyini söylədi.*

*Prezident İlham Əliyevə xatirə olaraq üzərində ulu öndərin 70-ci illərdə pambıq tarlasında çəkilmilş şəkli əsasında toxunmuş xalça hədiyyə edildi.*

## **ƏLİ BAYRAMLI ŞƏHƏRİNİN ÇILPAQLI QƏSƏBƏSİNDƏKİ YENİ ORTA MƏKTƏBLƏ TANIŞLIQ**

*24 dekabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 24-də Əli Bayramlı şəhərinin Çılpaqlı qəsəbəsindəki Arif Hüseynzadə adına 4 nömrəli orta məktəbdə olmuşdur.*

*Azərbaycan prezidenti və ailə üzvləri məktəbə gələrkən yolüstü Əli Bayramlı şəhərinin mərkəzi meydanında ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək gül qoymuşlar.*

*Pedaqoji kollektiv və şagirdlər dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar, onlara gül dəstələri təqdim olundu.*

*Xatırladaq ki, 1992-ci ildə tikilmiş məktəb binası 2001-ci ildə baş vermiş zəlzələ nəticəsində ciddi zədələnmiş və onun yenidən qurulmasına ehtiyac yaranmışdı. 2006-cı ilin mart ayında prezident İlham Əliyevin Əli Bayramlıya səfəri zamanı şəhər rəhbərliyi və ictimaiyyətin nümayəndələri yeni məktəb binasının tikilməsi üçün dövlət başçısına müraciət etmişlər. Bunu nəzərə alan prezident İlham Əliyev 2006-cı il avqustun 31-də «Əli Bayramlı şəhərinin Çılpaqlı qəsəbəsində yerləşən 4 nömrəli orta məktəbin binasının tikintisinin maliyyələşdirilməsi haqqında» sərəncam imzalamış, prezidentin ehtiyat fondundan 1,3 milyon manat vəsait ayrılmışdır. Həmin vəsait hesabına tikilən məktəb cari ilin sentyabrında istifadəyə verilmişdir. 2 və 3 mərtəbəli 3 korpusdan ibarət məktəbdə 33 sinif otağı var. Burada 680 şagird bir növbədə təhsil alır, onlara 43 müəllim dərs deyir.*

*Məktəbdə 21 kompyuter dəsti quraşdırılmışdır, fizika, kimya, biologiya laboratoriyaları, fənn kabinetləri, akt və idman*

*salonları var, 15 minə yaxın dərslik və ədəbiyyatı olan kitabxana fəaliyyət göstərir. Futbol, voleybol və basketbol meydançaları tikilmişdir. Məktəbdə müasir istilik sistemi quraşdırılmışdır.*

*Dövlətimizin başçısı və xanımı məktəblə tanış oldular. «Məktəbin dünəni və bu günü», prezident İlham Əliyevin fəaliyyətini əks etdirən «İslahatçı prezident», habelə «Prezidentimiz Əli Bayramlıda» fotoguşələrinə baxdılar.*

*Məktəbdə «Ümummilli lider Heydər Əliyev», eləcə də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın fəaliyyətinə həsr olunmuş guşələr, Azərbaycan Respublikasının dövlət rəmzlərinə, idmançıların uğurlarına dair fotoguşələr yaradılmışdır.*

*Prezident İlham Əliyev sinif otaqlarında dərslərin gedişi ilə də maraqlandı. Şagirdlər ulu öndər Heydər Əliyevə və prezident İlham Əliyevə həsr olunmuş şeirlər söylədilər.*

*Direktor Pərviz Nadirov bildirdi ki, məktəbin binasının tikintisi dövründə şagirdlər avtobusla Əli Bayramlı şəhərinin müxtəlif məktəblərinə getməli olurdular. İndi bu çətinlik arxada qalmışdır. Yeni binanın inşası uşaqlara ən böyük hədiyyədir. Burada şagirdlərə səriştəli müəllimlər dərs keçir, tədrisin yüksək səviyyədə təşkili üçün lazımi tədbirlər görülür.*

*Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi və Azərbaycanda təhsilə bundan sonra da diqqət və qayğı göstəriləcəyini vurğuladı.*

*Məktəbin kollektivi dövlətimizin başçısını doğum günü münasibətilə təbrik etdi və yaradılan bu gözəl şəraitə görə dərin minnətdarlığını bildirdi.*

## «CƏNUB» ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ

*Əli Bayramlı*

*24 dekabr 2007-ci il*

*Dekabrın 24-də Əli Bayramlıda «Cənub» elektrik stansiyasının təməli qoyulmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısını və ailə üzvlərini energetiklər, inşaatçılar böyük hörmətlə qarşıladılar, onlara gül dəstələri təqdim olundu.*

*Stansiyanın ərazisinin girəcəyində xüsusi lövhə üzərinə* «Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev «Cənub» elektrik stansiyasının təməl daşını 2007-ci il dekabrın 24-də qoymuşdur» *sözləri yazılmışdı.*

*Prezident İlham Əliyev əvvəlcə stansiyanın ərazisini, habelə yaxınlıqda yerləşən Əli Bayramlı DRES-ini seyr etdi, yeni tikiləcək stansiyanın texniki göstəriciləri ilə tanış oldu. «Azərenerji» Səhmdar Cəmiyyətinin sədri Etibar Pirverdiyev məlumat verdi ki, yeni tikiləcək stansiya qaz-buxar turbinləri, qaz kompressoru, inzibati bina, hovuz, avtodayanacaq, park, yanğınsöndürmə məntəqəsi, 220, 330 və 110 kilovoltluq yardımçı stansiyalar, su təmizləyici qurğu, su, mazut, dizel yanacağı çənləri, mazut emaledici qurğu, yağboşaltma nasos stansiyası, yüksəldici transformatorlar, sistem transformatoru və idarəetmə binasından ibarət olacaqdır. 780 meqavat gücündə olacaq bu stansiya 2009-cu ildə istifadəyə veriləcəkdir. Yerli «Azenko» şirkəti tərəfindən tikiləcək stansiya həm təbii qaz, həm də mazutla işləyə biləcəkdir. Stansiya ən müasir avadan-*

*lıqla təmin olunacaqdır. Qaz turbinləri Amerika, elektrik hissəsinin avadanlığı Fransa şirkətlərindən alınacaqdır. Ümumiyyətlə, burada 70-dən çox şirkətin avadanlıq və qurğuları quraşdırılacaq və ildə 1 milyard kubmetr təbii qaza qənaət etmək mümkün olacaqdır.*

*Təxminən 600 milyon avroya başa gələcək yeni stansiyanın inşasının respublikamızın energetika sistemi üçün böyük əhəmiyyəti var. Stansiya bölgənin elektrik enerjisinə olan tələbatının əsas hissəsini təmin edəcək, ölkəmizin energetika sisteminin dayanıqlığında mühüm rol oynayacaqdır. İnşaat işlərində 1500-dək insan çalışacaq, stansiya istismara veriləndən sonra 500–600 daimi iş yeri yaradılacaqdır.*

*Prezident İlham Əliyev tikintinin layihəsi ilə bağlı videofilmə baxdı.*

*Sonra dövlətimizin başçısı gilizi təmələ qoydu və beton qarışığı tökdü. Prezident İlham Əliyev energetikləri və inşaatçıları təbrik edərək dedi:*

– Mən indi burada göstərilən videofilmdə bir daha gördüm ki, nə qədər böyük işlər aparılır. Ən vacibi odur ki, bu işləri Azərbaycan şirkətləri, mütəxəssisləri, inşaatçıları görürlər. Son illər ərzində Azərbaycanın müxtəlif bölgələrində bir neçə elektrik stansiyası tikilibdir. Modul tipli beş stansiya tikilibdir. Əlbəttə, onlarda da Azərbaycan inşaatçıları iştirak etmişlər, ancaq xarici mütəxəssislərlə birlikdə işləmişlər. «Cənub» elektrik stansiyası 100 faiz Azərbaycan mütəxəssisləri tərəfindən tikiləcəkdir.

İndi bizim imkanımız var, potensialımız, maliyyə resurslarımız var, kredit almaq üçün geniş danışıqlar aparmaq lazım gəlmir.

İstənilən məbləğdə kredit alırıq, öz pulumuzu qoyuruq və Əli Bayramlıda ən müasir standartlara cavab verən stansiya tikiləcəkdir. 780 meqavat gücündə olacaq elektrik stansiyası bizim iqtisadi potensialımızı xeyli dərəcədə gücləndirəcəkdir. Bu stansiya işə düşəndən sonra böyük qənaət olunacaqdır. Mövcud köhnə elektrik stansiyasının nə gündə olduğunu

görürük, 460 qram şərti yanacaq yandırır. Yeni stansiya isə 240 qram şərti yanacaq yandıracaqdır. Bu nə deməkdir?! Biz ildə təxminən 1 milyard kubmetr qaza qənaət edəcəyik.

Stansiyanın tikintisi zamanı burada yüzlərlə insan çalışacaq, ondan sonra isə istismarı zamanı işləyəcəklər. Hamısı da Azərbaycan vətəndaşlarıdır. Pul Azərbaycanda qalacaq, Azərbaycan şirkətləri, vətəndaşları yüksək keyfiyyətlə işləyəcəklər. Bu onu göstərir ki, bizim potensialımız elədir ki, istənilən tikintini uğurla başa çatdıra bilərik. Burada düzülən bu texnika bir neçə il bundan əvvəl yox idi. Heç nə yox idi. İndi baxın, nə qədər texnika, avadanlıq alınıbdır.

İndi Sumqayıtda böyük elektrik stansiyası tikilir, bu il istismara veriləcəkdir. Əli Bayramlıda, Səngəçalda – hər yerdə tikilir. Texnika da, peşəkar mütəxəssislər də, maliyyə vəsaitimiz də – hər cür imkanımız var. Biz bu gözəl stansiyanı yəqin ki, iki-üç ildən sonra burada birlikdə açacağıq.

Sizə də uğurlar arzulayıram. Burada yaxşı işləyin, keyfiyyətlə işləyin. Çünki bu, bizim ölkəmizin inkişafı üçün lazımdır. Sağ olun.

* * *

*Prezident İlham Əliyev Əli Bayramlıya səfərini başa çatdıraraq həmin gün Bakıya qayıtdı.*

## DÜNYA AZƏRBAYCANLILARINA!

Əziz həmvətənlər!

Hörmətli soydaşlarımız!

Sizə xalqımızın ən əziz bayramlarından biri olan Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə müraciət edirəm. 31 dekabr bütün dünyada yaşayan soydaşlarımız tərəfindən hər il ümummilli bayram kimi, təntənə ilə qeyd edilir. Onun əsas məzmununu xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, Vətənə bağlılıq, azərbaycançılıq duyğuları və ideyaları təşkil edir.

Bu yüksək ideyaların birləşdirici dəyərlər kimi bütün dünyada yaşayan azərbaycanlılar arasında yayılması, dilimizin, mədəniyyətimizin, mütərəqqi adət-ənənələrimizin yaşadılması və inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin müqəddəs amalı idi. Müstəqillik illərində dünya azərbaycanlılarının həmrəyliyi ideyası ictimai təşəbbüslərdən və fərdi duyğulardan əməli işə, çoxşaxəli fəaliyyət planına və dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilmişdir. Azərbaycanlıların yığcam yaşadıqları ölkələrdə təşkilatlanması, birlik və mütəşəkkilliyinin gücləndirilməsi, tarixi Vətənlə əlaqələrinin möhkəmləndirilməsi istiqamətində davamlı və məqsədyönlü tədbirlər görülmüşdür.

Bu gün dünya azərbaycanlıları yaşadıqları ölkələrdə nüfuzlu və fəal toplum kimi çıxış edir, cəmiyyətin iqtisadi, ictimai-siyasi və mədəni həyatına daha çox inteqrasiya olunur, həmin ölkələrlə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında əhəmiyyətli rol oynayırlar. Digər tərəfdən, Azərbaycan Respublikası insan hüquqlarına dair beynəlxalq sənədlərdə əksini tapmış prinsipial müddəalardan çıxış edərək, bütün dünyada soydaşlarımızın vətəndaş hüquqlarının qorunması üçün əməli tədbirlər görür.

Lakin dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən azərbaycanlı icmaları arasında əlaqələrin möhkəmləndirilməsi, soydaşlarımızın ayrı-ayrı ölkələrin ictimai-siyasi və mədəni həyatına, eləcə də qloballaşan dünyanın aktual problemlərinə təsirinin gücləndirilməsi tələb olunan səviyyədə deyil. Odur ki, diaspor təşkilatları və müvafiq dövlət qurumları gələcəkdə bu istiqamətlərdə bütün resursların hərəkətə gətirilməsi üçün davamlı çalışmalıdırlar. Eyni zamanda, dost ölkələrin və xalqların lobbi və diaspor təşkilatları ilə səmərəli əməkdaşlığın gücləndirilməsi üzərində ciddi işləməlidirlər.

Hazırda Azərbaycan Respublikası öz tarixinin mühüm inkişaf və tərəqqi dövrünü yaşayır. Qarşıya qoyduğumuz bütün vəzifələr uğurla həll olunur. Artıq neçə ildir ki, Azərbaycan iqtisadi inkişaf sürətinə və infrastruktur layihələrinin reallaşma templərinə görə dünyada öncül mövqelərə malikdir. Dünyanın iqtisadi və enerji təhlükəsizliyinə mühüm töhfə olan Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz xətlərinin istifadəyə verilməsi, Bakı-Tbilisi–Qars dəmir yolunun çəkilməsinə başlanması və bu kimi digər transmilli layihələrin reallaşması nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilmişdir. Vətəndaşlarımızın və soydaşlarımızın birlik və həmrəylik duyğuları, milli mənlik şüuru güclənmişdir. Bu mərhələdə qarşımızda duran ən mühüm vəzifə, bir tərəfdən, Azərbaycan həqiqətlərini bütün dünyada fəal təbliğ etmək, dövlətimizin müsbət imicini gücləndirmək, digər tərəfdən, məkrli erməni təbliğatını ifşa etmək, ona qarşı aktiv hücum mövqeyi tutmaqdır.

Bu əziz bayram münasibətilə dünyada yaşayan həmvətənlərimizi və bütün soydaşlarımızı səmimi-qəlbdən təbrik edir, hər birinə cansağlığı, firavanlıq və əmin-amanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2007-ci il*

## ŞUŞA MƏDƏNİ-MAARİF TEXNİKUMUNUN KOLLEKTİVİNƏ

Sizi, texnikumun məzunlarını, respublikanın maarif işçilərini Şuşa Mədəni-Maarif Texnikumunun 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm.

1907-ci ildə gimnaziya kimi yaradılan və 1922-ci ildə Müəllimlər Seminariyasına çevrilən Şuşa Mədəni-Maarif Texnikumunun Azərbaycan təhsilinin inkişafında özünəməxsus xidmətləri olmuşdur.

Sizin texnikumun yaranma tarixi XX əsrin əvvəllərində Azərbaycanda maarifçilik hərəkatının böyük vüsət aldığı dövrə təsadüf edir. Ölkəmizdə təhsil sisteminin təşəkkülü və inkişafında öz yeri olan texnikumunuz şərəfli bir yol keçmişdir. O, fəaliyyət göstərdiyi illər ərzində maarifpərvər ziyalıların fədakar əməyi sayəsində ölkəmiz üçün lazımi kadrlar yetişdirilməsi işində mühüm rol oynamışdır. Texnikum uzun illər pedaqoji məktəb kimi fəaliyyət göstərmişdir. Bu təhsil ocağının yetirmələri gənc nəslin təlim-tərbiyəsində böyük əmək sərf etmişlər. Bu gün Azərbaycanın hər bir guşəsində texnikumun məzunlarına rast gəlmək mümkündür.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Qarabağın bütün maarif və mədəniyyət müəssisələri kimi, sizin texnikum da talan edilmişdir. Ölkəmizin ərazi bütövlüyünün qorunmasında qəhrəmanlıq nümunəsi göstərən Vətən oğulları arasında texnikumunuzun yetirmələri də vardır. Onların xatirəsini bu yubiley günündə dərin ehtiramla yad edirik.

Bütün çətinliklərə baxmayaraq, Bakı şəhərində məskunlaşmış texnikumunuz özünün zəngin pedaqoji ənənələrini indi də davam etdirir, tələbələrin seçdikləri ixtisasların sirlərinə

yiyələnmələrində, Vətənə layiqli övladlar kimi formalaşmalarında səy və bacarığını əsirgəmir.

İnanıram ki, siz bundan sonra da mədəni-maarif müəssisələrimiz üçün mütəxəssislərin hazırlanması işinə öz töhfənizi verəcəksiniz.

Yubiley münasibətilə hamınıza cansağlığı, səadət və yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2007-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSGƏNDƏRİYYƏ KİTABXANASININ DİREKTORU, MİSİR PREZİDENTİNİN ELM VƏ TƏHSİL ÜZRƏ MÜŞAVİRİ İSMAYIL SERAGELDİN İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*25 dekabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Prezident sarayında İsgəndəriyyə kitabxanasının direktoru, Misir prezidentinin elm və təhsil üzrə müşaviri İsmayıl Serageldini qəbul etmişdir.*

*Azərbaycana səfərindən məmnunluğunu bildirən İsmayıl Serageldin prezident İlham Əliyev tərəfindən qəbul olunmasından şərəf duyduğunu dedi. Qonaq ölkəsi ilə Azərbaycan arasında elm, təhsil sahələrində əlaqələrin daha da inkişaf etdirilməsinə İsgəndəriyyə kitabxanasının töhfə verməyə hazır olduğunu bildirdi.*

*Dövlətimizin başçısı ölkəmizin müvafiq strukturlarının dünya elminin inkişafına öz töhfəsini verən İsgəndəriyyə kitabxanası ilə əməkdaşlığın əhəmiyyətini vurğulayaraq bu əməkdaşlığın ölkələrimizin humanitar sahədə əlaqələrinin genişlənməsinə xidmət edəcəyinə əminliyini söylədi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İORDANİYA KRALININ ORTA ASİYA VƏ AZƏRBAYCAN ÜZRƏ XÜSUSİ ELÇİSİ ABDULLAH VUREYKƏT İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*25 dekabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Prezident sarayında İordaniya kralının Orta Asiya və Azərbaycan üzrə xüsusi elçisi Abdullah Vureykəti qəbul etmişdir.*

*Abdullah Vureykət İordaniyanın Kralı II Abdullahın salamlarını və prezident İlham Əliyevin doğum günü münasibətilə təbriklərini, ən səmimi arzularını çatdırdı.*

*Dövlətimizin başçısı İordaniya kralının salamlarına və təbrikinə görə təşəkkür etdi və onun da salamlarını İordaniyanın dövlət başçısına çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Kral II Abdullah ilə dostluq münasibətlərinin Azərbaycan və İordaniya arasında ikitərəfli əlaqələrin daha da genişləndirilməsi işinə töhfə verdiyini vurğuladı.*

**SUDAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Sudan arasında münasibətlər dostluq və əməkdaşlıq istiqamətində öz inkişafını davam etdirəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 25 *dekabr 2007-ci il*

## KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB FİDEL KASTRO RUSA

Hörmətli cənab Sədr!

Kubanın milli bayramı – Azadlıq günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətləri əməkdaşlıq imkanlarımızın genişlənməsi üçün daim möhkəm zəmin olacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 25 *dekabr 2007-ci il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Lİ MEN BAKA**

Hörmətli cənab Prezident!

Koreya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan–Koreya münasibətləri bu gün dinamik və hərtərəfli inkişaf yolundadır. Ümidvaram ki, dost ölkələrimiz arasındakı əlaqələrin, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın daha da genişləndirilməsi üçün bundan sonra da səylərimizi davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost xalqınızın rifahı naminə qarşıdakı məsul işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2007-ci il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DANİLO TYURKA**

Hörmətli cənab Prezident!

Sloveniya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan–Sloveniya münasibətlərində müşahidə olunan ardıcıl inkişaf meyilləri razılıq hissi doğurur. Ümidvaram ki, ikitərəfli əlaqələrimizin, habelə beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın genişlənməsi prosesləri bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Sloveniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2007-ci il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Sizi Özbəkistan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan və Özbəkistan arasındakı ənənəvi dostluq münasibətləri və əməkdaşlıq xalqlarımızın mənafeyi naminə, regionda sülh, sabitlik və təhlükəsizlik naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli İslam Abduqəniyeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dost Özbəkistan xalqının rifahı naminə dövlətçilik fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2007-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT KUKLA TEATRI BİNASININ ƏSASLI TƏMİRDƏN SONRA AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*26 dekabr 2007-ci il*

*Dekabrın 26-da Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı binası əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim olundu. Milli geyimli oğlan və qızlar sülh rəmzi olan ağ göyərçinləri havaya buraxdılar.*

*Prezident İlham Əliyev əvvəlcə teatr binasının ətrafını gəzdi, abadlıq və yaşıllaşdırma işləri ilə tanış oldu. Dövlətimizin başçısı açılış mərasiminə toplaşan inşaatçıları, teatrın əməkdaşlarını salamlayaraq dedi ki, gözəl iş görmüsünüz. İndi bina tamamilə yeni görkəm almış və gözəlləşmişdir. Əlbəttə, içəridə də bütün lazımi avadanlıq, istilik sistemi, kondisioner – hər şey var.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, teatr binasının fasadına, binanın əvvəlki və indiki görünüşünü, təmir və yenidənqurma işlərinin gedişini əks etdirən fotoşəkillərə baxdı.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev dedi ki, əsaslı təmir və yenidənqurma işləri prezidentin «Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında» 2007-ci il 19 fevral tarixli sərəncamına uyğun olaraq həyata keçirilmişdir.*

*Foyedə divar boyu 300 kvadratmetr sahədə Xalq rəssamı Toğrul Nərimanbəyovun «Azərbaycanın nağıl aləmi» əsəri çəkilmişdir.*

*Müasir texniki avadanlıqla təchiz olunmuş səs və radio sexi, səhnə işıqları sexi yaradılmışdır və xüsusi otaqdan kompyuter vasitəsilə idarə olunur. İnzibati otaqlar, hər aktyor üçün isə ayrıca qrim otağı vardır. Rekvizit və kostyum otağında tamaşalarda istifadə olunan əşyaların qorunması üçün xüsusi şərait yaradılmışdır. Geniş məşq salonunda 120-dən çox xüsusi işıq cihazları, müasir texnologiya əsasında kompyuterləşdirilmiş səs avadanlığı quraşdırılmışdır.*

*2700 kvadratmetr sahəsi olan teatrın Azərbaycan və rus bölməsində 30 nəfərlik aktyor heyəti var. 200 nəfərlik tamaşa salonu da büsbütün yeni görkəm almışdır.*

*Prezident İlham Əliyev teatrın inzibati və qrim otaqlarını, səs və radio, işıq sexlərini, məşq salonunu gəzdi, yaradılan şəraitdən, işlərin yüksək keyfiyyətlə aparılmasından razılığını bildirdi. Dövlətimizin başçısı ikinci mərtəbədəki eyvandan ətrafı da seyr etdi.*

*Ə.Qarayev bildirdi ki, teatrda bir il ərzində dünya standartlarına uyğun aparılan keyfiyyətli təmir və yenidənqurma işlərinə tikinti şirkətləri 20 illik zəmanət vermişdir. XX əsrin əvvəllərində bu binanın layihəsini Bakıda yaşayan polyak arxitektoru Ploşko vermiş və «Fenomen» kinoteatrı kimi tikilmişdir. Sonralar müxtəlif vaxtlarda burada teatr truppaları, muzey və s. fəaliyyət göstərmişdir. Azərbaycanda Kukla Teatrı 1931-ci ildə yaradılmışdır. 1941-ci ilədək və 1946–50-ci illərdə müstəqil, 1941–46-cı illərdə Gənc Tamaşaçılar Teatrının, 1950-ci ildən Filarmoniyanın nəzdində fəaliyyət göstərmişdir. 1965-ci ildən isə yenidən müstəqil teatrdır. İlk dövrlərdə teatrda Azərbaycan, rus, Qərbi Avropa dramaturqlarının pyesləri, Azərbaycan şifahi xalq ədəbiyyatı motivləri əsasında hazırlanmış tərbiyəvi əhəmiyyət xarakterli əsərlər səhnəyə qoyulmuşdur. 1974-cü ildən teatra Abdulla Şaiqin adı verilmişdir. 1975-ci ildən burada böyüklər üçün də tamaşalar göstərilir.*

*Sonra teatrın yaradıcı kollektivi balacalar üçün Elşad Rəhimzadənin «Nağıllar aləmində» tamaşasını göstərdi. Uşaqlar tamaşa salonuna gələn dövlətimizin başçısını və xanımını hərarətli alqışlarla qarşıladılar.*

**İ l h a m Ə l i y e v**: Salam, uşaqlar, mən sizin hamınızı qarşıdan gələn Yeni il bayramı münasibətilə təbrik edirəm. Gözəl bayram ərəfəsində bizim sevimli Kukla Teatrımız əsaslı təmirdən sonra indi öz fəaliyyətini davam etdirir. Bu gözəl binada çox gözəl tamaşalara baxacaqsınız.

Bu bina tarixi binadır. Artıq 100 ildir ki, tikilibdir. Biz də bunu sizin üçün əsaslı təmir etdik ki, gəlib burada yaxşı tamaşalara baxasınız, yaxşı istirahət edəsiniz. Yəqin bilirsiniz ki, indi Bakıda müxtəlif teatr və muzeylər təmir olunur. Amma birinci təmir olunan teatr məhz Kukla Teatrıdır. Ona görə ki, biz ilk növbədə, bütün imkanlarımızı uşaqların rahat yaşamasına, dincəlməsinə yönəltməliyik, uşaqlar üçün işləməliyik və işləyirik.

İndi Bakıda gözəl binalar çoxdur. Onların hamısı gözəl təmir olunur, yeniləşir. Şəhərimizin bu gözəl yerində də gözəl binalar kifayət qədərdir. Kukla Teatrının binası da öz memarlığı ilə fərqlənir. Burada işləyən aktyorlar üçün də, tamaşaçılar üçün də yaxşı şərait yaradılmışdır. Əminəm ki, burada yaxşı tamaşalar göstəriləcəkdir.

Uşaqlar bizim gələcəyimizdir. Siz gələcəkdə Azərbaycanın inkişafında öz sözünüzü deyəcəksiniz. Vaxt gələcək, siz ölkəmizin inkişafı üçün lazımi qərarlar qəbul edəcəksiniz, göstərişlər verəcəksiniz. Ona görə, gərək siz yaxşı oxuyasınız ki, yaxşı vətəndaş olasınız. Siz bilikli, savadlı olmalısınız ki, vaxt çatanda ölkəmizin gələcəyi üçün bütün lazımi işləri görəsiniz. Uşaqlar ölkəmizin gələcəyidir. 30 ildən sonra, 40 ildən sonra Azərbaycanın inkişafı sizdən asılı olacaqdır. Ona görə ilk növbədə mütləq yaxşı oxumaq, yaxşı biliklərə malik olmaq, idmanla məşğul olmaq lazımdır. Hər bir insan elə uşaqlıq yaşlarından idmanla məşğul olmalıdır, idman insanı fiziki cəhətdən sağlam edir. Fiziki cəhətdən sağlam olan insanlar

mənəvi cəhətdən də sağlam olmalıdırlar və belə də olur. İdmanla məşğul olmaq, yaxşı oxumaq, böyüklərin sözünə qulaq asmaq və yaxşı yemək lazımdır. Uşaqlar gərək yaxşı yesinlər ki, güclü olsunlar. Beləliklə, böyümək, yaxşı vətəndaş olmaq və gələcəkdə doğma xalqımıza, Azərbaycanımıza töhfə vermək lazımdır.

Mən bu gözəl bayram ərəfəsində sizin hamınızı bir daha təbrik etmək istəyirəm. Dekabrın 31-i eyni zamanda, Dünya azərbaycanlılarının həmrəyliyi günüdür. Bütün dünya azərbaycanlıları daha da sıx birləşməlidir. Azərbaycan dövləti inkişaf etməlidir, Azərbaycan xalqı rahat, firavan həyat yaşamalıdır.

Əziz balalar, sizi qarşıdan gələn bütün bayramlar münasibətilə bir daha təbrik edirəm, sizə cansağlığı arzulayıram. Sağ olun.

* * *

*Uşaqlar dövlətimizin başçısının ürək sözlərini böyük maraqla dinlədilər. Tamaşanın aparıcısı uşaqlar adından dərin minnətdarlıq bildirərək dedi:*

– Cənab Prezident, bu gözəl hədiyyəyə görə biz Sizə «Çox sağ olun!» deyirik. İcazə verin, xatirə olaraq Sizə teatrımızın mərhum Baş rejissoru, aktyor, dünyada ilk dəfə olaraq bu il Polşanın «Təbəssüm» ordeninə layiq görülmüş Ələkbər Hüseynovun ən sevimli kuklasını təqdim edim.

Cənab Prezident, bu nağıl qəhrəmanları da çox arzu edirdilər ki, onların da belə gözəl, möhtəşəm, qəşəng teatrları olsun. Biz bilirik ki, bu günlərdə Sizin işləriniz lap çoxdur. Amma əsl yeni il hədiyyəsi olan bu binada tamaşaya baxmaq onlar üçün gözəl hədiyyədir.

İcazənizlə, bu gözəl balalar üçün tamaşamıza başlayaq və bir daha Sizə deyirik: «Çox sağ olun».

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAYTAXTIN MƏRKƏZİNDƏKİ BAĞDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*26 dekabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 26-da paytaxtın Əziz Əliyev küçəsinin və Neftçilər prospektinin kəsişməsində (Kukla Teatrı ilə üzbəüz) yerləşən bağda aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva istirahət guşəsini gəzdilər. Məlumat verildi ki, burada müasir üslubda fəvvarə quraşdırılmış, əraziyə xaricdən gətirilmiş üzlük piltələr döşənmiş, oturacaqlar qoyulmuş və müasir standartlara uyğun işıqlandırma sistemi yaradılmışdır. Bütün bunlar əraziyə xüsusi yaraşıq verir. Bir sözlə, Bakının bu guşəsində sakinlərin və paytaxtımızın qonaqlarının istirahəti üçün hər cür şərait vardır.*

*Prezident İlham Əliyev şəhərin bu mərkəzi hissəsinin göz oxşamasının zəruriliyini bildirdi, işıqlandırma, yaşıllaşdırma işləri, habelə ətraf ərazinin də abadlaşdırılması ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ OLİMPİYA KOMİTƏSİNİN 2007-ci İLİN YEKUNLARINA HƏSR OLUNMUŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*27 dekabr 2007-ci il*

*Milli Olimpiya Komitəsi (MOK) 2007-ci ilə yekun vurmuş, idmançılara, məşqçilərə və idman veteranlarına, mütəxəssislərinə mükafatlar təqdim olunmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə MOK-un inzibati binasının foyesində Beynəlxalq Olimpiya Komitəsinin «Olimpiya, incəsənət və idman» müsabiqəsinin respublika milli mərhələsi üçün təşkil olunan sərgiyə təqdim edilmiş əsərlərə baxdı.*

*MOK-un birinci vitse-prezidenti Çingiz Hüseynzadə məlumat verdi ki, belə müsabiqələr, adətən, Olimpiya oyunları ərəfəsində təşkil olunur. 2008-ci ildə Pekində keçiriləcək Olimpiya oyunları ilə əlaqədar elan olunan bu müsabiqədə yerli sənətkarlarımızın 30-dan çox rəssamlıq və heykəltəraşlıq əsərləri vardır. Bu müsabiqələr dünya ölkələrinin hər birində təşkil olunur. İki janr üzrə qalib sayılan əsər BOK-un Lozanna şəhərində yerləşən muzeyinə göndərilir və orada yenidən müsabiqəyə təqdim edilir. Orada birinci yeri tutan əsərin müəllifinə 30 min, ikinci yerə 20 min, üçüncü yerə görə isə 10 min dollar mükafat verilir. Gələn ilin martında isə Pekində qalib əsərlərdən ibarət sərgi keçiriləcəkdir. Azərbaycanda müsabiqənin münsiflər heyəti 10 gün ərzində qalibi müəyyənləşdirdikdən sonra həmin əsərlər Lozannaya göndəriləcəkdir. Bakıda ilk üç yer üçün müvafiq olaraq 2000, 1700 və 1500 manat məbləğində mükafat təsis edilmişdir.*

*Sonra mərasim keçirildi. MOK-un İcraiyyə Komitəsinin iclas salonuna toplaşanlar dövlətimizin başçısını alqışlarla qarşıladılar.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

Yeni il ərəfəsində bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. Həm ilin idman yekunları müzakirə edilir, həm də biz görüşürük, birlikdə oluruq. Dünən Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin toplantısında ilin yekunları haqqında geniş müzakirələr aparılmışdır. Bütövlükdə, Azərbaycan idmançıları bu ili uğurla başa vurdular. Beynəlxalq yarışlarda həm olimpiya, həm də qeyri-olimpiya idman növləri üzrə 452 medal qazanılmışdır. Beləliklə, Azərbaycanın idman imkanları daha da geniş şəkildə dünyaya təqdim edilmişdir.

Mən çox sevinirəm ki, ildən-ilə medalların sayı azalmır, artır. Azərbaycanda çox gözəl gənc nəsil yetişir. İdman ənənələri yaşayır, davam etdirilir və Azərbaycan artıq bir neçə ildir ki, dünyada idman dövləti kimi tanınır. İdmançılarımızın uğurları ilə yanaşı, idmanla bağlı bütün başqa sahələrdə də işlər yaxşı gedir. İdman infrastrukturu yaradılır, yeniləşir. Bu il də bölgələrdə olimpiya idman komplekslərinin açılışları olmuşdur. Gələn il də yeni komplekslərin açılışları nəzərdə tutulur. Artıq gələn il və ondan sonrakı illərdə komplekslərin sayı böyük rəqəmlərlə ölçüləcəkdir. Mənim yadımdadır, biz 2000-ci ildə bu təşəbbüslə çıxış edəndə nəzərdə tuturduq ki, Bakıda və böyük şəhərlərdə olimpiya kompleksləri tikilsin. Ancaq ondan sonra gördük ki, buna çox böyük maraq var, bölgələrdə idmançıların, xüsusilə gənc idmançıların, uşaqların idmanla məşğul olmağa çox böyük marağı var. Qərar qəbul etdik ki, Azərbaycanın bütün bölgələrində maksimum dərəcədə gözəl idman qurğuları tikilsin.

Bildiyiniz kimi, bu idman mərkəzləri dünyanın ən yüksək standartlarına uyğun şəkildə tikilir.

İndi bütün bölgələrdə bu qurğular var. Növbəti mərhələ, şübhəsiz ki, hər bir rayon mərkəzində belə komplekslərin tikintisinə nail olmaqdır. Buna da biz nail olacağıq. Çünki artıq bizim təcrübəmiz də var, maddi imkanlarımız da artır və idman sahəsinə qoyulan investisiyaların həcmi gələcəkdə davam etdiriləcəkdir. Bu sahəyə qoyulan investisiyalar həm Azərbaycanın idman şöhrətini daha da yüksək zirvələrə qaldıracaq, həm də bu, insanların, uşaqların, gənclərin sağlamlığına qoyulan investisiyalardır. Bu çox böyük əhəmiyyət kəsb edir. Fiziki sağlamlıq, mənəvi sağlamlıq, gənc nəslin vətənpərvərlik ruhunda böyüməsi – bütün bu amillər idmanda cəmləşir və idman Azərbaycan cəmiyyətinin çox önəmli bir tərkib hissəsidir.

Yəqin bilirsiniz ki, indi dünyada, demək olar, bütün ölkələrdə idmanın inkişafına çox böyük diqqət vardır. Beynəlxalq yarışlarda ölkələr bir-biri ilə yarışırlar. Hər bir ölkənin idman uğurları o ölkənin imicini, şöhrətini artırır, qaldırır. Biz Azərbaycanda bunu çoxdan bilirdik və öz işimizi bu istiqamətdə düzgün qura bilmişik. İdmanla məşğul olan bütün qurumlar bu il səmərəli işləmişlər, yenə də ənənəvi olaraq, vahid konsepsiya çərçivəsində fəaliyyət göstərmişlər. Həm Olimpiya Komitəsi, İdman və Gənclər Nazirliyi, həm də federasiyalar, idman cəmiyyətləri, klublar. Bir sözlə, bu sahədə fəaliyyətin əlaqələndirilməsi və birgə fəaliyyət planının icra olunması idmanın uğurlarına gətirib çıxarır.

Biz 2007-ci ildə Azərbaycanı dünyaya daha da tanıtmaq üçün iki böyük idman yarışı keçirdik. Daha doğrusu, bu yarışların sayı daha çox idi. Mən yeniyetmələr arasında keçirilən Avropa və dünya birinciliklərini sadalaya bilərəm, lisenziya yarışlarını sadalaya bilərəm. Amma Avropa və dünya çempionatlarının keçirilməsi, əlbəttə, nəinki idman hadisəsi, ümumiyyətlə, böyük beynəlxalq hadisədir.

Biz bu iki tədbiri – həm bədii gimnastika üzrə Avropa çempionatını, həm də güləş üzrə dünya çempionatını uğurla keçirə bilmişik. Bu növlər üzrə bütün Avropa və dünya idmançıları Azərbaycana gəlmişlər. Bu onu göstərir ki, bizim çox gözəl təşkilatçılıq qabiliyyətimiz var. Bu beynəlxalq yarışların keçirilməsi Azərbaycanın şöhrətini, imicini qaldırdı. Bizim təşkilatçılıq qabiliyyətimizi geniş dünya ictimaiyyətinə təqdim etdi.

Güləş üzrə çempionatda rekord sayda idmançılar və ölkələr iştirak etmişdir. Yüzdən çox ölkə Azərbaycana öz nümayəndəsini göndərmişdi. Bu nümayəndələr ölkəmizlə, uğurlarımızla tanış olaraq, əlbəttə ki, Azərbaycan haqqında düzgün, ədalətli həqiqətləri öz yaşadıqları ölkələrə çatdırırlar və çatdıracaqlar.

Bu çox vacibdir. Biz gənc ölkəyik, müstəqilliyimizin cəmi 16 yaşı var. Baxmayaraq ki, Azərbaycan çox böyük mədəni irsə malikdir, bizim çox böyük zəngin mədəniyyətimiz, tariximiz var, yenə də biz hələ ki, dünyaya özümüzü tanıtmalıyıq, Azərbaycanı tanımalıdırlar, Azərbaycanda baş verən hadisələr bəlli olmalıdır. Azərbaycan həqiqətləri dünyada nə qədər çox yayılsa, bir o qədər də Azərbaycan haqqında müsbət fikir yaradacaqdır. İdman bu sahədə əvəzolunmaz bir vasitədir. Bir daha demək istəyirəm ki, 100 ölkənin nümayəndəsi Azərbaycandakı vəziyyətlə tanış ola bilmişdir.

Bizim beynəlxalq yarışları uğurla keçirməyimiz, gələcəkdə daha da mötəbər yarışların keçirilməsinə zəmin yaradacaqdır. Əlbəttə, dünya çempionatından böyük dünya yarışı yoxdur. Təbii ki, söhbət gələcəkdə Olimpiya oyunlarının Azərbaycanda keçirilməsindən gedə bilər. Biz belə bir təşəbbüsü irəli sürəndə bu, gözlənilməz idi. Ancaq həyat göstərir ki, nə qədər düzgün qərar qəbul etmişik. Bu gün biz bütün dünyaya sübut edirik ki, baxmayaraq, Azərbaycan gənc müstəqil dövlətdir, amma dövlət kimi artıq formalaşmışdır, ayaq üstə möhkəm durur. Dünya miqyaslı mötəbər tədbirləri keçirməyə qadirdir. Buna həm

təşkilatçılıq imkanlarımız, həm maliyyə vəsaitlərimiz, həm də bütövlükdə, ölkəmizin gücü, potensialı imkan verir.

Bu gün dünyanın 6 böyük şəhəri ilə yanaşı, Bakının da adı çəkilir. Bu da çox vacibdir. Bütün kütləvi informasiya vasitələrində, Olimpiya oyunları ilə bağlı olan məlumatlarda Bakının adı gedir. Bizim şəhərimizi tanımayanlar onu tanıyacaqlar. İlk dəfə şəhərimizin adını eşidənlər onu ya internetdən, ya da kitablardan öyrənəcəklər. Biz istər-istəməz nəinki bütün idman ictimaiyyətinin, ümumən dünya ictimaiyyətinin diqqətini cəlb edə bilmişik. Çünki siz bunu yaxşı bilirsiniz, Olimpiya oyunları sadəcə idman yarışı deyildir. Olimpiya oyunlarını başqa idman yarışlarından fərqləndirən məhz budur ki, o, dünyanın ən böyük beynəlxalq tədbirlərindən biridir. Dünya çempionatı ilə Olimpiya oyunlarının fərqi məhz bundadır. Həm orada, həm də burada eyni idmançılar iştirak edirlər. Qələbəni qazanmaq üçün eyni səylər ortaya qoyurlar. Ancaq beynəlxalq diqqət baxımından bunlar müqayisəolunmaz tədbirlərdir.

Biz Bakını artıq dünyanın tanınmış və aparıcı ölkələrinin əsas şəhərlərinin sırasına sala bilmişik. Yəni biz bu məqsədə nail ola bildik. Əgər bizim məqsədimiz təkcə bundan ibarət olsaydı, onda öz işimizi bitmiş hesab edərdik. Mən hesab edirəm ki, biz öz şansımızı axıra qədər sınamalıyıq. İndi geniş təqdimat sənədləri tərtib olunub və beynəlxalq idman federasiyalarının rəhbərləri ilə, digər idman xadimləri ilə bu məsələ ciddi şəkildə müzakirə edilir. Biz çalışmalıyıq ki, öz imkanlarımızı maksimum səfərbər edib Bakının, Azərbaycanın imkanlarını maksimum dərəcədə geniş şəkildə təqdim edək. Əlbəttə ki, bu mübarizə asan olmayacaqdır. Çünki tarixdən görürük ki, adətən, birinci dəfə müraciət edən şəhərə Olimpiya oyunlarının keçirilməsi heç vaxt müyəssər olmamışdır. Adətən, şəhərin imkanlarını ikinci, üçüncü dəfədən, bəlkə də ondan bir neçə dəfə çox da sınayırlar. Ona görə biz realist olmalıyıq. Bu məsələyə realist prizmadan yanaşmalıyıq və bilməliyik ki,

adətən, ilk dəfə müraciət edən şəhərə cavab müsbət olmur. Ancaq bununla bərabər, biz bütün lazımi tədbirləri görməliyik.

Biz artıq bilirik və dünya da bilir ki, planetin ən böyük idman tədbirinin Azərbaycanda keçirilməsinə hazırıq. Bizim buna həm iqtisadi, həm təşkilatçılıq, həm də infrastruktur imkanlarımız çatır və 2016-cı ilə qədər Azərbaycanda görüləcək işlər ölkəmizi və əlbəttə, Bakını dünyanın aparıcı ölkəsinə və şəhərinə çevirəcəkdir. Hamımız görürük ki, Bakı necə inkişaf edir. Bakıda böyük infrastruktur layihələri həyata keçirilir, böyük tikintilər gedir, insanların rahatlığı üçün bütün şərait yaradılır. Bizim planlarımız da bu işi davam etdirməkdir. O cümlədən şəhərimizin idman infrastrukturunun yeniləşməsi və yaradılması bizim planımızdadır.

Biz artıq bölgələrdə olimpiya komplekslərini kifayət qədər inşa etdik. O komplekslər ki, böyük ölkələrin paytaxtları onlarla fəxr edə bilər. Biz bu işi davam etdirəcəyik. Ancaq hesab edirəm ki, Bakı şəhərində yeni müasir, böyük idman qurğularının tikintisinə də başlamalıyıq. Müvafiq göstərişlər verilibdir və işlər artıq gedir, araşdırmalar aparılır. Mən hesab edirəm ki, ilk növbədə, Bakıda böyük üzgüçülük kompleksi yaradılmalıdır. Biz, demək olar ki, bölgələrdə tikilən bütün idman komplekslərində üzgüçülük hovuzunun olmasını da nəzərdə tuturuq. Amma indi gərək açıq danışaq, Bakıda lazımi səviyyədə üzgüçülük hovuzu yoxdur. Olan hovuzlar çox köhnəlib, böyük təmirə ehtiyacları var, lap təmir olunsalar belə, onlar dünya səviyyəsinə uyğun deyildir. Bizim yeniləşən, gözəlləşən şəhərimizə də uyğun deyildir. Ona görə mən göstəriş vermişəm, Gənclər və İdman Nazirliyi indi bu məsələ ilə məşğuldur. Böyük üzgüçülük kompleksi tikilməlidir ki, orada bütün su idmanı növləri üzrə dünya çempionatları və gələcəkdə Olimpiya oyunları keçirilə bilsin.

Bununla bərabər, mən hesab edirəm, vaxtı gəlib ki, Bakıda futbol üzrə yeni olimpiya stadionu tikilsin. Tofiq Bəhramov adına stadionumuz uzun illərdir ki, fəaliyyət göstərir, əsaslı təmir olunub, orada müasir avadanlıq quraşdırılır və bu proses

davam etdiriləcəkdir. Ancaq, əlbəttə, Bakı kimi şəhərə daha müasir stadion lazımdır. Xüsusilə nəzərə alsaq ki, biz futbolun inkişafına çox böyük diqqət göstərəcəyik və xüsusi proqramlar, planlar var. Bu sahəyə çox böyük investisiya qoyulacaq, böyük şirkətlər sponsorlar kimi cəlb olunacaqdır. Mən ümid edirəm ki, biz futbolda dönüş yaradacağıq. İndiki vəziyyətlə barışmaq çox çətindir, biz hamımız futbol yarışlarına, oyunlara böyük məyusluqla baxırıq. Çünki futbol dünyanın ən populyar idman növüdür və bu idman növündə Azərbaycan oyunçularının belə səviyyədə çıxış etməsi ölkəmizə başucalığı gətirmir. Ona görə dünyanın ən populyar idman növü kimi, futbol Azərbaycanda çox sürətlə inkişaf etməlidir. Biz bilirik ki, bunun üçün nə etmək lazımdır. Həm peşəkar mütəxəssislər dəvət ediləcək, həm də xüsusilə ilk növbədə, biz uşaq futboluna, yeniyetmə futboluna, gənc nəslin yetişdirilməsi prosesinə ciddi yanaşacağıq. Bu, vaxt tələb edəcəkdir. Biz başqa ölkələrin, vaxtilə futbolun o qədər də inkişaf etmədiyi ölkələrin təcrübəsindən bilirik ki, bir neçə il – 5 il, 10 il lazımdır ki, milli komanda yüksək səviyyəyə çatsın.

Biz bütün işləri daha da sürətlə aparırıq. Mən ümid edirəm ki, görüləcək bütün tədbirlər nəticəsində Azərbaycan futbolu dirçələcəkdir. Yəni demək istəyirəm ki, böyük olimpiya futbol stadionunun tikintisinə ehtiyac vardır. Artıq müvafiq göstərişlər verilibdir. Bunun layihəsi ilə bağlı işlər, demək olar, başlayıb və biz bunu etməliyik.

Bildiyiniz kimi, idman infrastrukturunun möhkəmlənməsi üçün bölgələrdə dünya miqyaslı infrastruktur yaradılır. Mingəçevir avarçəkmə bazası yeniləşir, demək olar, yenidən tikilir. Biz bu məsələ ilə uzun illərdir məşğul olurduq. Hətta mənim yadımdadır, Beynəlxalq Olimpiya Komitəsinə müraciət etmişdik ki, bizə kömək göstərsin. Ancaq axırda gördük ki, bunu özümüz etməliyik. Layihə hazırlandı, artıq işlər başlanmışdır və Mingəçevirdə çox müasir, gözəl avarçəkmə bazası tikilir. Eyni zamanda, orada beynəlxalq yarışların keçirilməsi də nəzərdə tutulur.

Bu həm Azərbaycanda avarçəkmənin inkişafına təkan olacaq, həm də Mingəçevir şəhərinin inkişafına böyük təkan verəcəkdir. Çünki Şərqi Avropa ölkələrindən, keçmiş Sovet İttifaqı, MDB məkanından çoxlu müraciətlər vardır. Vaxtilə bu, sovet məkanında yeganə baza idi ki, orada il boyu avarçəkmə ilə məşğul olmaq mümkün idi, bütün bazalar qışda donur. Biz bütün bu işləri bundan sonra da görəcəyik və əlbəttə, Azərbaycanda güclü idman infrastrukturunun yaradılması həm idmana xidmət edir, həm də ölkənin ümumi inkişafının göstəricisidir.

Gələn ilə az vaxt, bir neçə gün qalıbdır. Gələn il Olimpiya oyunları ilidir. Biz ciddi hazırlaşırıq. Hələlik beynəlxalq lisenziya turnirlərində ilk lisenziyalar əldə edilibdir. 2008-ci il həlledici il olacaqdır. Pekin Olimpiya oyunları başqa Olimpiya oyunlarından son dərəcə fərqlənəcəkdir. Orada rəqabət daha da güclü olacaqdır. Bildiyiniz kimi, Çin milli komandası həmişə dünya reytinqində qabaqcıl yerlərdədir və şübhəsiz, onlar çalışacaqlar ki, doğma vətəndə daha da böyük nailiyyətlər qazansınlar. Ona görə rəqabət daha da güclənəcəkdir. Biz də bu rəqabətə hazır olmalıyıq, gözəl praktikanı, gözəl ənənəni davam etdirməliyik. Müstəqil Azərbaycan dövləti həm Sidney, həm də Afina Olimpiya oyunlarında çox ləyaqətlə təmsil olunmuşdu. İdmançıların çıxışları, medalların sayı, bütövlükdə hazırlıq səviyyəsi çox yüksək idi. Mən əminəm ki, 2008-ci ildə də bizim idmançılarımız Olimpiya oyunlarında bütün Azərbaycan xalqını sevindirəcəklər.

Bildiyiniz kimi, biz idmanın bütün aspektləri ilə çox ciddi məşğul oluruq. Mən bu məsələlərlə mütəmadi qaydada məşğul oluram. İdmançılarla il ərzində bir neçə dəfə görüşmüşük. Bir daha demək istəyirəm ki, ilin sonundakı bu görüşlərimiz gözəl ənənədir. Bir daha bir-birimizi görürük, görüşürük, mən öz fikirlərimi, ürək sözlərimi sizə deyirəm, idmançıları mükafatlandırırıq. Bir qədər bundan əvvəl Milli Olimpiya Komitəsi tərəfindən idmançılara pul mükafatları verilibdir.

İdmançıların məşqçilərinin, idman veteranlarının sosial məsələlərinə diqqət göstəririk. Veteranlar daim diqqət hiss etməlidirlər. Çünki idmançının idmandakı ömrü uzun deyildir. O, bütün bacarığını, imkanlarını, hətta bəzi hallarda öz sağlamlığını ölkənin idman şöhrətinə sərf edir. Onun idman ömrü sona çatanda bəzi hallarda biz görürük ki, həm iş problemi yaranır, həm məişət problemləri çoxalır, həm də bəzən idmançılar bir növ təcrid olunmuş vəziyyətə düşürlər.

Ona görə biz bu məsələdə çox diqqətli olmalıyıq. Öz doğma xalqı, ölkəsi üçün çalışan, böyük nailiyyətlər qazanan idmançılar sonrakı həyatda daim dövlətin qayğısını hiss etməlidirlər. Bu qayğı sadəcə olaraq, xoş sözlərlə məhdudlaşmamalıdır. Halbuki, bu da çox lazımdır və mütləq olmalıdır. Bu qayğı hərtərəfli olmalıdır. Biz istəyirik ki, idmanla məşğul olanlar – idmançılar, idmanın inkişafında böyük xidməti olan insanlar, peşəkarlar, idman mütəxəssisləri, veteranlar lazımi məişət şəraiti ilə təmin edilsinlər. Hər il biz bu məsələyə baxırıq, həll edirik. Bu il də istisna deyil və bu gün bir qrup idmançı və idman mütəxəssisi yeni mənzillərlə mükafatlandırılacaqlar. Deyə bilərəm ki, bu praktikanı MDB məkanında ilk dəfə Azərbaycan Milli Olimpiya Komitəsi tətbiq etmişdir. Başqa sahələrdə də bizim təşəbbüslərimiz digər ölkələr üçün örnək olmuşdur. Biz federasiyalara ölkədə tanınmış insanları gətirdik və dərhal gördük ki, federasiyaların işi daha da sürətlə getməyə başlamışdır. İdmançılar bunu çox yaxşı bilirlər, izah etməyə ehtiyac yoxdur. Özləri hiss edirlər. Federasiyalara yeni, daha məsuliyyətli, daha hərtərəfli insanlar gələndən sonra işlər daha da sürətlə gedir. Azərbaycanın idmanı bax, bu cür inkişaf edəcəkdir.

Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin, federasiyaların, idman cəmiyyətlərinin, klubların və idman ictimaiyyətinin birgə səyləri nəticəsində Azərbaycanın idmanı daha da inkişaf edəcək və bundan sonra da böyük qələbələrə çatacağıq.

Mən sizin hamınızı qarşıdan gələn bayramlar – Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il bayramı

münasibətilə ürəkdən təbrik edirəm, cansağlığı arzulayıram. İdmançılara 2008-ci ildə qələbələr arzulayıram. Sağ olun.

* * *

*Sonra Azərbaycanda idmanın inkişafında böyük rolu olmuş idmançıların, məşqçilərin, idman mütəxəssislərinin mükafatlandırılması oldu. MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə bildirdi ki, ilin yekunlarına görə idmançılara pul mükafatları təqdim edilmişdir. İndi isə yeni mənzillərin orderləri veriləcəkdir.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev sərbəst güləş üzrə dünya kubokunun sahibi, veteran Telman Paşayevə, pauerliftinq üzrə dünya çempionu Rüfət Ağayevə, Mərkəzi Ordu İdman Klubunun rəisi Natiq Əliyevə, şahmat üzrə beynəlxalq qrossmeyster Vüqar Həşimova, boks üzrə Əməkdar məşqçi Zakir Əliyevə, bədii gimnastika üzrə qrupun Baş məşqçisi Natalya Nərimanovaya, basketbol üzrə Baş məşqçi Elxan Əliyevə, idman veteranları Sabir Əliyevə, Valiyə Sadıxovaya, keçmiş dünya çempionu Samir İbrahimova, güləş üzrə gənclərdən ibarət yığma komandanın Baş məşqçisi Ağalar Aslanova, cüdo üzrə Avropa çempionu Elnur Məmmədlinin məşqçisi Yaşar Allahverdiyevə, yüngül atletika üzrə veteran məşqçi Hacıbala Zeynalova, kikboksinq üzrə dəfələrlə dünya çempionu Araz Musayevə, veteran həndbolçu İradə Qocayevaya, taekvondo üzrə iki dəfə dünya çempionu Zahid Məmmədova, veteran futbolçu Kazbek Tuayevə, şahmat üzrə beynəlxalq dərəcəli hakim Faiq Həsənova yeni mənzillərin orderlərini təqdim etdi.*

* * *

*MOK-un İcraiyyə Komitəsinin üzvü Zərifə Salahova dövlətimizin başçısını doğum günü münasibətilə idmançılar adından təbrik edərək ona uzun ömür, cansağlığı arzuladı və xatirə hədiyyəsi təqdim etdi.*

*MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə dövlətimizin başçısına müraciətlə dedi:*

– Möhtərəm cənab Prezident, Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsi «Olimpiya» ordeni təsis etmişdir. İcraiyyə Komitəsinin qərarı ilə bir nömrəli orden Sizə təqdim olunur.

*Dövlətimizin başçısı bu mükafata görə minnətdarlığını bildirdi, idmançıları, veteranları qarşıdan gələn bayramlar münasibətilə bir daha təbrik etdi, onların hər birinə xoşbəxtlik, cansağlığı arzuladı.*

* * *

*Prezident İlham Əliyev sonra Respublika Olimpiya Mərkəzində aparılmış təmir işləri ilə tanış oldu.*

*Gənclər və İdman naziri Azad Rəhimov məlumat verdi ki, əvvəllər yüngül atletika maneji kimi tanınmış bu qurğu əsaslı təmir edilmişdir. İdmançılar iki aydan çoxdur burada məşqlərə başlamışlar. Qurğu, demək olar ki, tamamilə yeniləşmiş, təzə avadanlıq, o cümlədən fotofiniş avadanlığı alınmışdır.*

*Dövlətimizin başçısı görülən işləri yüksək qiymətləndirdi, idmançıların yetişməsində bu qurgunun əhəmiyyətli rol oynadığını söylədi, onun istiliklə təmin edilməsi barədə müvafiq tapşırıqlar verdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN TARİXİ MUZEYİNİN TƏMİR-BƏRPA İŞLƏRİNDƏN SONRA AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*28 dekabr 2007-ci il*

*Dekabrın 28-də Milli Elmlər Akademiyasının Azərbaycan Tarixi Muzeyinin əsaslı təmir-bərpa işlərindən sonra açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Muzeyin direktoru, MEA-nın vitse-prezidenti, akademik Nailə Vəlixanlı, Baş nazirin müavini Abid Şərifov, «Azəraqrartikinti» Səhmdar Cəmiyyətinin prezidenti Agalar Vəliyev, inşaatçılar və paytaxt sakinləri dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı muzeyin binası önündə səmimiyyətlə qarşıladılar, onlara gül dəstələri təqdim olundu.*

*Dövlətimizin başçısının göstərişi ilə təmir edilən çoxsaylı tarixi binalardan biri olan Azərbaycan Tarixi Muzeyinin binası Bakının ən gözəl memarlıq abidələrindəndir. 1920-ci ildə yaradılmış muzeydə qədim dövrdən başlayaraq Azərbaycan tarixinin bütün mərhələlərinə dair qiymətli eksponatlar toplanmışdır. Lakin bina uzun illər əsaslı təmir edilmədiyindən bərbad vəziyyətə düşmüşdü. 2004-cü ilin dekabrında muzeydə yaranmış vəziyyətlə yaxından tanış olan prezident İlham Əliyev binanın əsaslı təmiri və bərpası barədə göstəriş vermiş, 2005-ci ilin aprel ayından bu işlərə başlanılmışdı.*

*Prezident İlham Əliyev əvvəlcə binanın xarici görünüşünə baxdı. Baş nazirin müavini Abid Şərifov məlumat verdi ki, 1895–97-ci illərdə tikilmiş bina əsaslı şəkildə təmir olunmuş və yeni görkəm almışdır. Bu memarlıq abidəsinin gecələr də yaxşı görünməsi üçün müasir işıqlandırma sistemi quraşdırılmışdır. Hacı Zeynalabdin Tağıyev küçəsinə başdan-başa çapma daş*

formasında xırda piltələr döşənmişdir. Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin sifarişi ilə təmir işlərini yerinə yetirən «Azəraqrartikinti» Səhmdar Cəmiyyəti binanın mühəndis-texniki qurğularını, kommunikasiya sistemini yeniləşdirmiş, dam örtüyünü tamamilə təzələmişdir.

Dövlətimizin başçısı ətrafda yerləşən tarixi binaların da təmir olunmasının zəruriliyini vurğuladı.

Sonra prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi, əsas ekspozisiya salonunun yerləşəcəyi birinci mərtəbədə görülmüş təmir işləri ilə tanış oldu.

Muzeyin direktoru Nailə Vəlixanlı bildirdi ki, vaxtilə Hacı Zeynalabdin Tağıyevin mülkü olmuş bu binanın bərpası zamanı divarlardakı naxışların və bəzək elementlərinin orijinallığının qorunmasına xüsusi diqqət yetirilmişdir.

300 mindən çox eksponatı olan muzeydə xalqımızın bir çox görkəmli şəxsiyyətlərinin təhsil almasına yardımçı olmuş Hacı Zeynalabdin Tağıyevin həyatı və fəaliyyətinə dair fotoşəkillər, tarixi sənədlər, ona məxsus qiymətli əşyalar da toplanmışdır. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, tariximizə və mədəniyyətimizə daim böyük diqqət və qayğı göstərmiş, bir neçə dəfə bu muzeyə gəlmiş ulu öndər Heydər Əliyevin zəngin fəaliyyəti ilə bağlı guşə də yaradılmışdır. Hazırda muzeydə 130-dan çox işçi çalışır. Muzeyin laboratoriyası da müasir tələblərə cavab verir.

Dövlətimizin başçısı bir əsrdən çox yaşı olan binanın daxili tərtibatının təmirdən sonrakı vəziyyəti ilə, ekspozisiya və fondlarla tanış oldu, milli tariximizin bu zəngin nümunələrinin çox ciddi qorunmasının vacibliyini vurğuladı.

Baş nazirin müavini Abid Şərifov bildirdi ki, binada əsaslı bərpa və təmir işləri uğurla aparılmışdır. Zirzəmidə möhkəmləndirmə işləri görülmüşdür.

Hazırlanmış bir neçə layihə əsasında Şərq memarlığına xas çox incə və zəngin naxışlar yüksək səviyyədə bərpa edilmişdir. Şirvanşahlar sarayının bərpasında işləyən tanınmış İtaliya şirkətinin nümayəndələri yerli bərpaçılarla birgə işləmişlər.

*Onlar Almaniyada, Fransada, Böyük Britaniyada və digər Avropa ölkələrində sırf bu işlə məşğul olurlar və böyük təcrübələri var. İndi bizim yerli mütəxəssislərin də belə zərif bərpa işləri görmək təcrübəsi yaranır.*

*İkinci mərtəbədə yaradılmış Hacı Zeynalabdin Tağıyevin xatirə muzeyi ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, İtaliyanın «Eleka» şirkətinin mütəxəssisləri divarlarda, arakəsmələrdə, tavan və döşəmələrdə yüz il əvvəlki bəzək və naxışları aşkarlayıb ilkin formada bərpa etmişlər. O dövrdə quraşdırılmış qapı-pəncərələr, istilik və işıq sistemləri orijinal üslubda yeniləşdirilmişdir. İndiyədək bir-iki dəfə aparılan yüngül təmir zamanı otaqların ilkin görünüşü tamamilə dəyişdirilsə də, hazırlanmış layihəyə əsasən və şəkillərin köməyi ilə otaqların əvvəlki vəziyyəti qaytarılmışdır.*

*Dövlətimizin başçısı muzeydə çalışmış Azərbaycan və İtaliya mütəxəssisləri ilə görüşərək, onlara təşəkkür etdi, təmir-bərpa zamanı hər bir memarlıq elementinin qorunub saxlanılmasının asan iş olmadığını söylədi, binanın orijinal görkəminin saxlanıldığını xüsusi vurğuladı.*

*Azərbaycan prezidenti İlham Əliyev binanın keçmiş qonaq, yataq, yeməkxana, uşaq otaqları ilə tanış oldu. Əsasən Şərqdən gələn qonaqları qəbul etmək üçün nəzərdə tutulan dəbdəbəli Şərq salonunu, onun incə naxışlarını nəzərdən keçirdi, hər bir otağın ilkin görünüşünü, binanın ümumi fasadını əks etdirən şəkillərə, bərpa olunan ev əşyalarına, musiqi, idman alətlərinə, Zeynalabdin Tağıyevin indiyədək saxlanılan kitabxanasına da baxdı və otaqlardan eyvana çıxaraq ətrafı seyr etdi.*

*Dövlətimizin başçısı muzeyin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:* «Tarix muzeyi əsaslı təmirdən sonra öz fəaliyyətini davam etdirir. Muzeyin ekspozisiyası Azərbaycan tarixinin nə qədər qədim və zəngin olduğunu göstərir. Muzeyin bütün avadanlığı dünya standartlarına uyğundur. Muzeyin binası və daxili tərtibat Azərbaycanın milli sərvətidir. Biz muzeyi təmir etdirməklə bura yeni həyat verdik.

Azərbaycan xalqının böyük oğlu Hacı Zeynalabdin Tağıyevin evinin bərpası bizim mənəvi borcumuz idi. Öz zəhməti hesabına böyük maliyyə imkanlarını qazanmış bu şəxsiyyət Azərbaycan gənclərinin maarifləndirilməsinə böyük töhfələr vermişdir.

Əminəm ki, muzeyin bundan sonrakı fəaliyyəti həmişə olduğu kimi, uğurlu olacaqdır.

Tarix muzeyinin bütün əməkdaşlarına yeni uğurlar arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

28 dekabr 2007-ci il».

*Sonra dövlətimizin başçısı müasir dizaynı və avadanlığı ilə seçilən 120 yerlik konfrans salonuna və monitor-nəzarət otağına baxdı. Bildirildi ki, muzey həm də Milli Elmlər Akademiyasının strukturunda elmi-tədqiqat və mədəni-maarif müəssisəsi funksiyasını yerinə yetirir. Binanın üçüncü mərtəbəsindəki otaqlar bu məqsəd üçün nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeyin çıxışında quraşdırılmış və Azərbaycan, ingilis, rus və fransız dillərində yazmaq mümkün olan xüsusi elektron lövhəyə imza atdılar.*

*Akademik Nailə Vəlixanlı muzeyə, çoxsaylı abidələrə və mədəniyyət ocaqlarına ikinci həyat bəxş etdiyinə, bu işlərlə şəxsən maraqlandığına, tariximizə və mədəni irsimizə həssaslıqla yanaşdığına görə prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi.*

*Dövlətimizin başçısı bərpaçılara, inşaatçılara bir daha təşəkkür etdi, bu tarixi binaya və muzeyə çox sayda qonaqların gələcəyini bildirdi.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Ravalpindi şəhərində törədilmiş amansız terror aktı nəticəsində Pakistan Xalq Partiyasının lideri, görkəmli siyasi xadim, ölkənizin keçmiş Baş naziri xanım Bənazir Bhuttonun və çoxlu sayda insanın həlak olması xəbəri bizi hədsiz dərəcədə kədərləndirdi.

Bu dəhşətli hadisə terrorizmə qarşı mübarizədə bütün qüvvələrin səfərbər olunması, bəşəriyyət üçün daim təhlükə mənbəyi olan bu bəlaya qarşı birgə səylər göstərilməsi zərurətini bir daha təsdiqləyir.

Bu ağır anlarda dərdinizə şərik çıxır, Sizə, qardaş Pakistan xalqına, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 dekabr 2007-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV ADINA SARAYDA APARILAN ƏSASLI YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*28 dekabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 28-də Bakıda Heydər Əliyev adına sarayda aparılan əsaslı yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin sərəncamı ilə əsaslı şəkildə təmir edilən və yenidən qurulan çoxsaylı monumental binalardan biri olan bu sarayda işlərə aprel ayından başlanılmışdır. Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə yenidənqurma işlərini «Azər-aqrartikinti» və «Pim Proje» Türkiyə–Azərbaycan birgə müəssisəsi həyata keçirir. İşlərin gedişi ilə maraqlanan dövlətimizin başçısına məlumat verildi ki, söküntü işləri əsasən başa çatıb. Binanın fasadına İtaliyadan alınmış üzlük çəkilmişdir. Bütün istilik, işıqlandırma, səs və havalandırma sistemləri ən müasir standartlara uyğun quraşdırılmışdır. Binanın dam örtüyü tamamilə dəyişdirilib, inzibati korpusda rəngsazlıq işləri gedir. Səhnənin və salonun işıqlandırma və səsləndirmə sistemlərini idarə edəcək kinoproyeksiya korpusunda işlərin xeyli hissəsi görülmüşdür.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva səhnənin tərtibatının layihəsi ilə də maraqlandılar, tamaşa salonunun akustik divar elementlərinin bəzək-tamamlama işlərində istifadə olunacaq materiallara uyğun seçilməsi ilə bağlı tövsiyələrini verdilər.*

*Dövlətimizin başçısına salonda quraşdırılacaq oturacaqların və səhnə pərdəsinin nümunələri təqdim olundu.*

*Dövlətimizin başçısı foyedə görülən işlərlə maraqlandı, sarayın yenidən qurulmasının yüksək səviyyədə və vaxtında başa çatdırılması ilə əlaqədar tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ PARKDAKI MUSİQİLİ FƏVVARƏNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*28 dekabr 2007-ci il*

*Dekabrın 28-də Milli parkda, Muzey Mərkəzinin qarşısında tamamilə yenidən qurulmuş «Ağ» musiqili fəvvarə işə salınmışdır. Azərbaycan prezidenti İlham Əliyev açılışda iştirak etmişdir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov prezidentə onun tapşırığı əsasında burada görülən yenidənqurma işləri barədə ətraflı məlumat verdi. Bildirildi ki, fəvvarənin layihəsi İtaliyada hazırlanıb və mütəxəssislər də oradan gəlmişlər. Belə bir musiqili fəvvarə dünyada yeganədir və layihənin müəlliflik hüququ Azərbaycana məxsusdur. Fəvvarənin hovuzunda Braziliyadan hazır gətirilən ağ kristallik mərmərlər, ətrafa isə Yaponiya texnologiyası əsasında hazırlanan qranit döşənibdir.*

*Fəvvarənin ətrafındakı işıqlandırma sistemi yapon mütəxəssislərinin ideyasıdır. Fəvvarə və nasoslar zirzəmidə quraşdırılan avtomatik sistemlə idarə olunur.*

*Musiqi kompozisiyası Çaykovski, Ştraus və Sviridovun əsərləri, habelə Alim Qasımovun ifa etdiyi muğam əsasında hazırlanmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Milli parkda gəzintiyə, istirahətə çıxan sakinlərlə də görüşdülər. Dövlətimizin başçısı soydaşlarımıza ən xoş arzularını, qarşıdakı bayramlar münasibətilə təbriklərini yetirdi. Paytaxt sakinləri prezident İlham Əliyevin Vətən və xalq qarşısındakı xidmətlərini yüksək qiymətləndirdilər, ən səmimi arzularını çatdırdılar. Sonra xatirə şəkli çəkdirildi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SAHİBKARLIĞIN İNKİŞAFINDA MÜHÜM MƏRHƏLƏ OLAN «BİR PƏNCƏRƏ» SİSTEMİNİN TƏQDİMAT MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*29 dekabr 2007-ci il*

*Dekabrın 29-da Vergilər Nazirliyinin Xüsusi Rejimli Vergi Xidməti Departamentində Azərbaycanda sahibkarlığın inkişafında mühüm mərhələ olan «bir pəncərə» sisteminin təqdimat mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə departamentin binasında xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü önünə gül dəstəsi qoydu.*

*«Bir pəncərə» sisteminin tətbiqi proseduru ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi. Vergilər naziri Fazil Məmmədov bildirdi ki, dövlət başçısının «Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında» 2007-ci il 30 aprel tarixli fərmanı və «Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında» 2007-ci il 25 oktyabr tarixli sərəncamına uyğun olaraq, elektron hökumətin əsas elementlərindən olan «bir pəncərə» sistemi məlumatların bir mərkəzdə cəmləşdirilməsini, vergi qeydiyyatı da daxil olmaqla, bütün inzibati qeydiyyatların tamamilə sinxronlaşdırılmasını nəzərdə tutur. İş adamlarının mərkəzi sistemlə avtomatik, on-layn və davamlı əlaqəsi yaranır. Faktiki olaraq, bu, lisenziyaların mərkəzləşdirilmiş qaydada və elektron şəkildə təqdim edilməsi deməkdir. Bu zaman qeydiyyat prosedurlarının*

*sayı azalır və vaxt itkisinin qarşısı alınır. Qeydiyyatın «bir pəncərə» prinsipi üzrə aparılması sahibkarlıq sektoruna marağın güclənməsinə və biznesin inkişafına təkan vermişdir. Digər tərəfdən, «bir pəncərə» sisteminin tətbiqi investisiya mühitini daha da yaxşılaşdıracaq, sahibkarların dövlət qurumlarından asılılığını azaldacaq, uzunmüddətli qeydiyyat prosedurları ləğv olunacaq və sadələşdiriləcəkdir. Bu isə son nəticədə sahibkarın cəmi bir neçə gündə qeydiyyata alınmasına və fəaliyyətə başlamasına imkan verəcəkdir.*

*Bu, sərəncamda nəzərdə tutulduğu kimi, ölkədə sahibkarlığın inkişafının sürətləndirilməsi, biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün zəruri tədbirlərin görülməsi məqsədi ilə yeni ildən tətbiq olunacaqdır.*

*Prezident İlham Əliyev təqdim edilən ərizə əsasında kommersiya üzrə hüquqi şəxsin qeydiyyatı prosesinin yekun mərhələsi ilə tanış oldu. Dövlətimizin başçısının iştirakı ilə kommersiya üzrə hüquqi şəxs dövlət qeydiyyatına alındı. O da bildirildi ki, burada bütün məlumat kitabçaları qoyulub, elektron məlumat terminalları da sahibkarlara xidmət edir. Sistem vasitəsilə şəffaflıq tam təmin edilib və tətbiq olunan təcrübəyə görə, ölkəmiz Şərqi Avropa ölkələrini qabaqlayır.*

*İndiyədək hökumət lisenziya verən qurumların sayının azaldılması ilə əlaqədar tədbirlər görsə də, qeydiyyat məsələsində problemlər hələ də qalırdı. Sahibkarlar fəaliyyətə başlamaq üçün 15 prosedur üzrə sənəd toplamalı, həmin sənədləri əldə etmək üçün Vergilər, Kənd Təsərrüfatı, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərindən, Dövlət Statistika Komitəsindən, Sosial Müdafiə Fondundan və digər dövlət qurumlarından keçməli idilər. Bu isə ən azı 150 gün vaxt aparırdı. Hətta işə başlamaq üçün sahibkarlar 1 il gözləməyə məcbur idilər. «Bir pəncərə» sisteminin tətbiqindən sonra biznesini qeydiyyatdan keçirmək istəyən sahibkar əvvəllər olduğu kimi, 72 deyil, 3 gün gözləyəcək və tələb olunan prosedurların sayı 15-dən 5-ə qədər azaldılacaqdır. Sahibkarlar sənədlərini yalnız*

*bir dövlət orqanına – Vergilər Nazirliyinə təqdim etməklə qeydiyyatdan keçəcəklər. Bundan başqa, sənədlərin elektron sistemlə təqdim edilməsi də tətbiq olunacaqdır.*

*Sonra respublikanın bölgələrində fəaliyyət göstərən ərazi vergi orqanları ilə canlı bağlantı yaradıldı. Naxçıvan Muxtar Respublikası, Sumqayıt və Gəncə üzrə məruzələr dinlənildi.*

**İ l h a m  Ə l i y e v:** Mən sizi qarşıdan gələn Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Çox şadam ki, yeni il ərəfəsində Azərbaycanda belə gözəl mərkəzlər yaradılıb, fəaliyyətə başlayır və sahibkarlara gözəl xidmət göstərəcəkdir. Bu yenilikdir, müasirlikdir, gələcəyə doğru böyük addımdır. Əminəm ki, bu sistem tam şəkildə işə düşəndən sonra Azərbaycanda sahibkarlıqla məşğul olmaq istəyənlərin sayı daha da artacaqdır. Artıq bütün bürokratik əngəllər aradan qaldırıldı, ən sadələşdirilmiş sistem tətbiq edilir. «Bir pəncərə» sistemi dünyada ən mütərəqqi praktikadır. Əminəm ki, həm şəffaflıq təmin olunacaq, həm də sahibkarlıqla məşğul olmaq istəyənlər üçün daha yaxşı şərait yaradılacaq və bu sistemin işə düşməsindən sonra Azərbaycanda bütövlükdə iqtisadi inkişaf daha da yüksək sürətlə davam etdiriləcəkdir.

Azərbaycanda bütün sahələrdə ən müasir praktika tətbiq olunmalıdır. Biz bəzi hallarda dünyada ən gözəl təcrübəni götürüb istifadə edirik, bəzi hallarda isə inkişaf etmiş bir neçə ölkədən bir addım qabaqdayıq. Azərbaycan bax, bu cür inkişaf etməlidir. İndi mən bütün regionlarda olan şəraiti, təchiz edilmiş bütün müasir avadanlıqları görürəm. Əminəm ki, bütün regionlarda insanlara, sahibkarlara çox gözəl xidmət göstəriləcəkdir. Sağ olun.

* * *

*Sonra dövlətimizin başçısı bu ilin dekabrın 29-na olan vergi daxilolmalarına nəzər saldı, daha bir hüquqi şəxsin qeydiyyatı prosesini izlədi.*

*Prezident İlham Əliyevə Vergilər Nazirliyinin «195» telefon xidməti barədə də məlumat verildi. Bildirildi ki, bu telefon xidməti vergi ödəyicilərinin müraciətlərinə cavab verilməsi, vergi qanunvericiliyinə dair Azərbaycan, rus və ingilis dillərində operativ informasiya almaları üçündür. Hər gün saat 18.00-dan sonra xidmət avtomatik rejimə keçir.*

*Daha sonra dövlətimizin başçısı «bir pəncərə» sisteminin tətbiqi və avtomatlaşdırılmış vergi sistemi ilə tanış oldu, bununla bağlı filmə baxdı.*

*Prezident İlham Əliyevə 2007-ci ildə ölkədə həyata keçirilən vergi siyasəti barədə məlumat verildi. Vurğulandı ki, bu il xəzinəyə daxilolmalarda 47 faiz artım olmuşdur. Nazirliyin 300-dən çox nəzarət mexanizmi yaradılmışdır. Bəyannamə tərtibi üçün vaxt 952 saatdan 250 saata endirilmişdir. Əlavə dəyər vergisi ödəyicilərinin 90 faizi vergi əməliyyatlarını internet vasitəsilə həyata keçirməyə başlamışdır. Bu il əlavə dəyər vergisi üzrə daxilolmalar 584 min manatdan çox olmuş, gələn il isə 980 min manata çatacaqdır. Borclu vergi ödəyicilərinin sayı azalmış, elektron arxiv yaradılmış, vertikal nəzarət gücləndirilmiş, vergi nəzarətində insan amili minimuma endirilmişdir. Digər dövlət orqanları ilə inteqrasiya sürətlənmişdir.*

*Prezident İlham Əliyev dedi ki, qısa müddət ərzində görülən işlər bir daha təsdiqləyir ki, mənim qərarım düzgün qərar idi. Mən «bir pəncərə» sistemini məhz Vergilər Nazirliyinə tapşırmışam. Siz də bunu çox yaxşı icra etmisiniz. Tam şəffaflıq, rahatlıq, sahibkarlığın inkişafı üçün, nəzarətin gücləndirilməsi üçün çox böyük işlər görülübdür.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏHİYYƏ NAZİRLİYİNİN ALDIĞI YENİ TƏCİLİ TİBBİ YARDIM AVTOMOBİLLƏRİ VƏ AVADANLIĞI İLƏ TANIŞ OLMUŞDUR

*29 dekabr 2007-ci il*

*Bakının Azadlıq meydanında Səhiyyə Nazirliyinin aldığı yeni təcili tibbi yardım avtomobilləri və tibbi avadanlıq nümayiş etdirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev yeni avtomobillər və avadanlıqla tanış olmuşdur.*

*Dövlətimizin başçısı 2007-ci il 20 fevral tarixli «Təcili və təxirəsalınmaz tibbi yardım xidmətlərinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında» sərəncamına əsasən prezidentin ehtiyat fondundan ayrılmış 12 milyon manat vəsait hesabına Almaniyadan 150 ədəd «Mercedes» markalı təcili tibbi yardım avtomobili alınmışdır. Bunların 121-i «Mercedes-Benz» Vito, 10-u USM cihazı ilə, 2 ədədi pediatrik küvezlə təchiz olunmuş «Sprinter», 16-sı «Sprinter», 1 ədədi isə səyyar-stasionar ambulans avtomobilləridir. Bundan başqa, ABŞ istehsalı olan rəqəmsal «Tetra» və CPRS rabitə və motolokasiya sistemləri, təcili yardım briqadaları üçün xüsusi geyim dəstləri və dərman preparatları da alınmışdır.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına müraciətlə dedi:* – Cənab Prezident, bu texnika və avadanlıq Sizin Bakıda təcili və təxirəsalınmaz tibbi xidmətin səviyyəsinin yaxşılaşdırılması, şəhərin əhalisinin artması ilə əlaqədar bu xidmətlərə yaranan əlavə tələbatın ödənilməsi üçün gördüyünüz tədbirlərin bariz nəticəsidir.

*Prezident İlham Əliyev Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Xidmətinin maddi-texniki bazasının güc-*

*ləndirilməsində əhəmiyyətli rolu olacaq müasir tibbi avadanlıqla təchiz edilmiş təcili tibbi yardım avtomobilləri və onların texniki xüsusiyyətləri, etibarlı rabitə-dispetçer sistemi və dərman vasitələri ilə tanış oldu.*

*Məlumat verildi ki, əvvəllər bunların heç biri yox idi. Hazırda isə Bakı şəhəri üzrə ilkin tibbi yardım zamanı istifadə olunan müasir tipli cihazlar və aparatlarla təminat yüksək səviyyədədir. Səyyar şəraitdə istənilən xəstəyə beynəlxalq standartlara uyğun ilkin yardım göstərmək mümkündür. O cümlədən, yeni doğulan uşaqlar üçün lazım olan funksiyaya nəzarət etmək olur. Xüsusi maşında rentgen aparatı var və cərrahiyyə əməliyyatı da aparılır. Tibb işçiləri xüsusi məşqlər keçmiş, geyim dəstləri ilə təmin olunmuşlar. Ümumiyyətlə, bu avtomobillər inkişaf etmiş Avropa ölkələrində istifadə olunan maşınlardan da yaxşı təchiz edilmişdir.*

*Prezident İlham Əliyev rəqəmsal «Tetra» və CPRS rabitə və motolokasiya sistemi quraşdırılmış avtomobillərə də baxdı. Bildirildi ki, bu, dünyada ən qabaqcıl texnoloji səyyar dispetçer kommunikasiya sistemidir ki, təcili yardım briqadasının sabit müstəqil kanalla maneəsiz çoxtərəfli əlaqə qurmasına imkan yaradır. Hazırda bu sistemlə respublikamızın müxtəlif əraziləri – Abşeron yarımadası, Bakı–Tbilisi–Ceyhan neft kəməri boyunca yerləşən rayonlar, qismən də ölkəmizin şimal bölgəsi ilə əlaqə qurulur.*

*Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının dispetçer mərkəzi ilə maraqlanan dövlətimizin başçısına məlumat verildi ki, mərkəz vasitəsilə xəstənin evi, xəstəxana, mobil telefonla xətdə olan digər tibbi yardım briqadaları ilə əlaqə yaradılır. Keçmiş Semaşko adına xəstəxananın ərazisində yeni dispetçer mərkəzinin tikintisi başa çatmaqdadır. Xüsusi zalda quraşdırılan monitorlar vasitəsilə təcili yardım maşınlarının hərəkəti tənzimlənəcək, yəni xəstəyə kömək üçün hansı maşının tez çatmasını müəyyənləşdirmək mümkün olacaqdır.*

*Prezidentə nazirliyin Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının regional məntəqələrinin dislokasiyası barədə də*

*məlumat verildi. Bildirildi ki, 11 ayda 750 yol-nəqliyyat hadisəsinin baş verdiyi ərazidə yüzlərlə insanın həyatını xilas etmək mümkün olmuşdur. Demək olar ki, bütün regionlarda – Siyəzən üzrə (Xudat, Quba, Qusar, Dəvəçi, Xızı, Xaçmaz), Şamaxı üzrə (Ağsu, İsmayıllı, Qəbələ), Kürdəmir üzrə (Göyçay, Ucar, Zərdab), Əli Bayramlı üzrə (Hacıqabul, Sabirabad, Saatlı), Salyan üzrə (Biləsuvar, Neftçala, Cəlilabad), Masallı üzrə (Yardımlı, Lerik, Lənkəran, Astara), İmişli üzrə (Beyləqan, Ağcabədi, Füzuli), Yevlax üzrə (Ağdam, Bərdə, Tərtər, Mingəçevir, Ağdaş), Şəki üzrə (Balakən, Zaqatala, Qax, Oğuz), Gəncə üzrə (Xanlar, Goranboy, Naftalan, Daşkəsən, Samux), Şəmkir üzrə (Gədəbəy), Qazax üzrə (Tovuz, Ağstafa) məntəqələr vardır. Respublika üzrə təcili yardım çağırışlarının sayı 2007-ci ildə 1 milyon 169 min olmuş, bunun da 378 mini Bakı şəhərinin payına düşmüşdür. 2006-cı ildə bu göstərici respublika üzrə 1 milyon 65 min, o cümlədən paytaxt üzrə 330 min idi. Təcili və təxirəsalınmaz tibbi yardım briqadaları tələb olunan 87 adda dərman preparatları və sarğı materialları, oksigen qurğuları, venadaxili vurulan məhlullar və transfuziya sistemləri ilə tam təmin edilmişlər.*

*Ümumdünya Səhiyyə Təşkilatı ilə birgə beynəlxalq dispetçer təcrübəsi lövhəsi də hazırlanmışdır. Burada dispetçerə verilən suallar, təcili yardım maşınının göndərilməsi və s. barədə təlimatlar asılmışdır.*

*Prezident İlham Əliyev əvvəllər təcili yardım maşınlarının nasaz vəziyyətdə, avadanlıq və dərman preparatları ilə təchizatının aşağı səviyyədə olduğunu diqqətə çatdırdı, artıq bu problemin aradan qaldırıldığını bildirdi.*

*Dövlətimizin başçısı profilaktik rentgen-flüoqrafik müayinələr aparmaq üçün nəzərdə tutulan və mobil diaqnostika kompleksi yerləşən, habelə rayonlara göndəriləcək yeni avtomobillərə baxdı. Bildirildi ki, hər cür şəraiti olan avtomobillərdən 3 ədədi Şəmkir, Kürdəmir və Yevlax rayonlarına veriləcəkdir. Keçən il dövlət başçısının göstərişi əsasında 3 ədəd mobil diaqnostika kompleksinə malik avtomobil də alınmışdır.*

*Bunların daxilində rentgen, laboratoriya, ultrasonoqrafiya və ginekologiya cihazları vardır. Bakı şəhəri üzrə təcili tibbi yardım maşını çağırmaq üçün 103, regionlar üzrə isə 113 nömrəsinə zəng etmək lazımdır.*

*Prezident İlham Əliyev vurğuladı ki, bundan sonra Bakıda köhnə maşınları görməyəcəyik. Rusiya istehsalı olan maşınlar hələlik rayonlara göndəriləcəkdir. Onlar da yaxşıdır, amma, əlbəttə, yeni alınanlarla müqayisə oluna bilməz. Bu, dünya səviyyəsindədir. Azərbaycanda hər şey dünya səviyyəsində olmalıdır. Xüsusilə insanların sağlamlığı ilə bağlı olan məsələlər. Ona görə biz bu tədbirləri görürük.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA DÖVLƏT BAYRAĞI MEYDANININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*30 dekabr 2007-ci il*

*Bakıda Bayıl qəsəbəsində – Hərbi Dəniz Qüvvələrinin bazası yaxınlığında Dövlət bayrağı meydanının təməli qoyulmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə iştirak etmək üçün əraziyə gəldi. Burada dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Müdafiə naziri general-polkovnik Səfər Əbiyev Azərbaycan prezidenti İlham Əliyevə raport verdi:* «Cənab Ali Baş komandan, şəxsi heyət Dövlət bayrağı meydanının təməlqoyma mərasiminə hazırdır».

*Prezident İlham Əliyev mərasimə toplaşan dövlət və hökumət nümayəndələri ilə görüşdü, meydanın layihəsi ilə tanış oldu, meydanın və bayrağın görünüşünü əks etdirən fotoşəkillərə baxdı. Burada dövlətimizin başçısı tərəfindən bu il noyabrın 17-də imzalanmış «Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında» sərəncamın mətni də vurulmuşdu.*

*Müdafiə naziri meydan üçün seçilmiş yerin Dövlət bayrağının paytaxtın müxtəlif nöqtələrindən görünməsinə imkan yaradacağını vurğuladı.*

*Bildirildi ki, Amerika Birləşmiş Ştatlarının «Trident Support» şirkəti tərəfindən hazırlanmış layihənin icrasını Azərbaycanın «Azenko» şirkəti yerinə yetirəcəkdir. Bütün işlər 2008-ci il mayın 24-də başa çatdırılacaq, mayın 28-i – Respub-*

*lika günündə isə rəsmi açılış mərasimi keçiriləcəkdir. 20 min kvadratmetr ərazisi olacaq meydanda bütün infrastruktur yaradılacaqdır.*

**D e y v i d  Ç a m b e r s** (*«Trident Support» şirkətinin təsisçisi və idarəedici direktoru)*: Cənab Prezident, dəstəyinizə görə minnətdaram. Bu cür milli layihədə iştirak etmək imkanını yaratdığınıza görə Sizə təşəkkürümü bildirirəm. Şirkətimiz bir sıra ölkələrdə nəhəng Dövlət bayrağı meydanları tikmişdir. Sizə deməliyəm ki, ölkənizdə bu təşəbbüsə xüsusi həvəslə və milli qürur hissi ilə yanaşırlar. Budəfəki mərasim digər ölkələrdəki mərasimlərdən xeyli fərqlənir.

Şirkətimiz Fars körfəzi regionunda üç nəhəng Dövlət bayrağı meydanı tikmişdir. Abu-Dabidə 123 metrlik, Əmmanda 127 metrlik, Akabada isə 131 metrlik bayraq dayağı quraşdırmışıq. Burada isə dayağın hündürlüyü 150 metr olacaqdır və bu bizim üçün, sözün əsl mənasında, böyük bir sınaqdır. Ölkəniz üçün bu işi görməkdən çox məmnunuq.

İcazənizlə, Dövlət bayrağı meydanının texniki parametrləri haqqında bir neçə kəlmə deyim. Dayağın bünövrəsinin diametri 3,2 metr olacaqdır. Müqayisə üçün bildirmək istəyirəm ki, biz Akabada diametri yalnız 2,8 metr olan bünövrədən istifadə etmişik. Bünövrənin üst hissəsinin diametri 1,09 metrdir. Dayağın alt hissəsindəki qalınlıq 40 millimetrdir. Onun bir nümunəsini Sizə göstərirəm.

**İ l h a m  Ə l i y e v:** Bu, aşağı hissədə belə olacaq?

**D e y v i d  Ç a m b e r s:** Bəli, aşağı hissədə. Dayağın yuxarı hissəsinə qədər biz 13 seksiyadan istifadə etmişik. Yəni, hündürlüyə qalxdıqca enlik azalır və beləliklə, ən zirvədə qalınlıq 10 millimetr təşkil edir. Bu, küləyin təsirini azaltmaq məqsədi ilə hesablanmışdır. Qurğunun ümumi çəkisi 220 tondur. Dayaq küləyin sürəti saatda 209 kilometr olduqda da davam gətirəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Hava şəraitindən, küləkdən yəqin ki, xəbəriniz var. Xüsusən də bu ərazidə. Buradan 2 kilometr məsafədə, digər istiqamətdə külək yoxdur. Amma burada var.

**D e y v i d   Ç a m b e r s:** Bəli, məlumatım var. Mən burada çox küləkli hava şəraitində olmuşam. Biz bunu nəzərə almışıq. Zirvədə küləyin maksimum sürəti saatda 200 kilometr olanda, 150 metrlik dayaq 4,2 metr əyiləcəkdir.

**İ l h a m   Ə l i y e v:** Lakin bu görünməyəcəkdir.

**D e y v i d   Ç a m b e r s:** Xeyr, görünməyəcəkdir. Normal havada dayaq üst hissədə təqribən 2-3 düym əyilir. Mən bunu bilirəm, çünki həmin hündürlükdə olmuşam. İşlərimizi başa çatdırdıqdan sonra Sizinlə məmnuniyyətlə açılışda iştirak edəcəyik.

Bayrağın özünə gəldikdə, bildiyiniz kimi, o 35x70 metrdir. Yəni onun sahəsi 2450 kvadratmetr təşkil edir.

**İ l h a m   Ə l i y e v:** 2450 kvadratmert?!

**D e y v i d   Ç a m b e r s:** Bəli, çəkisi isə təqribən 350 kiloqramdır.

**İ l h a m   Ə l i y e v:** Bayrağın çəkisi 350 kiloqramdır?!

**D e y v i d   Ç a m b e r s:** Bəli, təkcə bayraq 350 kiloqramdır. Biz onun materialı üçün çox davamlı xüsusi poliest materialından istifadə edirik. O yumşaqdır, lakin çox davamlıdır.

**İ l h a m   Ə l i y e v:** Biz binalarda dalğalanan bayraqları tez-tez dəyişməli oluruq. Bu cür bayrağın orta istifadə müddəti nə qədərdir?

**D e y v i d   Ç a m b e r s:** Üç və ya dörd həftə, təqribən bir ay. Bu, uzun müddətdir.

**İ l h a m   Ə l i y e v:** Bir ay.

**D e y v i d   Ç a m b e r s:** Bəli. Bəzi hallarda bayraqlar iki və ya üç gün istifadə olunma müddəti ilə hazırlanır. Lakin böyük bayraqlara gəldikdə, onlar davamlı olur. Biz uzun illər ərzində dayaqların dizaynı üzərində işləmişik və bayrağın möhkəm olmasına tam əminik.

**İ l h a m   Ə l i y e v:** Çox sağ olun.

**D e y v i d   Ç a m b e r s:** Cənab Prezident, Siz sağ olun, buraya gəldiyinizə görə minnətdaram.

* * *

**İ l h a m  Ə l i y e v**: Azərbaycanda Dövlət bayrağı meydanı yaradılır. Mən bu barədə keçən ay sərəncam imzaladım. Əlbəttə ki, biz o vaxta qədər müxtəlif yerlərə baxmışdıq və məhz bu yeri seçdik. Çox gözəl yerdir, bir az təpədə yerləşir və buradan şəhərə çox gözəl mənzərə açılır. Eyni zamanda, şəhərin əksər yerlərindən bu yer görünür. Xüsusilə nəzərə alsaq ki, bayrağın dayağının hündürlüyü 150 metr olacaq, Azərbaycanın bu dövlət rəmzi Bakı şəhərində dalğalanacaqdır. Bu bizim müstəqilliyimizdir, bizim azadlığımızdır.

Bakıda, başqa şəhər və rayonlarda bizim dövlət bayraqları müxtəlif yerlərdə ucaldılır. Mən bu göstərişi vermişəm. Ancaq bu bayraq, əlbəttə, bütün bayraqlardan son dərəcə fərqlənir. Həm ona görə ki, bu çox böyük bayraqdır. Bunun ölçüləri 70x35 metrdir. Çəkisi də çox ağırdır, 350 kiloqram ancaq bayrağın çəkisi olacaqdır. Həm də ona görə fərqlənir ki, bu bayraq Dövlət bayrağı meydanında ucaldılacaqdır. Əlbəttə, bu ərazi abadlaşdırılacaqdır. Artıq burada «Azərenerji» böyük işlər görübdür, texnika gətiribdir. Çox mürəkkəb bir iş olacaqdır. Belə böyük bayrağı texniki baxımdan qurmaq çox böyük peşəkarlıq tələb edir. Bu bizdə var – texnika var, peşəkarlıq var. Əminəm ki, bizim bayrağımız, milli rəmzimiz bizi Azərbaycanın xoşbəxt gələcəyinə aparacaqdır. Bayrağımız həmişə uca olacaqdır.

**E t i b a r  P i r v e r d i y e v** *(«Azərenerji» SC-nin prezidenti)*: Sizin göstərişinizlə biz, çox çətinliklə də olsa, xüsusi kran tapa bildik. Bayrağın qaldırılmasında ən çətin, texniki və məhdudlaşdırıcı elementlərdən biri həmin hündürlükdə işləyə bilən xüsusi kranın olmasıdır. Biz 188 metr hündürlükdə işləyə bilən və yükqaldırma qabiliyyəti 600 ton olan kranın əsas hissələrini gətirmişik, buradadır.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı. Mən Azərbaycanda Dövlət bayrağı meydanının yaradılması haqqında sərəncamı bu il noyabrın 17-də imzaladım. Bu da təsadüfi deyildir. Çünki məhz 1990-cı il noyabrın 17-də ilk dəfə olaraq Azərbaycanda,

Naxçıvanda ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilən Naxçıvan Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanın Dövlət bayrağı kimi qaldırılmışdı. Bildiyiniz kimi, bizim bayrağımız 1918-ci ildə ucaldılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti, müstəqil Azərbaycan dövləti yarananda bu bayraq Azərbaycanın Dövlət bayrağı elan edilmişdi. Ancaq 1920-ci ildə xalq cümhuriyyəti süqut edəndə, əlbəttə, bayraq da dəyişdirildi. 1990-cı ildə – onda hələ Azərbaycan müstəqil deyildi – ulu öndərimiz bu bayrağı Azərbaycanın və Naxçıvanın rəsmi bayrağı elan etdi. Bir neçə aydan sonra isə, 1991-ci ilin fevral ayında bu bayraq Azərbaycanın Dövlət bayrağı kimi elan edildi. Yəni, bu tarixdir. Bu bir daha onu göstərir ki, ulu öndərimiz Azərbaycanın müstəqilliyi üçün çox böyük işlər görmüşdür. Hələ o zaman ki, Azərbaycan müstəqil dövlət deyildi, bu bayraq Azərbaycanın, bizim müstəqilliyimizin simvolu oldu.

Azərbaycan xalqı əsrlər boyu müstəqillikdən məhrum olmuşdur. Bizim öz dövlətimiz yox idi və azərbaycanlılar başqa ölkələrin tərkibində yaşayırdılar. Müstəqillik ən böyük sərvətdir, ən böyük xoşbəxtlikdir. Biz öz taleyimizi özümüz həll edirik. Bizim müstəqil Azərbaycan dövlətimiz var və bu dövlət günü-gündən möhkəmlənir. Hər bir dövlətin rəsmi simvolları var. Ancaq bu simvollarla yanaşı, müstəqil siyasət aparmaq heç də hər bir dövlətin işi deyildir. Bizi bir sıra ölkələrdən, o cümlədən bizim bölgədə yerləşən bəzi ölkələrdən fərqləndirən odur ki, biz müstəqil siyasət aparırıq. Azərbaycan, sözün əsl mənasında, müstəqil dövlətdir və bu müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük xoşbəxtlikdir. Bizim müstəqilliyimizi əks etdirən, onun rəsmi rəmzi olan bayrağımız dalğalanmalıdır. Bu gözəl bayraq Bakının bütün yerlərindən görünəcəkdir.

* * *

*Mərasimdən xatirə olaraq prezidentə hədiyyə təqdim olundu.*

*Sonra təməlqoyma mərasimi başlandı. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi:* «Möh-

tərəm Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı! Fəxri qarovul Sizin gəlməyiniz münasibətilə düzülmüşdür».

*Prezident İlham Əliyev Fəxri qarovulun əsgərlərini salamladı.*

*Dövlətimizin başçısı gilizi təmələ qoydu və beton qarışığı tökdü. Bu işi dövlət və hökumət nümayəndələri də icra etdilər.*

*Prezident İlham Əliyev gələcəkdə ilin bütün aylarında turistlərin və paytaxta gələn qonaqların buranı görməsi, tədbirlərin keçirilməsi baxımından da əhəmiyyət daşıdığını söylədi.*

*Dövlətimizin başçısı meydanın yerləşəcəyi ərazinin ətrafında abadlıq işlərinin də ən yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi, mərasim iştirakçılarını qarşıdan gələn bayramlar münasibətilə təbrik etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKININ NƏRİMANOV RAYONU ƏRAZİSİNDƏ YENİ SALINAN YOLUN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

*30 dekabr 2007-ci il*

*Bakının Nərimanov rayonu ərazisində, Nəsib bəy Yusifbəyli küçəsində yeni salınan yol istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev açılışda iştirak etmişdir.*

*Dövlətimizin başçısı yeni yolun planı və burada hərəkətin təşkilinin sxemi ilə tanış oldu. Nəqliyyat naziri Ziya Məmmədov məlumat verərək dedi:* – Cənab Prezident, Sizin şəxsi təşəbbüsünüz və tapşırığınızla bu ərazidə müasir standartlara uyğun salınmış təxminən 1,5 kilometrlik yolun ümumi eni 16 metr, hərəkət hissəsi isə 15 metrdir. Dörd hərəkət zolağının hər birinin eni 3,75 metrdir. Bakı şəhərində nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi məqsədi ilə verdiyiniz göstərişə əsasən, yolun «Gənclik» meydanından Ceyhun Hacıbəyli küçəsinədək olan 650 metrlik hissəsi dekabrın 14-də Sizin iştirakınızla istifadəyə verilmişdir. Bu yolu prospektə çevirmək məqsədi ilə onu Nəsimi rayonu ərazisinə, Səməd Vurğun küçəsinə qədər uzatmışıq. Yola mane olan tikililər sökülmüş, ensiz yerlər genişləndirilmiş, işıqforlar və yol nişanları qoyulmuşdur. Piyadaların gediş-gəlişi üçün də şərait yaradılmışdır. Nəqliyyat vasitələri bu yolla hərəkət etməklə Ceyhun Hacıbəyli küçəsinə, Həsən Əliyev prospektinə, Mirəli Qaşqay küçəsinə, Azadlıq prospektinə, Xan Şuşinski, Səməd Vurğun küçələrinə çıxa biləcəkdir. Ümumən, yeni yol nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsində və tıxacların aradan qaldırılmasında əhəmiyyətli rol oynayacaqdır. Bu yolun bir

üstünlüyü də ondan ibarətdir ki, «Gənclik» meydanı istiqamətinə gedən əsas küçələr prospektlərlə birləşəcəkdir.

*Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirərək, yeni yolun «Anten» deyilən ərazi hesabına açıldığını vurğuladı və başqa yerlərdə də yeni yolların salınmasının zəruriliyini söylədi.*

*Nəqliyyat naziri bildirdi ki, hazırda «Gənclik» meydanından Təbriz küçəsi istiqamətində yeni yolun çəkilməsi ilə bağlı layihə üzərində iş gedir. Bu, gediş-gəlişi asanlaşdıracaq və yeni infrastruktur yaranacaqdır.*

*Həmin ərazidə gələcəkdə Diplomatik Akademiya üçün binanın tikiləcəyi də nəzərə alınsa, bu yola ehtiyac böyükdür.*

*Yeni açılan yol bütün istiqamətlərə gediş-gəlişi təmin etdiyinə görə, «Gənclik» meydanından Vaqif küçəsinə doğru gedən yol 7–10 metr genişləndiriləcəkdir.*

*Dövlətimizin başçısı Vaqif küçəsinə də baxdı, burada hərəkət intensiv olduğuna görə təhlükəsizlik üçün onun maksimum genişləndirilməsinin zəruriliyini vurğuladı və dedi ki, Dədə Qorqud parkının yanından «Gənclik» meydanına qədər hərəkətin rahatlığının təmin edilməsi məqsədəuyğundur.*

*Prezident İlham Əliyev avtomobilə əyləşərək, Nəsib bəy Yusifbəyli küçəsi ilə hərəkət etdi, salınan yolun keyfiyyəti ilə maraqlandı, tıxacların aradan qaldırılması üçün digər yeni yolların tikilməsi ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

*Nazir Ziya Məmmədov bildirdi ki, bu yolun keçmiş Papanin küçəsi ilə birləşdirilməsi də nəzərdə tutulur. Nəqliyyat vasitələri Səməd Vurğun küçəsindən keçməklə həmin küçəyə sərbəst çıxa biləcəkdir. Tibb Universitetinin ərazisindən heç bir problem yaradılmadan yeraltı tunel tikiləcəkdir.*

*Dövlətimizin başçısına Bakı şəhərində tikintisi davam etdirilən digər obyektlər barədə də məlumat verildi.*

*Prezident İlham Əliyev bütün işlərin müasir səviyyədə, keyfiyyətlə icra olunmasının vacibliyini vurğuladı.*

## PREZİDENT İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Mən sizin hamınızı Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm. 2007-ci il tarixdə qalır. Bu il Azərbaycanın hərtərəfli inkişafı üçün çox uğurlu il olmuşdur. 2007-ci ildə Azərbaycan öz beynəlxalq mövqelərini möhkəmləndirmiş, böyük iqtisadi inkişafa nail ola bilmişdir. Bizim ölkəmiz çox sürətlə inkişaf edir. Ölkəmizin bütün sahələri çox uğurla və sürətlə inkişaf edir. İqtisadi inkişafda Azərbaycan üçüncü ildir ki, dünyada öz mövqelərini, liderlik mövqelərini saxlaya bilmişdir.

Bildiyiniz kimi, 2005-ci ildə Azərbaycan iqtisadiyyatı 26 faiz, 2006-cı ildə isə 35 faiz artmışdır. Bu yüksək dinamika 2007-ci ildə də saxlanılmışdır. Bu il Azərbaycan iqtisadiyyatı 25 faiz artmışdır. Bu, dünyada analoqu olmayan bir göstəricidir və şübhəsiz ki, Azərbaycanın bütün inkişafına çox yüksək dərəcədə müsbət təsir göstərən amildir. Azərbaycanın iqtisadiyyatı inkişaf etdikcə, bütün sahələrdə irəliləyiş, canlanma müşahidə olunur. Bizim büdcə xərclərimiz artır. 2003-cü illə müqayisədə büdcə xərclərimiz 10 dəfə artmışdır. Azərbaycanın icmal büdcəsi gələn il 12 milyard dollar təşkil edəcəkdir. Bu çox böyük rəqəmdir və bizə imkan verəcək ki, ölkənin qarşısında duran bütün vəzifələri uğurla yerinə yetirə bilək.

Bildiyiniz kimi, Azərbaycanda dörd ilə yaxındır regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra olunur. Bu proqramın Azərbaycanın bölgələrinin inkişafının təmin edilməsi üçün çox böyük rolu olmuşdur. Böyük qürur hissi ilə deyə bilərəm ki, bu dörd il ərzində Azərbaycanda 600 mindən çox

yeni iş yeri açılmışdır ki, onların da 460 mini daimi iş yeridir. Beləliklə, 2003-cü ildə verilən vədlər nəinki 2008-ci ilin sonunda, 2008-ci ilin əvvəlində yerinə yetirilmişdir. Yeni iş yerlərinin açılması həm məşğulluq deməkdir, həm də yeni müəssisələr, fabriklər deməkdir.

Biz Azərbaycan iqtisadiyyatını şaxələndiririk. Biz neft-qaz amilindən asılılığımızı azaldırıq, ölkə iqtisadiyyatı çoxşaxəli olmalıdır və biz buna nail olacağıq. Bütün nailiyyətlərlə yanaşı, eyni zamanda, sosial məsələlər də daim diqqət mərkəzində olmuşdur. Bu sahəyə böyük investisiyalar qoyulur və bizim büdcəmizin sosialyönümlülüyü qorunub saxlanılır. İnvestisiyalarla bərabər, sosial məsələlərə də böyük diqqət göstərilməlidir. Çünki biz xalq üçün çalışırıq, xalq üçün yaşayırıq və işləyirik. Bizim başlıca amalımız Azərbaycan xalqının firavan yaşamasıdır.

2007-ci ildə minimum əməkhaqqı və pensiyalar artırılmışdır. Büdcədən maliyyələşən təşkilatlarda işləyənlərin əməkhaqları artırılmışdır. Bildiyiniz kimi, 2008-ci il yanvarın 1-dən minimum əməkhaqqı və minimum pensiya 20 faiz artacaq və 60 manata çatacaqdır. Bu, böyük irəliləyişdir. Ancaq, əlbəttə, bu rəqəm hələ ki, bizi tam şəkildə qane edə bilməz. Biz istəyirik ki, Azərbaycan vətəndaşları – istər dövlət təşkilatlarında işləyənlər, istərsə də pensiyaçılar normal əməkhaqları və pensiyalar alsınlar. Bu əməkhaqları və pensiyalar onların bütün tələbatlarını ödəyə bilsin. Biz buna gedirik və o gün uzaqda deyildir. Hələ ki, minimum əməkhaqqının və pensiyanın artım dinamikası çox ümidvericidir və bizə imkan verəcək ki, Azərbaycan vətəndaşlarının bütün tələbatlarını lazımi səviyyədə ödəyək.

Sosial məsələlərə gəldikdə, bunlar sadəcə, əməkhaqları və pensiyaların verilməsi ilə məhdudlaşmır. Eyni zamanda, sosial infrastruktura qoyulan investisiyalar da bu məsələlərin həllinə böyük kömək göstərir. Sizə deyə bilərəm ki, son dörd il ərzində Azərbaycanda 1200-dən çox yeni məktəb tikilibdir, yüzlərlə məktəb təmir olunubdur və bu proses 2008-ci ildə davam

etdiriləcəkdir. Onlarca yeni xəstəxana, poliklinika tikilməsi, ən ucqar yerlərdə yüksək səviyyəli tibbi xidmətin təmin edilməsi nəzərdə tutulur. Bütün bunlar Azərbaycanda sosial sahənin inkişafı üçün çox vacib olan amillərdir və şübhəsiz ki, 2008-ci ildə bu sahəyə daha da böyük diqqət göstəriləcəkdir. Bizim iqtisadi imkanlarımız, iqtisadi qüdrətimiz artır. Azərbaycanın bölgədəki mövqeləri möhkəmlənir və əlbəttə, növbəti illərdə sosial məsələlərin həllinə daha da böyük səylər göstərəcəyik.

2007-ci ildə Azərbaycanın gələcək inkişafı üçün çox böyük və tarixi hadisələr baş vermişdir. Daha doğrusu, bu hadisələri biz yaradırıq. Öz siyasətimizlə, öz iradəmizlə Azərbaycan üçün, xalqımız üçün lazım olan bütün şəraiti yaradırıq. 2007-ci ildə Bakı–Tbilisi–Ceyhan neft kəməri, demək olar ki, tam gücü ilə işləməyə başlamışdır. Vaxtilə bu layihəyə şübhə ilə yanaşan, yaxud da ona əngəllər törətmək istəyənlər artıq görürlər ki, buna nail ola bilmədilər. Biz qarşıda duran bütün vəzifələri uğurla icra etmişik. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilməsi və uğurla fəaliyyət göstərməsi, əlbəttə ki, Azərbaycanın iqtisadi potensialını artırır.

Bu il biz Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin istismarına nail olmuşuq. Bu gün Azərbaycan qazı həm ölkə əhalisinin tələbatını ödəyir – gələcək illərdə daha da böyük həcmdə ödəyəcəkdir – həm də qonşu ölkələrə ixrac edilir. Bu gün biz öz qaz imkanlarımızdan istifadə edib bölgədə siyasi və iqtisadi gücümüzü möhkəmləndiririk. Artıq üç ölkəyə Azərbaycan qazı ixrac edilir və gələcəkdə bu ölkələrin coğrafiyası genişlənəcəkdir. Bu bizə həm iqtisadi dividentlər gətirəcək, həm də siyasi mövqelərimizi əhəmiyyətli dərəcədə möhkəmləndirəcəkdir. Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyi üçün çox önəmli ölkəyə çevrilir və biz bundan olduqca məmnunuq. Əlbəttə ki, Azərbaycan xalqının milli maraqlarının qorunması üçün bu amildən uğurla istifadə edəcəyik.

2007-ci ildə Bakı–Tbilisi–Qars dəmir yolunun təməli qoyulmuşdur. Bu layihə uzun illər idi ki, müzakirə mövzusu idi. Ancaq biz bunu həyata keçirdik, biz bunu reallığa çevirdik.

Baxmayaraq ki, bu layihəyə beynəlxalq maliyyə qurumları tərəfindən o qədər də böyük dəstək yox idi, əksinə, bəzi xarici qüvvələr bu layihəni əngəlləmək üçün böyük səylər göstərmişlər. Amma bizim iradəmiz, qonşu dost ölkələrin birgə fəaliyyəti imkan verdi ki, biz buna da nail olduq. Bunun Azərbaycan üçün və xalqımız üçün çox böyük tarixi əhəmiyyəti olacaqdır. Biz bu dəmir yolunun tikintisi ilə özümüzü Türkiyə ilə birləşdiririk, Avropanı Asiya ilə birləşdiririk və beləliklə, Azərbaycan tranzit ölkə kimi, nəinki enerji, eyni zamanda, nəqliyyat baxımından əvəzolunmaz ölkəyə çevrilir. Bunun nə demək olduğunu izah etməyə ehtiyac yoxdur. Bu o deməkdir ki, Azərbaycan daha da güclü mövqelərə malik olacaq, Azərbaycanın maraqları daha da yüksək dərəcədə qorunacaq, Azərbaycanla daha da çox hesablaşacaqlar və bizim sözümüz daha çox əhəmiyyət kəsb edəcəkdir.

Energetika sahəsində bu illərdə daha da böyük işlər görülür. Yeni elektrik stansiyaları tikilir, elektrik xətləri çəkilir. Son iki il ərzində 450 meqavat gücündə elektrik stansiyaları tikilmişdir və 2008-ci ildə 800 meqavat gücündə elektrik stansiyalarının işə düşməsi nəzərdə tutulur. Bu, ölkənin elektrik enerjisinə olan tələbatını tam şəkildə ödəyəcək və Azərbaycanın gələcək iqtisadi inkişafı üçün də çox güclü şərait yaradacaqdır.

Bildiyiniz kimi, nəqliyyat sektoruna çox böyük investisiyalar qoyulur. Həm Bakıda, həm də Azərbaycanın bölgələrində bu sahəyə çox böyük diqqət var. Bakının nəqliyyat problemlərinin aradan qaldırılması üçün qısa müddət ərzində və çox böyük keyfiyyətlə nə qədər böyük işlər görülübdür. Bakını müasir şəhərə çevirmək üçün təkcə tarixi binaların təmiri yetərli deyil, eyni zamanda, müasir infrastruktur yaradılmalıdır. İnsanların rahatlığı üçün nəqliyyatın hərəkəti tənzimlənməlidir və bildiyiniz kimi, bu sahəyə böyük investisiya qoyulur və qoyulacaqdır.

Əziz dostlar, bir sözlə, 2007-ci ildə görülən bütün işləri sadalamaq üçün bir neçə saat vaxt lazımdır. Sadəcə olaraq, mən əsas məqamları sizin diqqətinizə çatdırmaq istəyirəm. Çünki

ölkə daxilində proseslər çox uğurla gedir, ölkədə ictimai-siyasi sabitlik tam bərqərar olunmuşdur. Xalqla iqtidar arasında birlik tam şəkildə təmin olunmuşdur və bizim bütün işlərimizin məqsədi, bütün amalımız xalqa xidmət etməkdir. Mən bu vəzifəni icra edirəm və bundan sonra da öz səylərimi əsirgəməyəcəyəm.

Azərbaycanın beynəlxalq, xarici müstəvidə olan mövqeləri də möhkəmlənmişdir. 2007-ci ildə xarici ölkələrin dövlət və hökumət başçılarının Azərbaycana səfərləri və mənim xarici ölkələrə səfərlərim, eyni zamanda, beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığımız Azərbaycanın inkişafı üçün çox gözəl şərait yaratmışdır. Biz daha da çox müttəfiqlər qazandıq, daha da çox dost ölkələr qazandıq. Azərbaycanın ərazi bütövlüyü bütün dünya ictimaiyyəti tərəfindən dəstəklənir və ikitərəfli müstəvidə keçirdiyim bütün görüşlərdə və imzaladığım sənədlərdə Azərbaycanın ərazi bütövlüyü prinsipi öz əksini tapmışdır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, əfsuslar olsun ki, 2007-ci ildə öz həllini tapmadı. Amma günah bizdə deyil, günah Ermənistanın qeyri-konstruktiv mövqeyindədir. Biz danışıqlara hazırıq və bu danışıqları aparırıq. Baxmayaraq ki, danışıqların hələ heç bir nəticəsi yoxdur. Sadəcə olaraq, biz çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək, beynəlxalq hüquq əsasında həll edək. Əfsuslar olsun, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi, işğalçı siyasəti imkan vermədi ki, biz 2007-ci ildə bu məsələni həll edək.

Biz öz ərazi bütövlüyümüzü heç vaxt güzəştə getməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Azərbaycan rəhbərliyi və Azərbaycan xalqı heç vaxt bununla razı olmayacaqdır. Beynəlxalq ictimaiyyət isə Dağlıq Qarabağın müstəqilliyini heç vaxt tanımayacaqdır. Biz danışıqları bu istiqamətdə aparırıq. Sizə deyə bilərəm ki, danışıqların əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın zəbt olunmuş bütün torpaqları işğalçılardan azad edilsin, Azərbaycan vətəndaşları – məcburi

köçkünlər həmin torpaqlara qayıtsınlar, o cümlədən də Dağlıq Qarabağa qayıtsınlar. Bu bizim prinsipial mövqeyimizdir və bu mövqedən bir addım da geri çəkilməyəcəyik. Ermənistan bunu nə qədər tez başa düşsə, onlar üçün bir o qədər yaxşıdır. Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Əgər Dağlıq Qarabağda yaşayan ermənilər öz müqəddəratını həll etmək istəyirlərsə, onu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etsinlər, yaxud da əgər bunu istəmirlərsə, onda Dağlıq Qarabağdan çıxıb başqa yerdə özləri üçün ikinci dövlət yaratsınlar. Hər halda, Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılması qeyri-mümkündür. Bizim prinsipial mövqeyimiz günü-gündən daha da çox beynəlxalq dəstək qazanır. Eyni zamanda, bir daha demək istəyirəm ki, biz danışıqlar prosesini bu istiqamətdə davam etdirəcəyik.

Bununla yanaşı, ordu potensialımızı da gücləndiririk. Biz danışıqlara sadiqik, danışıqlar prosesi gedir və hələ bir müddət gedəcəkdir. Hələ ki, bizim ümidlərimiz tam tükənməyibdir. Ancaq biz hər şeyə hazır olmalıyıq. Siz mənim bu barədə mövqeyimi yaxşı bilirsiniz. Mən hər şeyi xalqa olduğu kimi deyirəm.

Artıq bir neçə ildir ki, Azərbaycanın ordu potensialı daha da çox artırılır. Artıq bir neçə ildir ki, hərbi xərclərə yüz milyonlarla dollar yönəldilir. Bu il bizim hərbi xərclərimiz təxminən 1 milyard dollar səviyyəsində idi. Gələn il bu, ən azı 1 milyard 200 milyon dollar səviyyəsində olacaqdır. Hər halda, Azərbaycanın dövlət büdcəsində bu məbləğ nəzərdə tutulmuşdur. Biz yeni silahlar alırıq, yeni avadanlıq alırıq, ordumuzun peşəkarlığını yüksəldirik. Müdafiə sənayesi yaratmışıq və artıq müdafiə sənayesi ordumuz üçün lazım olan silah-sursatı istehsal edir. Deyə bilərəm ki, bu sənaye məxfi xarakter daşıyır, ona görə ictimaiyyət bu barədə böyük bilgilərə malik deyildir. Ancaq bilin ki, bu sahədə lazımi səviyyədə işlər görülür və Azərbaycanın ordu potensialı möhkəmləndirilir. Biz

ordumuzu ona görə gücləndiririk ki, öz doğma torpaqlarımızı işğalçılardan istənilən yolla azad etməyə hər an hazır olaq.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Bildiyiniz kimi, bu gün Dünya azərbaycanlılarının həmrəyliyi günüdür. Bu bayram bizim üçün çox əzizdir. Mən əminəm ki, dünyada yaşayan bütün azərbaycanlılar 2008-ci ildə daha da sıx birləşəcəklər. Azərbaycan dövləti buna nail olmaq üçün əlindən gələni edir. Azərbaycanda keçirilən dünya azərbaycanlılarının qurultayları, müxtəlif tədbirlər azərbaycanlıların birləşməsinə xidmət göstərir. Azərbaycanlılar müxtəlif ölkələrdə yaşayırlar, ancaq bizim hamımızın, bütün azərbaycanlıların bir dövləti var – müstəqil Azərbaycan Respublikası. Bir Vətəni var – Azərbaycan. Biz öz doğma xalqımıza daha da böyük xidmət göstərməliyik, öz doğma dövlətimizi gücləndirməliyik. Mən əminəm ki, 2008-ci ildə bu istiqamətdə işlər uğurla gedəcəkdir və biz güclü Azərbaycan dövlətini yaradacağıq.

Əziz dostlar!

Əziz həmvətənlər, bacılar və qardaşlar!

Sizi qarşıdan gələn bayramlar münasibətilə bir daha təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 dekabr 2007-ci il*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi – Azərbaycanın bütün xristian icmasını müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzularımı yetirirəm.

Bu gün dünyada tolerantlıq örnəyi kimi tanınan müstəqil Azərbaycan Respublikasının bütün vətəndaşları dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, əsas insan hüquq və azadlıqlarına, o cümlədən vicdan azadlığına malikdirlər. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir. Cəmiyyətimizin mühüm hissəsi olan xristian icması da yaradılmış bu imkanlardan geniş şəkildə faydalanır. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, onlar Azərbaycanın ictimai-siyasi və mədəni-mənəvi həyatında yaxından iştirak edir, respublikamızın tərəqqisi naminə fəal vətəndaş mövqeyi göstərirlər.

İsa peyğəmbərin mövludu günü kimi əlamətdar olan mübarək Milad bayramı yenilik, əmin-amanlıq, mərhəmət və şəfqət duyğularının təntənəsini təcəssüm etdirir. Qoy bu nurlu bayram ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 yanvar 2008-ci il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV «AKADEMİK ZƏRİFƏ ƏLİYEVA» GƏMİ-BƏRƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*8 yanvar 2008-ci il*

*Yanvarın 8-də görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın adını daşıyan gəmi-bərə istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmək üçün gəmi-bərənin yan aldığı Yaxt-kluba gəldi.*

*Xəzər Dəniz Gəmiçiliyinin rəisi Aydın Bəşirov dövlətimizin başçısına məlumat verdi ki, gəmi-bərə Xorvatiyanın Ulyanik tərsanəsində düzəldilmişdir. Ən müasir naviqasiya sisteminə malik, uzunluğu 154,5 metr, eni 17,5 metr olan gəmi-bərə dəmir-yol vaqonlarının daşınması üçün nəzərdə tutulmuşdur. Tam yükgötürmə qabiliyyəti 5985 ton olan gəmi-bərəyə eyni vaxtda 52 dəmiryol vaqonu yükləmək mümkündür. Bu, Xəzər Dəniz Gəmiçiliyində sayca 8-ci gəmi-bərədir və özündən əvvəlkilərdən yükgötürmə qabiliyyətinin çox olmasına görə fərqlənir. Əvvəlki gəmi-bərənin hər biri cəmi 28 vaqon götürə bilir.*

*Gəmi-bərə ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, vaqonların yerləşdirilməsi üçün ən müasir metodlar tətbiq edilir. Burada uzaq məsafələrə daşınan vaqonların daha sıx dayanması üçün xüsusi qurğulardan və liftlərdən istifadə olunur. Dövlətimizin başçısı İlham Əliyev vaqonların aşağı mərtəbəyə endirilməsi üçün istifadə edilən qaldırıcı qurğuya da baxdı.*

*«Akademik Zərifə Əliyeva» gəmi-bərəsi Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi çərçivəsində istifadə olunacaqdır. Onunla Aktau və Türkmənbaşı limanlarına yük vaqonları daşınacaq və*

*bu, Xəzər dənizində yükdaşımaların intensivliyinə təsir göstərəcəkdir.*

*Prezident İlham Əliyev gəmi-bərənin yuxarı mərtəbəsindəki qayıq göyərtəsində də oldu. Bildirildi ki, bütün ekstremal vəziyyətlərə hazır olan gəmidə yüksək təhlükəsizlik sistemi quraşdırılmış, xilasetmə qayıqları qoyulmuşdur.*

*Dövlətimizin başçısı gəmi-bərədə akademik Zərifə xanım Əliyevanın xatirəsinə yaradılan muzeyə də baxdı. Burada görkəmli oftalmoloq alimin həyat və fəaliyyətinə dair fotoşəkillər toplanmışdır.*

*Məlumat verildi ki, gəmidə heyət üzvlərinin fəaliyyəti və istirahəti üçün bütün şərait yaradılmışdır. Azərbaycan prezidenti müxtəlif otaqları gəzdi, kapitanın iş otağına baxdı.*

*Sonra kapitan körpüsünə gələn prezident İlham Əliyev buradakı cihazlarla tanış oldu. Bildirildi ki, yüksək standartlara cavab verən avadanlıqların quraşdırıldığı kapitan körpüsündə nadir idarəetmə mərkəzi yaradılmış və bütün sistem kompyuterləşdirilmişdir. Radarlar 200 kilometr radiusda bütün üzən obyektlərin koordinatlarını, sürətini və istiqamətini müəyyən etməyə imkan verir.*

*Prezident İlham Əliyev gəmi-bərənin istifadəyə verilməsini bildirən düyməni basdı, heyət üzvlərinə uğurlar arzuladı, tapşırıq və tövsiyələrini verdi.*

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ**

Hörmətli Mixeil Nikolozoviç!

Gürcüstanın prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan və Gürcüstanı tarixən möhkəm dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək telləri bağlayır. Bu gözəl ənənələr hazırda bizim dövlətlərarası münasibətlərimizin, strateji tərəfdaşlığımızın möhkəm əsasını təşkil edir.

Əminəm ki, Azərbaycan–Gürcüstan əməkdaşlığının istər ikitərəfli qaydada, istərsə də beynəlxalq və regional qurumlar çərçivəsində daha da inkişaf etdirilməsi və genişləndirilməsinə dair birgə səylərimiz bundan sonra da xalqlarımızın tərəqqisinə, regionda sülhün, sabitliyin və yüksəlişin təmin olunmasına kömək edəcəkdir.

Hörmətli Mixeil Nikolozoviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və qardaş Gürcüstan xalqının rifahı naminə dövlətçilik fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 yanvar 2008-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ KONQRESİNİN NÜMAYƏNDƏLƏR PALATASININ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏSİNİN AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ ALT KOMİTƏSİNİN SƏDRİ ROBERT VEKSLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*9 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Prezident sarayında ABŞ Konqresinin Nümayəndələr Palatasının Beynəlxalq əlaqələr komitəsinin Avropa məsələləri üzrə alt komitəsinin sədri Robert Vekslerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Amerika Birləşmiş Ştatları ilə Azərbaycanın yaxın strateji tərəfdaş olduğunu qeyd edən Robert Veksler ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə dinamik surətdə inkişaf etdiyini bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayaraq əmin olduğunu bildirdi ki, qonağın ölkəmizə bu səfəri Azərbaycanda gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacaq və əlaqələrimizin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ KONQRESİNİN NÜMAYƏNDƏLƏR PALATASINDAKI AZƏRBAYCAN ÜZRƏ İŞÇİ QRUPUNUN HƏMSƏDRİ BİLL ŞUSTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*10 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Prezident sarayında ABŞ Konqresinin Nümayəndələr Palatasındakı Azərbaycan üzrə işçi qrupunun həmsədri Bill Şusterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı hazırda ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə fəal və uğurlu inkişaf mərhələsində olduğunu bildirdi. Prezident İlham Əliyev ikitərəfli əlaqələrin və müxtəlif səviyyələrdə qarşılıqlı fəaliyyətin Azərbaycanla ABŞ arasında güclü tərəfdaşlıq münasibətlərinin daha da genişlənməsinə kömək etdiyini vurğuladı, bir çox sahələrdə ölkələrimizin müttəfiq və tərəfdaş olduğunu bildirdi.*

*Dövlətimizin başçısı ölkəmizdə geniş inkişaf proseslərinin getdiyini vurğulayaraq, Azərbaycanın regionda mövqelərinin daha da möhkəmləndiyini dedi və ABŞ nümayəndə heyətinin bu səfərinin tərəfdaşlıq əlaqələrimizin genişləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Ölkəmizə səfərinin böyük əhəmiyyət kəsb etdiyini bildirən Bill Şuster Azərbaycanın ABŞ-la bir sıra sahələrdəki tərəfdaşlığını, o cümlədən ölkəmizin antiterror koalisiyasında fəal iştirakını, Azərbaycan hərbçilərinin İraq və Əfqanıstanda həyata keçirdikləri sülhməramlı missiyasını yüksək dəyərləndirdi. O, Azərbaycanın enerji sahəsində gördüyü işlərin də böyük əhəmiyyətə malik olduğunu vurğuladı.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «TELİA SONERA» ŞİRKƏTİNİN PREZİDENTİ LARS NİBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*10 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Prezident sarayında «Telia Sonera» şirkətinin prezidenti Lars Niberqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı «Telia Sonera» şirkəti ilə ölkəmizin müvafiq strukturları arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanda telekommunikasiya sahəsində qazanılan uğurları ölkənin iqtisadi inkişafının yaxşı göstəricilərindən biri kimi dəyərləndirdi.*

*Lars Niberq Azərbaycanda fəaliyyət göstərdikləri 10 ildən artıq müddətdə qarşılıqlı əməkdaşlıq nəticəsində rabitə və telekommunikasiya sahəsində ölkəmizdə müasir infrastrukturun yaradılması baxımından böyük nailiyyətlərin olduğunu bildirdi.*

## PREZİDENT İLHAM ƏLİYEVİN NAZİRLƏR KABİNETİNİN 2007-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ 2008-ci İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA* NİTQİ

*Prezident sarayı*

*11 yanvar 2008-ci il*

Biz Nazirlər Kabinetinin bugünkü iclasında ilin yekunlarını müzakirə edəcəyik və 2008-ci ildə görüləcək işlər haqqında fikir mübadiləsi aparacağıq.

Deyə bilərəm ki, bütövlükdə 2007-ci il Azərbaycan iqtisadiyyatı üçün çox uğurlu il olmuşdur. Bu ildə Azərbaycanda iqtisadi sahədə bütün müsbət meyillər daha da inkişaf etmiş və beləliklə, Azərbaycan öz iqtisadi potensialını əhəmiyyətli dərəcədə artıra bilmişdir. Ümumi daxili məhsul təxminən 25 faiz artmışdır. Beləliklə, son dörd il ərzində ölkədə aparılan əsaslı iqtisadi islahatlar nəticəsində Azərbaycanda iqtisadiyyatın həcmi 96 faiz, təxminən iki dəfə artmışdır ki, bu, dünyada analoqu olmayan bir göstəricidir.

Çox müsbət hal ondan ibarətdir ki, bununla yanaşı sənaye istehsalı da təxminən eyni sürətlə artır. Bu il sənaye istehsalının artımı 24 faiz olmuşdur. Azərbaycanda sənaye potensialının möhkəmlənməsi sahəsində böyük işlər görülür, tədbirlər həyata

* İclasda Maliyyə naziri Samir Şərifov, Vergilər naziri Fazil Məmmədov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov, Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Milli Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov çıxış etmişlər.

keçirilir və biz növbəti illərdə də bu sahəyə böyük diqqət göstərməliyik.

İnvestisiyaların həcmi yenə də çox yüksək səviyyədədir. Azərbaycanda enerji layihələrinin böyük əksəriyyəti başa çatdırılmışdır, neft-qaz yataqlarına böyük sərmayə qoyuluşu artıq, demək olar ki, başa çatmışdır və azalmağa başlamışdır. Buna baxmayaraq, 2007-ci ildə investisiyaların həcmi 6 milyard dollardan çox olmuşdur və çox sevindirici haldır ki, bunların böyük əksəriyyəti daxili investisiyalardır. Bu onu göstərir ki, həm Azərbaycanın daxili imkanları artır, həm dövlət xətti ilə qoyulan sərmayənin həcmi xeyli dərəcədə artır, həm də özəl sektor tərəfindən qoyulan vəsait artır. Bu həm də onu göstərir ki, Azərbaycanın iqtisadi potensialına xarici və daxili investorlar tərəfindən böyük inam var və investisiyalar üçün cəlbedici ölkə kimi, Azərbaycan öz mövqelərini saxlaya bilir.

Büdcə xərcləri əhəmiyyətli dərəcədə artırılır. Deyə bilərəm ki, bu sahədə də, büdcə xərclərinin artım dinamikasına görə də Azərbaycan dünyada birinci ölkələr sırasındadır. Son dörd il ərzində büdcə xərcləri on dəfə artıb və 2008-ci ilin icmal büdcəsi 12 milyard dollara bərabərdir. Bu bizə imkan verir ki, ölkə qarşısında duran əsas vəzifələri həll edək. İnfrastruktur məsələlərini, sosial məsələləri həll edək, böyük iqtisadi, nəqliyyat, enerji layihələrini öz gücümüz hesabına həyata keçirək. Bu, ölkəyə iqtisadi müstəqillik verir, əlavə imkanlar yaradır və beləliklə, Azərbaycan bölgədə öz mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirir. Bunda həm siyasi, həm diplomatik, həm də, əlbəttə ki, enerji və iqtisadi amillər böyük rol oynayır.

Deyə bilərəm ki, 2007-ci ildə sosial məsələlərin həllinə də böyük diqqət göstərilmişdir. Maaşlar və pensiyalar artırılmışdır və bu meyil davam etdirilir. Bildiyiniz kimi, 2008-ci il yanvarın 1-dən minimum əməkhaqqı və minimum pensiya 20 faiz artırılmış və 60 manata çatdırılmışdır. Nəzərə alsaq ki, bir neçə il bundan əvvəl bu rəqəm haradasa, 9 manat səviyyəsində idi, bu, böyük irəliləyişdir. Hazırda 60 manatdır və şübhə yoxdur ki, 2008-ci ildə minimum əməkhaqqı və minimum pensiyanın

həcmi yenə də artırılmalıdır. Azərbaycan vətəndaşları öz rifah halını yaxşılaşdırır və Azərbaycan dövləti xüsusilə aztəminatlı təbəqəyə yardımını bundan sonra da əsirgəməməlidir.

Bununla yanaşı, ünvanlı sosial yardım proqramı uğurla icra edilir. 78 min ailə bu proqramla əhatə olunur və orta hesabla hər bir ailəyə dövlət tərəfindən verilən yardım təxminən 100 dollar səviyyəsindədir. Beləliklə, biz öz iqtisadi imkanlarımızı səfərbər edib, ehtiyac içində yaşayan vətəndaşlarımız üçün əlavə imkanlar yaradırıq, onları dəstəkləyirik və bu proses bundan sonra da davam etdiriləcəkdir. Əlbəttə, biz istərdik ki, Azərbaycanda bütövlükdə yoxsul təbəqə olmasın və bu istiqamətdə işlər görülür. Amma hələ ki, ağır şəraitdə yaşayanlar var və dövlət öz tərəfindən onlara yardım əlini uzadır. Baxmayaraq ki, bu, böyük məbləğ tələb edir, buna böyük vəsait ayrılır, amma biz bunu edirik və edəcəyik. Bu bir daha onu göstərir ki, Azərbaycanın iqtisadi potensialının güclənməsi, iqtisadiyyatın həcminin artması, sənaye proqramlarının icra olunması birbaşa insanların həyat səviyyəsinə, xüsusilə aztəminatlı təbəqəyə öz müsbət təsirini göstərir.

Yoxsulluğa gəldikdə, bu sahədə də böyük uğurlarımız var və böyük qürur hissi ilə deyə bilərik ki, 2007-ci ildə də yoxsulluğun azaldılması, aradan qaldırılması sahəsində böyük tədbirlər görülmüşdür. Əgər 2003-cü ildə Azərbaycanda yoxsulluq şəraitində yaşayanlar 49 faiz idisə, 2008-ci ilin yanvarın 1-nə bu göstərici 16 faizə düşübdür. Bu, böyük nailiyyətdir, böyük göstəricidir.

Onu da deyə bilərəm ki, hətta iqtisadi baxımdan və bütün başqa cəhətlərdən inkişaf etmiş ölkələrdə də yoxsulların sayı kifayət qədərdir. Əlbəttə, inkişaf etmiş ölkələrdə minimum istehlak səbətinin meyarları başqadır. Amma hər şey müqayisədə bilinir və ölçülür. Azərbaycanın indiki iqtisadi şəraitində, iqtisadi durumunda yoxsulluğun 16 faizə düşməsi, hesab edirəm bizim böyük uğurumuzdur və mən əminəm ki, 2008-ci ildə görüləcək tədbirlər nəticəsində bu rəqəm daha da aşağı düşəcəkdir. Beləliklə, Azərbaycanda yoxsul təbəqə

olmayacaqdır. Mən buna inanıram və əlimdən gələni edəcəyəm ki, biz buna tam şəkildə nail ola bilək.

2007-ci ildə daha bir mühüm hadisə baş vermişdir – sonuncu çadır şəhərciyi ləğv edilmiş və orada yaşayan soydaşlarımız normal evlərə köçürülmüşlər. Bildiyiniz kimi, 2003-cü ildə prezident seçkiləri ərəfəsində mən belə bəyanatla çıxış etmişdim ki, əgər xalq mənə inansa və məni dəstəkləsə, növbəti beş il ərzində Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Mən çox şadam ki, biz bunu beş ildə yox, dörd ildə həll etdik və indiyədək ağır çadır şəraitində yaşayan insanlar bundan sonra yaxşı evlərdə yaşayacaqlar.

Bildiyiniz kimi, biz keçən il qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli üçün yeni proqram qəbul etdik. Bu proqramın icrası təxminən yarım milyard dollar vəsait tələb edəcəkdir. O proqramda yeni qəsəbələrin tikintisi nəzərdə tutulur. Məcburi köçkünlərin, fin tipli qəsəbələrdə, hərbi hissələrdə, məktəblərdə ağır şəraitdə yaşayan soydaşlarımızın problemləri həll olunacaqdır. Beləliklə, biz ölkəmiz üçün bu ağır, çətin problemin aradan qaldırılmasına çalışırıq, öz soydaşlarımızı müvəqqəti olaraq normal şəraitlə təmin edirik. Əlbəttə ki, torpaqlarımız işğalçılardan azad olunandan sonra biz işğaldan azad edilmiş torpaqlarda yeni şəhərlər salacağıq, qəsəbələr, məktəblər tikəcəyik.

Bütövlükdə, biz sosial məsələlərə 2008-ci ildə də diqqət göstərməliyik. Həm əməkhaqları, pensiyalar və ünvanlı sosial yardımların məbləğinin artırılmasına, həm bütün sosial infrastrukturun yeniləşməsi, təzələnməsinə. Bildiyiniz kimi, həm təhsil, həm səhiyyə sahələrinə, həm də mədəniyyət sahəsinə böyük investisiyalar qoyulur. Bütün bu işləri sadalamaq üçün bu gün bizim vaxtımız yoxdur. Biz bu işlərlə gündəlik rejimdə məşğuluq. 2008-ci ilin dövlət büdcəsində məktəb tikintisinə, xəstəxanalara, mədəniyyət ocaqlarına kifayət qədər vəsait nəzərdə tutulubdur.

Bu ilin axırında 2004-cü ilin fevralında qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının müddəti

başa çatır. Beş il üçün nəzərdə tutulmuş proqramın müddəalarının, demək olar ki, böyük əksəriyyəti artıq dörd il ərzində öz həllini tapmışdır. Nəinki həllini tapmışdır, hətta 2004-cü ildə proqramda öz əksini tapmayan məsələlər də əlavə olunubdur. Əlbəttə ki, 2004-cü ildə biz hər şeyi nəzərdə tuta bilməzdik. Proqramda əsas istiqamətlər, əsas məsələlər öz əksini tapmışdı. Ancaq işlər getdikcə, vaxt keçdikcə və iqtisadi imkanlarımız artdığı bir zamanda, əlbəttə, biz bu proqrama böyük əlavələr etdik. Beləliklə, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurla başa çatması heç kimdə şübhə doğurmur.

Bir daha 2003-cü ilə qayıtmaq istəyirəm. Prezident seçkiləri ərəfəsində verdiyim bəyanatlardan biri də ondan ibarət idi ki, biz Azərbaycanda regionların inkişafına diqqət göstərməliyik. Orada ilk növbədə, iş yerləri açmalıyıq ki, işsizlik aradan qaldırılsın və insanlar yaşadıqları rayonlarda, kəndlərdə, qəsəbələrdə qalsınlar və orada gözəl infrastruktur yaradılmalıdır. Demək olar ki, beş ilə nəzərdə tutulmuş proqramı biz dörd il ərzində yerinə yetirmişik. Bu gün verilən son məlumata görə, Azərbaycanda son dörd il ərzində 640 min iş yeri açılmışdır ki, onlardan 460 mini daimi iş yerləridir. Təkcə 2007-ci ildə 145 min yeni iş yeri açılmışdır və onlardan 105 mini daimi iş yerləridir. Biz bu nəticələri təkcə statistik rəqəmlərdə görmürük. Bunu həyatda görürük, bölgələrin inkişafında görürük, rayonların abadlaşmasında görürük, bölgələrdə yaradılan müasir iqtisadi, sənaye, nəqliyyat, səhiyyə, təhsil infrastrukturunda görürük. Biz dörd ildə 1200 məktəb tikmişik, yüzlərlə məktəb əsaslı təmir olunub, əlavə korpuslar tikilib və çox gözəl görkəm alıbdır. Bu yaxınlarda Təhsil Nazirliyi məlumat vermişdir ki, əgər 3-4 il bundan əvvəl 1000 şagirdə bir kompyuter düşürdüsə, indi 29 şagirdə bir kompyuter düşür. Yəni kompyuterləşmə proqramını da biz uğurla icra edirik. Bu proqram 2004-cü ildə qəbul olunmuşdu və biz bunu həll etmişik. Yəni görülən bütün bu işlər Azərbaycanın hərtərəfli inkişafına yönəldilir. Biz buna nail ola bilmişik. Biz

iqtisadiyyatımızı şaxələndiririk və bunu etmək üçün, əlbəttə ki, böyük səylər qoyulmalıdır. Nəzərə almalıyıq ki, bizim əsas iqtisadi gücümüz, iqtisadiyyatın əsas mənbəyi energetikadır, neft-qaz sektorudur və o da sürətlə inkişaf edir. Qeyri-neft sektorunun inkişafı bizi çox sevindirir. Qeyri-neft sektorunun inkişafı yeni iş yerlərinin yaradılması deməkdir. Bölgələrin inkişafı deməkdir və ümumiyyətlə, Azərbaycanın hərtərəfli inkişafı deməkdir. Beləliklə, bir daha demək istəyirəm, regionlarda gedən proseslər göstərir ki, bu günə qədər qəbul edilmiş bütün proqramlar icra edilir və əminəm ki, bu baxımdan 2008-ci il də istisna olmayacaqdır.

2007-ci ildə Azərbaycan neft-qaz sahəsində də öz maraqlarını tam şəkildə qoruya bilmişdir. Bu il bölgədə yeni vəziyyət yaranmışdır. Bizim 90-cı illərin ortalarında, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başladığımız Azərbaycanın neft strategiyasının nəticələrini 2007-ci ildə də əyani şəkildə gördük. 2007-ci ildə Bakı–Tbilisi–Ceyhan neft kəməri tam gücü ilə işləməyə başlamışdır. 2007-ci ildə Azərbaycanda 42 milyon ton neft hasil edilmişdir. 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istismara verilmişdir. Azərbaycanın qaz hasilatı əhəmiyyətli dərəcədə artmışdır və bu proses davam edir. Həm «Şahdəniz» yatağından, həm də ki, Dövlət Neft Şirkətinin köhnə yataqlarından çıxarılan qaz böyük həcmdə artırılır, yeni bölgələrə, yeni qəsəbələrə qaz xətləri çəkilir.

Bu proses 2008-ci ildə də davam etdirilməlidir və biz ilk növbədə öz tələbatımızı tam şəkildə ödəməliyik. Əlbəttə ki, qaz ixrac edən ölkə kimi, Azərbaycanın beynəlxalq nüfuzu, mövqeləri və çəkisi artır. Bütövlükdə, bu sahədə neft-qaz sahəsində, energetika sahəsində böyük işlər görülübdür. Biz bu barədə hələ danışacağıq. Sadəcə, demək istəyirəm ki, Azərbaycan üçün, bizim iqtisadiyyatımız üçün əsas olan sahədə də böyük uğurlar var. Əlbəttə ki, neft-qaz sektorunda əldə edilmiş nəticələr bütün başqa sektorlara da öz müsbət təsirini göstərir. Həm xidmət, həm sənaye sektorlarına və həm də bütün başqa sektorlara.

2007-ci ildə biz bütün başqa sahələrdə də böyük işlər görmüşük. Biz nəqliyyat sektoruna böyük vəsait ayırırıq və ayıracağıq. Çəkilən yolları, körpüləri, magistral yolları, şəhər yollarını – bunların hamısını gündəlik şəraitdə görürük, buna böyük vəsait qoyulur və gələcəkdə də qoyulacaqdır.

Bir sözlə, iqtisadiyyatın əsas istiqamətlərində müsbət nəticələr var və biz bunu görürük. Əlbəttə, biz çalışmalıyıq ki, gələcək illərdə də bu yüksək dinamikanı saxlayaq, iqtisadi artım sürətinə görə dünya miqyasında lider dövlət kimi, Azərbaycanın bu mövqelərini saxlayaq. Elə edək ki, Azərbaycan vətəndaşları, Azərbaycan xalqı ildən-ilə, aydan-aya daha da yaxşı yaşasın. Bunu etməyə bizim imkanlarımız var, siyasi iradə var, xalqla iqtidar arasında birlik var. Bizim bütün proqramlarımız xalq tərəfindən dəstəklənir. Əks təqdirdə, onların heç biri həyata keçirilə bilməzdi. Əgər bu dəstək olmasaydı, əgər həmrəylik olmasaydı, bizim təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bunların heç birini edə bilməzdik. Azərbaycanın müasir tarixi, digər ölkələrin tarixi, bizimlə eyni taleyi yaşayan ölkələrin müasir tarixi onu göstərir ki, harada iqtidar tərəfindən irəli sürülmüş təşəbbüslər xalq tərəfindən dəstəklənirsə, orada həm həmrəylik var, həm sabitlik, həm də inkişaf var. Harada bu yoxdursa, orada heç bir iş görülə bilməz və ölkələr davamlı böhran şəraitində yaşayır və əlbəttə ki, bu böhran həm insanlara, həm də ölkənin imkanlarına yalnız və yalnız mənfi təsir göstərir. Azərbaycanda da biz 90-cı illərin əvvəllərində böhranlar yaşamışdıq. Biz bunları yaxşı bilirik, xatırlayırıq və artıq o illərə dönüş yoxdur. Azərbaycanın yolu açıqdır. Biz yalnız qabağa gedəcəyik, ölkəmizi gücləndirəcəyik və Azərbaycanı güclü dövlətə çevirəcəyik.

Bir neçə söz xarici siyasət haqqında demək istəyirəm. Biz 2007-ci ildə bu sahədə də öz səylərimizi göstərmişik, Azərbaycan özünün beynəlxalq mövqelərini möhkəmləndirmişdir. Qonşu, dost ölkələrlə ikitərəfli formatda münasibətlərimiz inkişaf etmişdir. Deyə bilərəm ki, 2007-ci ildə biz daha çox müttəfiq qazandıq. Azərbaycanın beynəlxalq mövqeləri daha da

möhkəmləndi. Azərbaycan həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində öz rolunu möhkəmləndirir.

Bizim ölkəmiz dünyada çox böyük şöhrətə malikdir. Mənim bütün dövlət və hökumət başçıları ilə, beynəlxalq təşkilatların rəhbərləri ilə keçirdiyim görüşlərdə bu, açıq-aydın görünür. Azərbaycan, əlbəttə, öz prinsipiallığı ilə, öz mövqeyi ilə, müstəqil siyasəti ilə və etibarlılığı ilə 2007-ci ildə böyük beynəlxalq şöhrət qazanmışdır. Bir sözlə, mən bu sahədəki vəziyyəti qənaətbəxş hesab edirəm. Bu da çox vacibdir. Həm daxili, həm də xarici siyasət bir məqsədə yönəldilibdir ki, ölkəmiz daha da güclənsin.

Bizim üçün ən ağrılı, ən çətin məsələ Dağlıq Qarabağ problemidir. Bunun həll olunmaması, əlbəttə, bizi çox narahat edir. Biz çalışırıq ki, məsələni sülh yolu ilə həll edək. Amma görürük ki, buna nail olmaq hələ ki, mümkün deyildir. Səbəb nədir?! Ermənistanın qeyri-konstruktiv mövqeyi və dünya ictimaiyyətinin bu məsələyə biganə yanaşması. Biz hər şeyi açıq deməliyik. Bütün dünya etiraf edir, bəyan edir və bütün ikitərəfli və beynəlxalq görüşlərdə, rəsmi sənədlərdə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir, tanınır və müdafiə olunur. Biz hər yerdə eşidirik ki, siz haqlısınız, sizin torpağınız işğal olunubdur və ədalət sizin tərəfinizdədir. Ancaq deməliyəm ki, belə şifahi, yaxud da sənədləşdirilmiş beynəlxalq dəstək real nəticələrə çevrilmir. Real nəticə yoxdur. Biz, tutaq ki, hansısa diplomatik uğurlardan haqlı olaraq məmnun ola bilərik. Çünki hər bir beynəlxalq sənəd bizim mövqeyimizi gücləndirir və Azərbaycan üçün bütün yolları daha da açıq edir. Artıq bütün dünya etiraf edib ki, bizim torpaqlarımız işğalçı Ermənistan tərəfindən zəbt edilib, azərbaycanlılar etnik təmizləməyə məruz qalmışlar. İşğal olunmuş torpaqlarda bütün binalar dağıdılıb və Ermənistan vandalizm siyasəti aparmışdır. Bizim bütün tarixi abidələrimizi yerlə yeksan etmişdir. Yəni bütün bu beynəlxalq etiraf həm danışıqlar prosesində, həm də danışıqlardan kənarda məsələnin həlli üçün yolların açılmasında bizə lazımdır. Ancaq yenə də deyirəm ki, hələlik biz nəticə görmürük. Deyə bilərəm

ki, 2008-ci il bu baxımdan həlledici il olmalıdır. Artıq 2008-ci ildə açıq görəcəyik ki, biz haradayıq, məsələnin həlli sülh yolu ilə mümkündür, yoxsa yox. Əlbəttə ki, ondan sonra öz qərarlarımızı verəcəyik.

Danışıqlar zamanı müzakirə olunan məsələlər ictimaiyyətə artıq bəllidir. Azərbaycan ictimaiyyəti bunu bilir. Mən çox şadam ki, bizim prinsipial mövqeyimiz xalq tərəfindən dəstəklənir. Azərbaycan öz ərazi bütövlüyünü heç vaxt müzakirə etməyib və etməyəcəkdir. Dağlıq Qarabağın müstəqilliyi, ya hansısa formada gələcək müstəqilliyi, 10 ildən, 15 ildən, 100 ildən sonra müstəqilliyi müzakirə predmeti deyil və olmayıbdır. Bəzi hallarda Ermənistan rəhbərliyi tərəfindən daxili auditoriyaya ünvanlanmış qeyri-ciddi və yalan məlumatlar verilir. Onların heç bir əsası yoxdur. Danışıqların mahiyyəti Azərbaycanın bütün işğal olunmuş torpaqlarının boşaldılmasıdır, o cümlədən Dağlıq Qarabağa Azərbaycan vətəndaşlarının qayıtmasıdır. Danışıqların mahiyyəti budur. Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Laçın rayonlarının boşaldılmasıdır.

Mən bunu, bütün rayonların adlarını xüsusilə sadaladım ki, sabah Ermənistanda öz siyasi məqsədləri üçün hesablanmış yanlış bəyanatlar verməsinlər. Bütün bu rayonlardan erməni işğalçı qüvvələrinin çıxarılması, o cümlədən Dağlıq Qarabağa, Şuşaya azərbaycanlı köçkünlərin qayıtması danışıqların əsas mahiyyətidir. Bu reallıqdır. Əlbəttə, bu bizə ümidlər verir. Belə formatda danışıqların aparılması bizə ümidlər verir. Ümidlər bizə hələ ki, danışıqlara sadiq olmaq üçün bir dəstək verir. Ancaq bu ümidlər bir vaxt tükənə bilər. Əgər biz bundan sonra da görsək ki, Ermənistan tərəfi qeyri-səmimidir – halbuki biz bunu bu vaxta qədər də dəfələrlə görmüşük – öz sözünə əməl etmir, əvvəlcə razılaşdırılmış prinsiplərdən geri çəkilir, beynəlxalq vasitəçiləri aldatmaq istəyir, ictimai rəyi çaşdırmaq istəyir, danışıqlar masasında bir söz, rəsmi bəyanatlarda başqa söz deyir, onda qeyri-ciddi tərəflə danışıqların aparılmasına heç bir ehtiyac qalmır.

Biz reallığa və beynəlxalq hüquqa əsaslanmalıyıq. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün dünya, Dağlıq Qarabağ daxil olmaq şərtilə, Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Birləşmiş Millətlər Təşkilatı, Ermənistan istisna olmaq şərtilə, bütün ölkələr, Minsk qrupunun həmsədrləri – Amerika, Fransa, Rusiya Azərbaycanın ərazi bütövlüyünü və Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu qəbul edir.

İqtisadi üstünlük bizim tərəfimizdədir. Bunu heç şərh etməyə də dəyməz. Sadəcə olaraq, biz gərək Azərbaycan və Ermənistan iqtisadiyyatının həcminə baxaq və müqayisə edək. Bizim iqtisadiyyatımız 2007-ci ilin nəticələrinə görə, təxminən 30 milyard dollardır. Ermənistanın iqtisadiyyatı – mən dəqiq bilmirəm – haradasa 6-7 milyarddır. Gələcəkdə bu böyük uçurum daha da genişlənəcəkdir.

İndi biz bilirik ki, gələn il neftin satışından, təbii qazın satışından, iqtisadi inkişafdan, sənayenin inkişafından hansı maliyyə resurslarını əldə edəcəyik. Biz bütün yolları açırıq, tranzit ölkəyə çevrilirik. Biz enerji baxımından dünya üçün, Avropa üçün əvəzolunmaz ölkəyə çevrilirik. Ermənistan dünya birliyinə nə töhfə verə bilər? Heç nə! Nə siyasi baxımdan, nə iqtisadi baxımdan, nə nəqliyyat baxımından. Bütün başqa millətləri oradan qovub qapalı bir hərbiləşdirilmiş rejim, antidemokratik rejim şəraitində yaşayan mono dövlətdir. Dağlıq Qarabağda kriminal quldur dəstəsi bölgəni zəbt edib və orada hərbi kriminal rejim, qeyri-qanuni rejim hökm sürür. Ora heç bir beynəlxalq monitorinqin keçirilmədiyi bölgədir və heç kim bilmir ki, orada nə baş verir, hansı silahlar saxlanılır, hansı terrorist qüvvələr saxlanılır, narkotiklər necə yetişdirilir. Heç kim bilmir. Bu, Avropanın içində bir qara ləkədir.

İqtisadi-siyasi baxımdan bizim üstünlüyümüz göz qabağındadır. Biz bu üstünlükdən istifadə edirik və bundan sonra da edəcəyik. Ermənistanı bütün regional layihələrdən təcrid etmişik. Biz bunu etmişik. Baxmayaraq ki, kimsə bizi tənqid edir, kimsə tənqid etmir. Mən buna əhəmiyyət vermirəm.

Açıq deyirəm, biz onları bütün layihələrdən – enerji, nəqliyyat layihələrindən, bütün başqa layihələrdən bundan sonra da təcrid edəcəyik. O vaxt ki, onlar bizim torpağımızdan könüllü şəkildə çıxacaqlar, ondan sonra vəziyyət dəyişə bilər. Gələcəkdə yollar da açıla bilər və Ermənistan Azərbaycanın imkanlarından nə vaxtsa faydalana bilər. O vaxt ki, bizim torpaqlarımız işğalçılardan azad olunacaq, Azərbaycan qaçqınları, köçkünləri öz torpaqlarına qayıdacaqlar.

Mən bu məsələyə xüsusi toxundum. Çünki bu bizim üçün ən başlıca vəzifədir. Azərbaycanın qarşısında bütün yollar, bütün imkanlar açıqdır. Biz bilirik haraya gedirik. Biz uğurla inkişaf edirik. Ölkəmiz həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə inkişaf edir. Lakin bu məsələ bir nömrəli məsələdir. Bizim bütün səylərimiz bu məsələyə yönəldilməlidir. Bütün qurumların – dövlət, hökumət qurumlarının, ictimai, özəl qurumların, bütün Azərbaycan vətəndaşlarının səyləri birləşməlidir, bütün dünya azərbaycanlılarının səyləri birləşməlidir və biz işğalçı dövlətə qarşı bundan sonra da mübarizəni aparacağıq.

Bir sözlə, mən bir daha demək istəyirəm ki, 2007-ci il Azərbaycanın hərtərəfli inkişafı üçün uğurlu il olubdur. Mən ümid edirəm və şübhə etmirəm ki, 2008-ci il də bizim üçün uğurlu olacaqdır.

## YEKUN NİTQİ

Bütövlükdə, burada səslənən bütün rəqəmlər bir daha onu göstərir ki, 2007-ci ildə bizim iqtisadiyyatımız çox sürətlə inkişaf edib və şübhəsiz, 2008-ci ildə bu müsbət dinamika davam etdiriləcəkdir.

2008-ci ildə nəzərdə tutulmuş vəzifələrə keçməzdən əvvəl, mən kəskinləşən hava şəraiti ilə bağlı, yaranmış vəziyyətlə bağlı məlumatları dinləmək istəyirəm. Mən bu günlərdə həm Bakı Şəhər İcra Hakimiyyətinə, həm də Nəqliyyat Nazirliyinə, Fövqəladə Hallar Nazirliyinə göstərişlər vermişəm ki, yaranmış qeyri-adi vəziyyətlə bağlı tədbirlərini gücləndirsinlər. Çünki Bakı şəhəri üçün və bütövlükdə, ölkəmiz üçün çox qeyri-adi bir vəziyyətdir. Uzun müddətdir ki, heç vaxt bu qədər qar yağmamışdı və əlbəttə, bu, əlavə problemlər yaradır.

Enerji və qaz təchizatında böyük problem yoxdur, yəni bu sahədə işlər tənzimlənir, ancaq yol hərəkəti, əlbəttə ki, çox çətinləşibdir. Yolları, səkiləri, avtomobil yollarını buz bağlayıb, nəqliyyatın hərəkəti çətinləşib, insanlar müxtəlif zədələr alırlar. Tibb məntəqələrinə müraciət edənlərin sayı artır. Bir daha demək istəyirəm ki, Bakı kimi cənub şəhəri üçün bu çox qeyri-adi bir vəziyyətdir. Yaxşı ki, biz keçən il yeni texnikanın alınmasına kifayət qədər vəsait ayırmışıq. 25 milyon manat vəsait ayrılmış və texnika alınmışdır. Amma indi bu texnikanın mövcudluğu, ondan istifadə, əslində vəziyyəti nə dərəcədə yüngülləşdirir, nə dərəcədə bizə imkan verir ki, tezliklə bu vəziyyətə son qoyaq və yol hərəkəti sistemini tənzimləyək. Bu barədə sonuncu məlumatı eşitmək istəyirəm.

**Hacıbala Abutalıbov** (*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı*): Möhtərəm Prezident, Sizin hər gün bizə

verdiyiniz göstəriş əsasında, Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Kommunal İstismar İdarəsində olan bütün yeni texnika, Nəqliyyat Nazirliyinin bütün texnikası, habelə Fövqəladə Hallar Nazirliyinin işçiləri, demək olar ki, gecə saat 10-dan səhər saat 6-ya kimi şəhərdə işləyir. Əlimizdən gələni edirik ki, şəhərdə nəqliyyatın hərəkəti çətinləşməsin. Mərkəzi küçələrin hamısında şəhər nəqliyyatı işləyir. Ara küçələrdə vəziyyət, demək olar ki, normallaşmaq üzrədir. Amma hələlik normaya uyğun deyildir. Ona görə də biz bu gecə də, dünən gecə də səfərbərliyi tamamilə yüksək səviyyəyə qaldırmışıq, buzlaşmanın qarşısını alırıq, səkilərin təmizlənməsi üçün işlər gedir. Alınmış yeni 37 texnika – qumsəpən maşınlarımız gündəlik işləyir və əlimizdən gələni edəcəyik ki, Sizin göstərişləriniz ən yüksək səviyyədə, qısa müddətdə yerinə yetirilsin.

**İ l h a m   Ə l i y e v:** Alınan texnika kifayət qədərdir ki, bu məsələlərin hamısı həll olunsun, yoxsa əlavə texnika alınmalıdır?

**H a c ı b a l a   A b u t a l ı b o v:** Qum səpilməsi üçün texnika bəs edir, amma buzun təmizlənməsi, qarın yığılıb daşınmasından ötrü əlavə texnikaya ehtiyac var.

**İ l h a m   Ə l i y e v:** Buzun üstünə qum səpiləndə heç bir əhəmiyyəti olmayacaqdır. Buzlar təmizlənməlidir. İndi mərkəzi küçələrdə iş gedir, amma Bakı təkcə mərkəzi küçələrdən ibarət deyil. Hər tərəfdə yaşayan insanlar bərabər hüquqa malikdirlər. Ona görə çalışmaq lazımdır ki, şəhərin bütün yerlərində bu işlər daha da fəal getsin. Mən baxıram, görürəm ki, mərkəzi küçələrdə işlər gedir və yəqin daha çox o yerlərdə işlər gedir ki, haradan mən keçirəm. Bu da həqiqətdir. Keçmişdən qalan, sovet sistemindən qalan gözdən pərdə asmaq praktikasını yığışdırın. Mənə bu lazım deyil. Mən istənilən küçədən gedə bilərəm, gedirəm və baxıram da. Bəzi hallarda sizin bundan

xəbəriniz də olmur. Ona görə hər yerdə iş getməlidir, yollar hamı üçün açıq olmalıdır.

Nəqliyyat Nazirliyində işlər necədir?

**Z i y a  M ə m m ə d o v** (*Nəqliyyat naziri*): Möhtərəm cənab Prezident, həqiqətən də, qeyd etdiyiniz kimi, baş verən bu təbii hadisə ilə bağlı Sizin tapşırıqlarınıza uyğun olaraq, demək olar ki, respublikanın bütün ərazisində müvafiq tədbirlər görülür. Qərargah yaradılıb, bütün sutka ərzində fəaliyyət göstərir. Qərargaha birbaşa «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov rəhbərlik edir. Demək olar ki, hava haqqında məlumatı aldıqdan dərhal sonra qışa hazırlıq planına uyğun olaraq, biz texnikaların və müvafiq avadanlığın səfərbər edilməsi barədə lazımi işlərin görülməsinə başladıq.

Həqiqətən də, respublikada son bir neçə onilliklər ərzində görünməyən bu qar nəqliyyatın hərəkətində müəyyən problemlər və çətinliklər yaratmışdır. Amma bütün bunlara baxmayaraq, 755 ədəd texnika və avadanlıq səfərbər edilmiş və respublikanın, demək olar, bütün ərazilərində və xüsusilə baş magistral yolların və şəhər daxilində mövcud olan əsas yolların təmizlənməsinə cəlb edilmişdir. Texnikanın idarə edilməsi, eyni zamanda, yardımçı işlərin həyata keçirilməsi üçün 5 minə qədər işçi qüvvəsi səfərbər olunmuşdur. Cənab Prezident, diqqətinizə çatdırmaq istəyirəm ki, 157 avtoqreyderdən 32-si, 437 yükünü özü boşaldan avtomobildən 137-si, 90 ədəd yükləyici ekskavatordan 30-u Bakı şəhərində işləyir. Bakı şəhərində 31 ədəd qumsəpən maşın və təxminən 2500-dən artıq işçi qüvvəsi cəlb edilmişdir.

Görülən tədbirlər nəticəsində, qeyd etdiyiniz kimi, həqiqətən də həyat üçün zəruri olan əsas baş magistral yollar təmizlənmişdir. Amma şübhəsiz ki, istənilən nəticəyə nail olunmayıbdır. Çünki şaxta olduğundan hər yer buz bağlayıbdır. Qar yağan zaman biz həm qarı təmizləyir, həm də yollara qum qarışıq duz səpirdik. Bəzən bu, istənilən nəticəni vermirdi. Ona görə ki, qum, duz səpiləndən sonra onun üstünü yenidən qar

örtürdü və yenidən yolları təmizləmək məcburiyyətində qalırdıq.

Deməк istəyirəm ki, Bakı şəhərində həqiqətən əsas küçələr təmizlənibdir. Bu işlərin görülməsində biz uzun illərdir ilk dəfə olaraq, əlaqədar qurumlarla – Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyi ilə birgə işləyirik. Eyni zamanda, özəl sektordan da imkanlarını səfərbər etməyi xahiş etdik. Deyərdim ki, hamı böyük məmnuniyyətlə bu işə qoşuldu və təbiətin yaratdığı bu problemlərlə birgə mübarizə aparırıq.

Buz yolların bəzi hissələrini bağlayıb texnika vasitəsilə yolları təmizləyərkən həm də ehtiyatla hərəkət edirik. Çünki qreyderlər buzu təmizləyən zaman yolları sıradan çıxara bilər. Ona görə də biz ehtiyatla işləyirik. Amma Sizi tam əmin etmək istəyirəm ki, biz eyni zamanda, yardımçı yollarda da işlər görmüşük. Bakı şəhərində insanlar bunları görürlər. Təkcə magistral yollarda deyil, eyni zamanda, yardımçı yollarda çox böyük tədbirlər həyata keçirilibdir. Əlbəttə, Bakı şəhərində müəyyən problemlər yaransa da, nəqliyyatın tam dayanması olmayıbdır. Bəzi mətbuat orqanlarında yazıldığı kimi, heç də Bakıda, respublikada nəqliyyat iflic olmayıbdır. Əlbəttə ki, məhdudiyyətlər olub, amma biz tədbirlərimizi bu gün də davam etdiririk. Cənab Prezident, Sizi əmin edirik ki, mövcud olan bütün texnika və işçi qüvvələri bu işə səfərbər olunub və bütün bu proses nəzarətimiz altındadır.

**İlham Əliyev:** Fövqəladə Hallar naziri.

**Kəmaləddin Heydərov** (*Fövqəladə Hallar naziri*): Möhtərəm cənab Prezident, biz xüsusən yollara çox texnika çıxara bilmədik. Çünki bizim cəmi 4 qartəmizləyən texnikamız var, onlardan biri hazırda Naxçıvan Muxtar Respublikasındadır. Bakı Şəhər İcra Hakimiyyətinin və Nəqliyyat Nazirliyinin texniki imkanlarından istifadə etməklə yanaşı, biz canlı qüvvənin də köməyi ilə Bakı şəhərində olan səkilərin təmizlənməsində

iştirak etmişik. İlk gündən başlayaraq xəstəxanaların, doğum evlərinin, çörək bişirən sexlərin və çörək mağazalarının ətrafında xüsusi iş aparmışıq ki, əhaliyə ərzağın çatdırılmasında ləngimələr olmasın. Möhtərəm cənab Prezident, dünəndən başlayaraq, biz yeni ayırdığımız yanğınsöndürmə texnikası vasitəsilə bəzi binaların damlarından sallanan buzları təmizləməyə başlamışıq. Çünki bu buzlar böyük təhlükə törədə bilər. Biz yanvarın 6-dan Nəqliyyat Nazirliyinin, Daxili İşlər Nazirliyinin qüvvələri ilə birgə döngələrdə qartəmizləmə işlərinə başlamışıq. Siz qeyd etdiyiniz kimi, uzun illərdir hava bu qədər soyuq keçməmişdi. Ona görə də hər gün qrafik üzrə bizim canlı qüvvəmiz və mövcud texnikamız yollarda işləyir.

**İ l h a m  Ə l i y e v:** Keçən illərlə müqayisədə, əlbəttə ki, bu il bu sahədə daha böyük işlər görülübdür. Amma o da həqiqətdir ki, bu il qış daha da sərt keçir. Əvvəllər iki-üç gündən sonra buz əriyir və vəziyyət normallaşırdı. Amma baxmayaraq ki, bu qədər texnika alınıb və bütün qüvvələr – Bakı Şəhər İcra Hakimiyyəti, Nəqliyyat Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi səfərbər olunub, yenə də bu problem var. Yəni bu, təbii bir vəziyyətdir. Nəzərə almalıyıq ki, hava proqnozu hələ 1-2 gün eyni olacaqdır. Proqnoz təxminən bu səviyyədə olacaq?

**H ü s e y n q u l u  B a ğ ı r o v** (*Ekologiya və Təbii Sərvətlər naziri*): Möhtərəm cənab Prezident, hələ bu günün ikinci yarısında havanın yenidən tutulması, axşam saatlarında arabir bəzi yerlərdə az qar yağması ehtimalı var. Bu gün səhər saat 4-dən 8-dək olan məlumata görə, Bakıda bəzi yerlərdə 1-2 millimetrə qədər qar yağmışdır. Biləcəridə və Pirallahı adasında sulu qar müşahidə olunur. Günün ikinci yarısında havanın temperaturunun –3 dərəcə həddində olacağı gözlənilir, buz bağlamaq ehtimalı da var. Yanvarın 12-13-də gözlənilir ki, hava buludlu olacaq, arabir açılacaqdır. Yağıntının kəsilməsi gözlənilir. Düzdür, bəzi yerlərdə az qar yağması ehtimalı yenə

də qalır. Amma ayın 14-dən tədricən temperatur yüksəlməyə başlayacaq və gündüz 1–3 dərəcə təşkil edəcəkdir. Sonrakı günlərdə isə 5 dərəcəyə qədər istilik gözlənilir.

**İ l h a m Ə l i y e v:** Hər halda, iki-üç gün belə hava şəraiti davam edəcəkdir. Ona görə siz bütün gücləri səfərbər edin, gücləndirilmiş iş rejimində işləyin və çalışın ki, bu vəziyyəti maksimum dərəcədə aradan qaldıraq.

O ki qaldı 2008-ci ilə olan vəzifələrə, mən hesab edirəm, bu vaxta qədər görülmüş işlər, aparılmış və başlanmış islahatlar imkan verəcək ki, bu il də Azərbaycan iqtisadiyyatı öz inkişafını uğurla davam etdirsin.

İqtisadi sahədə ən çox fikir, diqqət yetirdiyimiz sahə bahalaşma və inflyasiyadır. Burada səsləndi ki, 2007-ci ildə Azərbaycanda inflyasiya 16 faizdən çox olmuşdur. Bu çox böyük rəqəmdir. Düzdür, əhalinin pul gəlirləri 38 faiz artmışdır və beləliklə, real gəlirlər 22 faiz səviyyəsindədir və bu çox böyük rəqəmdir, göstəricidir. Amma bununla bərabər, onu da bilməliyik ki, əhalinin pul gəlirləri bərabər şəkildə bölünmür. Yəni kasıb təbəqə var – 16 faiz. Düzdür, biz bunu xeyli aşağı salmışıq. Amma yenə də vətəndaşlarımızın 16 faizi yoxsulluq şəraitində yaşayır və onlar üçün bu məhsulların, xüsusilə ərzaq məhsullarının bahalaşması çox böyük problemlər yaradır. Biz 2008-ci ildə makroiqtisadi vəziyyəti sabit saxlamalıyıq. Burada çıxışlarda səsləndi, əlbəttə ki, həm obyektiv, həm də subyektiv amillər mövcuddur. Dünyada neftin qiymətinin kəskin şəkildə bahalaşması bütün idxal edilən malların bahalaşmasına gətirib çıxarıbdır. Bizim hələ ki, istehlak bazarımız daha çox idxaldan asılıdır və Azərbaycanda həyata keçirilən həm regional inkişaf proqramı, həm sənayeləşmə proqramı, həm də sahibkarlığın inkişafı proqramı o məqsədi güdür ki, Azərbaycan idxaldan öz asılılığını maksimum dərəcədə azalda bilsin. Biz buna tədricən nail oluruq. Amma hələ ki, ərzaq mallarının bir hissəsi xaricdən gətirilir. Xaricdə də qiymətlər Azərbaycanda olan səviyyədə qalxır.

2007-ci ildə dünyada taxılın qiyməti 50 faiz qalxmışdır və bu, istər-istəməz bütün başqa sahələrə də öz mənfi təsirini göstərir. Əlbəttə, inflyasiyanı yaradan obyektiv səbəblərdən biri də Azərbaycanda əhalinin pul gəlirlərinin artmasıdır, maaşların, pensiyaların qaldırılmasıdır. Yəni, ümumiyyətlə, iqtisadi inkişafın əlamətidir. Ancaq subyektiv səbəblər də var. Məhz subyektiv səbəblərin aradan qaldırılmasına biz gərək böyük səy göstərək. Sağlam rəqabət prinsipi tam bərqərar olunmalıdır, inhisarçılıq meyilləri aradan qaldırılmalıdır. Bizim bazarımız tam liberallaşmalıdır, rəqabət getməlidir. İmkan verməməliyik ki, nə idxalda, nə də daxili istehsalda inhisarçılıq yaransın. Ona görə mən ümid edirəm ki, həm makroiqtisadi, həm də inzibati tədbirlər nəticəsində 2008-ci ildə inflyasiya normal çərçivədə olacaqdır.

Deyə bilərəm ki, bundan başqa, bizim iqtisadi və makroiqtisadi sahədə böyük ciddi problemlərimiz yoxdur. Əksinə, biz 2007-ci ili çox yaxşı nəticələrlə başa vurduq. Bizim valyuta ehtiyatlarımız 7 milyard ABŞ dollarını ötüb keçmişdir. 2008-ci ildə xəzinəmizə çox böyük həcmdə valyuta ehtiyatları daxil olacaqdır. Beləliklə, Azərbaycanın dayanıqlı inkişafı bundan sonra da uzun illər təmin ediləcəkdir. Nəzərə alsaq ki, dünyada neftin qiyməti qalxıb və bildiyiniz kimi, Dünya Bankının verdiyi bəyanatlara görə, Azərbaycan neftin satışından 2020-ci ilə qədər 200 milyard dollar vəsait toplayacaqdır. Əlbəttə ki, neftin qiyməti artdıqca, bu rəqəm də artacaqdır. Biz buna hazır olmalıyıq və elə etməliyik ki, bunun makroiqtisadi vəziyyətə mənfi təsiri minimum səviyyədə olsun.

Eyni zamanda, biz artıq bundan sonra, gələcəkdə heç bir maliyyə sıxıntısı keçirməyəcəyik. Biz sadəcə olaraq, öz maliyyə imkanlarımızdan ağıllı istifadə etməliyik, onları lazım olan yerlərə yönəltməliyik. Elə etməliyik ki, qısa müddət ərzində bu məbləğlər, ölkəmizə gələn maliyyə resursları ölkəmizin hərtərəfli inkişafına xidmət göstərsin. Ölkəmiz müasirləşsin, modernləşsin, ən qabaqcıl texnologiyalar Azərbaycana gətirilsin. Bütün sahələrdə – istər tikinti, istərsə də səhiyyə, təhsil, infrastruktur –

ən qabaqcıl texnologiyalar Azərbaycana gətirilməlidir. Biz bunu görürük. Azərbaycanda son illər ərzində, xüsusilə dövlət xətti ilə yaradılan müəssisələr, həyata keçirilən infrastruktur layihələri, tikilən obyektlər dünyanın ən yüksək standartlarına cavab verir.

Qeyri-neft sektoruna yenə diqqət göstərməliyik. 2008-ci ildə qeyri-neft sektorunun inkişafı bizim üçün çox vacibdir. Beləliklə, bizim iqtisadiyyatımız neft amilindən asılı olmayacaqdır. Məqsəd ondan ibarətdir ki, bir neçə ildən sonra iqtisadi imkanlarımızın neft amilindən asılılığını tamamilə aradan qaldıraq. Belə imkanlar var və əminəm ki, qeyri-neft sektorunun inkişafı həm dövlət tərəfindən verilən dəstək hesabına, həm də özəl sektorun fəaliyyəti nəticəsində daha da genişlənəcəkdir.

Bildiyiniz kimi, biz bir neçə il ərzində sahibkarlara güzəştli kreditlər veririk, bu kreditlər də yaxşı işləyir. Bu kreditlərin hesabına yeni müəssisələr – fabriklər, emal müəssisələri yaradılır, özəl biznes inkişaf edir. İqtisadiyyatımızın ümumi çəkisində özəl biznesin kifayət qədər böyük yeri var. Azərbaycan iqtisadiyyatı 80 faizdən yuxarı özəl sektorun əsasında qurulubdur.

Mən artıq qeyd etdim, regional inkişaf proqramının başa çatması gözlənilir və artıq hökumətə tapşırıqlar verilibdir, ondan sonra 2009–2013-cü illər üçün yeni regional inkişaf proqramı hazırlanmalıdır. O proqramda bu vaxta qədər həll olunmamış bütün məsələlər öz əksini tapmalıdır. Beləliklə, 2013-cü ilə qədər, əminəm ki, bundan da tez biz ölkədə bütün infrastruktur layihələrini başa çatdırmalıyıq, bütün sosial məsələləri həll etməliyik və hər bir kəndin problemi öz həllini tapmalıdır. Bir sözlə, biz bu imkanlardan, artan maliyyə imkanlarımızdan səmərəli istifadə etməliyik və edəcəyik.

Azərbaycan Dövlət İnvestisiya Şirkətinin fəaliyyətinin güclənməsi də, əminəm ki, müsbət nəticələrə gətirib çıxaracaqdır. Bir müddət bundan əvvəl Dövlət İnvestisiya Şirkəti yaradılmışdır. Müəyyən danışıqlar aparılır, amma hələlik heç bir nəticə yoxdur. Baxmayaraq ki, iki ildən artıqdır hər il büdcədə bu məqsədlər üçün 100 milyon dollar vəsait nəzərdə

tutulur. Biz Dövlət İnvestisiya Şirkətini məhz bu məqsədlə yaratdıq ki, Azərbaycan üçün lazım olan sahələrə xaricdən investisiyaları cəlb etsin, özü investor kimi orada iştirak etsin və müəssisələr yaradıldıqdan, işə başladıqdan sonra Dövlət İnvestisiya Şirkəti öz payını açıq hərraca çıxarsın və beləliklə, özəl sektora dəstək versin. Çünki Azərbaycana qoyulan investisiyalar, xüsusilə özəl sektor tərəfindən qoyulan investisiyalar özəl sektorun marağında olan sahələrə yönəldilir. Bəzi hallarda dövlət üçün əhəmiyyətli olan sahələr investisiya almır. Çünki özəl sektor buna maraqlı deyil. Dövlət İnvestisiya Şirkətinin əsas məqsədi ondan ibarətdir ki, bizim üçün, dövlət üçün lazım olan sahələrə vəsait cəlb edək. Mən əminəm ki, 2008-ci ildə bu şirkətin fəaliyyəti daha da uğurlu olacaqdır.

2007-ci ildə biz eyni zamanda gördük ki, öz ərzaq təhlükəsizliyimizi də təmin etməliyik. Azərbaycan iqtisadi təhlükəsizliyini, enerji təhlükəsizliyini təmin edibdir və başqa ölkələrin enerji təhlükəsizliyində iştirak edir. Ərzaq təhlükəsizliyi də ondan az əhəmiyyət daşımayan sahədir. Xüsusilə biz görəndə ki, dünyada ərzaq məhsullarının qiymətləri qalxır və bu, istər-istəməz bizim istehlak bazarımıza mənfi təsir göstərir. Bildiyiniz kimi, qəbul edilmiş bütün qərarlar, tədbirlər ona xidmət edir ki, Azərbaycanda kənd təsərrüfatı daha da inkişaf etsin. Hər bir kəndliyə dotasiya verilir. Biz 2007-ci ildə bu məqsədlərə 80 milyon manat vəsait nəzərdə tutmuşduq və bu vəsait paylanılıbdır. Elədirmi?

**İsmət Abasov** (*Kənd Təsərrüfatı naziri*): Bəli, keçən il üçün ayrılan vəsait paylanılmışdır. Növbəti il üçün yenidən 80 milyon manat nəzərdə tutulmuşdur. 40 milyon manat «Aqrolizinq» Səhmdar Cəmiyyətinə nəzərdə tutulmuşdur, 5 milyon manat isə «Aqrokredit» Agentliyi vasitəsilə kredit şəklində veriləcəkdir.

**İlham Əliyev:** Bundan başqa, taxıl əkən hər bir fermerə hər hektar üçün 40 manat dotasiya verilir.

**İ s m ə t   A b a s o v:** Bəli, cənab Prezident, Sizin göstərişinizlə buğda istehsalçılarına əlavə olaraq 40 manat vəsait verildi. Hazırda keçən ilin müvafiq dövrünə nisbətən təxminən 127 min hektar əlavə buğda əkini aparılmışdır. Bu da təxminən 300 min ton əlavə buğdanın olacağını göstərir.

**İ l h a m   Ə l i y e v:** Beləliklə, 2008-ci ildə bu sahəyə daha da böyük diqqət göstərməliyik. Bizim gözəl imkanlarımız, təbii şəraitimiz, iqlimimiz var. Azərbaycanda, demək olar ki, bütün kənd təsərrüfatı məhsulları yetişdirilir. Buraya dövlət xətti ilə daha da böyük vəsait qoymalıyıq.

Eyni zamanda, biz meliorasiya sahəsinə əlavə vəsaitlərin qoyulmasını təmin etməliyik. İndi bu proses gedir və Samur–Abşeron kanalı tikilir. Taxtakörpü su anbarının tikintisinə başlanmışdır və başqa layihələr icra olunmalıdır. Biz növbəti illərdə bu sahəyə böyük diqqət göstərməliyik. Bu həm kənd təsərrüfatının inkişafına xidmət göstərəcək, həm məşğulluğu artıracaq və həm də bütövlükdə ölkəmizin inkişafı üçün çox vacib olan sahədir. İndi bizim maliyyə imkanlarımız var, sadəcə olaraq, yaxşı proqramlar, layihələr hazırlanmalıdır və biz onlara vəsait ayırmalıyıq.

Energetika sahəsində nəzərdə tutulmuş əsas layihələr, demək olar ki, ya başa çatıb, yaxud da yaxın 2-3 il ərzində başa çatacaqdır. Biz son üç il ərzində təxminən 700 meqavat əlavə enerji gücü yaratdıq. Bu bizə imkan verir ki, artıq ölkəmizi elektrik enerjisi ilə tam şəkildə təmin edək. Növbəti üç il ərzində Azərbaycanda bir neçə elektrik stansiyasının tikintisi və yenidən qurulması nəzərdə tutulur və bu işlərin nəticəsində 3 min meqavat enerji gücü yaranacaqdır.

Bu, Azərbaycanın bundan sonra uzun illər ərzində elektrik enerjisi ilə təminatını təmin edəcək və gələcəkdə biz elektrik enerjisini xarici ölkələrə də ixrac edə bilərik.

Bizim iqtisadiyyatımız artır, əhali artır, yeni müəssisələr, fabriklər, zavodlar tikilir, elektrik enerjisinə olan tələbat artır.

Biz buna hazır olmalıyıq və bütün tədbirləri əvvəldən görməliyik. Yəni mən hesab edirəm ki, bu sahədə qəbul olunmuş proqramlar energetika sektorunu artıq tam şəkildə təmin edəcəkdir. Vəsait də var, maliyyə mənbələri də var və elektrik stansiyaları tikilir, elektrik xətləri çəkilir və bu sahədə artıq tam qayda-qanun yaradılacaqdır.

Əhalini qazla təmin etmək üçün 2008-ci ildə əlavə tədbirlər görülməlidir. Bizim hələ iki rayonumuz – Ağcabədi və Beyləqan rayonları obyektiv səbəblərə görə təbii qaz almır. Bu ilin əvvəlində Ağcabədi rayonuna qaz veriləcək və ilin birinci yarısına qədər Beyləqan rayonuna da təbii qazın verilməsi bərpa olunacaqdır. Beləliklə, Azərbaycanın bütün rayonları qazla təmin ediləcəkdir. Hələ deyə bilmərik ki, bütün kəndlər qazla təmin olunubdur. Bəzi yerlərdə heç qaz xətləri olmayıb, bəzi yerlərdə bu, böyük çətinliklərlə bağlıdır.

Ancaq deyə bilərəm ki, indi Azərbaycan əhalisinin təxminən 80 faizə yaxını təbii qaz alır və bu, dünya miqyasında, bizim bölgədə, MDB məkanında kifayət qədər böyük göstəricidir. Bizdən daha böyük həcmdə qaz hasil və ixrac edən ölkələrdə bu rəqəm 50–60 faiz səviyyəsindədir. Bizdə 75–80 faizdir. Nəzərə alsaq ki, bizim böyük qaz ehtiyatlarımız var, qaz hasilatı artır, çalışmalıyıq ki, Azərbaycan vətəndaşlarını təbii qazla maksimum dərəcədə təmin edək. Həm «Şahdəniz» yatağından hasilat, həm də Dövlət Neft Şirkəti tərəfindən görülən tədbirlər və qoyulan investisiyalar nəticəsində, demək olar ki, qaz təhvili iki dəfə artıbdır. Biz ilk növbədə, maksimum dərəcədə özümüzü təmin etməliyik və əlbəttə, bununla bərabər, qaz ixrac edən ölkəyə çevrilmişik. Bundan da böyük iqtisadi və siyasi dividentlər götürəcəyik.

Mən elektrik enerjisi ilə bağlı bir məsələyə də toxunmaq istəyirəm. Bildiyiniz kimi, 13 il ərzində blokadada yaşayan və qazdan məhrum olan Naxçıvanı biz bu yaxınlarda təbii qazla təmin etdik. İran İslam Respublikası ilə bağlanmış müqaviləyə əsasən, mübadilə yolu ilə biz buna nail ola bilmişik. Biz Astaradan İrana qaz veririk, İrandan isə Naxçıvana qaz alırıq.

Naxçıvanda təxminən 90 meqavat gücündə modul tipli elektrik stansiyası tikilibdir. Son günlərə qədər Naxçıvanın təbii qazla və elektrik enerjisi ilə təminatında heç bir problem olmamışdır. Demək olar ki, bütün muxtar respublika elektrik enerjisi ilə tam şəkildə təmin olunur və qaz xətlərinin çəkilişi nəticəsində əhalinin təxminən 90 faizə yaxını təbii qaz alır. Elədirmi?

**Əlixan Məlikov** *(«Azəriqaz» Səhmdar Cəmiyyətinin sədri)*: Bəli, cənab Prezident, hazırda Naxçıvan əhalisinin 90 faizi təbii qaz alır.

**İlham Əliyev:** Alırlar?

**Əlixan Məlikov:** Bəli.

**İlham Əliyev:** Amma bildiyiniz kimi, havanın pisləşməsi ilə əlaqədar qonşu İranda da müəyyən problem yarandı və İrandan Naxçıvana qazın verilməsi dayandırıldı. Ondan sonra bərpa olundu, amma lazım olan səviyyədə verilmir. Biz bunu araşdırdıq və görürük ki, bunun texniki səbəbləri var. Ancaq bununla bərabər, biz görürük ki, Naxçıvan əhalisi bu vəziyyətdən əziyyət çəkir. Ona görə mən artıq tapşırıqlar verdim, bir daha bunu demək istəyirəm. Hesab edirəm, Naxçıvanda əlavə qaz-mazut elektrik stansiyası tikilməlidir ki, biz qazdan tam asılılığı azaldaq. Biz mazut ehtiyatlarını yığa bilərik ki, əgər qışda xaricdən qazın verilməsi ilə bağlı yenə problem yaranarsa, onda muxtar respublikada enerji böhranı yaranmasın.

Bununla bərabər, Neft Şirkətinə tapşırıq verirəm ki, Naxçıvanda yeraltı qaz anbarlarının yaradılması imkanlarını araşdırsın. Əgər belə imkanlar varsa, orada təxminən 300 milyon kubmetr həcmində qaz anbarları tikilməlidir. Yay aylarında İrandan alınan qazı biz ora dolduracağıq. Əgər İranda böhran yaranarsa, onda biz yeraltı anbardan o qazı götürəcəyik.

Beləliklə, bu məsələ də öz həllini tapmalıdır. Bunun texniki imkanları araşdırılmalıdır və biz bunu etməliyik.

Mənə verilən məlumatlara görə, bəzi yerlərdə, rayonlarda gecələr, axşamlar qazın, elektrik enerjisinin verilməsi dayandırılır. Bunun səbəbləri ondan ibarətdir ki, borclar var, pulu əhalidən tam yığa bilmirlər. Əlbəttə, biz hər sahədə qayda-qanun yaratmalıyıq, hər sahədə şəffaflıq olmalıdır, hər bir məhsulun öz qiyməti var və o qiymət ödənilməlidir. Nəzərə alsaq ki, keçən il Azərbaycanda əhalinin pul gəlirləri 38 faiz artıb və indi yoxsulların sayı xeyli azalıb, Azərbaycan əhalisinin əksər hissəsi ödənişləri çox rahatlıqla edə bilər. Ancaq bununla yanaşı, 16 faiz yoxsulumuz var. Xüsusilə qış mövsümündə, qışın belə sərt günlərində mən həm «Azərenerji»yə, «Bakıelektrikşəbəkə»yə, «Azəriqaz»a, həm də bütün müvafiq qurumlara tapşırıq verirəm ki, bu sərt günlərdə əhaliyə daha da böyük diqqətlə yanaşsınlar. İşığı kəsməsinlər, qazın verilməsini kəsməsinlər, insanlar üçün əlavə problemlər yaratmasınlar. Qış qurtarar, yaz başlayar, hava yaxşılaşar, ondan sonra yenə də o ciddi tədbirləri bərpa edin, tələb edin və hamı qaz və işıq pulunu ödəməlidir. Ancaq hesab edirəm ki, indiki şəraitdə daha diqqətli olmalısınız. Xüsusilə o insanlara ki, onların doğrudan da imkanları yoxdur. Elələri var ki, hər şeyi var, ev-eşiyi, maşınları, bağları, amma qazın pulunu vermir. Onlara qarşı ən ciddi sanksiyalar tətbiq olunmalıdır, onlar cəzalandırılmalıdır, qazı kəsilməlidir və tədbir görülməlidir. Amma görürsünüz ki, kimin imkanı yoxdur, kasıbdır, mən tələb edirəm, onlara qarşı diqqətli olasınız və o insanları incitməyəsiniz.

Bütövlükdə, indi həm elektrik, həm də qaz sayğacları quraşdırılır. Biz ölkəmizi qazla təchiz edirik. Bakı kəndlərinin qazla təminatını yaxşılaşdırmalıyıq, bilirsiniz ki, xüsusi proqram qəbul edilmişdir. Amma mənə verilən məlumata görə, hələ ki, bütün kəndlərə qaz verilmir. Əlixan, elədir?

**Əlixan Məlikov:** Bəli, cənab Prezident, kəndlər tam 100 faiz qaz almır. Ancaq keçən illə bu ili müqayisə edəndə,

əgər keçən il kəndlərdə 50 faiz qaz alırdılarsa, indi təxminən 80 faiz təmin olunublar. 15–20 faiz qalıbdır. Biz işlərimizi davam etdiririk. Yəqin ki, 2008-ci ilin birinci yarısına qədər başa çatdırılacaqdır.

**İ l h a m  Ə l i y e v:** Çalışın bunu tezliklə edin. Çünki biz indi qazı ən ucqar kəndlərə aparırıq. Amma burada, Bakıda kəndlərin bəzi yerlərinə qaz verilmir. Bu, dözülməz bir vəziyyətdir. Xüsusilə onu nəzərə almalıyıq ki, mənim tərəfimdən qəbul edilmiş qərar – Bakıətrafı qəsəbələrin inkişafı ilə bağlı qəbul edilmiş proqramda bütün bu məsələlər nəzərdə tutulubdur. İlk növbədə, kəndlərin qazla təmin olunması üçün lazımi tədbirlər görülüb, vəsait ayrılıbdır. Siz işləri tezləşdirin və bütün kəndlərin hər bir hissəsi qazla təmin olunmalıdır.

2008-ci ildə biz sənaye potensialının inkişafına diqqət göstərəcəyik. Bu sahədə işlər gedir. Azərbaycanda sənayeləşmə prosesi daha da sürətlə getməlidir. Mən bir daha demək istəyirəm ki, bizim maliyyə çətinliklərimiz artıq yoxdur. Bizim 7 milyard dollardan çox valyuta ehtiyatlarımız var. Gələn il neftin qiymətindən asılı olaraq, minimum bu qədər də əlavə gələcəkdir. Biz bu imkanlardan istifadə etməliyik. Güclü sənaye potensialı yaratmalıyıq ki, bizim sənayemiz çoxşaxəli olsun. Həm məşğulluq artsın, həm də yeni iş yerləri açılsın və Azərbaycanda güclü sənaye potensialı yaradılsın. Ona görə həm İqtisadi İnkişaf Nazirliyi, həm Maliyyə Nazirliyi, həm də bütövlükdə hökumət, Sənaye və Energetika Nazirliyi birlikdə bu işlərə bir daha baxın və mənə konkret təkliflər verin. Əgər Dövlət İnvestisiya Şirkətinin fəaliyyətində çətinliklər varsa, xaricdən investisiyalar cəlb edə bilmiriksə, lazım deyil, özümüz vəsait qoyaq. Bizim vəsaitimiz var. Dövlət biznesi təşviq etmək üçün güzəştli kreditlər verə bilər. Bu, bütün dünyada var. Ölkə üçün lazım olan sahələri inkişaf etdirmək üçün dotasiyalar, subsidiyalar, yumşaq kreditlər verilir. Biz bu gün başlasaq, iki-üç ildən sonra sanballı sənaye müəssisəsi yarada bilərik.

Mən bilirəm ki, Sənaye və Energetika Nazirliyində belə planlar var, proqram da hazırlamısınız. Hesab edirəm ki, 2008-ci ildə biz artıq bu işlərə konkret başlamalıyıq. Bu vaxta qədər müəyyən işlər görülübdür. Müxtəlif yerlərdə yeni sənaye kompleksləri tikilir. Bu məni çox sevindirir. Çünki bu, sənaye potensialının inkişafı deməkdir. Ancaq mən istəyirəm ki, biz bunu daha da böyük həcmdə edək.

İndi Azərbaycan Dövlət Neft Şirkəti Türkiyədə ən böyük neft kimyası kompleksini tender nəticəsində udub və «Petkim» şirkəti artıq Azərbaycan Dövlət Neft Şirkətinin mülkiyyətidir. Oraya böyük investisiyalar qoyulur, 2 milyard dollar vəsait xərclənir. Ondan sonra da investisiya qoyulacaqdır. Bundan başqa, Dövlət Neft Şirkətinin başqa ölkələrdə investisiya layihələri var. Həm Ceyhanda neft emalı zavodunun tikintisi – sən orada idin, oradan gəlmisən – həm də başqa ölkələrdə, Avropa ölkələrində.

**R ö v n ə q A b d u l l a y e v** (*Dövlət Neft Şirkətinin prezidenti*): Bəli, cənab Prezident, Ceyhanda neft emalı zavodunun tikintisi və «Petkim»də ikinci neft emalı zavodunun tikintisi bizim proqramımızda var. Ümumiyyətlə, Türkiyədə ildə 20–30 milyon ton gücə malik emal müəssisəsi yaradacağıq.

**İ l h a m Ə l i y e v:** Bu çox yaxşıdır. Amma eyni zamanda, mən tapşırıq vermişdim, Azərbaycanda da yeni güclü emal kompleksinin tikintisinə böyük ehtiyac var. Neft kimyası kompleksinin tikintisinə böyük ehtiyac var. Bizim neftayırma zavodlarımız işləyir. Sən də direktor olmusan, yaxşı bilirsən. Amma onlar hələ ki, tam, yəni dünya səviyyəsində məhsul buraxmır. Baxmayaraq ki yenidənqurma işləri aparılıb və bəzi məhsullar dünya səviyyəsinə çatdırılıbdır. Amma onlar çoxdan tikilib, ekoloji cəhətdən havanı korlayır.

Azərbaycanda yeni, müasir neft kimyası kompleksi tikilməlidir. Beləliklə, biz həm neftimizi, həm də qazımızı daha səmərəli şəkildə emal edib dünya bazarlarına çatdıracağıq. Bu

həm məşğulluqdur, iş yerləridir, həm sənaye potensialıdır, həm də yenilikdir, müasirlikdir. Bilirsiniz ki, Avropada indi meyarlar çox güclənib, çox sərtləşibdir. Bizdə istehsal olunan dizel yanacağı, yaxud da kerosin ilə gələcəkdə dünya bazarına çıxmaq mümkün olmayacaqdır. Belə olsa, biz yalnız xam nefti satacağıq. O da bir yoldur, amma mən hesab etmirəm ki, bu bizim üçün əsas yoldur. Xam neft öz yerində, amma biz neft məhsulları bazarını da itirməməliyik. Nəzərə alın ki, indi biz müxtəlif ölkələrdə – həm qonşu ölkələrdə, həm də Avropada neft məhsullarının satışı ilə də məşğul olmaq istəyirik. Ona görə 2008-ci ildə bu sahədə konkret tədbirləri hazırlayın və məruzə edərsiniz.

Bir sözlə, sənaye potensialının artımı bizim prioritet məsələmiz olmalıdır. 2008-ci ildə başqa sahələrdə də işlər qəbul edilmiş proqramlar əsasında gedəcəkdir. Nəqliyyat sektorunda həm magistral yollar, həm Bakının yolları, həm də körpülər, yol qovşaqları – bütün bunlar proqramda var. Biz onu Dövlət İnvestisiya Proqramına da salacağıq. Elə etməliyik ki, bütün yol infrastrukturu ən yüksək səviyyədə olsun, dünya standartlarına cavab versin. Həm mövcud yolları yenidən qurmalı, həm də mövcud olmayan, yeni şəhərlərarası yollar salmalıyıq ki, yol hərəkəti daha da rahat olsun.

2008-ci ildə də ekologiya məsələlərinə diqqət göstəriləcək, vəsait ayrılacaqdır. Biz böyük ekoloji proqram qəbul etdik. O, artıq icra olunmağa başlamışdır. Mən görürəm, artıq Bibiheybətdə birinci işlərə başlanmışdır. Mən o məsələni Dövlət Neft Şirkətinin qarşısında qoydum ki, Bibiheybət buxtasını və orada olan çirklənmiş bütün əraziləri siz təmizləməlisiniz. Onlar da mənə söz vermişdilər ki, oranı gözəl bir parka çevirəcəklər. Elədir?

**R ö v n ə q  A b d u l l a y e v:** Bəli, cənab Prezident. May ayınadək bu məsələ həll ediləcək.

**İ l h a m  Ə l i y e v:** Ora Bakının neftlə çirklənmiş əsas yerlərindəndir. Həm görüntü baxımından, həm də ekologiya baxımından çox mənfi təsiri olan bir yerdir. Amma tarixi bir yerdir. Azərbaycanın neft tarixi həm də oradan başlanmışdır. Ona görə biz o yeri abadlaşdırmalıyıq, orada gözəl parklar salınacaqdır. İndi belə bərbad vəziyyətdə olan yerləri biz yüksək səviyyəyə çatdıracağıq.

Əlbəttə, ekologiya proqramı bunlarla bitmir. Neft Şirkəti vaxtilə neft sənayesinin fəaliyyəti nəticəsində çirklənmiş yerləri təmizləməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi də öz vəzifələrini bilir. Bu yaxınlarda içməli su baxımından ən pis vəziyyətdə olan kəndlərə suyun verilməsinə başlanmışdır. 50 kəndə su verilir.

**H ü s e y n q u l u  B a ğ ı r o v:** Bəli, havaların soyuması Salyanda, Neftçalada və başqa rayonlarda buna mane olur. Amma 50 kənddə işlər başa çatdırılmışdır.

**İ l h a m  Ə l i y e v:** Sonrakı mərhələdə əlavə kəndlər nəzərdə tutulmalıdır.

**H ü s e y n q u l u  B a ğ ı r o v:** Bəli, əlavə kəndlər üçün proqram hazırdır. Ümumiyyətlə, Azərbaycanda 450 min əhalinin su problemi var. Yəni su var, sadəcə, onun keyfiyyət problemi var.

Sizin tapşırığınızla həmin suların keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı proqram hazırlanıb başa çatdırılmışdır və qısa müddətdə Sizə təqdim ediləcəkdir. Bununla da Azərbaycanda keyfiyyətsiz su içən insan olmayacaqdır.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı, biz buna nail olmalıyıq. Çünki su həyatdır, sağlamlıqdır. Su insanların fiziki gücüdür, insan orqanizmi üçün əsasdır. Biz elə etməliyik ki, Azərbaycan vətəndaşları təmiz su içsinlər. İndi Oğuz–Qəbələ–Bakı su kəməri tikilir. Hesab edirəm ki, bu da tarixi bir layihədir. O da

uzun illər ərzində müzakirə olunmuşdu, hətta Sovet İttifaqı zamanı müzakirə edilmişdi. Müxtəlif fərziyyələr var idi: su ehtiyatları var, yoxdur, bunun qiyməti nə qədər olacaq, necə olacaq, maliyyə haradan olacaq. Biz özümüz etdik. Kredit istədik, alınmadı, heç kim kredit vermədi. Ondan sonra hansısa müştərək investisiya proqramını işləmək istədik, o da nəticəsiz qaldı. Nə etdik? Özümüz pul ayırdıq və artıq kəmər tikilir. Bu il istismara veriləcək və Bakı əhalisi təmiz içməli su ilə təmin olunacaqdır. Yenə də deyirəm, bu mənim üçün Bakı–Tbilisi–Ceyhan neft kəməri kimi dəyərli bir kəmərdir və o, böyük rəmzi xarakter daşıyır. Biz neft kəmərini tikdik və neftdən, o kəmərin fəaliyyətindən əldə olunan gəlirlə su kəməri də çəkdik. Azərbaycan nefti Azərbaycan xalqına xidmət edir. İnsanların sağlamlığına xidmət edir. Ölkəmizin inkişafına xidmət edir.

Bütün bunları bir daha təhlil edəndə görürük ki, 90-cı illərin o ağır şəraitində «Əsrin müqaviləsi»nin imzalanması ulu öndər Heydər Əliyevin nə qədər cəsarətli və müdrik addımı olmuşdur. Əgər o vaxt bu müqavilə imzalanmasaydı, mən açıq deyirəm, bunların heç biri bu gün olmazdı və ümumiyyətlə, təsəvvür etmək çətindir ki, Azərbaycanın indiki vəziyyəti necə ola bilərdi. Bu bizə imkan verdi, bizim qollarımızı açdı. Biz sərbəst inkişaf edirik, müstəqil ölkə kimi inkişaf edirik. Heç kimdən asılı deyilik. Öz taleyimizi özümüz həll edirik və uğurla həll edirik. Müstəqil ölkə kimi və uğurlu ölkə kimi, biz sübut etdik ki, Azərbaycan xalqı müstəqil xalq kimi yaşaya bilər, Azərbaycan xalqı müstəqil dövlət qura bilər, bu dövləti qoruya, möhkəmləndirə bilər. Bu dövlət möhkəm dövlətdir və yerləşdiyi bölgədə öz təsir imkanlarını genişləndirir. Bu, hər bir vətənpərvər insanda qürur hissi oyadır. Mən çox şadam ki, biz, Azərbaycan xalqı qısa bir tarixi müddət ərzində güclü dövlət qurmuşuq.

Mən burada səslənən bir məsələ barədə də öz fikrimi bildirmək istəyirəm. Füzuli Ələkbərovun çıxışında xaricdən gələn miqrantlarla bağlı məsələlər səsləndi. Yadınızdadırsa, bu barədə mən hələ bir il bundan əvvəl öz fikirlərimi demişdim.

Görürdüm, vəziyyət elə istiqamətə gedir ki, biz gələcəkdə bu problemlə üzləşə bilərik. Biz başqa ölkələrin bu sahədəki təcrübəsini öyrənməliyik. Miqrantların gəlməsi bütövlükdə inkişafın göstəricisidir. Əgər inkişaf olmasaydı, heç kim buraya iş üçün gəlməzdi. Amma digər tərəfdən, biz indidən tədbirlər görməliyik ki, sabah bu bizim üçün problemə çevrilməsin. Miqrant gəlir, iş yerini tutur və yerli vətəndaş o iş yerindən məhrum olur. Düzdür, o da həqiqətdir ki, bəzi hallarda bizim vətəndaşlarımızın işləmək istəmədiyi yerlərdə miqrantlar gəlib işləyirlər. Bu da onu göstərir ki, Azərbaycanda faktiki olaraq, işsizlik barədə söhbət açmaq yersizdir. İş var, bəzi hallarda işləmək istəməyənlər və dövlətdən böyük imkanlar gözləyənlər var.

Dövlət doğrudan da ancaq kasıb şəraitdə yaşayanlara, yoxsullara kömək əlini uzadır. 78 min ailə, 300 mindən çox insan dövlət tərəfindən pul alır. Özü də bu, az pul deyil, dediyim kimi, hər bir ailə 100 dollara yaxın pul alır. Amma işləmək istəməyənlər özləri bilməlidirlər ki, iş hamı üçün var. Bunu hamı bilməlidir. Ancaq istisna deyil ki, gələcəkdə miqrantların sayı arta bilər. Yəni Azərbaycanda gedən inkişaf, tikinti... Miqrantlar xüsusilə xidmət və tikinti sektorunda işləyirlər. Füzuli, elədirmi?

**Füzuli Ələkbərov:** Cənab Prezident, tamamilə düz deyirsiniz. Mən çıxışımda dedim, il ərzində dövlət rüsumu kimi, 44 manat pul ödəyirlər. Bu da nə deməkdir? Miqrantlar ayda 100–150 manata işləyirlər. Bizimkilər bu məvacibə işləmirlər. Amma biz dövlət rüsumunu artırsaq, yerli sahibkarlar üçün daha əlverişli olar ki, yerli işçi qüvvəsini öyrətsin, təhsil, təlim versinlər. Onda maraq olar. Yüksək peşəkarlığa malik, hansılar ki, ayda 2000–3000–4000 manat maaş alır, onlar gəlsinlər, bizim əmək bazarının keyfiyyətcə yüksəlməsinə təsir etsinlər. Amma Siz dediyiniz kimi, gələn miqrantlar, əsasən ən aşağı səviyyəli işlərdə çalışırlar.

**İ l h a m Ə l i y e v:** Əslində, miqrant deyəndə, əlbəttə, aşağı səviyyəli işçiləri nəzərdə tuturuq. Azərbaycanda indi həm neft sənayesində, həm də xidmət sahəsində minlərlə xarici vətəndaş işləyir. Onlar, əlbəttə, yüksək peşəkarlığa malik olan adamlardır. Amma az keyfiyyətli işçi qüvvəsinin Azərbaycana kütləvi şəkildə gəlməsinə gərək biz hazır olaq. Bütün normativ qaydaları elə tənzimləyək ki, birinci növbədə yerli əhali üçün imkanlar yaransın. Çünki biz elə etməliyik ki, Azərbaycan vətəndaşları maksimum dərəcədə işlə təmin olunsunlar. Biz yəqin ki, gələcəkdə xaricdən gələn miqrantların sayını müəyyənləşdirməliyik, normalaşdırmalıyıq. Hər bir ölkə üçün norma olmalıdır, bundan çox olmamalıdır. Bunun həm də başqa, iqtisadi tərəfləri var.

Biz 2008-ci ildə sosial sahəyə də investisiyalar qoymaqda davam edəcəyik. Məktəb, xəstəxana tikintisi – bütün bunlar uğurla gedir və elə etməliyik ki, yaxşı vəziyyətdə olmayan bir dənə məktəb olmasın, bütün səhiyyə ocaqları təmir edilsin, yeniləri tikilsin. Bu sahəyə vəsait ayıracağıq. Muzeylər, teatrlar təmir olunur. Bu yaxınlarda Tarix muzeyi təmirdən sonra fəaliyyətə başlamışdır. Kukla Teatrı, ondan əvvəl Yaşıl Teatr təmir edilmişdir. Çox gözəl teatr olmuşdur. Yəni bu proses 2008-ci ildə də gedəcək, büdcədən vəsait ayrılıbdır və elə edəcəyik ki, bütün tarixi binalarımız təmir edilsin. Teatrlar, muzeylər – həm Bakıda, həm də rayonlarda bütün mədəniyyət ocaqları ən yaxşı səviyyədə təmir olunmalıdır və yeniləri tikilməlidir.

Eyni zamanda, idman komplekslərinin tikintisi nəzərdə tutulur. İndi 20-yə yaxın olimpiya idman kompleksi ya inşa edilir, yaxud da yaxın zamanlarda inşasına başlayacağıq. Rayonlarda 10-dan çox olimpiya idman kompleksi istismara verilibdir. Mən hesab edirəm ki, 2008-ci ildə bu sahədə çox böyük nailiyyətlər olacaqdır. Azərbaycan 2016-cı ildə Olimpiya oyunlarını keçirmək əzmindədir və biz artıq Beynəlxalq Olimpiya Komitəsinə öz təkliflərimizi göndəririk. Bu təşəbbüs onu göstərir ki, Azərbaycan dövləti öz gücünə arxayındır, öz

gücünə istinad edir və biz Olimpiya oyunları kimi mötəbər dünya yarışını keçirə bilərik.

Əlbəttə, bugünkü iclasda bütün sahələr üzrə tapşırıqların verilməsi mümkün deyil, biz bunu sonra işgüzar qaydada davam etdirəcəyik. Sadəcə olaraq, çıxışımın sonunda ordu quruculuğu haqqında bir neçə söz demək istəyirəm.

Bildiyiniz kimi, biz bu sahəyə də böyük vəsait ayırırıq. 2008-ci ildə hərbi xərclər ən azı 1 milyard 200 milyon dollar səviyyəsində olacaqdır. Bu, dövlət büdcəsində nəzərdə tutulmuş rəqəmdir. İstisna deyil ki, il ərzində buna dəyişiklik edilsin. Ordumuzun peşəkarlığı artır. Ordumuz hər an öz doğma torpaqlarımızı işğalçılardan azad etməyə hazır olmalıdır və əslində, hazırdır.

Bununla yanaşı, biz 2008-ci ildə müdafiə sənayesinə daha da böyük sərmayə qoymalıyıq. Biz bu sənayeni yaratdıq. Bu sahədə çox qısa müddətdə çox böyük uğurlar əldə edilibdir. Yeni il ərəfəsində mən özüm həm Bakıda, həm də Əli Bayramlıda onların qısa müddət ərzində gördüyü işlərlə tanış oldum. Sözün əsl mənasında, çox şad oldum ki, artıq qısa müddətdə bu sənayenin ilkin elementləri var, yaratmışıq, işləyir. İnsanlar işləyir, yaxşı məhsul istehsal edirlər və sənayenin inkişafı üçün yaxşı imkanlar, perspektivlər var. Biz əsas investisiyanı qoymalıyıq, onlar isə texnologiyanı gətirirlər və artıq bir sıra ölkələrlə çox işgüzar münasibətlər qurulubdur. Bu ölkələr həm qonşu ölkələrdir, həm də uzaqda yerləşən ölkələrdir. Bu, bir daha göstərir ki, Azərbaycan dünya çapında çox böyük dostlar qazanmışdır. Çünki hərbi texnologiyalar elə sahədir ki, hər bir ölkə onu başqa ölkəyə asanlıqla verməz. Məhdudiyyətlər var, qaydalar var. Biz o yerlərdən texnologiyalar alırıq ki, vaxtilə bunu təsəvvür etmək mümkün deyildi. Ona görə burada heç bir məhdudiyyət yoxdur.

Ümumiyyətlə, bizə ənənəvi dost olan ölkələrin və yeni ölkələrin, hansı ki, bizim münasibətlərimiz çox səmimi olubdur, onların rəsmi mövqeyi belədir ki, hərbi sahədə Azərbaycanla əməkdaşlıqda heç bir məhdudiyyət yoxdur. Yəni bizim üçün

bütün imkanlar açıqdır, vəsaitimiz də var. Gərək 2008-ci ildə bu sahədə daha da böyük işlər görülsün.Ümid edirəm ki, biz buna nail olacağıq. Azərbaycanda çox güclü müdafiə sənayesi, hərbi sənaye yaradılacaqdır.

Bir daha demək istəyirəm ki, bugünkü iclasda 2008-ci ildə görüləcək bütün işlər haqqında danışmaq mümkün deyil, bir neçə saat vaxt aparar. Bizim hökumətimiz yaxşı işləyir, nazirlər öz vəzifələrini bilirlər. Azərbaycanda çox gözəl idarəetmə mexanizmi, idarəetmə sistemi yaranıbdır. Hesab edirəm ki, 2008-ci ildə bütün bu müsbət nailiyyətlər artırılmalıdır. Bütün nazirlər hərə öz yerində işini davam etdirəcəkdir. Mən yaxşı nəticələri görəndə sevinirəm, qüsurlar olanda onları deyirəm, töhmət edirəm. Mən istəyirəm ki, Azərbaycanda hər şey yaxşı olsun. İstəyirəm ki, ölkəmiz daha da güclü olsun, xalqımız rahat yaşasın, xalqı narahat edən problemlər aradan qaldırılsın, məmurlar öz vəzifə borcuna məsuliyyətlə yanaşsınlar. Hər bir məmur ilk növbədə elə etməlidir ki, onun sahəsində irəliləyiş, tərəqqi olsun, yaxşı nəticələr olsun. Birbaşa xalqla ünsiyyətdə olan məmurlar elə etməlidirlər ki, insanlar onların fəaliyyətindən razı qalsınlar. Diqqətli olmalıdırlar, yaddan çıxarmamalıdırlar ki, biz xalq üçün çalışırıq, əksinə deyil. Bizim vəzifəmiz xalqa xidmət etməkdir. Məni xalq prezident seçibdir ki, xalqa öz xidmətimi göstərim. Mən icra strukturlarını formalaşdırım ki, biz hamımız xalqa xidmət edək, ölkəmizi gücləndirək və güclü Azərbaycan dövlətini yaradaq.

2008-ci il yaxşı başlayır. Əminəm ki, biz 2008-ci ili yaxşı nəticələrlə başa vuracağıq. Bu işlərdə sizin hamınıza uğurlar arzulayıram.

Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ SENATORU RİÇARD LUQARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*13 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Prezident sarayında ABŞ senatoru Riçard Luqarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ABŞ-la Azərbaycan arasında ikitərəfli əməkdaşlığın bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, ABŞ senatorunun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana bu səfəri ikitərəfli əlaqələrə və regional inkişafa dair bir çox məsələlərin müzakirə olunmasına, ölkələrimizin mühüm strateji sahələrdə daha da möhkəm tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə kömək edəcəkdir. Senator Riçard Luqarın Azərbaycana göstərdiyi diqqət və dəstəyi yüksək dəyərləndirən prezident İlham Əliyev Azərbaycan–ABŞ əməkdaşlığının gələcəkdə daha da genişlənəcəyinə və bunun regionun təhlükəsizliyinə töhfə verəcəyinə əminliyini söylədi.*

*Senator Riçard Luqar Azərbaycanla ABŞ arasında güclü tərəfdaşlıq əlaqələrinin olduğunu bildirdi, Azərbaycanın antiterror koalisiyasındakı fəal iştirakını yüksək qiymətləndirdi. Senator dedi ki, prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən inkişaf prosesləri böyük əhəmiyyət daşıyır. O bu münasibətlə dövlət başçısını təbrik etdi, indiki səfərinin Azərbaycandakı inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün yaxşı fürsət yaradacağını vurğuladı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*14 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya), Mətyu Brayzəni (ABŞ) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyətinə dair məsələlər müzakirə edilmişdir.*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
XANIM PRATİBHA PATİLƏ**

Hörmətli xanım Prezident!

Hindistanın milli bayramı – Respublika günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Hindistan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın istək və iradəsinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 yanvar 2008-ci il*

**HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MANMOHAN SİNQHƏ**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Respublika günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Hindistan əməkdaşlığının inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Hindistan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 yanvar 2008-ci il*

**AVSTRALİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KEVİN RUDA**

Hörmətli cənab Baş nazir!

Milli bayramınız – Avstraliya günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvar olduğumu bildirirəm ki, Azərbaycan ilə Avstraliya arasındakı münasibətlər qarşıdakı illərdə də dostluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 yanvar 2008-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞDAM RAYONUNA SƏFƏRİ

***17** yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Ağdam rayonunda olmuşdur.*

*Dövlət başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə Ağdam rayonunun Quzanlı qəsəbəsində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoydular.*

*Sonra Heydər Əliyev Muzeyinin açılışı oldu. Muzeydə ulu öndərin büstü qoyulmuş, həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, sənədlər və onun haqqında yazılmış kitablar toplanmışdır. Burada Heydər Əliyevin 1970–80-ci, 1990-cı və 2001-ci illərdə Ağdam rayonuna səfərlərini, sakinlərlə görüşlərini əks etdirən fotoşəkillər, eksponatlar xüsusi yer tutur. Muzeyin ikinci mərtəbəsində «Heydər Əliyev ürəklərdə əbədi yaşayacaq», «Heydər Əliyev Azərbaycan Respublikasının memarıdır» guşələri ulu öndərin şərəfli ömür yolunu, eləcə də ikinci dəfə ölkəyə rəhbərlik etdiyi illərdə Azərbaycanın müstəqilliyinin əbədiliyi, beynəlxalq nüfuzunun və iqtisadi qüdrətinin möhkəmləndirilməsi üçün həyata keçirdiyi məqsədyönlü və kompleks siyasəti dolğun ehtiva edir.*

*Prezident İlham Əliyev muzeylə tanışlıqdan sonra Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

### Ağdam Olimpiya İdman Kompleksinin açılış mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 17-də Ağdam rayonunun Quzanlı qəsəbəsində Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimində iştirak etmişdir. Mərasimə*

*toplaşan idmançılar, inşaatçılar və yerli sakinlər dövlət başçısını və xanımını böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar.*

*Prezident İlham Əliyev idmançılar və inşaatçılarla görüşdü, sonra Olimpiya İdman Kompleksinin rəmzi açılışını bildirən qırmızı lenti kəsdi.*

*Kompleksin tikintisinə 2006-cı ilin yazında başlanmış, dövlətimizin başçısı təməlqoyma mərasimində iştirak etmişdi. Dövlət Neft Fondunun vəsaiti hesabına tikilmiş və üç hektar ərazisi olan kompleksin ikimərtəbəli binasında 500 yerlik tribunaları olan idman salonu, habelə kiçik idman salonu, trenajor, məşq salonları, beynəlxalq standartlara uyğun 2 min yerlik tribunaları olan futbol meydançası, voleybol və basketbol meydançaları, 30 nəfərlik mehmanxanası vardır. Tikinti işlərində hər ay 100 nəfər çalışmışdır.*

*Prezident İlham Əliyev komplekslə tanış oldu, burada yaradılan şəraitlə maraqlandı.*

*Olimpiya kompleksinin açılışına həsr olunmuş mərasim Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə başlandı.*

*Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Həsən Sarıyev, yunan-roma güləşi üzrə Azərbaycan yığma komandasının Baş məşqçisi Elçin Cəfərov çıxış etdilər. Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞDAM OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQİ

*Ağdam rayonu*

*17 yanvar 2008-ci il*

Əziz ağdamlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, yenidən Ağdam rayonunda olmağımdan məmnunluq hissi keçirirəm. İki il bundan əvvəl biz sizinlə bərabər bu gözəl Olimpiya İdman Kompleksinin təməlini qoyduq və bu gün onun açılışında iştirak edirik. Bu çox əlamətdar bir hadisədir. Bu onu göstərir ki, bizim qəbul etdiyimiz bütün qərarlar vaxtında, özü də böyük peşəkarlıqla, yüksək səviyyədə yerinə yetirilir. Bu Olimpiya İdman Kompleksi beynəlxalq standartlara cavab verən bir idman qurğusudur. Azərbaycanda son illər ərzində müxtəlif bölgələrdə olimpiya idman kompleksləri tikilmişdir. Lakin ilk dəfədir ki, rayonlarda, kənddə – əslində indi qəsəbədir, amma biz kompleksin təməlini qoyanda Quzanlı kənd hesab olunurdu – belə möhtəşəm Olimpiya İdman Kompleksi tikilmişdir. Bu onu göstərir ki, bölgələrin inkişafı, Azərbaycanın müxtəlif yerlərində, ən ucqar yerlərində yaşayan insanların şəraitinin yaxşılaşdırılması üçün, müasir infrastrukturun yaradılması üçün bütün tədbirlər görülür. Biz ölkəmizi hərtərəfli inkişaf etdiririk. İstəyirik ki, bütün bölgələr inkişaf etsin və hər bir yerdə, hər bir rayonda, hər bir qəsəbədə bütün lazımi şərait olsun.

Azərbaycanın idman şöhrəti yüksəklərdədir. Bu, artıq bütün dünya idman ailəsi tərəfindən qəbul edilir. Biz həm ölkəmizdə ən böyük beynəlxalq yarışları uğurla keçiririk, həm də idmançılarımız bizi öz uğurları ilə sevindirirlər, bizim çox güclü

idman potensialımız var, gənc nəsil yetişir. O cümlədən Ağdam rayonundan olan idmançılar həmişə Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırmışlar. Ağdamın çox gözəl və güclü idman məktəbi olmuşdur və indi də var. Bu gün burada çıxış edən Elçin Cəfərov sizin yerlinizdir və o, milli komandaya başçılıq edir. O milli komandaya ki, bu idman növündə bizim olimpiya və dünya çempionu medallarımız var, qızıl medallarımız var. Ona görə rayonun infrastrukturunun inkişafı, o cümlədən idman imkanlarının genişlənməsi, əlbəttə ki, bizi bu idman kompleksini tikməyə vadar etmişdir. Təkcə buna görə yox, eyni zamanda, mən hesab edirdim ki, Ağdamda mütləq gözəl Olimpiya İdman Kompleksi tikilməlidir. Rayonun əksər hissəsi işğal altındadır və Quzanlı müvəqqəti olaraq Ağdam rayonunun mərkəzinə çevrilmişdir. Quzanlının statusunun qaldırılması, ona qəsəbə statusunun verilməsi, bu qəsəbənin inkişafına əlavə vəsaitin ayrılması, idman kompleksinin tikilməsi o məqsədi güdürdü ki, müvəqqəti olaraq Ağdam rayonunun mərkəzi kimi, Quzanlı qəsəbəsi inkişaf etsin, abadlaşsın. Gələcəkdə qəsəbənin və digər kəndlərin inkişafı üçün lazımi tədbirlər görüləcəkdir. Mən Ağdam rayonunun inkişafı üçün əlavə vəsait ayıracağam və o vəsaitdən istifadə edilməklə rayonun problemləri həll olunacaqdır.

Mən keçən dəfə burada olarkən demişdim və bu gün yenə də demək istəyirəm ki, Ağdam rayonuna biz xüsusi diqqət göstərməliyik. Rayonun həmişə böyük potensialı olubdur. Ancaq indi rayonun əksər hissəsində bütün binalar, bütün infrastruktur dağıdılıb, erməni talançıları tərəfindən bütün əmlak oğurlanıb aparılıbdır. Bunu həm biz bilirik, həm də beynəlxalq ictimaiyyət bilir. ATƏT-in faktaraşdırıcı missiyası iki il bundan əvvəl bölgəyə səfər etmişdir və o missiyanın məruzəsində bütün bu acınacaqlı həqiqətlər öz əksini tapmışdır. Erməni vandalları tərəfindən şəhər, demək olar ki, tamamilə dağıdılmışdır. Orada bir dənə salamat bina qalmayıb və insanların bütün əmlakı, bizim maddi və mənəvi irsimizin inciləri aparılmışdır.

Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik, mən buna şübhə etmirəm. Ondan sonra yeni şəhərlər tikəcəyik, yeni qəsəbələr, kəndlər tikəcəyik. Ancaq hələ ki, biz müvəqqəti olaraq burada məskunlaşan insanların həyat səviyyəsini qaldırmalıyıq. Bildiyiniz kimi, bu məqsədlə qaçqınların və məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun artırılması istiqamətində qəbul edilmiş qərarlar, sərəncamlar bu gün çox uğurla icra edilir. Keçən ilin sonunda əvvəllər qəbul edilmiş proqramlara əlavələr göstərir ki, proqramın əsas hissəsi icra olunubdur. Hər il bu məqsədlərə yüz milyonlarla manat vəsait sərf edilir, yeni qəsəbələr, yeni şəhərciklər salınır. Burada icra hakimiyyəti başçısının çıxışında qeyd olundu ki, təkcə Ağdam rayonunda 12 qəsəbə salınıbdır. Mənə verilən məlumata görə, indi Ağdam rayonunun işğaldan azad olunmuş yerlərində 86 min insan yaşayır. Bu, rayon əhalisinin, demək olar ki, yarısıdır. Yəni biz buna müvəqqəti olaraq nail ola bilmişik. İnsanları normal şəraitlə təmin edə bilmişik və burada salınan qəsəbələr, digər bölgələrdə – Füzulidə, başqa yerlərdə salinan qəsəbələr bizim siyasətimizi əks etdirir.

Mən 2003-cü ilin payızında prezident seçkiləri ərəfəsində söz vermişdim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. İndi deyə bilərəm ki, biz bu məqsədə 4 il ərzində nail olduq. Sonuncu çadır şəhərcikləri ləğv edilibdir. Onların əvəzində yeni, gözəl qəsəbələr tikilibdir, məktəblər, tibb məntəqələri, uşaq bağçaları, bütün infrastruktur var, elektrik xətləri çəkilibdir. İndi Ağdam rayonuna təbii qazın verilməsi məsələsi də həll olunur. Bu gün Ağcabədiyə uzun fasilədən sonra ilk dəfə qazın verilməsi bərpa ediləcəkdir. Sonra o xətdən Ağdam rayonuna yeni xətt çəkiləcək və bu rayon da təbii qazla təmin olunacaqdır.

Bir sözlə, məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması Azərbaycan dövlətinin əsas prioritet məsələsidir və bu məqsədlərə böyük vəsait ayırırıq. Bu məqsədlər üçün biz müvafiq proqramlar qəbul etmişik, 16 fərman və

sərəncam imzalanmışdır. Bütün bu fərman və sərəncamlar əməli-praktik işlərin görülməsi üçün əsasdır. Qəbul edilmiş hər bir qərar ona gətirib çıxaracaq ki, insanların həyat səviyyəsi yaxşılaşacaqdır. Bizim qəbul etdiyimiz qərarlar, imzaladığımız sərəncamlar şüar xarakteri daşımır. Onlar əməli-praktik tədbirlərin həyata keçirilməsini nəzərdə tutur və biz bunu edirik. Hesab edirəm ki, qısa müddət ərzində Azərbaycanda çadır şəhərciklərinin ləğvi çox böyük nailiyyətdir.

2007–2011-ci illərdə Dövlət Proqramına əlavələrlə əlaqədar 500 milyon manat həcmində vəsaitin xərclənməsi nəzərdə tutulur. Yeni qəsəbələr tikiləcək, fin tipli qəsəbələrdə yaşayan soydaşlarımız, hərbi hissələrin ərazilərində yaşayanlar, məktəblərdə, yararsız vəziyyətdə olan binalarda yaşayan soydaşlarımız müasir, gözəl qəsəbələrə köçürüləcək və onların məişət problemləri öz həllini tapacaqdır. Beləliklə, o proqramın icrası nəticəsində ən azı 220 min, bəlkə ondan da çox insan, məcburi köçkün normal yaşayış imkanları ilə təmin olunacaqdır. Əlbəttə ki, bu proqramlar böyük vəsait tələb edir və Azərbaycan indi inkişaf edən ölkədir. Amma hələ ki, bizim başqa sahələrdə böyük ehtiyaclarımız var – iqtisadi inkişafa, sənaye potensialının inkişafına, ölkənin təhlükəsizliyinin təmin olunmasına, ordu quruculuğuna böyük vəsaitin ayrılması lazımdır. Ancaq bununla bərabər, biz ilk növbədə, sosial məsələlərə də mütləq və mütləq diqqət yetirməliyik. Mən çox şadam ki, bu istiqamətdə bizim gördüyümüz işlər çox müsbətdir, göz qabağındadır. Nə ediriksə, insanlar bunların hamısının nəticəsini görə bilir, bundan istifadə edə bilirlər. Mən əminəm ki, belə olan halda, ardıcıl, məqsədyönlü siyasət nəticəsində biz çətin vəziyyətdə yaşayan soydaşlarımızın həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdıracağıq.

Ancaq o da həqiqətdir ki, bütün bu tədbirlər müvəqqəti xarakter daşıyır. Əlbəttə, bizim siyasətimiz – Ağdamdan və Füzulidən olan məcburi köçkünləri ilk növbədə o rayonların ərazisində yerləşdirmək, hesab edirəm ki, düzgün siyasətdir və biz bu məsələni artıq indidən həll edirik. Amma əsas məsələlər, əsas

böyük işlər torpaqlarımız işğaldan azad olunandan sonra başlayacaqdır. Bayaq qeyd etdiyim kimi, işğal edilmiş bütün ərazilərdə bütün infrastrukturlar dağıdılıbdır. Biz yeni şəhərlər tikəcəyik, yeni qəsəbələr, kəndlər salınacaq və buna hazır olmalıyıq. Onu da bilirik ki, biz ancaq öz gücümüzə arxalana, ancaq öz gücümüzə istinad edə bilərik.

Biz, əlbəttə ki, xarici beynəlxalq donor təşkilatlarının yardımından istifadə etmişik və bizim üçün ən çətin dövrdə yardım etdiklərinə görə o təşkilatlara öz minnətdarlığımızı bildiririk. Amma onu da bilirik ki, işğaldan azad olunacaq bütün yerləri, rayonları abadlaşdırmaq üçün milyardlarla dollar vəsait lazım olacaqdır. Heç bir beynəlxalq təşkilat o qədər vəsaiti bizə verməz. Biz öz gücümüzə istinad etməliyik. Ona görə iqtisadi potensialımızı möhkəmləndiririk. Ona görə ki, güclü olaq və gələcəkdə bütün bu rayonları öz hesabımıza bərpa edək. Bu məqsədlə Azərbaycanda aparılan köklü iqtisadi islahatlar bu gün daha da dərinləşməlidir. Biz bütün imkanlarımızı səfərbər etməliyik ki, güclü dövlət yaradaq, güclü iqtisadiyyat yaradaq. İqtisadiyyat hər bir dövlətin təməl sütunudur. Güclü iqtisadiyyatı olan ölkə siyasi cəhətdən də müstəqil olur və öz maraqlarını daha da uğurla müdafiə edə bilər.

Azərbaycanın üzləşdiyi çətin problemlərin əsas səbəbi ondan ibarət idi ki, 90-cı illərin əvvəllərində biz müstəqilliyimizi bərpa edəndə Azərbaycanın iqtisadiyyatı dağılmış vəziyyətdə idi. Azərbaycanın nə xarici siyasəti, nə daxili siyasəti milli maraqlara cavab vermirdi. Sənaye istehsalı, demək olar ki, tamamilə aşağı düşmüşdü, iflic vəziyyətində idi, iqtisadi böhran hökm sürürdü və faktiki olaraq, ölkənin gələcəyi qeyri-müəyyən idi. Erməni qəsbkarları bu amildən, eyni zamanda, başqa amillərdən, xarici hərbi yardımdan istifadə edərək, bizim torpaqlarımızı işğal ediblər. İndi onlar bəzi hallarda sübut etməyə çalışırlar ki, müharibədə qələbə qazanıblar. Bu belə deyil, əsla belə deyil! Çünki müharibə hələ bitməyib, müharibənin birinci dövrü başa çatıb və xarici dəstəyin nəticəsində bizim torpaqlarımız erməni işğalçıları tərəfindən

zəbt edilibdir. 90-cı illərin əvvəlindəki vəziyyətdən fərqli olaraq, biz bu gün daha güclüyük. Biz iqtisadi imkanlarımızı artırırıq və bu gün Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatı ilə müqayisədə həcm baxımından 5-6 dəfə böyükdür. Bu həcm getdikcə artacaq və bütün imkanlarımızı səfərbər edib güclü dövlət, güclü iqtisadiyyat yaradacağıq ki, ərazi bütövlüyümüzü bərpa edək. Biz güclü ordu yaradırıq.

Əminəm ki, bütün bu amillər – Azərbaycanın uğurlu iqtisadi siyasəti, xarici siyasəti, bölgədəki nüfuzu və artan rolu, bizim iqtisadi potensialımız və enerji baxımından güclü olmağımız, ordu quruculuğunun sürətlə getməsi danışıqlar prosesinə də müsbət təsir göstərir. Əgər bir neçə il bundan əvvəl Ermənistan tərəfi danışıqlar zamanı Dağlıq Qarabağa müstəqilliyin verilməsini tələb edirdisə, bu gün bu belə deyildir. Bu gün onlar da anlayırlar ki, heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək, heç vaxt Dağlıq Qarabağ Ermənistana birləşməyəcəkdir. Bu, artıq təkcə bizim mövqeyimiz deyil – bütün zamanlarda bizim mövqeyimiz bundan ibarət olmuşdur – eyni zamanda, beynəlxalq vasitəçilərin mövqeyidir və Ermənistan tərəfi məcbur olub bu reallıqla hesablaşır. Əgər vaxtilə 4 rayonun Azərbaycana qaytarılması məsələsi müzakirə olunurdusa, daha doğrusu, Ermənistan tərəfindən irəli sürülürdüsə, bu gün artıq bu da keçmişdə qalıbdır. İndi 7 rayonun, bütün işğal olunmuş torpaqların Azərbaycana qaytarılmasından söhbət gedir. Bunu Ermənistandan beynəlxalq vasitəçilər, ATƏT-in Minsk qrupu tələb edir və Ermənistan rəhbərliyi məcbur olub bunu qəbul edir. Yəni bu çox böyük irəliləyişdir, çox böyük uğurlardır.

Düzdür, məsələ hələ ki, öz həllini tapmayıb, amma biz buna yaxınlaşırıq. Bizim siyasətimiz, gücümüz, imkanlarımız və qətiyyətimiz o günü yaxınlaşdırır və danışıqlar çərçivəsində əldə edilmiş irəliləyiş Azərbaycanı qane edir. Hələ tam şəkildə deyə bilmərəm ki, təklif edilən variantda hər şey bizi qane edir. Bəzi məsələlər bizi qane etmir və biz onlarla razı ola bilmərik. Amma bütövlükdə danışıqların gedişatı müsbət istiqamətdədir.

Biz buna nəyin hesabına nail olmuşuq? Yəni həm beynəlxalq ictimaiyyətin, həm Ermənistan rəhbərliyinin güzəştlərə getməyə hazır olmasına və artıq dediyim məsələlərə razılıq verməsinə nəyin hesabına nail ola bilmişik? Ancaq öz gücümüzün hesabına. Ona görə ki, Ermənistan anlayır ki, artıq Azərbaycan güclü dövlətə çevrilibdir. Azərbaycanın beynəlxalq mövqeləri möhkəmlənir, Azərbaycan Avropa təhlükəsizliyi üçün, enerji təhlükəsizliyi üçün əvəzolunmaz ölkəyə çevrilir, Azərbaycan öz zəngin neft-qaz yataqlarının işlənilməsinə uğurla nail olubdur və bu gün qonşu ölkələri, Avropa və dünya ölkələrini enerji resursları ilə xeyli dərəcədə təmin edir.

Azərbaycan iqtisadi artıma görə ardıcıl olaraq 3 ildir dünyada birinci yerdədir. Azərbaycan öz ordu quruculuğunu gücləndirir, keçən il və bu il orduya ayrılan təxminən iki milyard yarım dollar vəsait bizim imkanlarımızı, gücümüzü artırır. Ermənistan tərəfi bunu bilir və bununla hesablaşmağa məcburdur. Vaxt bizə işləyir. Mən bir daha demək istəyirəm, bizim hamımız istəyirik ki, tezliklə torpaqlarımız işğalçılardan azad edilsin. Soydaşlarımız tezliklə öz doğma yurduna, öz doğma torpaqlarına qayıtsınlar. Bir daha qeyd etmək istəyirəm ki, artıq bu rayonların bərpası üçün də bizim imkanlarımız var. Ancaq mən istəyirəm ki, imzalanacaq sülh sazişi Azərbaycanın maraqlarını tam şəkildə təmin etsin. Mən hələ deyə bilmərəm ki, tam şəkildə bizi qane edir. Ona görə biz danışıqlar prosesini davam etdirəcəyik, öz mövqeyimizdən dönməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü müzakirə mövzusu deyil, olmayıb və olmayacaqdır. Dağlıq Qarabağa, orada yaşayan ermənilərə və ora qayıdacaq azərbaycanlılara Azərbaycanın ərazi bütövlüyü çərçivəsində yüksək idarəetmə statusu verilə bilər. Başqa Avropa ölkələrində biz bunu görürük, bu ölkələrdə muxtariyyət formaları var, müxtəlif formalar var və onların hamısı ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunubdur. Biz heç bir yeni formanı icad etmək fikrində deyilik. Bizim mövqeyimiz tarixi həqiqətə əsaslanır. Qarabağ, o cümlədən Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, əsrlər boyu azər-

baycanlılar orada yaşamış, yaratmışlar. Ermənilər bizim torpaqlarımıza qonaq kimi gəlmişlər – siz bunu yaxşı bilirsiniz və ondan sonra orada əksəriyyəti təşkil etməklə o torpaqlara iddia etməyə başlamışlar. Əfsuslar olsun ki, o vaxt, 80-ci illərin sonunda Azərbaycan rəhbərliyi antimilli siyasət aparmaqla böyük güzəştlərə getmişdir. Dağlıq Qarabağda Sovet İttifaqı rəhbərliyi, ilk növbədə, Qorbaçov tərəfindən xüsusi idarəetmə komitəsi yaradılmışdı və komitənin yaranması artıq Dağlıq Qarabağda separatçı meyillərin güclənməsi demək oldu. Ondan sonrakı dövrlərdə, 90-cı illərin əvvəlində aparılan siyasət də faktiki olaraq, torpaqlarımızın işğalına gətirib çıxarmışdır. Şuşa, Laçın, Kəlbəcər və başqa torpaqlarımız işğal altına düşdü. İndi bu böyük bəla, böyük dərd, həm insanlar üçün humanitar fəlakət, həm ölkəmiz üçün ən böyük problem bizi çox incidir və eyni zamanda, əlbəttə ki, bizi daha da güclü olmağa sövq edir. Biz güclü olmalıyıq, indiki zamanda biz dünyada gedən proseslərə də nəzər salır, baxırıq, nəzarət edirik, izləyirik. Görürük ki, əfsuslar olsun, dünyada beynəlxalq davranış qaydaları pozulur, bəzi hallarda beynəlxalq prinsiplərə əməl olunmur, çox narahatedici meyillər başlanır, bəzi muxtar bölgələrin birtərəfli tanınması məsələsi ortaya çıxır. Halbuki bu tamamilə qəbuledilməzdir.

Bir sözlə, dünyada gedən proseslər onu göstərir ki, hər bir ölkə ilk növbədə güclü olmalıdır. Güclü olarsansa, sən öz maraqlarını qoruyacaqsan. Əgər sən güclü olmasan, hətta bütün beynəlxalq normalar sənin tərəfində olsa da, bunun böyük əhəmiyyəti olmayacaqdır. Azərbaycan bu dövrü yaşayıbdır. Biz kasıb vəziyyətdən inkişafa və gələcək çiçəklənməyə doğru gedirik. Bilirik ki, bizi nələr gözləyir. Biz öz iqtisadi islahatlarımızla, ulu öndər Heydər Əliyevin təməlini qoyduğu neft strategiyası ilə güclü dövlət yaradırıq. İmkanlarımız artır, bizimlə daha da çox hesablaşırlar, bizim sözümüz daha da böyük məna daşıyır, sözümüzün çəkisi artır. Bunun müqabilində, Ermənistan bütün beynəlxalq layihələrdən təcrid edilmiş bir ölkə – biz buna nail olmuşuq – heç bir əhəmiyyət

kəsb etməyən bir ölkə, xarici ianələrdən asılı olan, xarici dövlətlərin köməyi ilə yaşayan və müstəqilliyi ancaq şərti xarakter daşıyan bir ölkədir. Yəni bu, artıq müqayisəolunmaz dərəcədədir. Növbəti illərdə bizim gücümüz daha da artacaq, onlar isə zəifləyəcəklər.

Beləliklə, mən heç şübhə etmirəm ki, biz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik. Mən inanmaq istəyirəm ki, Ermənistan rəhbərliyi, nəhayət, beynəlxalq hüquq prinsiplərinə riayət edəcək, normal məntiqə riayət edəcək və işğal olunmuş torpaqlardan qoşunlarını öz xoşu ilə çıxaracaq və bizim soydaşlarımız bu torpaqlara qayıdacaqlar. Əks təqdirdə, Azərbaycan tam sərbəstdir ki, bütün imkanlardan, o cümlədən hərbi imkanlarından istifadə etsin və öz doğma torpaqlarını azad etsin. Biz heç kimin torpağını zəbt etməmişik. Halbuki, indiki Ermənistan dövləti tarixi Azərbaycan torpağında formalaşıbdır. İrəvan şəhərini Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi 1918-ci ildə Ermənistana hədiyyə edibdir. Yumşaq desək, o da böyük bir səhv idi. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda İrəvan şəhərini Ermənistana bağışlamışdır. İrəvan xanlığı əzəli Azərbaycan torpağıdır. Bir daha demək istəyirəm ki, ermənilər bu bölgəyə qonaq kimi gəlmişdilər. Ona görə haqq-ədalət, tarixi həqiqət, beynəlxalq hüquq, iqtisadi imkanlar, hərbi potensial – bütün bu amillər tərəzinin bir gözündə, Ermənistanın qeyri-konstruktiv və heç bir beynəlxalq normalara sığmayan siyasəti tərəzinin başqa yüngül gözündədir.

Bir daha demək istəyirəm ki, biz heç bir başqa ölkənin torpaqlarına iddia etmirik, biz istəyirik ki, bizim torpaqlarımız dinc yolla işğalçılardan azad olunsun və Azərbaycan vətəndaşları öz vətəndaş hüquqlarından istifadə edə bilsinlər. Bəzi hallarda beynəlxalq təşkilatlardan biz çox eşidirik ki, insan haqları təmin olunmalıdır, insan haqları müdafiə edilməlidir. Azərbaycanda bütün insan haqları necə lazımdır müdafiə edilir, təmin olunur və başqa ölkələr üçün biz örnək ola bilərik. Bunu artıq yaxın tarix göstəribdir. Ancaq indi nədənsə, bu beynəlxalq təşkilatlar 1 milyon qaçqın-köçkünün insan haqlarından söhbət

açmırlar. Evindən-eşiyindən olmuş, öz torpağını itirmiş insanların haqlarından söhbət açmırlar. Yəni bu ikili siyasət artıq bizə bəllidir, biz bunu bilirik və buna əhəmiyyət də vermirik. Amma bu ədalətsizlik bizi, əlbəttə ki, incidir. İnsan haqlarından danışanda, ilk növbədə Ermənistana irad tutulmalıdır ki, nə üçün 1 milyon insanın haqlarını tapdalamısan? Nə üçün o insanlara imkan yaratmırsan ki, onlar öz vətənlərinə qayıtsınlar? Budur məsələnin mahiyyəti! Ona görə bəzi hallarda ədalətsiz yanaşmanı görəndə, Azərbaycana qarşı əsassız təzyiqləri görəndə biz, əlbəttə ki, üzülürük.

Amma bu heç də bizim iradəmizə zərrə qədər təsir etmir və etməyəcəkdir. Azərbaycan dövləti möhkəmləndikcə, öz müstəqil siyasətini daha da uğurla aparacaqdır. Mənim üçün prezident kimi, əsas Azərbaycan xalqının maraqlarıdır, Azərbaycanın maraqlarıdır. Bütün başqa məsələlər ikinci dərəcəli məsələlərdir. Azərbaycan xalqının maraqlarını tam şəkildə müdafiə etmək üçün güc olmalıdır. Azərbaycan dövlətini möhkəmləndirmək üçün iqtisadi potensial möhkəmlənməlidir, biz bunu gündəlik həyatda edirik və bundan sonra da edəcəyik.

Mən çox şadam ki, bizim bütün təşəbbüslərimiz, bütövlükdə siyasətimiz –istər daxili, istər xarici, istər iqtisadi və başqa sahələrdə siyasətimiz xalq tərəfindən dəstəklənir. Bu dəstək bizə güc verir, mənə əlavə imkanlar yaradır, Azərbaycan üçün gözəl şərait yaradır.

Əziz ağdamlılar, mən bir daha demək istəyirəm ki, bu gün çox şadam, çox böyük məmnuniyyət hissi ilə yenidən Ağdama gəlmişəm. Burada qeyd edildi ki, 2008-ci ildə bölgələrə ilk səfərimi buraya – Ağdama edirəm. Mən rayonlarda tez-tez oluram, vəziyyətlə tanış oluram və bundan sonra da olacağam. Hər dəfə gələndə, yenilik görəndə, abadlıq görəndə, yeni binalar görəndə mənim ürəyim açılır. Mən istəyirəm ki, siz burada yaxşı yaşayasınız. Bunu təmin etmək üçün nə lazımdırsa edəcəyik. Rayonun iqtisadi-sosial inkişafı üçün bu yaxınlarda əlavə vəsaitlər ayrılacaqdır. Əminəm  bu sizə kömək edəcək ki, burada işlər daha da yaxşı getsin.

Mən bu gözəl, beynəlxalq səviyyəli olimpiya kompleksinin açılışı münasibətilə sizi bir daha təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ, ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV CƏBHƏ XƏTTİNDƏ OLMUŞ HƏRBÇİLƏRİ MÜKAFATLANDIRMIŞDIR

*17 yanvar 2008-ci il*

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 17-də Ağdam rayonuna səfəri zamanı cəbhə xəttində də olmuşdur.*

*Hərbçilər Ali Baş Komandana raport verdilər.*

*Dövlətimizin başçısı səngərdə qurulmuş məntəqədən işğal altında olan əraziləri müşahidə etdi, əsgərlərin ixtiyarındakı hərbi ləvazimatla tanış oldu.*

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev döyüş bölgəsindəki xidmətdə fərqlənən hərbçiləri – Baş leytenant Pərviz Ələkbərovu, kiçik çavuş Cavid Muradovu, əsgər Əzizxan Vəliyevi medallarla təltif etdi.*

**İlham Əliyev:** Ordumuzda xidmət etmək çox şərəfli işdir. Amma ön mövqedə dayanmaq, əlbəttə, böyük məsuliyyətdir. Bizdə atəşkəs rejimi var, amma sülh sazişi yoxdur. Özü də bu atəşkəs rejimi tez-tez pozulur. Ona görə siz bütün hadisələrə hər an hazır olmalısınız. İndi geyimlə, yeməklə bağlı vəziyyət yaxşıdır.

**Səfər Əbiyev** (*Müdafiə naziri*): Cənab Prezident, heç bir problem yoxdur.

**İlham Əliyev:** Yaxşı yemək olmalıdır, xüsusilə bu hava şəraitində, isti paltar olmalıdır.

**Səfər Əbiyev:** Sizə minnətdarlığımızı bildirmək istəyirik. Çox gərgin iş qrafikinizə baxmayaraq, vaxt ayırıb buraya gəldiniz. Çox sağ olun. Bir neçə rayonda hərbçilər üçün evlər tikilir. Hesab edirik ki, bu ilin axırına kimi onları Sizin göstərişinizlə təhvil verəcəyik.

**İ l h a m Ə l i y e v:** Orduya diqqət həmişə yüksək səviyyədə olmalıdır. İndi Azərbaycanın dövlət xərclərinin ən böyük hissəsi orduya yönəldilir. Bu il büdcədə ən böyük xərclər ordu quruculuğunadır, yəni 1 milyard 200 milyon dollar xərclənəcəkdir. Əlbəttə ki, buraya silahların alınması, zabitlərin sosial məsələlərinin həlli də daxildir. Nazir dedi ki, evlər tikilir, maaş artırılıbdır. Gələcəkdə yenə də artıracağıq. Bizim əsgərlərimiz, zabitlərimiz, gizirlərimiz sosial baxımdan müdafiə olunmalıdırlar. İndi bizim iqtisadi imkanımız da artır, yeni binalar tikiləcəkdir. Hərbi hissələr tikilir və tikilməlidir, maaş da artırılacaqdır. O tərəfdə, bizim torpaqlarımızı işğal edən işğalçı qüvvələr bunu bilirlər. Bilirlər ki, vaxt gələcək və onlar buradan çıxmalı olacaqlar. Onlar üçün yaxşı olar ki, öz xoşları ilə, müharibəsiz getsinlər. Yox, getməsələr, onda öz torpaqlarımızı geri qaytarmağa bizim tam haqqımız var. Haqqımız var, indi imkanımız da var, silahımız da var, əsgərlərimiz də var. Ona görə peşəkarlıq artırılmalıdır və xüsusilə belə çətin şəraitdə xidmət edənlər üçün yaxşı şərait yaradılmalıdır.

Yenə də deyirəm, ordunun hər bir hissəsində xidmət etmək böyük şərəfdir. Ancaq düşmənlə ön mövqedə üzbəüz olmaq sizin üçün çox böyük bir vəzifədir. Siz hamınız gəncsiniz.

Neçə yaşınız var?

**Ə s g ə r l ə r:** 19-20 yaşımız var.

**İ l h a m Ə l i y e v:** Gəncsiniz, amma siz Azərbaycanın müdafiəsində, keşiyində dayanmısınız. Azərbaycanın güclü, vətənpərvər gənc nəsli yetişir.

Bu gün Ağdamda yeni gözəl Olimpiya İdman Kompleksi istifadəyə verilmişdir ki, gənclər orada idmanla məşğul olsunlar. Bizim işimiz haqq işidir. Biz başqasının torpağını zəbt etməmişik. Ona görə bütün cəhətlərdən, o cümlədən həm mənəvi cəhətdən, həm tarix baxımından, həm də hüquqi baxımdan tam haqlıyıq ki, düşməni buradan vurub çıxaraq. Elə də olacaqdır.

* * *

*Ali Baş Komandan İlham Əliyev daha sonra artilleriya bölüyündə oldu, burada xidmətdə fərqlənənlərə medallar təqdim etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞCABƏDİ RAYONUNA SƏFƏRİ

*Ağcabədi rayonu*

*17 yanvar 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 17-də Ağdam rayonundan Ağcabədi rayonuna gəlmişdir.*

*Rayon mərkəzində sakinlər dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev əvvəlcə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Həmin gün Ağcabədi şəhərinə təbii qazın verilməsi münasibətilə mərasim keçirildi. Rayon icra hakimiyyətinin başçısı Şahin Məmmədov, «Azəriqaz» Səhmdar Cəmiyyətinin sədri Əlixan Məlikov, rayon ağsaqqalı Aqil Muradov çıxış etdilər.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞCABƏDİ ŞƏHƏRİNƏ TƏBİİ QAZIN VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQİ

*17 yanvar 2008-ci il*

Əziz ağcabədililər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün Ağcabədi rayonunun həyatında çox əlamətdar bir gündür. Uzun fasilədən sonra Ağcabədiyə təbii qazın verilməsi təmin olundu və bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm.

Bu doğrudan da çox önəmli hadisədir. Bu hadisə Azərbaycanın ümumi gücünü göstərir. Qısa müddət ərzində 50 kilometrdən çox qaz xətti çəkilibdir və Ağcabədiyə qazın verilməsi bərpa olunubdur. Bütün bunlar Azərbaycanda son illər aparılan əsaslı iqtisadi islahatlar nəticəsində baş verir. Hamımız yaxşı xatırlayırıq ki, Azərbaycan müstəqilliyini bərpa edəndə hansı vəziyyətdə idi. Bizim ölkəmizdə gedən xoşagəlməz proseslər, həm siyasi, həm də iqtisadi sahədə yaşanan böhranlar ölkəmizin gələcək müstəqil həyatını şübhə altında qoymuşdu. Azərbaycanın gələcəyi aydın deyildi ki, biz hansı ölkəyə çevriləcəyik, müstəqilliyimizi necə qoruyacağıq, ərazi bütövlüyümüzü necə bərpa edəcəyik, Azərbaycanın maraqlarını necə təmin edəcəyik. Bütün bunlar Azərbaycan xalqını o illərdə çox dərindən düşündürürdü və biz hamımız narahat idik. Hamımız istəyirdik ki, Azərbaycan o çətin günlərdən çıxsın, böhrandan çıxsın və inkişaf dövrünə başlasın.

Belə də oldu. Xalqın istəyi və dəvəti ilə ulu öndər Heydər Əliyevin 1993-cü ildə siyasi rəhbərliyə qayıdışından sonra Azərbaycan inkişaf dövrünü yaşamağa başlamışdır. Bütün xoşagəlməz hadisələr, hallar geridə qaldı, Azərbaycanda

böhranın nəticələri aradan qaldırıldı, tənəzzülün nəticələri aradan qaldırıldı və ölkə yavaş-yavaş inkişaf etməyə başladı. Ölkədə sabitlik təmin olundu, ictimai-siyasi asayiş bərpa edildi. İqtisadi islahatlar başlandı, siyasi sistemin təkmilləşdirilməsi işində böyük addımlar atılmağa başlandı. Azərbaycan dünya birliyinə inteqrasiya siyasətini uğurla başladı və bu gün bu siyasət davam etdirilir.

Bir sözlə, müstəqil dövlət quruculuğu prosesi uğurla başlanmışdı və bu gün davam etdirilir. Son illər ərzində görülən bütün işlər məhz o illərdən başlayır. Azərbaycanın dirçəlişi, müstəqil dövlət kimi formalaşması və dövlətçiliyin möhkəmlənməsi o illərdən başlayır. Bu gün isə o siyasət, ulu öndər Heydər Əliyevin siyasəti Azərbaycanda uğurla davam etdirilir. İqtisadi islahatlar davam etdirilir, bölgələrdə inkişaf gedir, Azərbaycan dünya müstəvisində özünə layiq yerini tuta bilibdir. Ölkəmizin beynəlxalq şöhrəti artır və Azərbaycan indi o ölkədir ki, onunla hesablaşırlar, Azərbaycanın maraqları nəzərə alınır. Bölgədə bizim ölkəmizin iştirakı olmadan heç bir layihə, heç bir ciddi hadisə baş vermir və gələcəkdə bizim mövqelərimiz yalnız və yalnız möhkəmlənəcəkdir. Bütün bunlar onu göstərir ki, biz müstəqil dövlət kimi, artıq formalaşdıq, müstəqilliyimiz möhkəmdir. Bu müstəqillik, o cümlədən ondan ibarətdir ki, biz müstəqil siyasət aparırıq və bu siyasət Azərbaycan xalqının maraqlarına cavab verir. Ən əsası Azərbaycan xalqının maraqları, Azərbaycan vətəndaşlarının rahat, normal yaşamasıdır.

Bu gün Ağcabədiyə təbii qazın verilməsi də çox rəmzi xarakter daşıyır. Azərbaycanın, demək olar ki, artıq bütün bölgələri qazla təmin olunur, bir neçə rayon qalıbdır. Oraya da qazın verilməsi, ümid edirəm ki, bu il ərzində təmin olunacaqdır. Beyləqan, Ağdam və Füzuli rayonlarına təbii qazın verilməsi layihələri işlənilir. O rayonlara qazın verilməsi ilə Azərbaycanın bütün rayonları qazla təmin olunacaqdır.

Bu, bir tərəfdən, bizim iqtisadi gücümüzü göstərir, digər tərəfdən, Azərbaycanın son illər ərzində apardığı uğurlu neft

strategiyasının təzahürüdür. Ulu öndər tərəfindən başlanmış Azərbaycanın yeni neft strategiyası bu gün ölkəmizi iqtisadi cəhətdən güclü ölkəyə çevirir. Biz iqtisadi artım baxımından üçüncü ildir ki, dünyada liderlik mövqeyimizi saxlamışıq və şübhə yoxdur ki, bu il də bu liderlik mövqeyi saxlanacaqdır. İqtisadi artım dinamikasına görə üç ildir ki, Azərbaycan bütün dünya ölkələri arasında birinci yerdədir. Bu yaxınlarda beynəlxalq maliyyə qurumları tərəfindən hazırlanmış iqtisadi potensial reytinqində Azərbaycan dünya miqyasında 61-ci yeri tuta bilmişdir və deyə bilərəm ki, bütün MDB ölkələri bizdən sonrakı sıralardadır.

Bu onu göstərir ki, Azərbaycanın inkişafı hərtərəflidir, iqtisadi inkişaf çox güclüdür və bu bizə imkan verir ki, istənilən məsələni həll edək. Neft strategiyamız Azərbaycana həm böyük ümidlər gətirib, həm də qarşımızda böyük imkanlar açıbdır. Bizim ildən-ilə artan maliyyə imkanlarımız, dövlət büdcə xərcləri məhz oradan qaynaqlanır. Əgər 1994-cü ildə «Əsrin müqaviləsi» imzalanmasaydı, əminəm ki, bu məsələlərin böyük əksəriyyətini həll etmək mümkün olmazdı. O zaman ulu öndər «Əsrin müqaviləsi»ni imzalamaqla çox böyük cəsarət və uzaqgörənlik göstərmiş və beynəlxalq neft ailəsini Azərbaycana dəvət etmişdi. Bu gün biz bunun bəhrəsini görürük. Azərbaycan çox böyük neft və eyni zamanda, qaz ixrac edən ölkəyə çevrilir. Deyə bilərəm ki, dünya miqyasında və bizim bölgədə böyük həcmdə həm neft, həm də qaz ixrac edən ölkələr çox deyildir.

Biz ilk növbədə, öz tələbatımızı ödəməliyik. Bu gün yanan bu məşəl də onun əyani nümunəsidir ki, biz öz tələbatımızı ödəyirik. Baxmayaraq ki, bu xətti çəkmək üçün böyük vəsait lazım idi. Böyük texniki çətinliklər var idi. Uzunluğu 51 kilometrdən çox olan kəmər çəkildi ki, Ağcabədiyə qaz verilsin. Özü də siz yaxşı bilirsiniz ki, bu layihə iqtisadi maraq güdmür.Yəni buradan «Azəriqaz» böyük vəsait əldə etməyəcək, xüsusilə də ona görə ki, ağsaqqalın dediyi kimi – mənim son çıxışımda da bu məsələ səsləndi – hələ də Azərbaycanda yoxsul təbəqə var və biz bu insanlara böyük diqqətlə yanaşmalıyıq.

Həm dövlət tərəfindən ünvanlı sosial yardım göstərilir, həm də ki, kommunal ödənişlərlə, yığımla məşğul olan qurumlar diqqətli və vicdanlı olmalıdır. Yəni ki, biz bu layihədən heç bir iqtisadi nəticə gözləmirik. Nəzərə alsaq ki, Azərbaycanda əhaliyə satılan qazın qiyməti çox aşağıdır – min kubmetri təxminən 47 manatdır, dünya qiymətindən 5-6 dəfə aşağıdır və MDB məkanında yerləşən ölkələrdəkindən 2-3-4 dəfə aşağıdır. Buna baxmayaraq, biz bütün bu işləri görürük. Nə üçün? Ona görə ki, insanlar daha da yaxşı yaşasınlar. İnsanların evlərində qaz olsun, müəssisələrə qaz verilsin, sənaye inkişaf etsin, insanların həyatı yaxşılaşsın. Bizim apardığımız bütün siyasət bundan ibarətdir.

Bunu təmin etmək üçün iqtisadi güc lazımdır. İqtisadi gücü də biz yaradırıq. Azərbaycanın uğurlu inkişafı ona gətirib çıxarıb ki, son dörd il ərzində iqtisadiyyatın həcmi 2 dəfə artıbdır. Bu, heç bir başqa ölkədə olmayıb və əminəm ki, olmayacaqdır. İqtisadi islahatlarımız ona gətirib çıxarıb ki, dörd il ərzində büdcə xərcləri 10 dəfə artıbdır. İndi bizim büdcə xərclərimiz 12 milyard dollar həcmindədir. Bu nə deməkdir? Maaşların, pensiyaların artırılması, sosial müavinətlərin həcminin artırılması, infrastruktur layihələrinin həyata keçirilməsi, qaz xətlərinin, su kəmərlərinin, yolların çəkilməsi, elektrik stansiyalarının tikilməsi deməkdir.Yəni bütün bu istiqamətlərdə Azərbaycanda işlər gedir. Haraya baxsaq görərik ki, bütün istiqamətlərdə vəziyyət müsbətə doğru dəyişir.

Elektrik enerjisi ilə təminat yaxşılaşır. Azərbaycanda tikilən elektrik stansiyaları kifayət qədər enerji gücü yaradıbdır. Gələcək illərdə də yeni stansiyalar tikiləcək, elektrik xətləri çəkiləcək və bundan sonra elektrik enerjisi ilə bağlı heç bir problem olmayacaqdır. Qaz xətləri də artıq çəkilibdir. İlkin mərhələdə Ağcabədidə 500, ondan sonra 1000, daha sonra 4000 abonentə qaz veriləcəkdir. Gələcəkdə tələbat artarsa – əminəm ki, artacaq, həm əhali artır, həm də yeni müəssisələr yaradılır – daha da böyük həcmdə qaz veriləcəkdir.

Bildiyiniz kimi, Azərbaycanda böyük qaz ehtiyatları aşkar edilibdir və biz indi Avropa üçün qaz ixrac edən ölkəyə

çevrilirik. Əlbəttə, bununla həm iqtisadi, həm siyasi maraqlarımızı daha çox təmin edəcəyik. Ancaq bir daha demək istəyirəm ki, ilk növbədə Azərbaycanın daxili tələbatı ödənilməlidir. Burada «Azəriqaz»ın sədrinin çıxışı da səsləndi. Ölkəmizin əhalisinin, demək olar ki, 80 faizi qazla təmin olunur. Bu, dünya miqyasında çox böyük göstəricidir. O ki qaldı bizim bölgəyə, bunun analoqu yoxdur.

İqtisadi imkanlar artdıqca, əlbəttə ki, sosial məsələlərə də daha böyük diqqət göstəriləcəkdir. Bu məsələlər bir-biri ilə sıx bağlıdır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının əsas məqsədi bölgələri inkişaf etdirməkdir. Bildiyiniz kimi, mən bölgələrdə oluram, vəziyyətlə tanış oluram və görürəm ki, bölgələr abadlaşır, gözəlləşir. Ağcabədinin özündə son bir neçə il ərzində böyük işlər görülübdür. Yollar salınıb, binalar abadlaşıb və bu proses davam etdiriləcəkdir. Ağcabədinin inkişafına bir müddət bundan əvvəl xüsusi vəsait ayrılmışdır və o vəsaitdən abadlıq işləri üçün istifadə edilir. Vəsaitin yenə də ayrılması nəzərdə tutulur. Mən Bakıya qayıdandan sonra müvafiq göstərişlər verəcəyəm ki, rayonun inkişafına əlavə vəsait ayrılsın, burada işlər daha da sürətlə getsin. Bölgələrin inkişafı həm məşğulluğun artmasıdır, həm yerli istehsalın artmasıdır, həm də insanların həyat səviyyəsinin yaxşılaşdırılmasıdır. Artıq rəsmi statistika göstərir ki, son dörd il ərzində 600 mindən çox yeni iş yerləri açılmışdır ki, onlardan da 460 mini daimi iş yerləridir. İnsanlar işlə təmin olunurlar, yeni fabriklər, zavodlar, digər müəssisələr yaradılır və bu proses daha da sürətlə gedəcəkdir. Sahibkarlıq daha da sürətlə inkişaf edəcəkdir. Son 3-4 il ərzində hər il sahibkarlara təxminən 100 milyon dollar həcmində güzəştli kreditlər verilir. Bu kreditlər işləyir, kreditlərin hesabına işlər görülür, zavodlar, fabriklər, kiçik müəssisələr yaradılır, həm insanlar işlə təmin olunurlar, həm də bölgələrdə inkişaf gedir. Dövlət bundan sonra da bütün infrastruktur layihələrinə böyük miqdarda vəsait ayıracaqdır. Bir tərəfdən, elektrik stansiyaları tikmək, yollar, qaz xətləri, su kəmərləri çəkmək üçün, bütün başqa infrastruktur layihələrinə,

digər tərəfdən, sahibkarlığa dəstəyin artırılması üçün əlavə vəsait ayrılacaq ki, özəl sektor daha da sürətlə inkişaf etsin. Qeyri-neft sektoru inkişaf etsin, bölgələr inkişaf etsin və biz bunu görürük. Hər bir bölgədə inkişaf var. Hər bir sahədə irəliləyiş var. Mən istəyirəm ki, bu daha da sürətli olsun. İstəyirəm ki, götürülən bu yüksək sürət daha da artsın və Azərbaycan qısa müddət ərzində inkişaf etmiş ölkəyə çevrilsin. Buna bütün imkanlar var. Mən buna tam əminəm. Bu günə qədər qəbul edilmiş bütün qərarlar və proqramlar uğurla icra edilir. Bir dənə də yanlış addım atılmamışdır. Qəbul edilmiş bütün qərarlar düzgün olmuşdur. Azərbaycanın indiki inkişaf səviyyəsi bunun əyani nümunəsi və nümayişidir.

Beləliklə, Azərbaycanın gələcək inkişafında mən heç bir problem görmürəm. Bizim böyük neft və qaz ehtiyatlarımız var, bu ehtiyatları biz hasil edirik, onları ixrac edirik, neft və qaz kəmərlərimiz var. Bundan çox böyük miqdarda xarici valyuta əldə edirik. Bunu insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına, ordu quruculuğuna yönəldirik. Azərbaycanda növbəti illərdə həm iqtisadi, həm də sosial problemlərin həlli daha da sürətlə gedəcəkdir. Bir neçə il bundan əvvəl qəbul edilmiş proqramlar icra olunur və onlara əlavələr edilir.

Misal üçün, mən bu gün səhər Ağdam rayonunda idim və orada çıxışımda qeyd etdim ki, məcburi köçkünlərin həyat, yaşayış səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun artırılmasına dair Dövlət Proqramına biz keçən ilin sonunda əlavələr etdik. Bunun nəticəsində 500 milyon manat həcmində əlavə vəsait nəzərdə tutulur.Yeni qəsəbələr salınacaq, yeni yollar, məktəblər, xəstəxanalar tikiləcəkdir.

Regional inkişaf proqramının, demək olar ki, müddəti başa çatır. İndi yeni proqram, növbəti 5 ili əhatə edən, 2009–2013-cü illər üçün nəzərdə tutulan proqram hazırlanır. Hökumətə göstəriş vermişəm ki, o proqramda artıq bütün, lap xırda məsələlər də əks olunsun, hər bir kəndin problemləri təhlil edilsin və onların həlli üçün əməli-praktiki cədvəl tutulsun, maliyyə mənbələri müəyyən olunsun. Beləliklə, əgər biz hər bir

kəndin problemlərini həll etsək, demək olar ki, Azərbaycanda bütün problemlər öz həllini tapacaqdır. Biz bunu edəcəyik. Bir daha demək istəyirəm ki, bu günə qədər verilən bütün vədlər, qəbul olunan bütün proqramlar vaxtlı-vaxtında, bəlkə də müəyyən edilmiş vaxtdan daha da tez bir zamanda icra olunur.

Bizim yeganə böyük dərdimiz, problemimiz var, o da torpaqlarımızın işğal altında qalmasıdır. Mən buraya daha da tez, Ağdam Olimpiya Kompleksinin açılışından sonra gəlməli idim. Amma mən oradan bizim döyüş bölgəmizə getdim. Əsgərlərlə birlikdə oldum, oradan düşmənin mövqelərinə baxdım. Mövqelərimizdə əsgərlərimizlə söhbət etdim. Bizim əsas problemimiz Dağlıq Qarabağın işğal altında qalmasıdır, digər torpaqlarımızın işğal altında qalmasıdır. Biz bu problemi də həll edəcəyik. Mən buna inanıram, çünki bunu həll etmək üçün bizim bütün imkanlarımız var. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın ərazi bütövlüyünü, Dağlıq Qarabağ daxil olmaq şərtilə, tanıyır və 4 qətnamə qəbul edibdir, halbuki onlar icra olunmur. Ancaq bu hüquqi bir zəmindir. Avropa Şurası buna oxşar qətnamə qəbul edibdir. ATƏT-in faktaraşdırıcı missiyası iki il bundan əvvəl işğal olunmuş torpaqlarda monitorinq aparmışdır və məruzədə əks etdirmişdir ki, bütün binalar, bütün infrastruktur dağıdılıbdır. Yəni hüquqi baxımdan bizim mövqelərimiz çox möhkəmdir.

Tarixi baxımdan hamımız bilirik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və ermənilər oraya vaxtilə qonaq kimi gəlmişlər. Yəni tarixi həqiqət də bizim tərəfimizdədir. İqtisadi güc də bizim tərəfimizdədir, siyasi iradə də bizim tərəfimizdədir, ordu potensialı da bizim tərəfimizdədir. Biz bunları yaradırıq. Beynəlxalq hüquq normaları əsasında güclü mövqe formalaşdırmaq bizim əsas vəzifəmiz olmuşdur. Deyə bilərəm ki, biz buna nail olmuşuq.

Mən bunu bu gün Ağdamda da dedim, bir daha demək istəyirəm ki, Ermənistan tərəfinin artıq Qarabağa müstəqillik verilməsi mövzusundan əl çəkməsinin başlıca səbəbi Azər-

baycanın güclənməsidir, həm iqtisadi, həm də ordu potensialının möhkəmlənməsidir. İndi bu məsələ qaldırılmır. Halbuki, lap qaldırsaydılar da, bunun heç bir əhəmiyyəti olmazdı. Azərbaycan öz ərazi bütövlüyünü heç vaxt güzəştə getməyəcəkdir. Amma danışıqlar formatında müsbət dəyişikliklər məhz Azərbaycanın artan gücündən, artan hərbi gücündən qaynaqlanır. Bilirsiniz ki, biz buna nə qədər böyük diqqət göstəririk. Orduya ayrılan xərcləri artırırıq və onlar artıq 1 milyard dolları ötüb keçibdir. Müdafiə sənayesini yaratmışıq, hərbçilərin peşəkarlığını artırırıq, onlar üçün lazımi şəraiti yaradırıq. Hərbçilərə əlavə güzəştlər edilir, onların maaşları artırılır. Yəni bir sözlə, mən ümid edirəm ki, biz güclü ordu yaratmaqla müharibəsiz də öz torpaqlarımızı işğalçılardan geri qaytara bilərik.

Ancaq bununla bərabər, hərbi güc həlledici rol oynayır. Biz uzaq və yaxın tarixi yaxşı bilirik. Bölgədə gedən proseslərə, əlbəttə ki, bizim öz yanaşmamız var. Bilirik, harada güc var, o ölkənin maraqları daha çox müdafiə olunur. Bizim gücümüz var, biz bunu artırırıq və daha da artıracağıq. Mən inanıram ki, biz məsələni sülh yolu ilə həll edəcəyik. Əgər buna nail ola bilməsək, onda əminəm ki, Azərbaycan xalqı düzgün qərar verəcəkdir. Biz barışa bilmərik ki, torpaqlarımız 10 ildən çox işğal altında qalsın. Biz heç vaxt bununla barışa bilmərik və bu vəziyyətə son qoymaq üçün güclü olmalıyıq və bunu edirik.

Mən bu gün Ağcabədiyə təbii qazın verilməsində böyük rəmzi məna görürəm. Bu, Azərbaycanın gücünü göstərir, bizim imkanlarımızı göstərir. Bu onu göstərir ki, Azərbaycanda görülən işlər bütün əhaliyə öz müsbət təsirini göstərir. Bütün xalqımızın, Azərbaycan vətəndaşlarının bir məqsədi var və biz bu məqsəd, bu amal ətrafında birləşmişik və bütün dünya azərbaycanlıları birləşməlidir. O da işğal olunmuş torpaqları geri qaytarmaqdır. Mən bundan sonra da bu istiqamətdə həm siyasi, həm də beynəlxalq səylərimi davam etdirəcəyəm, Azərbaycanın iqtisadi və hərbi gücünün artırılması üçün səylər göstərəcəyəm. Artıq yaranan güclü dövlət – Azərbaycan daha

da güclənəcək və dünya miqyasında güclü, qüdrətli dövlətə çevriləcəkdir.

Əziz dostlar, mən sizi bir daha ürəkdən salamlayıram. Demək istəyirəm ki, mən Ağcabədiyə çoxdan gəlmək istəyirdim. Amma əliboş gəlmək istəmirdim. Bu gün qazın verilməsi böyük sevincdir, böyük hadisədir. Sizi bu münasibətlə bir daha təbrik edirəm, sizə uğurlar, cansağlığı arzulayıram. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev sakinlərlə səmimiyyətlə görüşüb hal-əhval tutdu.*

*Ağcabədililər dövlətimizin başçısına təşəkkürlərini bildirərək, ölkənin sosial-iqtisadi inkişafı sahəsində görülən işlərdən razılıqlarını ifadə etdilər, ulu öndərin tarixi xidmətlərini xatırladaraq, onun arzularının həyata keçirilməsində daha böyük uğurlar qazanılacağına əminliklərini söylədilər.*

## HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞI

*Ağcabədi rayonu*

*17 yanvar 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 17-də Ağcabədi rayonunda Heydər Əliyev muzeyinin açılışında iştirak etmişdir.*

*Rəmzi açılışı bildirən lenti kəsən dövlətimizin başçısı İlham Əliyev xanımı Mehriban Əliyeva ilə birgə muzeylə yaxından tanış oldular.*

*İki mərtəbədən ibarət və müasir görünüşə malik muzeyin birinci mərtəbəsində ulu öndərin büstü qoyulmuşdur. Burada konfrans salonu, kompyuter otağı, məktəblilər üçün sinif otaqları vardır. Bildirildi ki, məktəblilər muzeyə gələrək, ulu öndərin zəngin həyatı, fəaliyyəti və irsi ilə tanış olacaqlar. İkinci mərtəbədə eksponat salonu yerləşir. Yaradılmış xüsusi guşələrdə ulu öndərin uşaqlıq və gənclik illərindən, ailə həyatından, Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi illərdən, Azərbaycana rəhbərliyinin hər iki dövründən bəhs edən fotoşəkillər, dahi şəxsiyyət haqqında yazılmış kitablar toplanmışdır. Burada ümummilli liderimizin Qarabağ bölgəsinə, o cümlədən Ağcabədiyə 70-ci illərdə dörd dəfə, 1993-cü ildən sonra isə iki dəfə səfərinə, keçirdiyi görüşlərə dair fotoşəkillər və materiallarla da tanış olmaq mümkündür.*

*Dövlətimizin başçısı muzeyin ayrı-ayrı guşələri ilə tanış oldu, Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən filmə baxdılar.*

*Dövlətimizin başçısına ümummilli lider Heydər Əliyevin Ağcabədiyə səfərlərini əks etdirən fotoalbom təqdim olundu.*

## AĞCABƏDİDƏ ŞƏHİD AİLƏLƏRİ VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİ ÜÇÜN YAŞAYIŞ BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*Ağcabədi rayonu*

*17 yanvar 2008-ci il*

*Yanvarın 17-də Ağcabədi şəhərində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa olunan üçmərtəbəli, 24 mənzilli bina istifadəyə verilmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bu münasibətlə keçirilən mərasimdə iştirak etdilər.*

*Dövlətimizin başçısına məlumat verildi ki, rayonda 170 şəhid ailəsi və 101 nəfər Qarabağ müharibəsi əlili var. Binada yaşayış üçün bütün şərait yaradılmış, mənzillərin hamısı telefonlaşdırılmışdır. Yeni mənzil alanların on ikisi şəhid ailəsi, on ikisi isə Qarabağ müharibəsi əlilidir. Prezidentin tapşırığı ilə ötən il təməli qoyulmuş bina bir il ərzində inşa olunmuşdur. Bu ilin sonunadək daha iki belə binanın istifadəyə verilməsi nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev mənzillərin orderlərini sahiblərinə təqdim etdi.*

**R a m i l   N a ğ ı y e v** (*Birinci qrup Qarabağ müharibəsi əlili*): Möhtərəm cənab Prezident, göstərilən bu yüksək qayğıya görə Sizə bütün Qarabağ əlilləri və şəhid ailələrinin adından dərin minnətdarlığımızı bildiririk və Uca Tanrıdan ulu öndərimizə qəni-qəni rəhmət diləyirik. Cənab Prezident, bu əziz gündə bizə hədiyyə etdiyiniz bu gözəl mənzillərdə Sizi bir stəkan çay içməyə dəvət edirik.

**İ l h a m   Ə l i y e v**: Sizi təbrik edirəm. Bu gözəl binada yaşayacaqsınız. Burada hər cür şərait var. Yaxşı, gözəl binadır, müasir qaydada tikilib, hər bir avadanlıq var. Televizor, telefon və onları qoymaq üçün xüsusi stollar, xalça, tozsoran – hər şey olmalıdır. Siz buna layiqsiniz. Siz yaxınlarınızı itirmisiniz, əlil olmusunuz. Azərbaycan dövləti sizə bundan sonra da həmişə diqqət göstərəcəkdir. Əgər bu ev sizin vəziyyətinizi bir balaca yüngülləşdirirsə, hesab edirəm ki, bu, böyük işdir.

**S a k i n l ə r :** Cənab Prezident, Allah Sizə dəyməsin. Azərbaycan xalqı Sizin arxanızdadır. Tanrı Sizdən razı olsun. Çox sağ olun. Sizin rəhbərliyinizlə bayrağımızı qaldıraraq müharibəyə getməyə hər an hazırıq.

**İ l h a m   Ə l i y e v:** Bəli, lazım olarsa. Mən bu gün əsgərlərlə görüşmüşəm, döyüş mövqeyində olmuşam. Əhval-ruhiyyə çox yüksək səviyyədədir. Azərbaycan güclənir, imkanlar artır və bundan sonra da sizin üçün belə gözəl binalar tikiləcəkdir. Bütün şəhid ailələri, müharibə veteranları üçün biz daha da böyük işlər görməliyik. Bu binada xoşbəxt yaşayın.

**S a k i n l ə r:** Allah Sizdən razı olsun. Siz ki bu təşəbbüsü elədiniz, Allah Sizə dəyməsin.

* * *

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni mənzillərlə tanış oldular. Ağcabədidə ilk dəfə şəhid ailələri və Qarabağ müharibəsi veteranları üçün inşa olunan bu binada yaşayış üçün hər cür şərait yaradılmışdır. Hazırda şəhid ailələri və Qarabağ müharibəsi veteranları üçün 16 mənzilli daha bir bina tikilir.*

*Dövlətimizin başçısı Qarabağ müharibəsi əlili Ramil Nağıyevin ailəsinin qonağı oldu.*

**R a m i l   N a ğ ı y e v:** Ağcabədi veteranları adından, bütün şəhid ailələrinin üzvləri adından, Ağcabədi gəncləri adından Sizə dərin minnətdarlığımızı bildiririk və yürütdüyünüz çox düzgün, uğurlu siyasətə görə Sizinlə fəxr edirik və hər zaman Sizin arxanızdayıq.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən də çox şadam ki, Azərbaycan dövləti öz dəyərli insanları üçün belə gözəl binalar tikir və hədiyyə edir. Siz də burada xoşbəxt yaşayın.

**R a m i l N a ğ ı y e v:** Cənab Prezident, çox sağ olun. Bu ev azmış kimi, bizə üstəlik hələ əlavə hədiyyələr də təqdim etmisiniz.

**İ l h a m Ə l i y e v:** Bəli, televizor, tozsoran, telefon, xalça və sair.

**Ş a h i n M ə m m ə d o v** (*Rayon İcra Hakimiyyətinin başçısı*): Bəli, televizoru və telefon aparatını qoymaq üçün altlıqlar, eyni zamanda, ehtiyacı olanlara əlavə olaraq stol dəsti də hədiyyə verilibdir.

**İ l h a m Ə l i y e v:** Evdə yaşamaq üçün hər şey olmalıdır. Siz neçənci ildə yaralanmısınız?

**R a m i l N a ğ ı y e v:** 1994-95-ci ildə, hər iki ayağımı itirmişəm. Cənab Prezident, mənim iki qardaşım da müharibə veteranıdır. Biri həm Əfqanıstanda, həm də Şuşada vuruşmuş, o biri Zəngilanın, Qubadlının düşməndən müdafiəsində iştirak etmişdir. Ağcabədidə 2 hərbi əlil ailəsi varsa, onun biri bizik.

**İ l h a m Ə l i y e v:** Növbədə nə qədər adam qalıb?

**Ş a h i n M ə m m ə d o v:** 80 nəfərdən artıq. Bu Sizin tapşırığınızdan sonra tikilən binadır.

**İ l h a m Ə l i y e v:** Sonra fikirləşmək lazımdır, sağlamlığını itirmiş insanları hansı işlə təmin etmək olar. Elə iş ki, fiziki hərəkət tələb etməsin. Cavan oğlandır, ayaqlarını itiribdir. İndi yeni imkanlar yaranır, işsizlik aradan qaldırılır. Fiziki cəhətdən sağlam adam gedib istənilən yerdə – rayonlarda da, Bakıda da tikintidə, biznesdə, başqa yerlərdə özünə iş tapa bilər. Amma yaralanmış insanlar üçün çətindir. Əlbəttə, dövlət pensiya verir, verəcəkdir, məbləği də artacaqdır. Ancaq iş olsa, kabinet işi olsa, daha yaxşı olar. Əvvəllər hansı işlə məşğul olmusan, neçə yaşın vardı yaralananda?

**R a m i l N a ğ ı y e v:** Xeyr, işləmirdim, yaralananda 18 yaşım vardı.

**İ l h a m  Ə l i y e v:** İndi rayona qaz verilibdir. Bu binaya necə? Bir az soyuqdur deyə soruşuram.

**Ş a h i n  M ə m m ə d o v:** Quzey tərəf olduğu üçündür, amma istilik sistemi işləyir.

**R a m i l  N a ğ ı y e v:** Minnətdarıq, cənab Prezident.

**İ l h a m  Ə l i y e v :** 15 il idi qaz verilməsi dayanmışdı. Bu, birinci mərhələdi, ikinci mərhələdə daha da artırılacaqdır.

**R a m i l  N a ğ ı y e v:** Cənab Prezident, baxmayaraq ki, mən hər iki ayağımı itirmişəm, bütün Ağcabədi gəncləri adından istərdim deyəm ki, biz hər an Ali Baş Komandan kimi, Sizin əmrinizə hazır dayanmışıq. Qarabağ torpaqlarını, inşallah, son damla qanımıza qədər döyüşə-döyüşə işğaldan azad edəcəyik.

**İ l h a m  Ə l i y e v:** Edəcəyik. Bizdə həm imkan var, həm ordu güclənir, həm də vətənpərvər insanlar, gənclər var. Bax, sənin kimi vətənpərvərlik ruhunda tərbiyə alanlar. Məsələni mütləq həll edəcəyik.

*Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni mənzil almış başqa bir sakinin – şəhid ailəsinin evinə baş çəkdilər.*

*Mənzil sahibləri dövlət başçısını və xanımını böyük minnətdarlıq hissi ilə qarşıladılar. Azərbaycan prezidenti mənzil sahibinin oğlanları ilə xatirə şəkli çəkdirdi. Ailə üzvləri onları yeni və yaraşıqlı isti mənzillərin verilməsi ilə sevindirən Azərbaycan prezidentinə və xanımına hədsiz minnətdarlıqlarını ifadə etdilər. Ulu öndər Heydər Əliyev tərəfindən qurulan müasir Azərbaycan dövlətinin daha da möhkəmləndirilməsi işində prezident İlham Əliyevə uğurlar arzuladılar. Ev sahibi dedi ki, əgər lazım gələrsə, işğal altında olan torpaqlarımızın azad olunması üçün hətta özü də oğulları ilə birlikdə cəbhə xəttinə getməyə hazırdır.*

*Mənzil sahibini təbrik edən dövlətimizin başçısı bildirdi ki, işğal altında olan torpaqlarımız nəyin bahasına olursa-olsun, geri qaytarılacaqdır.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni binanın sakinləri ilə görüşüb, xatirə şəkli çəkdirdilər.*

## DAXİLİ QOŞUNLARIN «N» HƏRBİ HİSSƏSİ İLƏ TANIŞLIQ

*17 yanvar 2008-ci il*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev Ağdam və Ağcabədi rayonlarına səfəri çərçivəsində yanvarın 17-də Daxili Qoşunların «N» hərbi hissəsində olmuşdur.*

*Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı hərbi hissədə yaradılan şəraitlə yaxından tanış oldu. Məlumat verildi ki, hərbi hissənin yeni binası qısa vaxt ərzində ən müasir standartlara uyğun şəkildə inşa edilmişdir. Ali Baş Komandanın birbaşa tapşırığı ilə bütün hərbi hissələrdə olduğu kimi, burada da əsgərlərin nümunəvi xidmət göstərməsi üçün bütün lazımi şərait yaradılmışdır.*

*Hərbi hissənin birinci mərtəbəsində müstəqil Azərbaycan dövlətinin memarı, milli ordu quruculuğunun əsasını qoymuş ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən guşə təşkil olunmuşdur. Ali Baş Komandan guşəyə, əsgər kazarmasına baxdı, əsgərlərin geyimlərinin keyfiyyəti ilə maraqlandı. Bildirildi ki, burada istifadə üçün bütün əşya və ləvazimatlar ən müasir tələblər səviyyəsindədir. Müxtəlif növ geyim dəstləri ölkəmizdə istehsal edilib və olduqca keyfiyyətlidir.*

*Prezident İlham Əliyev müasir tələblər səviyyəsində hərbi geyimlərin, çarpayı və yataq dəstlərinin və digər ləvazimatların ölkəmizdə istehsal olunmasını yüksək qiymətləndirdi.*

*Ali Baş Komandan daha sonra hərbçilərin təlim-tədris mərkəzi ilə tanış oldu. Bildirildi ki, əsgərlərin hərbi hazırlığının*

*yüksəldilməsi, vətənpərvərlik ruhunda tərbiyəsi üçün mərkəzdə bütün şərait vardır.*

*Prezidentə məlumat verildi ki, ailə qurmuş zabitlərin və gizirlərin hərbi hissədə yaşaması üçün xüsusi mənzillər tikilmişdir. Ərazidə yeni yardımçı binaların inşasına da başlanılmışdır.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*18 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya), Mətyu Brayzəni (ABŞ) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair aparılan danışıqlarla bağlı məsələlər müzakirə edilmişdir.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏHİDLƏRİN ƏZİZ XATİRƏSİNİ YAD ETMİŞDİR

*Bakı, Şəhidlər xiyabanı*

*20 yanvar 2008-ci il*

*Səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər.*

*Şəhidlərin ruhuna dua oxundu.*

*Prezident İlham Əliyev matəm musiqisinin sədaları altında «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu.*

*Müdafiə Nazirliyinin Əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.*

*Şəhidlərin xatirəsini yad etməyə gəlmiş xarici ölkələrin Bakıdakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə dərin hüznlə başsağlığı verdilər, xalqımızın kədərinə şərik olduqlarını söylədilər.*

*Azərbaycan prezidenti diplomatik korpusun rəhbərlərinə, xarici qonaqlara minnətdarlığını bildirdi.*

*Dövlət təşkilatlarının rəhbər işçiləri, respublikamızdakı dini icmaların başçıları da şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.*

**YENİ ZELANDİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM HELEN KLARKA**

Hörmətli xanım Baş nazir!

Yeni Zelandiyanın milli bayramı – Vaytanqa günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da öz inkişafını davam etdirəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 yanvar 2008-ci il*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA RACAPAKSEYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Şri-Lanka arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 yanvar 2008-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏHREYN BEYNƏLXALQ İNVESTİSİYA BANKININ VƏ ƏL-FƏHİM QRUPUNUN SƏDRİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*21 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Prezident sarayında Bəhreyn Beynəlxalq İnvestisiya Bankının və əl-Fəhim qrupunun sədri Səid Abdul Cəlil Məhəmməd əl-Fəhimi qəbul etmişdir.*

*Görüşdə Bəhreyn bankının Azərbaycan bankları ilə əməkdaşlığı, Bəhreyn Beynəlxalq İnvestisiya Bankının ölkəmizdə həyata keçirilən və perspektivdə nəzərdə tutulan investisiya layihələrində iştirakı ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ SƏFƏRİ

*23 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos şəhərində keçirilən ənənəvi illik Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 23-də İsveçrəyə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də İsveçrə Konfederasiyasına gəlmişdir.*

*Dövlətimizin başçısı Sürix hava limanından Davos şəhərinə yola düşdü.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEYVİD HARRİS İLƏ GÖRÜŞÜ

*Davos*

*23 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda onun üçün ayrılmış iqamətgahda «Turmotel Viktoriya» mehmanxanasında Amerika Yəhudi Komitəsinin icraçı direktoru Deyvid Harris ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları (ABŞ) arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. ABŞ–Azərbaycan əlaqələrinin daha da genişləndirilməsi və möhkəmləndirilməsində ABŞ-da yaşayan yəhudi icmasının önəmli rol oynadığı qeyd olundu.*

*Görüşdə həmçinin ölkəmizdə yaşayan yəhudi icmasının Azərbaycanda azad fəaliyyət göstərməsi üçün hər cür şəraitin yaradıldığı xüsusi vurğulandı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTANIN BAŞ NAZİRİ FERENTS DYURÇAN İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*23 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda onun üçün ayrılmış iqamətgahda, «Turmotel Viktoriya» mehmanxanasında Macarıstanın Baş naziri Ferents Dyurçan ilə görüşmüşdür.*

*Macarıstanın Baş naziri Azərbaycanda gedən prosesləri diqqətlə izlədiyini və ölkəmizin son illər ərzində əldə etdiyi nailiyyətlərə heyranlığını söylədi. O, Macarıstanın inkişaf edən Azərbaycanla əməkdaşlığını bütün sahələrdə genişləndirməyə və dərinləşdirməyə böyük maraq göstərdiyini bildirdi.*

*Görüşdə energetika sahəsində əməkdaşlıq məsələlərinə böyük diqqət yetirildi və enerji layihələri, konkret olaraq Nabukko layihəsi ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Avropa İttifaqı ilə əməkdaşlıqla əlaqədar müəyyən məsələlərdə bu təşkilatın üzvü kimi, Macarıstanın dəstəyinə Azərbaycanın ehtiyacı olduğunu vurğuladı.*

*Ferents Dyurçan həm Avropa İttifaqı ilə əməkdaşlıq, həm də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələlərində Macarıstanın ölkəmizi dəstəklədiyini bildirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏ PREZİDENTİ PASKAL KUŞPEN İLƏ GÖRÜŞÜ

*Davos*

*24 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpen ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli əlaqələrin və əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimiz arasında müxtəlif səviyyəli təmasların genişlənməsindən məmnunluq ifadə edildi. İsveçrə prezidenti Azərbaycanın sürətli iqtisadi inkişafı barədə ölkəsində geniş məlumatın olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanda gedən iqtisadi inkişaf proseslərindən, neft və qaz sektorunda əldə olunan uğurlardan danışdı.*

*Paskal Kuşpen İsveçrə şirkətlərinin Azərbaycanın energetika sektorunda geniş iştirak etməkdə maraqlı olduqlarını söylədi.*

*Azərbaycanın Avropanın enerji təhlükəsizliyi məsələsində rolunun daha da artdığını bildirən prezident İlham Əliyev iki ölkə arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini vurğuladı.*

*Görüşdə regional məsələlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli barədə fikir mübadiləsi aparıldı.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAVOS FORUMUNUN «ENERGETİKA SƏNAYESİNDƏ GÜNƏŞ ENERJİSİNİN ROLU» MÖVZUSUNUN ƏSAS İCLASINDA İŞTİRAK ETMİŞDİR

*Davos, «Morasani Şveizerhov» iqamətgahı*

*24 yanvar 2008-ci il*

*Yanvarın 23-də İsveçrənin Davos şəhərində açılmış ənənəvi, 38-ci illik Dünya İqtisadi Forumu davam edir. Yanvarın 28-də başa çatacaq forumda müasir dövrün siyasi və iqtisadi problemləri diqqət mərkəzindədir.*

*Yanvarın 24-də «Morasani Şveizerhov» mehmanxanasında Davos forumunun «Energetika sənayesində günəş enerjisinin rolu» mövzusunda əsas iclası keçirilmişdir. Bu bir növ enerji sammiti də adlanır.*

*Prezident İlham Əliyev iclasda iştirak etmişdir.*

*Builki forumda 88 ölkədən 2500 nəfər, o cümlədən 27 dövlət və hökumət başçısı, 113 nazir, ən tanınmış 1000 şirkətin nümayəndələri iştirak edir. Forum iştirakçılarının 60 faizi biznes təmsilçiləridir. «Əməkdaşlıq yeniliklərinin gücü» devizi adı altında keçirilən indiki forumda əsas diqqət iqtisadi qeyri-sabitlik, iqlim dəyişikliyi və dünyada bərabər davamlı iqtisadi artımın təmin edilməsi məsələlərinə yönəlmişdir. Beş gün ərzində 240 iclasın keçirilməsi nəzərdə tutulmuşdur. İclaslar əsasən «Biznes – əməkdaşlıq və rəqabət», «İqtisadiyyat və maliyyə – iqtisadi təhlükəsizlik məsələlərinin həlli», «Coğrafi vəziyyət – müxtəlif maraqlar əsasında alyanslar», «Elm və texnologiya – yeni innovasiyalar», «Dəyərlər və cəmiyyət – gələcək dəyişikliklərin başa düşülməsi» bölmələri üzrə təşkil olunur.*

*Enerji sammiti forumun mahiyyətini təşkil edir. Forumun əsas iclasını Dünya İqtisadi Forumunun nümayəndəsi açaraq, prezident İlham Əliyevə, digər dövlət və hökumət başçılarına, bütün qonaqlara tədbirdə iştirak etdiklərinə görə minnətdarlıq etdi. O bu mötəbər tədbirdə dünya əhəmiyyətli məsələlərin səmərəli əməkdaşlıq ruhunda müzakirə olunacağını bildirdi.*

*İclasda çıxış edən ABŞ, Rusiya, Litva, Böyük Britaniya, Fransa, Yaponiya, İsveçrə, Qətər, Türkiyə, Belçika, Səudiyyə Ərəbistanı, İraq, Norveç, Çin, Küveyt və Nigeriya nümayəndə heyətlərinin rəhbərləri əsasən neft-qaz ölkəsi kimi tanınan ölkələrdə iqtisadi inkişafdan söhbət açdılar. Çıxışlarda bəzi qlobal problemlər önə çəkildi, enerji sahəsində əməkdaşlığın çoxtərəfli perspektivləri, iqlim dəyişikliyi, enerji təhlükəsizliyi və enerji daşıyıcılarının qiymətləri barədə danışıldı. Enerji təhlükəsizliyinin təmin olunmasında karbohidrogen ehtiyatları ilə zəngin ölkələrin, o cümlədən Azərbaycanın rolu vurğulandı. Hazırda neft-qaz ixracatçısına çevrilən Azərbaycanın Avropanın enerji təhlükəsizliyi sahəsində gördüyü işlər yüksək qiymətləndirildi, bunların uğurlu olduğu xüsusi vurğulandı.*

*İclasda iqlim dəyişikliyinə təsir göstərən amillərin aradan qaldırılmasının, atmosferə buraxılan karbon qazının azaldılmasının, gələcəkdə enerji sahəsində səmərəli əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulandı.*

*Azərbaycan prezidenti İlham Əliyev diskussiya xarakterli çıxışında ölkəmizdə gedən iqtisadi inkişafdan, aparılan islahatlardan, enerji layihələri və energetika sahəsində görülən işlərdən danışdı. Dövlətimizin başçısı forum iştirakçılarının ölkəmizin enerji potensialı, Avropanın enerji təhlükəsizliyindəki rolu və digər mühüm məsələlərlə bağlı suallarına ətraflı cavab verdi.*

*İclas çərçivəsində Dünya İqtisadi Forumu ekspertlərinin hazırladıqları «2008-ci ilin qlobal riskləri» adlı hesabatla bağlı dinləmələr də keçirildi. Belə bir əsas fikir səsləndi ki, ekspertlər Asiyanın inkişaf etməkdə olan ölkələrinin dünya iqtisadi inkişafının lokomotivi olacağını istisna etmirlər. Eyni zamanda,*

*hesabatda ixracdan asılı olan ölkələrin qlobal problemlə üzləşəcəyi barədə xəbərdarlıq edilir. Hesabatda yaxın 10 ildə neftə tələbatın 40 faizədək artacağı bildirilir, buna görə də enerji daşıyıcılarının tədarükünün bir neçə il əvvəlcədən görülməsi tövsiyə olunur.*

*İclasda iştirak edən dövlət başçıları, dünyanın aparıcı şirkətlərinin rəhbərləri və digər rəsmi şəxslər prezident İlham Əliyevlə görüşərək, Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri ilə maraqlandılar və gələcək perspektivlər barədə qısa fikir mübadiləsi etdilər.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MUTTƏKİ İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*24 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda onun üçün ayrılmış iqamətgahda İran İslam Respublikasının Xarici İşlər naziri Mənuçehr Muttəkini qəbul etmişdir.*

*Mənuçehr Muttəki öz ölkəsinin prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev İran prezidentinin salamına görə təşəkkür etdi və özünün də salamlarını ona çatdırmağı nazirdən xahiş etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALBANİYA NAZİRLƏR ŞURASININ SƏDRİ SALİ BERİŞA İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*24 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda onun üçün ayrılmış iqamətgahda Albaniya Nazirlər Şurasının sədri Sali Berişa ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlər, əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri barədə söhbət getdi, qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyi vurğulandı. İslam Konfransı Təşkilatı (İKT) çərçivəsində əməkdaşlığın daha da sıxlaşdırılmasına böyük ehtiyac duyulduğu və bu məsələyə diqqət yetirilməsinin vacibliyi bildirildi. Görüşdə enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında da fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN CƏNUBİ AFRİKA MİLLİ KONQRESİNİN SƏDRİ JAKOB ZUMA İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*24 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda onun üçün ayrılmış iqamətgahda Cənubi Afrika Milli Konqresinin sədri Jakob Zuma ilə görüşmüşdür.*

*Hər iki ölkənin bir-birinə maraq göstərdiyinin vurğulandığı görüşdə Jakob Zuma Azərbaycanın indiki vəziyyəti, ölkəmizdə gedən proseslər barədə məlumat almaq arzusunda olduğunu bildirdi.*

*Prezident İlham Əliyev ölkəmizin bütün sahələrdə inkişafı, aparılan iqtisadi islahatlar, enerji təhlükəsizliyi sahəsində Azərbaycanın rolu barədə söhbət açdı.*

*Görüşdə xüsusi vurğulandı ki, hər iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün ümumi maraqlar və imkanlar var və bu sahədə səmərəli iş görmək lazımdır.*

*Söhbət zamanı regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN «EUROMONEY İNSTİTUTİONAL İNVESTOR PLC» ŞİRKƏTİNİN SƏDRİ PADRAİK FALLON İLƏ GÖRÜŞÜ

*Davos, « Turmotel Viktoriya» iqamətgahı*

*24 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda onun üçün ayrılmış iqamətgahda Böyük Britaniyanın «Euromoney İnstitutional İnvestor PLC» şirkətinin sədri Padraik Fallonu qəbul etmişdir.*

*Şirkətin sədri Azərbaycandakı sərmayə mühiti, ölkəmizin iqtisadi inkişafı, neft və qeyri-neft sektorlarında gedən proseslərlə maraqlandı.*

*Prezident İlham Əliyev bu məsələlər barədə ətraflı söhbət açdı.*

*Padraik Fallon şirkətin gələcəkdə Azərbaycana xarici sərmayənin cəlb olunmasına öz töhfəsini verməkdən məmnun olacağını bildirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «SİSKO» ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU CON ÇAMBERS İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*24 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda onun üçün ayrılmış iqamətgahda, «Turmotel Viktoriya» mehmanxanasında «Sisko» şirkətinin sədri və Baş icraçı direktoru Con Çambersi qəbul etmişdir.*

*Görüşdə son zamanlar dünyada informasiya texnologiyalarının geniş tətbiq olunması, Azərbaycanda bu sahənin inkişafına böyük diqqət yetirilməsi vurğulandı.*

*Con Çambers Azərbaycanda prezident İlham Əliyevin iqtisadiyyatın çoxşaxəliliyi və qeyri-neft sektorunun inkişafı istiqamətində apardığı siyasəti yüksək dəyərləndirdi, bu yolda informasiya texnologiyasının əsas rol oynadığını bildirdi.*

*Söhbət zamanı Azərbaycanda informasiya texnologiyalarının digər sahələrə olan təsiri, son zamanlar ölkəmizin təhsil sistemində yüksək texnologiyaların tətbiqinə böyük üstünlük verildiyi xatırladıldı. Azərbaycan hökuməti ilə «Sisko» şirkəti arasında müqavilənin bağlanması məsələsi də müzakirə olundu, bir neçə yeni texnologiyanın Azərbaycanda tətbiqi, ölkəmizdə telekommunikasiya şəbəkəsinin modernləşdirilməsi ilə bağlı «Sisko» şirkətinin təklifləri nəzərdən keçirildi.*

*Prezident İlham Əliyev bu şirkətin Azərbaycanda fəaliyyətini yüksək dəyərləndirdi. Dövlətimizin başçısı dedi ki, Azərbaycan iqtisadiyyatının transformasiyası və dayanıqlı iqtisadiyyatın qurulması üçün informasiya texnologiyalarının roluna böyük əhəmiyyət verir və bu, iqtisadi siyasətimizin prioritet istiqamətidir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*24 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda onun üçün ayrılmış iqamətgahda, «Turmotel Viktoriya» mehmanxanasında Ukrayna prezidenti Viktor Yuşşenko ilə görüşmüşdür.*

*Görüş zamanı ikitərəfli münasibətlərin vəziyyəti və gələcək perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı. Prezident Viktor Yuşşenko son vaxtlar Ukraynada gedən proseslərdən də bəhs etdi.*

*Sonra iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə daha da inkişaf etdirilməsi ilə bağlı səmərəli söhbət aparıldı. Müəyyən layihələr, enerji sahəsində əməkdaşlıq məsələləri diqqət mərkəzində oldu. Prezidentlər müxtəlif layihələrin həyata keçirilməsində iki ölkənin birgə fəaliyyətinin vacibliyini vurğuladılar.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSRAİLİN XARİCİ İŞLƏR NAZİRİ SİPİ LİVNİ İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*24 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda onun üçün ayrılmış iqamətgahda, «Turmotel Viktoriya» mehmanxanasında İsrailin Xarici İşlər naziri xanım Sipi Livnini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla İsrail arasında ikitərəfli münasibətlərin inkişafı və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «*bp* GROUP» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ENTONİ HEYVORD İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*24 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda onun üçün ayrılmış iqamətgahda «bp Group» şirkətinin Baş icraçı direktoru Entoni Heyvordu qəbul etmişdir.*

*Görüşdə uzun illərdir Azərbaycanla bp şirkəti arasında uğurlu əməkdaşlığın olduğu bildirildi, onun perspektivləri müzakirə edildi və bu əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Azərbaycanda həyata keçirilən enerji layihələri barədə söhbət gedən görüşdə* bp*-nin rəhbəri ölkəmizin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirdi, respublikamızın iqtisadiyyatında çox böyük irəliləyişin baş verdiyini vurğuladı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ JAN LEMYER İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*25 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda onun üçün ayrılmış iqamətgahda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyeri qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə AYİB arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı.*

*Prezident İlham Əliyev Azərbaycanda iqtisadi inkişaf proseslərindən danışdı, ölkəmizin dünya iqtisadiyyatına sürətlə inteqrasiya etdiyini bildirdi.*

*Jan Lemyer AYİB-in Azərbaycanla əməkdaşlığının gələcəkdə də davam edəcəyinə ümidvar olduğunu söylədi.*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB LEX KAÇİNSKİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Polşa xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 yanvar 2008-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*25 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda onun üçün ayrılmış iqamətgahda Böyük Britaniyanın York hersoqu Şahzadə Endryu ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, energetika sektorunda uzun illər faydalı, uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu.*

*Azərbaycan ilə Böyük Britaniya arasında digər sahələrdə də əlaqələrin genişlənməsindən məmnunluq ifadə olundu və bu əlaqələrin gələcəkdə daha da inkişaf edəcəyinə əminlik bildirildi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN BİZNES, MÜƏSSİSƏLƏRİN İNKİŞAFI, TƏNZİMLƏNMƏ İSLAHATLARI ÜZRƏ DÖVLƏT KATİBİ CON HATTON İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*25 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda onun üçün ayrılmış iqamətgahda Böyük Britaniyanın biznes, müəssisələrin inkişafı, tənzimlənmə islahatları üzrə Dövlət katibi Con Hattonu qəbul etmişdir.*

*Con Hatton Azərbaycanda gedən prosesləri, ölkəmizin son illərdəki iqtisadi inkişafını diqqətlə izlədiyini bildirərək dedi ki, bu uğurlar bizi olduqca məmnun edir. O, iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsinin zəruri olduğunu söylədi.*

*Görüşdə neft-qaz, enerji sahəsində yeni imkanların əldə edilməsi, qeyri-neft sektorunda əməkdaşlıq imkanları və sərmayə qoyuluşu üçün Azərbaycanda çox gözəl perspektivlərin mövcudluğu vurğulandı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «CİTİGROUP»UN SƏDRİ UİN BİŞOFF İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*25 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda onun üçün ayrılmış iqamətgahda «Citigroup»un sədri Uin Bişoffu qəbul etmişdir.*

*Görüşdə «Citigroup»un Azərbaycanın maliyyə qurumları ilə əməkdaşlığı, ölkəmizdə gedən iqtisadi inkişaf prosesləri, regional iqtisadi əməkdaşlıq və digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-ın «GLOBAL HYATT» ŞİRKƏTİNİN SƏDRİ VƏ SAHİBİ TOMAS PRİTZKER İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*25 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda onun üçün ayrılmış iqamətgahda ABŞ-ın «Global Hyatt» şirkətinin sədri və sahibi Tomas Pritzkeri qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda iqtisadi sahədə gedən proseslərdən, iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən xidmət sektorunda əldə edilmiş uğurlardan söhbət getdi, indiki və gələcək planlar barədə fikir mübadiləsi aparıldı.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «MİCROSOFT» KORPORASİYASININ TƏDQİQAT VƏ STRATEGİYA ÜZRƏ DİREKTORU KREYQ MANDİ İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*25 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda onun üçün ayrılmış iqamətgahda «Microsoft» korporasiyasının tədqiqat və strategiya üzrə direktoru Kreyq Mandini qəbul etmişdir.*

*Görüşdə bildirildi ki, bu ilin yazında Azərbaycan hökuməti ilə «Microsoft» korporasiyası arasında strateji tərəfdaşlıq müqaviləsinin imzalanması nəzərdə tutulmuşdur. Müqavilədə Azərbaycanda intellektual mülkiyyətin qorunması, proqram təminatının leqallaşdırılması və «Microsoft»un Azərbaycanda sərmayə layihələrini həyata keçirməsi əksini tapacaqdır. Kreyq Mandi bildirdi ki, «Microsoft» Azərbaycanda elektron informasiya mərkəzi yaratmağı planlaşdırır.*

*Görüşdə Azərbaycanın regionda tranzit informasiya mərkəzinə çevrilməsi üçün «Microsoft»un həyata keçirəcəyi bir sıra layihələr müzakirə edildi, həmçinin Azərbaycanda yüksək səviyyəli mühəndislərin hazırlanması istiqamətində «Microsoft»un reallaşdıracağı layihələr barədə də fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev ölkəmizdə iqtisadiyyatda, o cümlədən energetika sahəsində böyük inkişafın əldə olunduğunu bildirdi. Dövlətimizin başçısı qeyri-neft sektoruna böyük diqqət yetirildiyini, bu baxımdan informasiya texnologiyalarının inkişafının prioritet istiqamət kimi seçildiyini söylədi. Prezident İlham Əliyev informasiya texnologiyaları sahəsində «Microsoft» korporasiyası ilə gələcəkdə yaxından əməkdaşlıq ediləcəyinə əmin olduğunu bildirdi və artıq Azərbaycanda bu sahədə konkret işlərin həyata keçirildiyini vurğuladı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏ KONFEDERASİYASININ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ, NƏQLİYYAT, ENERGETİKA VƏ RABİTƏ DEPARTAMENTİNİN RƏHBƏRİ MORİTS LOYENBERGER İLƏ GÖRÜŞÜ

*Davos, «Turmotel Viktoriya» iqamətgahı*

*25 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda onun üçün ayrılmış iqamətgahda İsveçrə Konfederasiyasının Ətraf Mühitin Mühafizəsi, Nəqliyyat, Energetika və Rabitə Departamentinin rəhbəri Morits Loyenbergeri qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə İsveçrə Konfederasiyası arasında əlaqələrin inkişafı, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin rolu müzakirə edildi. İsveçrə tərəfi Azərbaycanın bu sahədəki rolunu, ölkəmizdə nəqliyyat, rabitə, ətraf mühit və energetika sahəsində qazanılmış nailiyyətləri yüksək qiymətləndirdi, bu yöndə layihələrin Avropanın gələcəyi üçün vacib olduğunu bildirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU MARQARET ÇANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*31 yanvar 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 31-də Prezident sarayında Ümumdünya Səhiyyə Təşkilatının (DST) Baş direktoru Marqaret Çanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Marqaret Çan Azərbaycana yenidən səfər etməsindən qürur duyduğunu vurğulayaraq dedi ki, bu, ÜST-nın Baş direktoru kimi, onun ölkəmizə ilk səfəridir.*

*Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru vəzifəsinə seçilməsi münasibətilə Marqaret Çanı təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanın ÜST ilə əməkdaşlığı bundan sonra da uğurla davam etdiriləcəkdir.*

**İlham Əliyev:** Azərbaycanda səhiyyə sisteminin bütövlükdə inkişaf etdirilməsi, müasirləşdirilməsi və ən müasir avadanlıqlarla təmin olunması, eləcə də yeni xəstəxanaların tikintisi ilə bağlı geniş planlarımız var. Artıq bu istiqamətdə xeyli nailiyyətlər əldə olunub, lakin qarşıda daha böyük planlarımız var.

**Marqaret Çan**: Cənab Prezident, icazə verin, Dünya Səhiyyə Təşkilatının Baş direktoru vəzifəsinə seçkilər zamanı namizədliyimin dəstəklənməsinə görə Azərbaycan hökumətinə, şəxsən Sizə minnətdarlığımı bildirim. Azərbaycana səfərimdən

olduqca məmnunam. Mən burada kütləvi informasiya vasitələrinin nümayəndələri və müxtəlif insanlarla söhbətlərimə əsaslanaraq demək istəyirəm ki, Azərbaycan xalqı çox xoşbəxtdir ki, onun sağlamlığına bu cür böyük önəm verən prezidenti var. Səhiyyə sistemində başladığınız islahatlar, bu sahədə irəli sürdüyünüz mühüm təşəbbüslər, Neft Fondunun vəsaitlərindən səhiyyənin məqsədləri üçün istifadə olunması, icbari tibbi sığorta sisteminin tətbiqi ilə bağlı planlarınız təqdirəlayiqdir. Sizin Azərbaycan xalqının rifahına yönəlmiş xidmətləriniz, habelə xanım Mehriban Əliyevanın bu sahədəki fəaliyyəti onu deməyə əsas verir ki, Azərbaycan xalqının gələcəyi etibarlı əllərdədir. Yeri gəlmişkən, ötən il Cenevrədə Mehriban xanımla görüşmək şərəfinə nail olduğumu məmnunluqla qeyd etmək istəyirəm.

## İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ

Möhtərəm Ayətullah Xamenei həzrətləri!

Ölkənizin milli bayramı – İslam inqilabı günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Biz dost və qonşu ölkələrimiz arasındakı münasibətlərə böyük əhəmiyyət veririk. Əminəm ki, xalqlarımızın iradəsini bariz şəkildə ifadə edən dövlətlərarası münasibətlərimizin hərtərəfli inkişafı üçün bundan sonra da səylərimizi davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İran xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 fevral 2008-ci il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – İslam inqilabı günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–İran münasibətləri dostluq və mehriban qonşuluq telləri ilə bir-birinə bağlı olan xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 fevral 2008-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV «MUĞAM TELEVİZİYA MÜSABİQƏSİ – 2007» QALİBLƏRİNİN KONSERTİNDƏ OLMUŞDUR

*Opera və Balet Teatrı*

*1 fevral 2008-ci il*

*Fevralın 1-də Azərbaycan Dövlət Opera və Balet Teatrında Azərbaycan Mədəniyyətinin Dostları Fondunun layihəsi əsasında və Heydər Əliyev Fondunun dəstəyi ilə «Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyətinin keçirdiyi və üç aydan çox davam etmiş «Muğam televiziya müsabiqəsi–2007» qaliblərinin qala-konserti olmuşdur.*

*Salona toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətli alqışlarla qarşıladılar.*

*Əvvəlcə müsabiqə ilə bağlı hazırlanmış sənədli film göstərildi. Film Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın müsabiqənin qalibləri və münsiflər heyətinin üzvləri ilə görüşündə dediyi «Muğam bizim mədəniyyətimizin, Azərbaycan mədəniyyətinin əsas sütunlarından biridir və əlbəttə, onu qorumaq, inkişaf etdirmək, gələcək nəsillərə çatdırmaq hər bir azərbaycanlının mənəvi borcudur» sözləri ilə başlayır. Filmdə muğam müsabiqəsinin münsiflər heyətinin üzvləri – xalq artistləri Əlibaba Məmmədov, Arif Babayev, Ağaxan Abdullayev, Səkinə İsmayılova, Mənsum İbrahimov, Azərbaycan Bəstəkarlar İttifaqının katibi, sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabov, «Muğam televiziya müsabiqəsi – 2007» layihəsinin icraçısı, Əməkdar incəsənət xadimi Nadir Axundov, eləcə də Xalq artisti Alim Qasımov ölkəmizdə*

*xalqımızın milli sərvəti olan muğam sənətinin yaşadılmasına, inkişafına, beynəlxalq aləmdə təbliğinə, muğam ifaçılarının yeni nəslinin yetişdirilməsinə göstərilən diqqət və qayğıdan söhbət açırlar. Onlar musiqimizin şahı sayılan muğama qayğının bu səviyyəyə çatmasında Mehriban xanım Əliyevanın əvəzsiz xidmətlərini yüksək qiymətləndirirlər.*

*Bildirilir ki, Azərbaycan mədəniyyəti və incəsənətinin böyük hamisi ümummilli lider Heydər Əliyevin arzu və istəklərinin həyata keçirilməsi baxımından böyük əhəmiyyət daşıyan «Muğam-irs», «Muğam-dəstgah», «Muğam-ensiklopediya», «Muğam antologiyası», «Muğam aləmi», «Muğam Mərkəzi» və sair layihələr milli musiqi tariximizə yeni səhifələr kimi daxil olacaqdır.*

*Filmdə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə buraxılmış «Qarabağ xanəndələri» musiqi albomu barədə ətraflı danışılır, onun təqdimat mərasimindən fraqmentlər göstərilir.*

*Tamaşaçılar bu filmdə 2005-ci ildə keçirilmiş ilk televiziya muğam müsabiqəsi, prezident İlham Əliyevin həmin müsabiqənin finalçıları ilə görüşü, dövlətimizin başçısının və YUNESKO-nun Baş direktorunun iştirakı ilə Bakıda Beynəlxalq Muğam Mərkəzinin təməlqoyma mərasimi, muğam ifaçılarının iştirakı ilə Parisdə, Vaşinqtonda, Rusiyada keçirilmiş konsertlər yeni muğam jurnalının nəşri barədə bir daha məlumat alırlar.*

*Sonra səhnə gənc ifaçıların ixtiyarına verildi. Müsabiqənin qalibləri – Ehtiram Hüseynov «Sarı gəlin» xalq mahnısını, Rəvanə Ərəbova «Şüştər» təsnifini, Nasir Ətapur «Vilayəti» muğamını, Abgül Mirzəliyev «Şirvan şikəstəsi»ni, Güllü Muradova «Mirzə Hüseyn segahı»nı, Elməddin İbrahimov «Qatar» təsnifini məharətlə ifa etdilər. Onların və musiqiçilərin ifaları hərarətli alqışlarla qarşılandı.*

*Bu qeyri-adi konsert müsabiqə qaliblərinin ifasında «Qarabağ şikəstəsi» ilə başa çatdı.*

**İ l h a m Ə l i y e v:** Sizi təbrik edirəm, muğam müsabiqəsinin qaliblərisiniz. Üç ay ərzində Azərbaycan xalqı bu müsabiqəyə baxırdı, onu izləyirdi və siz çox gərgin mübarizə şəraitində ön

yerləri tuta bilmisiniz. Bu, böyük nailiyyətdir. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, siz gələcəkdə də öz istedadınızla Azərbaycan xalqını sevindirəcək, peşəkarlıq səviyyənizi daha da yüksəklərə qaldıracaqsınız.

Muğam bizim milli sərvətimizdir, Azərbaycan xalqının sərvətidir. Bu aylar ərzində bütün Azərbaycan xalqı muğam sənətini daha da dərindən dərk edə bilmişdir. Artıq bu müsabiqə ənənəvi xarakter daşıyır. Əminəm ki, bundan sonrakı illərdə də bu müsabiqə keçiriləcəkdir və beləliklə, muğam yaşayacaq, inkişaf edəcəkdir. Biz də öz tərəfimizdən hər şey etməliyik ki, bu gözəl sənəti qoruyaq, möhkəmləndirək. Bundan sonrakı nəsillər də muğamın inkişafında öz rolunu oynayacaqlar.

Bu müsabiqə Heydər Əliyev Fondunun və Azərbaycan televiziyasının təşəbbüsü ilə həyata keçirilmişdir. Mən bu təşəbbüsü alqışlayıram. Hesab edirəm ki, çox dəyərli təşəbbüsdür. İndi burada yoxdurlar, amma qiyabi də olsa, münsiflər heyətini də xüsusi qeyd etmək istəyirəm. Onların fəaliyyəti, verdikləri şərhlər, məsləhətlər həm sizin üçün, həm də bütün muğamsevərlər üçün çox dəyərli olmuşdur.

Siz də yaxşı bilirsiniz ki, bu aylar ərzində müsabiqəyə, demək olar, vətəndaşlarımızın əksəriyyəti baxmışdır. Nəinki Azərbaycanda, bütün başqa ölkələrdə də baxıblar. İndi peyk vasitəsilə Azərbaycan televiziyası başqa ölkələrdə yayımlanır və bilirəm ki, bütün dünya azərbaycanlıları da bu müsabiqəyə böyük maraqla baxmışlar. Onu da demək istəyirəm ki, mənim internet saytıma da bununla bağlı çoxlu sayda məktublar daxil olmuşdur. Xaricdə yaşayan azərbaycanlılar öz sevincini, bu müsabiqənin keçirilməsi işində əməyi olan insanların fəaliyyətini xüsusilə qeyd etmişlər.

Bir sözlə, mən bir daha qeyd etmək istəyirəm ki, siz bu aylar ərzində Azərbaycan xalqına sevinc bəxş etmisiniz. Bu müddət ərzində siz artıq tanınan insanlar olmusunuz. Yəqin ki, sizi küçədə görənlər, ictimai yerlərdə görənlər yaxınlaşırlar, danışırlar, öz münasibətlərini bildirirlər. Əminəm ki, siz bundan

sonra da bu yüksək səviyyəni saxlayacaq, sözün əsl mənasında, milli ulduzlara çevriləcəksiniz.

İndi Azərbaycanın musiqi sənətində müxtəlif janrlarda ulduzlar var. Bu təbiidir. Başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da bu olmalıdır və var. Amma mən çox şadam ki, bizim milli musiqi sənətinin ulduzları artıq yaranıblar, işləyirlər, fəaliyyət göstərirlər və Azərbaycan xalqının milli sərvəti olan, bizim musiqi sənətimizin əsası olan muğam sənətini siz belə gözəl təbliğ edirsiniz.

Mən sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. Əminəm ki, siz bundan sonra, hələ uzun illər ərzində Azərbaycan xalqını öz sənətinizlə sevindirəcəksiniz. Sizi bir daha təbrik edirəm.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA İTTİFAQI «ÜÇLÜYÜ»NÜN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*4 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Prezident sarayında hazırda Avropa İttifaqında sədrlik edən Sloveniya Respublikasının Xarici İşlər naziri Dmitri Rupelin başçılıq etdiyi və Avropa Qonşuluq siyasəti və xarici əlaqələr üzrə Avropa komissarı xanım Benita Ferrero-Valdnerin daxil olduğu Avropa İttifaqı «üçlüyü»nün nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı əmin olduğunu vurğuladı ki, Avropa İttifaqı «üçlüyü»nün regiona bu səfəri əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaradacaqdır. Avropa İttifaqı ilə əlaqələrimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən prezident İlham Əliyev bundan əvvəlki görüşlər zamanı da qarşılıqlı faydalı fikir mübadiləsi aparıldığını xatırlatdı.*

*Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, nümayəndə heyətinin bu səfəri də əldə edilmiş nailiyyətlərin möhkəmləndirilməsinə və əməkdaşlığın gələcək perspektivlərinin müzakirə olunmasına xidmət edəcəkdir.*

*Sloveniyanın Xarici İşlər naziri Dmitri Rupel Bakıya səfəri zamanı nümayəndə heyətinin azərbaycanlı dostları və həmkarları ilə səmərəli görüşlər keçirmək niyyətində olduğunu söylədi. O, nümayəndə heyətinə Avropa Qonşuluq siyasəti və xarici əlaqələr üzrə Avropa komissarı xanım Benita Ferrero-Valdnerin, Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nüma-*

*yəndəsi Peter Semnebinin və digər məsul şəxslərin daxil olduğunu bildirdi.*

*Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivlərinə və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə dair fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ ÜÇÜNCÜ QURULTAYINA

Hörmətli qurultay iştirakçıları!

Sizi – Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının növbəti qurultayının nümayəndələrini və qonaqları səmimi-qəlbdən salamlayır və təbrik edirəm.

Qurultay ölkəmizin bütün istiqamətlərdə sürətlə inkişaf etdiyi və uğurlu nəticələrə nail olduğu mühüm bir dövrə təsadüf edir. Yeni ictimai-siyasi və iqtisadi sistemin təşəkkül tapdığı bu mərhələdə Azərbaycan dövləti vətəndaşların sosial problemlərinin həlli və əmək hüquqlarının qorunması sahəsində həmkarlar ittifaqlarının roluna xüsusi əhəmiyyət verir.

Ölkəmiz dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan həmkarlar ittifaqları öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Respublikamızı dərin sosial-iqtisadi və siyasi böhrandan çıxaran ümummilli liderimiz Heydər Əliyev həmkarlar təşkilatlarını müxtəlif siyasi qüvvələrin təsirindən qorumuş, öz missiyasının yerinə yetirilməsinə lazımi şərait yaratmışdır. Onların uzun illər ərzində formalaşmış maddi-texniki bazasının dağıdılmasının qarşısı alınmış, vətəndaş cəmiyyətinə yad olan inzibati amirlik metodlarından imtina edilmiş, demokratik idarəçilik prinsiplərinə əsaslanan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının möhkəmlənməsinə dəstək verilmişdir.

Əminəm ki, həmkarlar ittifaqları cəmiyyətdə əməkdaşlıq ruhunun bərqərar olması, sosial ədalət prinsiplərinə əməl edilməsi, bazar iqtisadiyyatı şəraitində işçilərin əmək hüquqlarının qorunması, işə götürənlərlə işçilər arasında münasibətlərin tənzimlənməsi istiqamətində çox işlər görə bilər. Hər il hökumətin Həmkarlar İttifaqları Konfederasiyası və Sahibkarlar Təşkilatları Milli

Konfederasiyası ilə imzalanan Baş Kollektiv Saziş də məhz bu aktual vəzifələrin yerinə yetirilməsinə xidmət edir.

Bu gün respublikamızın iqtisadiyyatında özəl bölmə aparıcı mövqeyə malikdir. Yeni yaradılmış yüz minlərlə iş yerinin əksəriyyəti bu bölmənin payına düşür. Ölkədə yüzlərlə yerli və xarici şirkət fəaliyyət göstərir. Həmkarlar ittifaqları belə müəssisələrdə əmək prosesinə cəlb olunmuş vətəndaşlarımızın iş şəraitinin yaxşılaşdırılması, sosial problemlərinin həlli və əmək hüquqlarının təmin olunması üçün ardıcıl və məqsədyönlü tədbirləri davam etdirməlidir.

Müstəqil dövlətimizin dünya birliyinə inteqrasiya olunması həmkarlar ittifaqlarının beynəlxalq əlaqələrinin qurulması üçün geniş şərait yaradır. Hesab edirəm ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası üzvü olduğu Beynəlxalq Əmək Təşkilatı və Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyası kimi nüfuzlu qurumların imkanlarından bəhrələnərək, əməyin təşkili və sosial problemlərin həlli sahəsində qabaqcıl dünya təcrübəsini dərindən öyrənməli və ölkəmizdə tətbiq etməlidir. Bu prosesdə həmkarlar ittifaqı təşkilatlarının yeniləşməsi və inkişaf etməsi zamanın tələbidir. Məhz müasir təcrübəyə yiyələnərək peşəkarlığını artıran, güclü və nüfuzlu həmkarlar ittifaqı təşkilatları öz fəaliyyətində uğur qazana bilər.

Hörmətli qurultay nümayəndələri!

Ümidvaram ki, bu mötəbər məclisdə aparacağınız müzakirələr və qəbul edəcəyiniz qərarlar ölkədə ən kütləvi ictimai təşkilat olan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyətinin təkmilləşdirilməsinə xidmət edəcək, demokratiyanın və azad cəmiyyətin inkişafı, insanların firavan həyatının təmin olunması işinə öz töhfəsini verəcəkdir.

Sizi bir daha təbrik edir və qurultayın işinə uğurlar arzulayıram!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 fevral 2008-ci il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AHİK-in III QURULTAYININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

*Prezident sarayı*

*5 fevral 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 5-də Prezident sarayında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının III qurultayının iştirakçılarını qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Siz Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının III qurultayında iştirak etmək üçün ölkəmizə gəlmisiniz və bu onu göstərir ki, sizin aranızda olan münasibətlər çox yüksək səviyyədədir. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası da özünün beynəlxalq əlaqələrini xeyli möhkəmləndirə bilmişdir. Müxtəlif ölkələrdən Azərbaycana gəlmiş qonaqlar bu müddət ərzində, əlbəttə ki, qurultayda iştirak edəcək və ölkəmizlə də tanış olmaq üçün fürsət əldə edəcəklər.

Mən əminəm ki, Azərbaycanda olmağınız Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə sizin təmsil etdiyiniz qurumlar arasında əməkdaşlığın dərinləşməsi üçün yaxşı imkanlar açacaqdır. Ölkəmizin əhalisinin sayı 8,6 milyon nəfər olduğu halda, həmkarlar ittifaqları 1 milyon 500 mindən çox insanı birləşdirir. Bu, böyük qüvvədir və mən hesab edirəm ki, Azərbaycanda əmək hüquqlarının qorunmasında, işçilərin sosial məsələlərinin həllində həmkarlar ittifaqlarının çox mühüm rolu var.

Bizim ölkə öz iqtisadiyyatını bazar prinsipləri üzərində qurubdur. Biz Sovet İttifaqının tərkibində yaşayanda, əlbəttə, ictimai-siyasi quruluş tamamilə başqa idi. Amma indi bütün MDB dövlətlərində bazar iqtisadiyyatı prinsipləri üstünlük təşkil edir. Belə olan halda, əlbəttə, işçilərlə işverənlər arasındakı münasibətlər tənzimlənməlidir, işçilərin hüquqları tam şəkildə qorunmalıdır. Dövlət öz tərəfindən qəbul edilmiş qərarlarla bu sahəyə töhfəsini verməlidir və verir.

Azərbaycanda sosial məsələlərin həllinə son zamanlar böyük vəsaitlər ayrılır, işçilərin əməkhaqları ildə bir neçə dəfə artırılır. O cümlədən minimum əməkhaqqı bir neçə dəfə artırılmışdır. Hesab edirəm ki, gələcəkdə ölkəmizin iqtisadi imkanları genişləndikcə bu sahəyə daha da böyük diqqət göstəriləcəkdir.

Mən əminəm ki, qurultayda səslənən fikirlər, məruzələr böyük maraq doğurur və bu baxımdan qurultay uğurlu olacaqdır. Eyni zamanda, bu, yeni imkan yaradır ki, müxtəlif ölkələrdən olan nümayəndələr bir yerə yığışsınlar, görüşsünlər, öz dostluq münasibətlərini daha da möhkəmləndirsinlər və ölkələrimiz arasında əməkdaşlıq, o cümlədən bu sahədə sürətlə inkişaf etsin.

**Mixail Şmakov** (*Panavropa Regional Həmkarlar İttifaqları Şurasının prezidenti, Rusiya Müstəqil Həmkarlar İttifaqları Federasiyasının sədri, Həmkarlar İttifaqları Beynəlxalq Konfederasiyasının vitse-prezidenti*): Sağ olun, hörmətli İlham Heydər oğlu. Mən, Şmakov Mixail Viktoroviç Rusiya Müstəqil Həmkarlar İttifaqları Federasiyasının sədri və eyni zamanda, Panavropa Regional Həmkarlar İttifaqları Şurasının prezidentiyəm. Möhtərəm İlham Heydər oğlu, bu qəbula görə, həmkarlar ittifaqları hərəkatında mövcud problemləri Sizinlə müzakirə etmək imkanına görə minnətdarıq. Biz bilirik ki, Siz Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına çox səmimi münasibət bəsləyirsiniz. Heç şübhəsiz, biz Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasında, Panavropa Regional Həmkarlar

İttifaqları Şurasında apardığı işləri yüksək qiymətləndiririk. Hazırda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası bizim təşkilatın Baş Şurasının – Panavropa Regional Həmkarlar İttifaqları Şurasının üzvüdür. Əlbəttə, biz Azərbaycanın təcrübəsini həmişə təbliğ edirik. Bu təcrübə ondan ibarətdir ki, sizin ölkənizin, respublikanızın əmək qanunvericiliyində çoxları üçün bəlkə də hələ əlçatmaz olan belə bir müddəa vardır ki, işçinin işə qəbul edilməsi, işdən azad olunması ilə bağlı bütün məsələlər hökmən həmkarlar ittifaqları ilə müzakirə edilməlidir. Hesab edirik ki, bu, bütövlükdə Azərbaycanın və əlbəttə, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının çox böyük nailiyyətidir.

*Daha sonra M.Şmakov MDB ölkələrində, o cümlədən Azərbaycanda işə götürənlərlə işçilər arasında münasibətlərdən, bu sahədə həllini gözləyən problemlərdən və digər məsələlərdən danışdı. O qarşıda duran vəzifələrin həlli üçün MDB ölkələri həmkarlar ittifaqlarının fəal təcrübə mübadiləsi apardığını, ümumi problemlərin həlli üçün səyləri birləşdirdiyini bildirdi. Bu baxımdan Bakıda keçirilən qurultayın böyük əhəmiyyətini vurğuladı. M.Şmakov dedi:*

– Fevralın 26-da Panavropa Regional Həmkarlar İttifaqları Şurası və Həmkarlar İttifaqlarının Beynəlxalq Konfederasiyası Azərbaycanda qeyri-formal iqtisadiyyata qarşı mübarizə məsələlərinin müzakirəsinə və öyrənilməsinə həsr olunmuş layihəyə başlayacaqdır. Biz Azərbaycanda bu layihəni başlamaqla müvafiq orqanlara müraciət etmək istərdik ki, bu layihə dövlət tərəfindən bəyənilsin və ya dəstəklənsin, çünki bu elə bir ümumi problemdir ki, onun həlli hamımıza kömək edə bilər.

**Nihad Yurdakul** (*Türk İşçi Həmkarlar İttifaqları Konfederasiyasının təhsil üzrə katibi*): Sizinlə birlikdə olmaqdan məmnun olduğumu ifadə etmək istəyirəm. Türkiyədə çalışan bütün işçi qardaşlarımın və bütün türk xalqının Sizə hörmət və ehtiramını çatdırmaq istəyirəm. Böyük dövlət adamı və böyük lider mərhum

Heydər Əliyevin biz «bir millət, iki dövlətik» müdrik kəlamına söykənərək, hazırda Sizin liderliyinizlə iki ölkə arasındakı iqtisadi və sosial əlaqələr genişlənməkdə davam etməkdədir. Bunu məmnuniyyətlə vurğulayıram ki, Sizin önərliyinizlə Türkiyə və Azərbaycanın həmkarlar ittifaqları arasında əməkdaşlıq, sosial əlaqələr bundan sonra da genişlənəcəkdir. Sizin rəhbərliyinizlə Azərbaycanda həyata keçirilən sosial siyasətin əməkçilərin mənafeyinə uyğun olaraq, gələcəkdə də inkişaf edəcəyini bilirik. Sizə bundan sonrakı fəaliyyətinizdə uğurlar diləyirəm.

**Vladimir Şerbakov** (*Həmkarlar İttifaqları Ümumi Konfederasiyasının Baş katibi*): Burada olmağımıza imkan yaratdığınıza görə Sizə çox minnətdaram. Mən Sizin atanızı çox yaxşı tanıyırdım. O, SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini olanda mən Baş direktor idim. Orada rastlaşırdıq. Ümumiyyətlə, mən ona minnətdaram, onunla 10 il bundan əvvəl burada görüşmüşdük.

Sizin gözəl ölkənizin bütün uğurlarını diqqətlə izləyirəm. Son üç ilin göstəriciləri məni heyran etdi. Jurnalda Sizin məqalənizi də oxumuşam. İndi ölkəniz sosial problemlərin həlli baxımından Rusiyaya çox oxşayır. Təhsil sistemi, mədəniyyətin inkişafı, mənzil tikintisi, infrastruktur – bütün bunlar bizə yaxın olan həssas məsələlərdir, ona görə ki, indi MDB ölkələri müxtəlif tərzdə, müxtəlif səviyyədə inkişaf edir. Lakin artıq üçüncü ildir ki, biz minimum əməkhaqqının əhəmiyyətli dərəcədə artırılmasına dair birgə kampaniya keçiririk. Mən ona görə «əhəmiyyətli dərəcədə» deyirəm ki, indi biz minimum əməkhaqqının yaşayış minimumuna bərabər olması məsələsini qaldırmışıq. Bu sahədə məhz Qazaxıstan, Azərbaycan və Rusiya liderlik edir.

*Daha sonra V.Şerbakov MDB ölkələrində, o cümlədən Rusiyada sosial məsələlərin həlli üçün görülən ardıcıl tədbirlərdən danışdı, mövcud problemlərə toxundu, həmkarlar təşkilatlarının da həmin problemlərin həllinə yardımçı olmaq məqsədi ilə*

*əməkdaşlığı daha da genişləndirdiyini bildirdi. O, Həmkarlar İttifaqları Ümumi Konfederasiyasının ölkələrimiz arasında inteqrasiyanın güclənməsi, qarşılıqlı anlaşmanın və dostluğun daha geniş vüsət alması üçün mümkün olan hər şeyi etməyə çalışdığını vurğuladı və Azərbaycan xalqına daha böyük firavanlıq arzuladı.*

**SERBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB BORİS TADİÇƏ**

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Serbiya arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Serbiya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 fevral 2008-ci il*

**LİTVA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VALDAS ADAMKUSA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Litva dövlətinin bərpası günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün dövlətlərarası münasibətlərimiz müvəffəqiyyətlə inkişaf etməkdədir. Siyasi və iqtisadi əlaqələrimiz, ikitərəfli qaydada, regional və beynəlxalq qurumlar çərçivəsində səmərəli əməkdaşlığımız münasibətlərimizin gələcək perspektivini yüksək qiymətləndirməyə imkan verir. Ümidvaram ki, Azərbaycan–Litva əməkdaşlığının davamlı inkişafını təmin etmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Litva xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 fevral 2008-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «2007-ci İLİN ADAMI» MÜKAFATININ TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQİ

*6 fevral 2008-ci il*

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mənim fəaliyyətimə verilən bu yüksək qiymətə görə Milli Qəhrəman Çingiz Mustafayev adına Fonda və ANS Şirkətlər Qrupuna öz minnətdarlığımı bildirmək istəyirəm. Qeyd etmək istəyirəm ki, bundan sonrakı fəaliyyətimdə də mən çalışacağam ki, Azərbaycan xalqına ləyaqətlə xidmət edim. Bu pul mükafatını isə mən Silahlı Qüvvələrə Yardım Fonduna köçürürəm.

Bu gün mənim ünvanıma səslənən bütün xoş sözlərə görə sizin hamınıza və Vahid Mustafayevə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Bu videoçarxda göstərilən kadrlar Azərbaycanın uğurlarını əks etdirir. Həqiqətən, 2007-ci ildə ölkəmiz daha da güclənmişdir, öz mövqelərini möhkəmləndirmişdir. Deyə bilərəm ki, 2007-ci il Azərbaycanın müasir tarixi üçün çox önəmli il olmuşdur. Bu ildə ölkəmizin gələcəyi üçün çox mühüm hadisələr baş vermişdir və bunların nəticəsində Azərbaycan daha da güclənmiş və inkişaf etmişdir. Amma onu da bilirik ki, əldə edilmiş bu nailiyyətlərin təməli 90-cı illərin ortalarında qoyulmuşdur.

Məhz o illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış «Əsrin müqaviləsi» bütün bu sahədəki – enerji və nəqliyyat sahəsindəki başqa layihələrə güclü təkan vermişdir. Təsəvvür etmək çətindir ki, əgər o zaman bu cəsarətli addım atılmasaydı, Azərbaycanın indiki durumu necə olacaqdı və

şübhə yox ki, Azərbaycan öz müstəqil siyasətini aparmaqda böyük çətinliklər çəkə bilərdi. Bu gün isə biz, sözün əsl mənasında, müstəqil dövlətik. Bizim xalqımız əsrlər boyu başqa ölkələrin tərkibində yaşamışdır – müstəqillikdən məhrum idi, azadlıqdan məhrum idi, bu və ya digər formada müstəmləkə kimi yaşamışdı. Azərbaycan xalqının ən böyük xoşbəxtliyi ondadır ki, biz indi müstəqilik. Bizim ən böyük xoşbəxtliyimiz ondadır ki, bu müstəqilliyi görürük. Nəsillər gəlibdir, gedibdir, müstəqillik həsrətində olublar, ancaq onu görə bilməmişlər. Bizim nəslimiz bunu görür və öz əməli işlərimizlə bu müstəqilliyi möhkəmləndiririk və bundan sonra da möhkəmləndirəcəyik.

Enerji sahəsində səslənən fikirlərə gəldikdə, əlbəttə ki, bu işlər Azərbaycanı hərtərəfli inkişaf etdirmək üçün çox böyük imkanlar açır. Bizim maddi imkanlarımız artır, maliyyə resurslarımız güclənir. Azərbaycanın dövlət büdcəsi son dörd il ərzində 10 dəfə artmışdır ki, bunun da təməlində, ilk növbədə, enerji amili dayanır.

Biz keçən il, 2007-ci ildə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tam gücü ilə işləməsinə nail ola bilmişik. Hamımız yaxşı xatırlayırıq ki, bir vaxt bu layihəyə böyük ümidsizliklə yanaşanlar da var idi. Həm ölkə daxilində, həm də xüsusilə xaricdə. Bu layihəyə əngəl törətmək, maneçilik yaratmaq, yaxud da ki, onu hörmətdən salmaq cəhdlərini biz çox yaxşı xatırlayırıq. Belə fikirlər də meydana atılırdı ki, Azərbaycanda kifayət qədər neft yoxdur, bu layihə səmərəsiz layihədir, sadəcə olaraq, siyasi məna daşıyır və Azərbaycan xalqı bundan heç bir fayda görməyəcəkdir.

Biz isə bilirdik ki, reallıq tam başqadır. Biz bilirdik ki, bu layihə Azərbaycanı xoşbəxt gələcəyə aparan vasitədir. Azərbaycanda son dörd il ərzində yoxsulluğun 16 faizə düşməsinin başlıca səbəbi 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi»dir və ondan irəli gələn inkişaf meyilləridir. Bu gün Bakı–Tbilisi–Ceyhan neft kəməri tam gücü ilə işləyir, Azərbaycan neftini dünya bazarlarına daşıyır və heç bir başqa

ölkənin neftinə ehtiyacımız da yoxdur. Halbuki, bu fikirlər də yəqin yadınızdadır, deyirdilər ki, başqa ölkələrin nefti olmasa, Bakı–Tbilisi–Ceyhan neft kəməri işləməyəcəkdir. Həqiqət tam başqadır. Biz bunu bilirdik və mən çox şadam və xoşbəxtəm ki, bu gözəl hadisəni birlikdə qeyd etdik.

Bakı–Tbilisi–Ərzurum qaz kəməri və «Şahdəniz» layihəsinin işlənməsi işləri müəyyən müddət bir növ Bakı–Tbilisi–Ceyhan kimi nəhəng transmilli layihənin kölgəsində qalmışdı. Dünya birliyi və xüsusilə bu məsələlərlə ciddi məşğul olan qurumlar buna o qədər də böyük önəm vermirdilər. Xüsusilə nəzərə alsaq ki, 90-cı illərin ortalarında, müqavilə imzalanan zaman və hətta 2000-ci illərin əvvəllərində qaz amilinə dünya enerji məkanında o qədər də böyük önəm verilmirdi.

Halbuki, biz özümüz xarici tərəfdaşlarla «Şahdəniz» qaz yatağının işlənilməsi üçün çox vacib addımlar atmışdıq və qaz kəmərinin tikintisi o vaxta təsadüf edirdi ki, dünyada qaz amili enerji sahəsində birinci yerə çıxmışdı. Bu gün Avropanın enerji təhlükəsizliyi məsələləri müzakirə olunanda, ilk növbədə, qaz amilindən söhbət gedir. Azərbaycanda aşkar olunmuş nəhəng qaz ehtiyatları imkan verəcək ki, növbəti 100 il ərzində Azərbaycan həm özünü qazla təmin etsin, həm də başqa ölkələrə qaz ixrac etsin. 100 il, yəni bu, ən aşağı həddir və ümid edirəm ki, gələcəkdə daha da böyük yataqlar aşkar olunacaqdır. Bu gün Azərbaycan həm neft, həm də qaz ixrac edən ölkəyə çevrilir və neft hasil edən ölkələr arasında buna tez-tez rast gəlinmir. Neftlə zəngin olan ölkələr daha çox neft ixracı ilə məşğuldur.

Azərbaycanın həm nefti var, həm qazı var, həm də əlverişli coğrafi vəziyyəti var. Biz də ölkəmizin güclənməsi üçün, Azərbaycanın beynəlxalq nüfuzunun qaldırılması üçün bütün bu amillərdən çox səmərəli istifadə edirik. Bu gün Azərbaycan qazı artıq bir neçə ölkəyə ixrac olunur. Bu çox böyük nailiyyətdir, xüsusilə nəzərə alsaq ki, 2007-ci ilin əvvəlinə qədər Azərbaycan xaricdən ildə 4,5 milyard kubmetr qaz alırdı. Biz yüksək qiymətlərə görə nəinki ondan imtina etdik, eyni zamanda,

Dövlət Neft Şirkətinin fəaliyyəti nəticəsində daxili hasilatı əhəmiyyətli dərəcədə artıra bilmişik. Ölkəmizdə, demək olar ki, əhalinin və müəssisələrin 80 faizi qazla təmin olunur. Deyə bilərəm ki, bu, qaz hasil edən ölkələrdə bəlkə də ən yüksək göstəricilərdən biridir və gələcəkdə Azərbaycanda qazlaşdırmanın davamı nəzərdə tutulubdur. Biz həm xaricə qazı ixrac edəcəyik, həm də ki, daxili tələbatı maksimum dərəcədə təmin edəcəyik. Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyi üçün əvəzolunmaz ölkəyə çevrilibdir və biz, xüsusilə bu işlərlə bilavasitə məşğul olan adamlar bunun nəticələrini görürük.

Azərbaycan etibarlı tərəfdaş kimi özünü sübut edə bilmişdir. Azərbaycana inanırlar, bizim sözümüzə inanırlar, bizimlə məsləhətləşirlər, hesablaşırlar. İqtisadi sahədəki uğurlarımız, sənaye istehsalının artımı, uğurlu enerji siyasəti, daxili sabitlik və əməkdaşlığa hazır olmağımız, regional məsələlərdə təşəbbüskar rolunu üzərimizə götürməyimiz, əlbəttə ki, Azərbaycanın nüfuzunu xeyli artırmışdır. Sirr deyil ki, enerji amili də bu sahədə çox böyük rol oynayır. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin fəaliyyəti nəticəsində Azərbaycan nefti dünya bazarına çıxıbdır. Bizim neftimiz nəinki Qara dəniz, Avropa məkanına, artıq Cənubi Amerikaya, Şimali Amerikaya, Uzaq Şərqə göndərilir. Beləliklə, biz artıq dünya enerji balansında mühüm rol oynayırıq və bu rol artacaqdır.

Bir sözlə, enerji sahəsindəki uğurlar Azərbaycanın gələcəyi üçün tarixi məna daşıyır və vaxt keçdikcə bizim mövqelərimiz yalnız və yalnız möhkəmlənəcəkdir. Azərbaycan artıq tam şəkildə özünü təmin edən ölkədir. Heç kimin yardımına ehtiyacımız yoxdur. Biz nəinki özümüzü təmin edirik, başqa ölkələrin inkişafında da rol oynayırıq və bu rol getdikcə artacaqdır. Bizim valyuta ehtiyatlarımız artır. Azərbaycanda istənilən layihə öz həllini tapa bilər və ən önəmlisi ondan ibarətdir ki, bütün bunlarla yanaşı, hər bir sahə üzrə konkret proqramlar var. Bu gün burada göstərilən videoçarxda bizim proqramlarımızın bəzi istiqamətləri öz əksini tapıbdır. ANS

Şirkətlər Qrupuna, Milli Qəhrəman Çingiz Mustafayev adına Fonda çox minnətdaram ki, onlar Azərbaycanın gələcəyi üçün və bu günü üçün vacib olan ən önəmli məsələləri burada əks etdiriblər.

Ancaq bizim proqramlarımız daha da genişdir. Onlar ölkənin həyatının, demək olar, bütün sahələrini əhatə edir və bir məqsədi güdür ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, Azərbaycan daha da möhkəmlənsin. Bizim dövlətimiz möhkəm olduqda, əlbəttə ki, insanların rifah halı da yaxşılaşacaqdır.

Bakı–Tbilisi–Qars dəmir yolu haqqında çox danışmaq istəmirəm. Bu məsələni siz yaxşı bilirsiniz. Uzun illər, bəlkə də on ildən artıq bu məsələ müzakirə predmeti idi. Ancaq əfsuslar olsun ki, beynəlxalq təşkilatlar və beynəlxalq maliyyə qurumları bu layihəyə çox ögey münasibət göstərmişlər. Halbuki, bu, başa düşülən deyil. Bakı–Tbilisi–Qars dəmir yolunun marşrutu Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin marşrutundan o qədər də fərqlənmir. Qarsla Ərzurum arasında məsafə o qədər də böyük deyildir.

Ancaq nədənsə, Bakı–Tbilisi–Ərzurum qaz kəməri bütün dünya, xüsusilə Avropa qurumları tərəfindən dəstəklənir və bəyənilir, Bakı–Tbilisi–Qars layihəsi isə yox. Guya ki, bu, Ermənistanı təcrid edir. Belədirsə, onda Bakı–Tbilisi–Ərzurum da Ermənistanı təcrid edir. Aydındır, məsələ nədədir. Əlbəttə ki, Azərbaycanın enerji resursları Avropaya çox lazımdır və məhz buna görə enerji layihələri daha da çox dəstək görübdür. Ancaq onu da deyə bilərəm və gələcək bunu sübut edəcək ki, Bakı–Tbilisi–Qars dəmir yolu Bakı–Tbilisi–Ərzurum qaz kəmərindən az məna daşımır.

Bu yol Avropanı Asiya ilə birləşdirəcək, yükdaşımanın həcmini artıracaq və beləliklə, regional əməkdaşlığa daha da böyük təkan verəcəkdir. O ölkə ki, öz işğalçı siyasəti ilə bölgədə gərginlik yaradır, təbii ki, bu layihədən təcrid olunacaqdır. Bu gün Azərbaycanın iştirakı olmadan nəinki bizim bölgədə, həm də geniş mənada bütün bölgədə heç bir layihə reallaşdırıla bilməz. Azərbaycanın mövqeyi isə ondan

ibarətdir ki, işğal olunmuş torpaqlar azad edilməyənə qədər işğalçı dövlətlə heç bir işbirliyi, əməkdaşlıq mümkün deyil və olmayacaqdır. Biz bütün imkanlarımızı səfərbər edəcəyik ki, işğal olunmuş torpaqları işğalçılardan azad edək.

O cümlədən, ordu quruculuğu sahəsində görülən işlər bu gün bu süjetdə öz əksini tapmışdır. Biz bu sahəyə də böyük diqqət göstəririk. İldən-ilə artan hərbi büdcəmiz, müdafiə sənayesinin yaradılması və artıq ilkin məhsulun buraxılması gələcək planlarımız üçün çox böyük məna daşıyır və bu sahədəki fəaliyyətimiz davam etdiriləcəkdir. Azərbaycan ordusu həm təchizat baxımından, həm də peşəkarlıq baxımından bu bölgədə ən güclü ordudur. Gələcəkdə yenə də texnika, silah-sursat alınacaqdır. Bəzən bizi tənqid edirlər ki, Azərbaycan bölgədə silahlanma siyasəti aparır. Bəli, biz bunu aparırıq və aparacağıq. Bizim torpaqlarımız işğal altındadır. Bu ədalətsizliyə dözmək çox çətindir. Hələ ki, sülh danışıqları aparırıq. Ona görə ki, bizim hələ ümidlərimiz var. Amma bütün Azərbaycan xalqı bilir ki, bu vəziyyətlə barışmaq nə qədər çətindir.

Biz güclü olmalıyıq. Güclü iqtisadiyyat, güclü ordu və güclü hərbi potensial məsələni bizim xeyrimizə həll edəcəkdir və onun artıq ilkin əlamətlərini görürük. Danışıqlar prosesi haqqında, mən hesab edirəm ki, ictimaiyyətə kifayət qədər məlumat vermişdim. Bir daha demək istəyirəm ki, danışıqlar prosesində müşahidə olunan müsbət meyillər, ilk növbədə, Azərbaycanın artan imkanlarından qaynaqlanır. Kim hesab edirsə ki, Ermənistan tərəfi sülhə daha da meyilli olubdur, bu, səhv yanaşmadır. Məhz Azərbaycanın artan imkanları – iqtisadi, siyasi, enerji və hərbi imkanları bu danışıqlarda artıq bizim mövqeyimizi daha da yuxarı pilləyə gətirib çıxarıbdır.

Bir sözlə, bütün bu məsələlər Azərbaycanın güclənməsinə xidmət göstərir. Bununla yanaşı, sosial məsələlərin həllinə böyük diqqət göstərilir və ən çətin vəziyyətdə yaşayan soydaşlarımızın həyat səviyyəsinin, şəraitinin yaxşılaşması üçün atılan bütün addımlar bu məqsədi güdür. Mən çox şadam ki, 2003-cü ildə verilən vəd – Azərbaycanda bir dənə də çadır şəhərciyi

qalmayacaq – artıq yerinə yetirilibdir. Bundan sonrakı mərhələdə məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılmasına dair Dövlət Proqramına əlavələr edilməsi hesabına biz yeni işlər görəcəyik. Bu mərhələdə fin tipli qəsəbələrdə, məktəblərdə, hərbi hissələrdə yaşayan soydaşlarımızın problemləri həll olunacaqdır. Hesab edirəm ki, bu, ölkəmizin hərtərəfli inkişafı üçün çox vacibdir. Bu həm iqtisadi, həm sosial, həm də mənəvi məsələdir. Bizim mənəvi borcumuzdur ki, öz əmlakını itirmiş, torpaqlarını itirmiş insanlar, müvəqqəti də olsa, normal şəraitlə təmin olunsunlar.

Əziz dostlar, bir sözlə, bu məsələlərin həlli, əlbəttə ki, böyük səylər tələb edir. Biz bütün səylərimizi birləşdirmişik və Azərbaycan xalqının yaxşı yaşaması üçün, ölkə qarşısında duran problemlərin həlli üçün çox fəal işləyirik. Problemlər hələ çoxdur və onların həlli, əlbəttə ki, hələ müəyyən vaxt aparacaqdır. Amma məqsəd ondan ibarətdir ki, bizi narahat edən əsas məsələlər öz həllini tapsın. Bunu etmək üçün, bir daha demək istəyirəm, bütün imkanlar var: siyasi iradə, xalqla iqtidar arasında olan birlik, bizim proqramlarımızın xalq tərəfindən dəstəklənməsi, maliyyə resurslarımızın olması, Azərbaycanda sabit vəziyyətin olması və cəmiyyətdəki quruculuq əhval-ruhiyyəsi.

Bu da çox vacibdir. İndi biz görürük ki, bizim təşəbbüslərimiz, əldə edilən uğurlar daha da böyük işlər görmək üçün gözəl şərait yaradır. İndi Azərbaycan cəmiyyətində birlik çox yüksək səviyyədədir. Xarici siyasətdə, daxili siyasətdə bizim gördüyümüz işlər bəyənilir.

Bu gün qeyd olundu ki, Azərbaycanın yerləşdiyi coğrafi mövqe özünəməxsusdur. Bu vəziyyətdə, əlbəttə ki, Azərbaycanın təhlükəsizliyini qorumaq, Azərbaycanı rəqabət, qarşıdurma məkanına çevirməmək üçün biz böyük səylər göstərmişik və buna nail olmuşuq.

Mən bir neçə dəfə demişəm və bu gün də demək istəyirəm ki, biz bütün ölkələrlə yaxşı dostluq münasibətləri qurmaq

fikrindəyik, bərabərhüquqlu, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar əsasında, bir-birinin daxili işlərinə qarışmamaq şərtilə münasibətlər qurmaq fikrindəyik. Azərbaycan heç vaxt başqa ölkələrin daxili işinə qarışmır. Ancaq görəndə ki, kimsə bizim işimizə qarışmaq istəyir, biz buna çox mənfi yanaşırıq və gördüyünüz kimi, belə hallar xeyli azalıbdır. Ümid edirəm ki, tamamilə aradan qaldırılacaqdır. Çünki biz müstəqil dövlətik, öz taleyimizi özümüz müəyyən edirik.

Azərbaycan xalqı müdrik xalqdır, əgər hansısa məsləhətlər bizə lazım olsa, əlbəttə ki, məsləhətləşmələr aparacağıq. Ancaq kimsə hesab edirsə ki, bizə dərs oxuyacaq, bizə ağıl verəcək, yaxud da hansı formadasa işimizə müdaxilə edəcək, artıq Azərbaycanın müstəqillik dövrü göstərib ki, bu səylər əbəsdir, onun heç bir mənası yoxdur. Bu səylər, sadəcə olaraq, vəziyyətin gərginləşməsinə gətirib çıxaracaqdır. Biz bu bölgədə sabitliyin qorunması üçün çox vacib rol oynayırıq. Azərbaycan həm Cənubi Qafqaz ölkəsidir, həm də Xəzəryanı ölkədir. Bizim səylərimiz ona yönəlib ki, həm Cənubi Qafqazda, həm Xəzər hövzəsində, həm də Qara dəniz hövzəsində əməkdaşlıq – Ermənistan istisna olmaq şərtilə – daha da güclənsin. Bu təşəbbüsləri irəli sürməklə biz, əlbəttə ki, ilk növbədə, öz siyasi və iqtisadi maraqlarımızı güdürük. Bununla bərabər, qonşularımız üçün də yaxşı imkanlar yaradırıq. Bu gün Orta Asiya, Xəzər dənizi, Qara dəniz, gələcəkdə Baltik dənizi ölkələrinin birgə layihələrdə iştirak etməsi artıq reallığa çevrilibdir.

Bu işlərdə Azərbaycan, deyə bilərəm ki, aparıcı rollardan birini oynayır və bu rol müsbətdir. Yəni bizim iqtisadi və siyasi təşəbbüslərimiz, regionda gedən proseslərə yanaşmamız nailiyyətlər, müsbət nəticələr gətirir. Əlbəttə, çalışırıq ki, bizim hüdudlarımızın kənarında da vəziyyət sabit olsun, sabitlik pozulmasın, əməkdaşlıq olsun. Nəzərə alsaq ki, qonşu ölkələrdə – istər Rusiyada, istər Gürcüstanda, istər İranda – bizimlə həmsərhəd olan bölgələrdə yaşayan insanlar bizim soydaşlarımızdır, azərbaycanlılardır və onların həyatı, yaşayışı,

təhlükəsizliyi, əlbəttə ki, bizi biganə qoya bilməz. Bilirsiniz ki, biz xaricdə yaşayan soydaşlarımızla da çox ciddi işlər aparırıq, görüşlər keçiririk və dünya azərbaycanlılarının təşkilatlanmasında Azərbaycan dövlətinin rolu çox böyükdür. Əlbəttə ki, Azərbaycanın siyasi və iqtisadi imkanları artdıqca, bu rol daha da artacaqdır.

Bizim qarşımızda duran vəzifələr, demək olar ki, bunlardır. Bizim bundan başqa hansısa qeyri-real planlarımız, iddiamız yoxdur və dünyadakı reallıqları çox yaxşı başa düşürük. Dünyadakı rolumuzu yaxşı başa düşürük, onu şişirtmirik və alçaltmırıq. İndi bizim mövqeyimiz Azərbaycanın hərtərəfli inkişafı üçün təhlükəsizliyin təmin edilməsi, Azərbaycan xalqının yaxşı yaşaması üçün kifayətdir. Bu rol getdikcə artacaqdır.

Bir daha deyirəm, bizim xarici siyasətimiz çoxşaxəlidir. Avropa İttifaqı, Amerika Birləşmiş Ştatları ilə enerji sahəsində strateji tərəfdaşlıq haqqında sənədlər imzalanmışdır. Qonşu dövlətlərlə – Rusiya, Gürcüstan, İranla çox işgüzar, dostluq münasibətlərimiz var. Başqa ölkələrlə münasibətdə, yəni ki, xarici siyasətdə heç bir problemimiz yoxdur. Deyə bilərəm ki, son illər ərzində Azərbaycana olan maraq xeyli artıb və mən bunun əyani şahidiyəm. Biz bundan, əlbəttə, istifadə etməliyik və edirik ki, ölkəmiz daha da güclü olsun, bizimlə hesablaşsınlar və bizim iştirakımız, razılığımız olmadan bu bölgədə heç bir məsələ həll edilməsin.

Bütün bu vacib iqtisadi və siyasi məsələlərlə yanaşı, əlbəttə ki, ölkəmizin gələcəyi təkcə iqtisadi amillərdən asılı deyil. Mən bunu əvvəllər də demişəm və bir daha demək istəyirəm ki, əgər Azərbaycanda müasir siyasi sistem yaranmasa, əgər demokratik prinsiplər tam şəkildə bərqərar olunmasa, bizim uğurlarımız müvəqqəti xarakter daşıyacaqdır. Bəli, biz bu gün heç kimdən asılı deyilik, müstəqil ölkəyik. Bizim böyük təbii ehtiyatlarımız var, artıq 7 milyard dollardan çox valyuta ehtiyatımız var, hansı ki, bu il ən azı 2 dəfə artacaqdır. Sual oluna bilər ki, biz bundan artıq nə istəməliyik?

Ancaq bununla yanaşı, biz ölkəmizi müasirləşdiririk. Bizim təşəbbüslərimiz, xüsusilə təhsillə bağlı, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı təşəbbüslərimiz gələcəyə yönəlib. Biz 10, 20, 50 il qabağa baxmalıyıq ki, Azərbaycan 50 ildən sonra necə yaşayacaq, insanların intellektual səviyyəsi necə olacaqdır. Ekoloji vəziyyət necə olacaq, sağlamlıq necə olacaqdır? Bütün bunlar məni düşündürür. Bəlkə də indi bu, təəccüblü görünə bilər. Çünki 50 il qabağa baxmaq, əlbəttə ki, tezdir. Amma bunu etməliyik, biz görməliyik ki, ölkəmiz hansı yolla, haraya gedəcək, hansı ölkəyə çevriləcəkdir. Əlbəttə ki, müasir ölkə olmaq üçün biz istər iqtisadi, istər siyasi və demokratik inkişaf sahəsində dünyada mövcud olan ən müsbət təcrübəni Azərbaycanda tətbiq etməliyik. Bu işlərdə, deyə bilərəm ki, bizim uğurlarımız var.

Mən hesab edirəm ki, demokratiyanın inkişafı sahəsində Azərbaycanda bu gün görülən işlər mümkün olan, maksimum səviyyədədir. Azərbaycanda bütün azadlıqlar var – söz azadlığı var, siyasi fəaliyyət sərbəstdir, heç bir məhdudiyyət yoxdur və müasir ölkəyə çevrilmək üçün bu çox vacibdir. Biz iqtisadi və siyasi islahatları paralel şəkildə aparmalıyıq. Biz keçmiş tarixdən və yaxın tarixdən görürük və MDB məkanında baş verən hadisələri də izləyirik. Deyə bilərəm ki, nəinki izləyirik, həm də daxildən bilirik və görürük ki, siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılmadıqda fəsadlar meydana çıxır. Sovet İttifaqının dağılmasının səbəblərindən biri də məhz onda idi ki, siyasi islahatlar heç bir maddi baza ilə tamamlanmamışdı. Beləliklə də ölkə dağıldı. Kim təsəvvür edə bilərdi ki, o boyda ölkə, bütün təbii ehtiyatlarla zəngin olan, Avropanın yarısını nəzarət altında saxlayan və dünyada müttəfiqləri kifayət qədər olan ölkə bir vaxt süqut edəcəkdir?! Nəyə görə? Çünki ağılsız siyasət aparılmışdı. İslahatlar düzgün istiqamətdə aparılmamışdı.

Bəzi hallarda bizi də islahatlar aparmaqda daha da fəal olmağa çağırırlar, buna sövq edirlər. Bəlkə də kənardan belə görünə bilər. Ancaq biz daha yaxşı bilirik nəyi nə vaxt və necə etmək

lazımdır ki, Azərbaycanın uğurlu xəttinə zərrə qədər də zərbə dəyməsin. Ona görə bizim şəraitdə aparılan siyasi islahatlar maksimum dərəcədədir. Artıq biz hamımız bilirik, geniş ictimaiyyət də bilir ki, Azərbaycan bu ətrafda, yerləşdiyi bölgədə heç bir başqa ölkədən demokratik inkişaf baxımından geridə deyildir. Baxmayaraq, bizə sübut etmək istəyirdilər ki, biz geridəyik, kimsə bizdən qabaqdadır. Hamı gördü ki, kim-kimdən qabaqdadır və vəziyyət nə yerdədir. Ona görə düşünülmüş siyasət aparılmalıdır. Siyasi islahatlar maksimum dərəcədə davam etdirilməlidir.

Biz müxtəlif beynəlxalq təşkilatlara üzv olmuşuq. Özümüz könüllü daxil olmuşuq, heç kim bizi məcbur etməmişdir. Nə üçün? Ona görə ki, Azərbaycanda olan meyarlar dünyanın ən qabaqcıl ölkələrinin meyarlarına uyğun olsun. O sahələrdə ki, bizə sərf edir, bunu edirik, beynəlxalq təşkilatlarla işləyirik. Beynəlxalq təşkilatlar qarşısında üzərimizə öhdəlikləri könüllü götürmüşük, onları vaxtlı-vaxtında icra edirik. Ancaq heç bir başqa ölkə qarşısında biz heç bir öhdəlik götürməmişik. Bu, mümkün deyil, biz müstəqil ölkəyik. İmkanlarından, güclərindən, siyasi nüfuzundan asılı olmayaraq, bütün ölkələrlə bərabərhüquqlu və qarşılıqlı hörmət əsasında münasibətlər qurulur.

Heç bir başqa ölkənin qarşısında Azərbaycanın öhdəliyi olmayıb və olmayacaqdır. İstəyirəm, bunu hamı bilsin. Çünki bəzi mətbuat orqanlarında belə fikirlər səslənir ki, Azərbaycanı kimsə cəzalandıracaq, Azərbaycana qarşı sanksiyalar tətbiq olunacaq, Azərbaycana təzyiq ediləcəkdir. Bunların hamısı yalan məlumatlardır. Həqiqəti əks etdirməyən məlumatlardır. Azərbaycana sanksiya tətbiq etmək mümkün deyil və hansısa təzyiqi etmək də mümkün deyildir. Bizim yaxın keçmişimiz onu göstərir ki, belə cəhdlər hər zaman əks-reaksiya doğurur və münasibətlərə heç də xeyir gətirmir. Biz beynəlxalq təşkilatlarla işləyirik, o təşkilatlara könüllü girmişik, bəzi təşkilatlara biz müstəqillik əldə ediləndən 10 il sonra daxil olmuşuq. O təşkilatlara üzv olmadığımız dövrdə bizə heç nə olmamışdır, yəni biz normal

yaşamışıq. Hər bir ölkə hansısa təşkilata daxil olanda müəyyən məqsədləri güdür, o cümlədən Azərbaycan. Bizim başlıca vəzifəmiz torpaqlarımızı işğalçılardan azad etmək, Azərbaycanda müasir quruluş yaratmaq, hüquqi dövlət yaratmaq, demokratiyanı inkişaf etdirmək, iqtisadiyyatı inkişaf etdirməkdir və biz buna nail oluruq.

Hesab edirəm ki, Azərbaycanın təcrübəsi, keçdiyi yol və əldə edilmiş uğurlar başqa ölkələr üçün örnək, nümunə ola bilər. Biz ölkəmizi xaosdan, anarxiyadan, hərc-mərclikdən, vətəndaş qarşıdurmasından, xarici təzyiqlərdən qorumuşuq. Bu şəraitdə Azərbaycan 3 ildir ki, iqtisadi inkişaf baxımından dünyada lider dövlətdir. Siz də bilirsiniz ki, indi müxtəlif reytinqlər mövcuddur, bəzi hallarda o reytinqlər heç bir əhəmiyyət daşımır. Ancaq Davos İqtisadi Forumunun cədvəli çox böyük nüfuza malik sənəddir. O sənəddə Azərbaycan rəqabət qabiliyyətinə görə dünyada 66-cı yerdədir. Tanınmış «Qoldman Saks» beynəlxalq maliyyə qurumunun hesabatına görə 61-ci yerdədir və bütün başqa MDB ölkələrindən qabaqdadır.

Budur reallıq. Bu reallıq bizə imkan verir ki, öz siyasətimizi bundan sonra da uğurla davam etdirək. Elə edək ki, Azərbaycanın qarşısında duran problemlər öz həllini tapsın. Sosial problemlər, iqtisadi problemlər, bəzi hallarda ədalətsizliklər, bəzi hallarda məmur özbaşınalığı – bunlar hamısı məni çox üzür, incidir. Çünki bütün işlərə mən cavabdehlik daşıyıram. Yaxşı işlərə görə də, yaxşı olmayan işlərə görə də. Halbuki, bəzən bu məndən asılı deyil, ancaq bu belədir. Ona görə mən çalışıram və çalışacağam ki, Azərbaycanda insanları narahat edən problemlər tezliklə aradan qaldırılsın və ölkəmiz sürətlə inkişaf etsin.

Bir daha demək istəyirəm ki, bundan sonra öz fəaliyyətimdə – həm iqtisadi məsələlərin həllində, həm də Azərbaycanda demokratiyanın, mətbuat azadlığının təmin olunmasında öz rolumu oynayacağam. Mən hesab edirəm ki, bu iki istiqamət bir-birindən ayrıla bilməz. Məhz o təqdirdə Azərbaycan istə-

diyinə nail olacaq, güclü, müasir dövlətə çevriləcəkdir. Cəmiyyət bilməlidir ki, planlarımız nədir, biz haraya gedirik, öz işlərimizi hansı istiqamətdə aparırıq. Bəzi hallarda, xüsusilə xarici siyasət məsələlərində bizim atdığımız addımlar bir neçə aydan sonra, yaxud da bir ildən sonra bəlli olur ki, bu və ya digər addımı nə üçün atmışıq. Xarici siyasətdə məxfilik daha çox saxlanılmalıdır. Daxili siyasətdə hər şey – bütün bizim işlərimiz açıqdır, aydındır. Amma xarici siyasətin öz xüsusiyyətləri var və xarici siyasətlə bağlı görülən bütün işləri və vacib olan məsələləri açıqlamaq da mümkün deyildir. Bunlar elə bil ki, pərdə arxasında qalır.

Amma ANS telekanalının xüsusiyyəti belədir – ən mənfi məsələni çox yaxşı tutur və sonra onu tamaşaçılara təqdim edirlər. Bir neçə dəfə mən bununla rastlaşmışam, bizim apardığımız siyasət, ictimaiyyətə aydın, bəlli olmayan, yaxud da xarici siyasətdəki addımlarımız ANS teleşirkəti tərəfindən çox düzgün şərh edilir və əlbəttə ki, bu, kanalda olan peşəkarlıq səviyyəsini göstərir.

Bir daha demək istəyirəm ki, xarici siyasətdə ictimaiyyət üçün bəlli olmayan bəzi məqamların mövcudluğu ondan irəli gəlmir ki, biz nəyisə gizlətmək istəyirik, sadəcə olaraq, bu sahənin öz xüsusiyyətləri var.

Bu gün mən Milli Qəhrəman Çingiz Mustafayevin valideynlərinə öz hörmətimi bildirmək istəyirəm. Mən sizi yenidən görməyimə çox şadam. Siz qəhrəman böyütmüsünüz, böyük insan böyütmüsünüz. Çingiz Mustafayev həm peşəkar jurnalist idi, həm də əsl vətənpərvər insan idi. Müharibəyə könüllü getmişdi, tək, bir kamera ilə getmişdi və əlləri Azərbaycan xalqının qanına batmış ermənilərin vəhşiliklərini lentə almışdı, hansı ki, indi o kadrlar erməni qəsbkarlarına sənədli ittihamdır. Çingiz Mustafayev kimi insanlar Azərbaycanın qürurudur və onun əziz xatirəsi Azərbaycan xalqının qəlbində yaşayır və yaşayacaqdır.

Əziz dostlar, mən çox danışa bilərəm. Amma bilirəm ki, vaxtımız məhduddur. Bir daha sizə, Çingiz Mustafayev Fonduna,

ANS teleşirkətinə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. ANS teleşirkətinin Azərbaycanda vətənpərvərlik məsələlərinə çox böyük münasibəti var, bu sahədə çox böyük rolu var. Mən bunu çox alqışlayıram, bəyənirəm. Azərbaycanda vətənpərvərlik məsələləri çox yüksək səviyyədə olmalıdır. Gənc nəsil vətənpərvərlik ruhunda tərbiyə edilməlidir və ANS-in bu sahədəki fəaliyyəti, hesab edirəm ki, bəzi başqa mətbuat orqanları üçün nümunə olmalıdır. Əfsuslar olsun, biz buna da rast gəlirik ki, bəzi hallarda qondarma, separatçı Dağlıq Qarabağ rejiminin başçıları Azərbaycanda fəaliyyət göstərən bəzi mətbuat orqanları tərəfindən təbliğ olunur, onlara bəraət qazandırılır və onlar tərəfindən törədilmiş cinayətlər ört-basdır edilir və əksinə, Azərbaycan əsgərlərini ittiham etmək istəyirlər. Belə insanlara nəinki jurnalistikada, Azərbaycan cəmiyyətində yer ola bilməz.

Əziz dostlar, sizə bir daha öz minnətdarlığımı bildirmək və fəaliyyətinizdə uğurlar arzulamaq istəyirəm. Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ JAK ROQUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*6 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Prezident sarayında Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Jak Roqqun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı cənab Jak Roqqun BOK-un prezidenti kimi, Azərbaycana ilk dəfə səfər etdiyini bildirdi və onunla əvvəllər keçirdiyi görüşləri məmnunluqla xatırladı. Ölkəmizdə bir sıra beynəlxalq idman tədbirlərinin, o cümlədən Afina Olimpiya oyunlarına lisenziya verən boks, voleybol və taekvondo üzrə nüfuzlu idman yarışlarının yüksək səviyyədə təşkil edildiyini bildirən dövlətimizin başçısı Azərbaycanda ənənəvi olmayan idman növlərinin inkişafına da diqqət yetirildiyini bildirdi. Prezident İlham Əliyev ölkəmizdə geniş idman infrastrukturunun yaradılması ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlərə toxunaraq qeyd etdi ki, Azərbaycanda beynəlxalq standartlara tam cavab verən 13 regional idman kompleksi istifadəyə verilmiş, 23 idman mərkəzi isə tikilməkdədir. Prezident İlham Əliyev idmançıların sosial şəraitinin yaxşılaşdırılmasına da xüsusi diqqət yetirildiyini vurğuladı. «İdman təkcə uğurlar və nailiyyətlərdən ibarət deyil, həm də millətin gələcəyidir» deyən dövlətimizin başçısı bildirdi ki, Azərbaycan idmanın inkişafı ilə bağlı öz siyasətini bundan sonra da davam etdirəcəkdir.*

*Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqq Azərbaycanda bütün sahələrdə dinamik inkişafın şahidi olduğunu məmnunluqla ifadə etdi. Azərbaycanda idman sahəsində görülən işləri, olimpiya hərəkatının geniş vüsət aldığını xüsusi vurğulayan Jak Roqq prezident İlham Əliyevin* bu sahəyə *göstərdiyi diqqətin Beynəlxalq Olimpiya Komitəsi tərəfindən yüksək qiymətləndirildiyini bildirdi.*

**QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YƏHYA CAMMEHƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qambiya arasında yaranmış münasibətlər qarşıdakı illərdə dostluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 fevral 2008-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ DÖVLƏT KATİBİNİN AKADEMİK PROQRAMLAR ÜZRƏ MÜŞAVİRİ TOMAS FARRELL İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*6 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Prezident sarayında ABŞ Dövlət Katibinin akademik proqramlar üzrə müşaviri Tomas Farrelli qəbul etmişdir.*

*Tomas Farrell ölkəmizə əvvəlki səfərlərindən ötən dövr ərzində Azərbaycanda böyük inkişafın və irəliləyişlərin şahidi olduğunu vurğuladı. O, prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə müasir cəmiyyət quruculuğu istiqamətində atılan addımlardan yaxşı xəbərdar olduğunu söylədi. Dövlətimizin başçısı ölkəmizdə bütün sahələrdə son illər böyük uğurlar qazanıldığını vurğulayaraq, Azərbaycanın gələcək inkişafı üçün qarşıda mühüm vəzifələrin dayandığını bildirdi.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, elm, təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulandı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AŞPA-nın MONİTORİNQ KOMİTƏSİNİN HƏMSƏDRLƏRİ ANDRES HERKEL VƏ YEVGENİYA JİVKOVA İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*6 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Prezident sarayında AŞPA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri Andres Herkeli və Yevgeniya Jivkovanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla AŞPA arasında əməkdaşlığa və həmməruzəçilərin ölkəmizə səfəri ilə bağlı müxtəlif məsələlərə dair fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «MÜHARİBƏ VETERANLARININ İCTİMAİ KOMİTƏSİ» BEYNƏLXALQ İCTİMAİ BİRLİKLƏR İTTİFAQININ III QURULTAYININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*6 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Prezident sarayında «Müharibə Veteranlarının İctimai Komitəsi» Beynəlxalq İctimai Birliklər İttifaqının Bakıda keçirilən III qurultayının iştirakçılarını qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Mən sizin hamınızı ürəkdən salamlayıram. Bütün dostlarımızı yenidən görməyimə şadam. Mən çox şadam ki, sizin qurultayınız məhz Bakıda keçirilir. Hesab edirəm ki, qurultayın keçirilmə yeri kimi bizim şəhərin seçilməsi çox düzgün qərardır. Əminəm ki, qurultayda qəbul ediləcək qərarlar və aparılan müzakirələr veteranlar arasında, ölkələrimizin nümayəndələri arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Biz Azərbaycanda bütün müharibələrin veteranlarının, öz vətənini müdafiə etmiş, bu yolda əzab-əziyyət çəkmiş, sağlamlığını itirmiş, yaralanmış, qəhrəmanlıq göstərmiş insanların dəstəklənməsinə çox böyük diqqət yetiririk. Sizin nümunəniz böyüməkdə olan nəsil üçün, onların da sizin kimi vətənpərvərlik ruhunda böyüməsi və öz Vətənini, öz xalqını müdafiə etməyə həmişə hazır olması üçün çox vacibdir.

Mən çox şadam ki, bütün müharibələrin veteranları bir-birini dəstəkləyir, görüşür, ünsiyyət saxlayırlar. İndi, bizim müxtəlif dövlətlərdə yaşadığımız bir vaxtda əvvəllər xalqlarımız arasında

mövcud olmuş əlaqələrin qorunub saxlanması və möhkəmlənməsi çox lazımdır. Ona görə də bu baxımdan mən sizin fəaliyyətinizi vaxtilə Sovet İttifaqının tərkibinə daxil olmuş ölkələr arasında münasibətlərin davam etdirilməsinin vacib elementi hesab edirəm.

İndi yeni nəsil yetişir. Biz artıq 16 ildir ki, öz müstəqilliyimizi qeyd edirik və təbii ki, bu gün 20 yaşı, hətta 25 yaşı olan gənclərin bizim nəslin malik olduğu ünsiyyət imkanları olmamışdır. Ona görə də illər keçdikcə bu əlaqələr gərək itirilməsin. Bu baxımdan sizin nümunəniz, sizin təşəbbüsünüz və sizin yaratdığınız təşkilat çox böyük əhəmiyyət kəsb edir. O cümlədən əməkdaşlıq, qarşılıqlı dəstək, veteran təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi üzrə əməli iş baxımından, eləcə də vaxtilə bizi bir-birimizə bağlayan bütün yaxşı cəhətlərin qorunub saxlanması və davam etdirilməsi baxımından çox vacibdir.

Bakı həmişə beynəlmiləl şəhər olmuş, burada müxtəlif xalqların nümayəndələri yaşamış və indi də yaşayırlar. Onlar bir ailə kimi, dostluq və qardaşlıq şəraitində yaşayırlar. Sovet İttifaqı dövründə bizim şəhər həmişə bu xüsusiyyəti ilə fərqlənmişdir. Çox mühümdür ki, müstəqillik qazanıldıqdan sonra da bu ənənələr itirilməmiş və davam edir. Ona görə də bir daha demək istəyirəm ki, qurultayınızın keçirilməsi üçün bizim şəhəri seçməyinizi mən çox düzgün hesab edirəm. Əminəm ki, sizin qəbul edəcəyiniz qərarlar xeyirxahlığa, xalqlarımız arasında qarşılıqlı anlaşmanın daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Həmçinin ümid edirəm ki, Bakıda qaldığınız müddətdə sizin bu şəhərlə tanış olmaq, köhnə dostlarınızla görüşmək imkanınız olacaqdır. Yəqin ki, çoxunuz əvvəllər burada olmusunuz və şəhərin necə inkişaf etməsini görmək maraqlı olacaqdır.

İndi biz şəhər təsərrüfatının beynəlxalq standartlara müvafiq olması, müasir infrastrukturun yaradılması üçün çox səy göstəririk. Şəhərin tarixi simasının qorunub saxlanmasına – binaların bərpa edilməsi işlərinə və mədəniyyət abidələrinin

mühafizəsi ilə əlaqədar tədbirlərə də böyük məbləğdə sərmayə qoyulur. Bunlar bizim diqqət mərkəzimizdədir. Başqa sözlə desək, mədəni proqram üçün imkan tapmağınızı məsləhət görərdim. Yəqin ki, Bakı sizin xatirinizdə qalsın deyə, belə bir proqram nəzərdə tutulmuşdur.

Sizi bir daha ürəkdən salamlayıram, hamınıza öz ehtiramımı bildirirəm. Siz hamınız ləyaqətli insanlarsınız, öz ölkənizi qoruyarkən igidlik, qəhrəmanlıq göstərmiş adamlarsınız. Hamınıza səadət və uğurlar arzulayıram.

**R u s l a n  A u ş e v** (*«Müharibə Veteranlarının İctimai Komitəsi» Beynəlxalq İctimai Birliklər İttifaqının sədri*): Möhtərəm İlham Heydər oğlu, mən dünən sədr seçilmişəm və demək istərdim ki, bizim Beynəlxalq İttifaq yeni formalı beynəlxalq birlikdir. Yəni buraya daxil olan təkcə MDB ölkələri deyildir. Bu Beynəlxalq İttifaq daha geniş formata malikdir, çünki 2005-ci ildən etibarən biz Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasının məşvərətçi üzvləriyik. Demək istəyirəm ki, bu, böyük bir qeyri-hökumət təşkilatıdır və biz veteranlar dəstəsi kimi, orada belə statusa malikik. Ona görə də biz bu gün səylərimizi artırırıq. Biz təkcə müharibə veteranlarının, onların ailə üzvlərinin problemləri ilə deyil, həm də qaçqınların məsələləri, vərəmə, narkomaniyaya qarşı mübarizə problemləri ilə də məşğul oluruq. Hər halda, bu problemlərin həllinə kömək edirik.

Bizim qurultayın işi üçün bu cür şərait yaratdığınıza görə Sizə bir daha «çox sağ olun» demək istəyirəm. Bir daha Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Biz bütün mövcud proqramlara qoşulmağa hazırıq. Əlbəttə, ilk növbədə, Azərbaycanda olan problemləri başa düşürük. Hələ Sovet İttifaqı dövründə yaranmış sülh problemi, qaçqınlarla bağlı problemlər, qarşılıqlı münasibətlər problemi həll edilməlidir. Buyurun, bizim təcrübəmizdən istifadə edin. Biz əlaqələndirici körpülər yarada, insanlarla danışa, müxtəlif formalar tətbiq edə bilərik.

Biz çox sevinirik ki – mən MDB məmurlarından biri kimi, bunu bilirəm – hazırda azərbaycanlı qardaşlarımız, Azərbaycan

ÜDM-in artım göstəricilərinə görə MDB-də birinci yerdədir. Bu çox yaxşı dinamikadır və bunu yalnız artırmağınız lazımdır. Buna görə də mən bir daha Sizə təşəkkür etmək istərdim. Demək istəyirəm ki, bizim burada olduğumuz müddətdə hətta günəşin üzünü bir dəfə də olsun buludlar örtməmişdir. Buna görə Sizə minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə sağ olun. Doğrudan da bizdə dinamika müsbətdir, dalbadal üçüncü ildir ki, iqtisadi artım göstəricisinə görə biz dünyada birinci yeri tuturuq. Son üç ildə iqtisadiyyatımız 86 faiz artmışdır. Təbii ki, bütün bunlar insanların həyat səviyyəsinə də, yoxsulluğun 50 faizdən 16 faizə düşməsinə də təsir göstərmişdir.

Siz çox mühüm bir məsələyə – qaçqınlar məsələsinə toxundunuz. Əlbəttə, bu çox böyük sosial, iqtisadi və siyasi problemdir. Ermənistan tərəfindən aparılan etnik təmizləmə siyasəti nəticəsində 1 milyon azərbaycanlı qaçqına və ölkə daxilində məcburi köçkünə çevrilmişdir. 250 min adam Ermənistandan, daha 700 min nəfər Azərbaycanın işğal olunmuş ərazilərindən qovulmuşdur. Bundan əlavə, Azərbaycanın hüdudlarından kənarda, yəni başqa respublikalarda baş vermiş münaqişələr zamanı zərər çəkmiş, milliyyətcə azərbaycanlı olmayan insanlar da indi bizim ölkədə yaşayırlar. Sığınacaq üçün bizə müraciət edənlərin hamısını qəbul etmişik.

Biz çadırlarda, çox ağır, yararsız şəraitdə yaşayan qaçqınların köçürülməsi üzrə çox geniş proqram həyata keçiririk, bizdə 10-dan artıq çadır düşərgəsi vardı, onların hamısını ləğv etmişik və 100 minə yaxın insanı evlərə köçürmüşük. Müharibə nəticəsində işğaldan azad etdiyimiz ərazilərdə qəsəbələr, məktəblər, xəstəxanalar tikmiş, infrastruktur obyektləri yaratmışıq. İndi yeni proqram həyata keçiririk. Bu iki proqram dövlətə 1 milyard dollara başa gələcəkdir. Lakin insanların vəziyyətini yaxşılaşdırmaq üçün bunu etməyə borcluyuq.

Ancaq bunlar problemin həlli demək deyildir. Problemin həlli ondan ibarətdir ki, bizim torpaqlar azad edilməlidir. Biz buna sülh yolu ilə nail olmağa çalışır və səylərimizi göstəririk.

Lakin, əlbəttə, paralel olaraq öz Silahlı Qüvvələrimizin qüdrətini artırırıq. İndi müdafiə xərcləri büdcə xərclərində birinci yeri tutur. Buraya hərbi qulluqçuların maddi rifahının – onların əməkhaqqının, pensiyalarının artırılması, eləcə də tikinti, infrastruktur, texnika alınması ilə bağlı xərclər daxildir.

Artıq keçən ildən biz hərbi məhsul istehsalına başlamışıq, Müdafiə Sənayesi Nazirliyi yaratmışıq, bir il müddətində bir neçə zavod işə salınmışdır. Bu il Azərbaycanda müdafiə xərcləri 1 milyard 300 milyon dollara bərabər olacaqdır. Bu məbləğin bir hissəsi hərbi qulluqçuların maddi rifahının yaxşılaşdırılmasına, bir hissəsi isə, əlbəttə ki, müdafiə potensialının möhkəmləndirilməsinə sərf ediləcəkdir. Lakin təbii ki, bu məsələdə biz sizin dəstəyinizə və qarşı tərəfin məsələyə bu cür yanaşmasının perspektivsiz olmasını imkan daxilində onlara başa salacağınıza ümid edirik. XXI əsrdə beynəlxalq normaların bu cür kobud şəkildə pozulması, beynəlxalq ictimai rəyə məhəl qoyulmaması mümkün deyildir. Ümumiyyətlə, işğal faktının özü yolverilməzdir. Lakin təəssüf ki, danışıqlar prosesində müəyyən irəliləyiş olsa da, hələlik bir nəticə verməmişdir. Amma mən şübhə etmirəm ki, biz bu məsələni həll edəcəyik, çünki ədalət də, beynəlxalq hüquq da bunu tələb edir. Əlbəttə, bizi dəstəklədiyinizə görə sizə təşəkkür edirəm. Biz çalışacağıq ki, inkişaf sürətini azaltmayaq. Gələcək üçün yaxşı perspektivlərimiz var. Ölkənin maliyyə vəziyyəti yaxşılaşır və təbii ki, biz veteranların, hərbi qulluqçuların sosial məsələlərini daha ciddi şəkildə həll edəcəyik.

**Serik Mukanov** (*Qazaxıstan Respublikası Prezidenti Administrasiyasının İşlər İdarəsinin müdiri*): Mənə Qazaxıstan prezidentinin tapşırığı ilə Sizə kiçik bir hədiyyə – Astana haqqında kitab, onun mənzərələrindən ibarət fotoalbom və Qazaxıstanın rəmzi sayılan Bayterek abidəsinin maketini təqdim etmək kimi böyük şərəf nəsib olmuşdur. İcazə verin, Heydər Əliyevin xatirəsinə çox böyük ehtiram bəslədiyimizi bildirim. Mənə onunla görüşmək səadəti nəsib olmuşdur. Bu insan müdriklik və məntiqlik, xeyirxahlıq, ədalət və zəka təcəssümü

idi. O bütün məsələlərin həllinə o qədər dərindən yanaşır, bunu insanlar üçün o qədər anlaşıqlı şəkildə edirdi ki, təkcə bizim xalqların xatirəsində deyil, digər ölkələrin xalqlarının xatirəsində də çox dərin iz qoymuşdur.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Nursultan Abişeviçə mənim təşəkkürümü və ən xoş arzularımı çatdırın.

**N o r m a n  K a s** (*Hərbi əsirlərin və itkin düşənlərin işləri üzrə Rusiya–Amerika birgə komissiyasının ABŞ tərəfindən icraçı katibi*): Burada iştirak etməyimə şadam. Məni dəvət etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Biz bu nəcib işdə təxminən 16 il bundan əvvəl yaradılmış birgə komissiyanın fəaliyyəti ilə əlaqədar iştirak edirik. Komissiya bizim hərbi əsirlərin və itkin düşənlərin taleyini aydınlaşdırmaq üçün bütün səyləri göstərir. Amerika tərəfi üçün bu məsələ İkinci dünya müharibəsindən başlamış «soyuq müharibə» qurtarana qədər olan dövrü əhatə edir. Bizim rusiyalı həmkarlarımız üçün isə bu dövr Koreya müharibəsi və Yaxın Şərq hadisələri də daxil olmaqla, yerli, lokal münaqişələri əhatə edir. Bu sahədə aparılan işlər genişlənir, lakin bizim fikrimizcə, burada nə isə çatışmır. Yəqin ki, bu, veteran qruplarının fəal iştirakının olmamasıdır. Biz öz işimizə düzəliş etməyə çalışırıq ki, veteran qrupları bu problemin həllində daha fəal iştirak etsinlər. Məhz bu qlobal tədbir çərçivəsində biz komitənin üçüncü qurultayında iştirak etməyə dəvət olunmuşuq. İşimizin gedişində şəxsən Sizin və hökumətinizin bizə göstərə biləcəyi hər hansı köməyə, dəstəyə görə əvvəlcədən təşəkkürümüzü bildiririk. Sağ olun.

**İ l h a m  Ə l i y e v:** Ümumiyyətlə, çox yaxşı haldır ki, siz bütün müharibələrin veteranlarını birləşdirirsiniz. Bu çox müdrik qərardır. Siz müxtəlif proqramlar həyata keçirirsiniz. Bu çox düzgündür. Əgər biz də bu işdə hər hansı şəkildə iştirak edə biləriksə, həm dövlət xətti ilə, həm də ictimai təşkilatlar xətti ilə məmnuniyyətlə qoşularıq.

**G e n n a d i  Ş o r o x o v** (*«Döyüş qardaşlığı» ictimai birliyinin sədri*): Hörmətli cənab Prezident, Boris Vsevolodoviç

Qromovun Sizin atanıza, Azərbaycan xalqının ulu öndərinə necə münasibət bəslədiyini bilirsiniz. O deyirdi ki, Heydər Əliyev çox gözəl insan idi. Mən yəqin ki, burada iştirak edənlərin hamısının fikrini ifadə edərək demək istəyirəm ki, hazırda veteranlar üçün gördüyünüz işlərə görə, bu cür səmimi qəbula görə Sizə çox minnətdarıq. Mən Boris Vsevolodoviçin Sizə, Azərbaycan xalqına ən xoş arzularını çatdırmaq istəyirəm. Mən bir neçə dəfə burada olmuşam və güman edirəm ki, görüşlərimiz davam edəcəkdir.

**İlham Əliyev:** Sağ olun. Boris Vsevolodoviçə mənim səmimi salamlarımı çatdırın. Rusiyanın müxtəlif vilayətləri ilə bizim əlaqələrimiz çox yaxşıdır və qubernatorlar tez-tez buraya gəlirlər. Bu da çox vacibdir. Əməli məsələlər həll olunur, ikitərəfli əlaqələr, iqtisadi təmaslar inkişaf edir. İndi Rusiyada artıq kifayət qədər təşkilatlanmış Azərbaycan icması, Rusiyanın bütün regionlarını əhatə edən Ümumrusiya Azərbaycanlıları Konqresi mövcuddur. Sizin hamınıza uğurlar arzulayıram. Sizi görməyimə çox şadam. Güman edirəm ki, yaxın gələcəkdə siz yenidən Azərbaycana gəlmək üçün fürsət tapacaqsınız, qurultay olmasa da, başqa tədbirlərə gələrsiniz. Siz həmişə bizə ümid ola bilərsiniz və Bakını beynəlxalq görüşlər, seminarlar, konfranslar keçirilən yerlərdən birinə çevirə bilərsiniz. Bu tədbirləri müxtəlif şəkildə adlandırmaq olar. Amma əsas məsələ budur ki, həmin proses getsin, aramızda ünsiyyət, əlaqələr olsun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYANIN «COMMERZBANK»ININ SƏDR VƏZİFƏSİNİ İCRA EDƏN MARTİN BLESSİNQ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*7 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Prezident sarayında Almaniyanın «Commerzbank»ının sədr vəzifəsini icra edən Martin Blessinqi qəbul etmişdir.*

*Azərbaycana ilk dəfə gəldiyini deyən qonaq bildirdi ki, ölkəmizə səfərinin məqsədi «Commerzbank»ın Bakı ofisinin rəsmi açılış mərasimində iştirak etməkdir. İki ölkə arasında iqtisadi sahədə əlaqələrin genişləndiyini məmnunluqla vurğulayan Martin Blessinq rəhbərlik etdiyi bankın Bakı ofisinin açılmasına dəstəyinə görə ölkə rəhbərliyinə təşəkkür etdi və ofisin fəaliyyətinin gələcəkdə iqtisadi əməkdaşlığımızın daha da dərinləşməsinə xidmət edəcəyini bildirdi.*

*Azərbaycanla Almaniya arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev bu baxımdan Bakıda Almaniya bankının ofisinin açılmasını əməkdaşlığın mühüm göstəricisi kimi qiymətləndirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANININ ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ƏLİ HƏSƏN ƏHMƏD CƏFƏRİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*8 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Prezident sarayında Səudiyyə Ərəbistanının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Əli Həsən Əhməd Cəffərini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Dövlətimizin başçısı Əli Həsən Əhməd Cəffərinin səfir kimi ölkəmizdə fəaliyyət göstərdiyi dövrdə Azərbaycanla Səudiyyə Ərəbistanı arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına səfərlərini məmnunluqla xatırladı və bu səfərlərin münasibətlərimizin genişlənməsi baxımından faydalı və mühüm olduğunu vurğuladı. Səfirə gələcək fəaliyyətində uğurlar arzulayan prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsində xidmətlərinə görə cənab Əli Həsən Əhməd Cəffərinin «Şöhrət» ordeni ilə təltif edildiyini bildirdi və ordeni ona təqdim etdi.*

*Səfir «Şöhrət» ordeni kimi yüksək mükafata layiq görülməsindən böyük şərəf hissi keçirdiyini dedi. O, Səudiyyə Ərəbistanına dost və qardaş ölkə olan Azərbaycanda diplomatik fəaliyyəti dövründə Azərbaycan hökuməti və şəxsən prezident İlham Əliyev tərəfindən göstərilən diqqətə görə minnətdarlığını bildirdi və ölkəmizlə dostluq əlaqələrini həmişə davam etdirəcəyini vurğuladı.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ DAĞLIQ QARABAĞ ÜZRƏ ALT KOMİTƏSİNİN SƏDRİ LORD RASSEL CONSTON İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*8 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Dağlıq Qarabağ üzrə alt komitəsinin sədri Lord Rassel Constonu qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla AŞPA arasında əməkdaşlıq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## AZADLIQ MEYDANI–ZIĞ DAİRƏSİ–HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTU AVTOMOBİL YOLUNUN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Bakıda beynəlxalq standartlara uyğun yenidən qurulan Azadlıq meydanı–Zığ dairəsi avtomobil yolu və yeni salınan beton örtüklü Zığ dairəsi–Heydər Əliyev adına Beynəlxalq Hava Limanı avtomobil yolunun tikintisinin gedişi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev əvvəlcə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaxınlığında Azadlıq meydanı–Zığ dairəsi avtomobil yolunun ən müasir standartlar səviyyəsində yenidən qurulması ilə tanış oldu. Nəqliyyat naziri Ziya Məmmədov dövlət başçısına məlumat verdi ki, bu yolun uzunluğu 12 kilometr olacaqdır. Yolun səkkiz cərgəsindən dördü avtomobillərin sürətli hərəkəti üçün nəzərdə tutulur. Hər iki tərəfdən genişləndirilən bu yolun üzərində üç yol qovşağı tikiləcəkdir. Həmin yolun davamı olaraq salınan Zığ dairəsi–Heydər Əliyev adına Beynəlxalq Hava Limanı avtomobil yolu isə beton örtüklüdür.*

*Prezident İlham Əliyev Zığ dairəsində aparılan işlərin gedişi ilə tanış oldu. Ən qabaqcıl texnologiya əsasında tikilən bu yolun eni 26 metr, uzunluğu isə 17 kilometrdir. Altıcərgəli, sürət zolağı olacaq yolun hər iki tərəfində mühafizə çəpərləri çəkiləcəkdir. Nəqliyyat Nazirliyinin «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə «Akkord» şirkətlər qrupunun inşa etdiyi yolun beton örtüyünün qalınlığı 26-28 santimetr təşkil edir. Yol boyunca ən müasir standartlara cavab verən işıqlandırma sistemi quraşdırılır.*

*Prezident İlham Əliyev avtomobili özü idarə edərək, yolun digər hissəsinə gəldi. Dövlət başçısına yeni yolun salınma texnologiyası nümayiş etdirildi. Burada Azərbaycan inşaatçıları*

*Almaniyanın «Günter Papemburq» şirkətinin mütəxəssisləri ilə birgə çalışırlar. Bu yolda beş yerdə körpü inşa edilir. Tikinti işlərinə 2800–3000 işçi, 1000-ə qədər texnika cəlb olunmuşdur. Dövlət başçısına bildirildi ki, belə yollar yalnız dünyanın ən inkişaf etmiş ölkələrində istismardadır və ən son texnologiyaya əsaslanır.*

*Prezident İlham Əliyevə Baku siti (Baku city) layihəsi barədə də geniş məlumat verildi. Bildirildi ki, həmin layihə müasir şəhərsalma imicinin formalaşdırılması məqsədi daşıyır. Layihədə Azərbaycan Olimpiya Mərkəzi, Beynəlxalq Ticarət Mərkəzi, müasir sərgi salonu və sair beynəlxalq səviyyəli obyektlərin, mükəmməl infrastrukturun tikintisi nəzərdə tutulmuşdur.*

*Xarici mütəxəssislərlə də söhbət edən ölkə başçısı Azərbaycanda bütün infrastrukturun, o cümlədən avtomobil yollarının ən müasir standartlar səviyyəsində yenidən qurulması üçün kompleks tədbirlərin bundan sonra daha da genişləndiriləcəyini vurğuladı, inşaatçılara uğurlar arzuladı.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MKT İSTEHSALAT-KOMMERSİYA MMC-nin BAKI İPLİK FABRİKİNİN VƏ BEYNƏLXALQ TİCARƏT MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ

*Bakı*

*8 fevral 2008-ci il*

*İplik fabrikində MDB-də ilk dəfə İsveçrənin «Ritter» şirkətinin istehsalı olan müasir avadanlıq məhz Azərbaycanda quraşdırılmışdır. Ən yeni texnoloji standartlara cavab verən fabrikdə yerli xammaldan 20 və 30 nömrəli triko və toxuma ipliyi istehsal olunur. Fabrikin potensial texnoloji imkanları isə daha 30 növ ip istehsal etməyə imkan verir.*

*Fabriklə tanış olan prezident İlham Əliyevə istehsal sahəsi barədə məlumat verildi. Bildirildi ki, əyirici maşınların üstündə yerləşən xüsusi robotlar prosesin daha mükəmməl getməsinə şərait yaradır.*

*Dövlətimizin başçısı hazır məhsulun qablaşdırma prosesi ilə tanış oldu. İldə 7 min ton pambıq mahlıcından iplik istehsal etmək gücünə malik fabrikin məhsulları əsasən Rusiyaya ixrac ediləcəkdir. Fabrikdə 126 işçi çalışır və onların minimum aylıq əməkhaqqı 300 manat təşkil edir. Müəssisənin tikintisinə 14 milyon 291 min manat investisiya qoyulub.*

*Prezident İlham Əliyev müəssisənin laboratoriyasına da baxdı. Almaniyanın «Uster» şirkətinin avadanlığı ilə təchiz edilmiş laboratoriyada istehsal olunan məhsulun keyfiyyətinə nəzarət edilir. Fabrikin işindən razı qalan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.*

* * *

*MKT İstehsalat-Kommersiya MMC-nin Heydər Əliyev prospektində yerləşən və Avropa standartlarına cavab verən «A» kateqoriyalı ofis-mehmanxana kompleksi doqquzmərtəbəli biznes mərkəzindən və üçmərtəbəli mehmanxana binasından ibarətdir. Mərkəzin ümumi sahəsi 8600 kvadratmetrdir. Tikintisinə və lazımi avadanlıqların quraşdırılmasına 11,5 milyon manat sərmayə qoyulan kompleksdə 120 işçi çalışacaqdır.*

*Beynəlxalq Ticarət Mərkəzi ilə tanış olan prezident İlham Əliyev MKT İstehsalat-Kommersiya MMC-nin gələcək planlarını əks etdirən layihələrlə də maraqlandı.*

*Sonra kompleksin mehmanxanası ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, üçmərtəbəli binanın ümumi sahəsi 5129 kvadratmetrdir. Burada 120 və 80 yerlik 2 restoran fəaliyyət göstərəcək. «Junior Suite» səviyyəsində təchiz olunmuş mehmanxana 16 otaqdan ibarətdir. 170 yerlik konfrans salonu, trenajor zalı müasir avadanlıqla təchiz edilmişdir.*

## REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMININ İCRASININ DÖRDİLLİK YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANS

*Gülüstan sarayı*

*11 fevral 2008-ci il*

*Fevralın 11-də Bakının Gülüstan sarayında «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının dördillik yekunlarına həsr olunmuş konfrans keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev konfransda iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə foyedə açılmış və ötən dörd il ərzində regionlarda görülən işlərin nəticəsini əks etdirən, ölkəmizin 10 iqtisadi rayonunu əhatə edən 100-ə yaxın yerli şirkətin istehsal etdiyi müxtəlif növ məhsullardan ibarət sərgi ilə tanış oldu. Prezident İlham Əliyev neft və energetika, tikinti və tikinti materialları, yüngül sənaye, qida, mebel, maşınqayırma sənayesi, turizm, səhiyyə, kənd təsərrüfatı, elektrotexnika, kompyuter texnikası, məişət avadanlığı, şərabçılıq sektorlarında yeni yaradılmış müəssisələrin istehsal etdiyi məhsullara baxdı.*

*Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin quraşdırdığı müasir monitor vasitəsilə Quba rayonunun Xınalıq kəndi ilə canlı əlaqə yaradıldı.*

*Prezident İlham Əliyev kənd sakinlərini salamladı.*

**Ənvər Məmmədov** (*Xınalıq kənd orta məktəbinin direktoru*): Cənab Prezident, Azərbaycanın ən yüksəklikdə yerləşən yaşayış məntəqəsi olan Xınalıq kəndindən bütün xınalıqlılar adından Sizi böyük ehtiramla salamlayıram.

Cənab Prezident, Sizin tapşırığınızla və xüsusi səyinizlə çəkilmiş yol ilə 2006-cı ilin oktyabrında Xınalıq kəndinə gəlmişdiniz. Sizin gəlişinizlə Xınalığın yeni həyatı başlandı. Qısa müddət ərzində 350 şagird yerlik, istilik sistemi ilə təchiz edilmiş internat tipli məktəb, elektron avtomat telefon stansiyası istifadəyə verildi. Elektron ATS-in işə düşməsi xınalıqlılara internet xidmətindən istifadə etmək imkanı qazandırdı. «Azercell» burada mobil telefon xidməti göstərməyə başladı. ATV, Lider və İctimai televiziya kanalları üçün ötürücülər quraşdırıldı. 2007-ci ildə Xınalıq avtomobil yoluna ikinci qat asfalt örtüyü, kəndə 5 kilometrlik məsafədən içməli su xətti çəkildi. Sizin sərəncamınızla Xınalığın tarixi ərazisi memarlıq və etnoqrafiya qoruğu elan olundu. Sizin diqqətinizi və qayğınızı bütün xınalıqlılar daim hiss edir və onlar həmişə Sizə dərin hörmət, minnətdarlıqlarını bildirirlər. Cənab Prezident, xınalıqlılar adından Azərbaycanın tərəqqisi, çiçəklənməsi naminə bütün işlərinizdə Sizə uğurlar diləyir, cansağlığı arzulayıram.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Xınalığa yeni yolun çəkilməsi ilə əlaqədar, demək olar ki, kəndin yeni həyatı başlamışdır. Yeni məktəbin tikintisi də məhz o günlərdə başlamışdır. Mən köhnə məktəbi görəndə, sözün düzü, çox məyus oldum ki, uşaqlar belə şəraitdə oxuyurlar. Ona görə göstəriş verdim ki, internat məktəbi tikilsin və uşaqlar qış aylarında orada qalsınlar. Eyni zamanda, rabitə əlaqəsinin, o cümlədən mobil telefon rabitəsinin təmin edilməsi üçün lazım olan avadanlığın quraşdırılması – indi birbaşa bağlantı da mümkündür – içməli su təchizatı məsələləri də həll edilsin. Yəni Azərbaycanın bu gözəl, qədim kəndi üçün nə lazımsa, onu etmişik və bundan sonra da edəcəyik.

Mən elə bu fürsətdən istifadə edib bütün xınalıqlılara öz hörmətimi bildirmək istəyirəm. Əminəm ki, siz bundan sonra daha da yaxşı yaşayacaqsınız. Sizin yaxşı yaşamağınız üçün Azərbaycan dövləti hər şey edəcəkdir.

**Ə n v ə r   M ə m m ə d o v:** Möhtərəm Prezident, çox təşəkkür edirik. Biz də müsəlləh əsgər kimi, həmişə Sizin xidmətinizdə hazırıq.

**İ l h a m   Ə l i y e v:** Sağ olun.

* * *

*Sonra dövlətimizin başçısı sərginin ayrı-ayrı bölmə və guşələrinə baxdı, 2004–2007-ci illərdə qazanılmış nailiyyətlər və 2008-ci ildə görüləcək işlərlə tanış oldu. Bildirildi ki, burada nümayiş etdirilən məhsulların istehsalı məhz prezidentin özəl sektorun inkişafına göstərdiyi diqqət və qayğı, o cümlədən sahibkarlara ayrılan kreditlər sayəsində mümkün olmuşdur. Bu məhsullar həm daxili bazara çıxarılır, həm də ixrac edilir.*

*Prezident İlham Əliyev sərgini yüksək qiymətləndirərək, keyfiyyətli məhsul istehsalını artırmağın, xarici bazarda, xüsusilə də Avropa bazarında möhkəmlənməyin vacibliyini vurğuladı və dedi ki, gələcəkdə ölkəmizdə sahibkarlığın, özəl sektorun inkişafına diqqət və qayğı daha da artırılacaqdır.*

*Sonra konfrans başlandı.*

*Ölkənin müxtəlif regionlarından 250 sahibkarın və iş adamının qatıldığı konfrans iştirakçıları dövlətimizin başçısını alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev konfransı giriş nitqi ilə açdı.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMININ İCRASININ DÖRDİLLİK YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA* NİTQİ

*Gülüstan sarayı*

*11 fevral 2008-ci il*

Hörmətli xanımlar və cənablar!

Mən indi burada, birinci mərtəbədə Azərbaycanda istehsal olunan və sərgidə nümayiş etdirilən məhsullarla tanış oldum. Demək olar ki, hər il biz bu tədbiri keçirəndə, bununla bərabər, sərgi də keçirilir və hər il yeniliklər göstərilir. Bu məni çox sevindirir. Mən çox şadam ki, Azərbaycanda istehsal edilən mallar artıq yüksək keyfiyyətə malikdir, ixrac olunur, o cümlədən Avropa İttifaqı bazarına ixrac edilir. Həm ölkə tələbatını ödəyir, həm də Azərbaycanda çox güclü ixrac potensialı yaranır ki, bu da ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün çox mühüm əhəmiyyət daşıyır.

Düz dörd il bundan əvvəl, 2004-cü il fevralın 11-də «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı» qəbul edilmişdir. Bu proqramın ilkin konturları hələ

---

* Konfransda İqtisadi İnkişaf naziri Heydər Babayev, Naxçıvan Muxtar Respublikasının İqtisadi İnkişaf naziri Famil Seyidov, Əli Bayramlı Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov, Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Dünya Bankının Azərbaycan üzrə direktoru Qreqori Yedjeyçak və «Lalə-tekstil» Məhdud Məsuliyyətli Cəmiyyətin sədri Arzu Hacıyeva çıxış etдилər.

2003-cü ildə prezident seçkiləri ərəfəsində mənim tərəfimdən təqdim edilmişdi. Bu, deмək olar ki, mənim iqtisadi proqramımın vacib tərkib hissəsi idi. Prezident seçkilərindən 3-4 ay sonra proqram tərtib edilmiş və təsdiq olunmuşdu. Deyə bilərəm ki, son dörd il ərzində Azərbaycan iqtisadiyyatının hərtərəfli inkişafı üçün regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çox böyük rol oynamışdı. Bu dörd il ərzində bütövlükdə Azərbaycan iqtisadiyyatı çox yüksək sürətlə inkişaf etmişdir. Bu sürət bəlkə də keçmiş tarixdə də müşahidə olunmayıbdır. Dörd il ərzində Azərbaycan iqtisadiyyatı 96 faiz artmışdır. Demək olar ki, biz dörd ildə ümumi daxili məhsulumuzu 2 dəfə artıra bilmişik. 2008-ci ildə də iqtisadiyyatın yüksək sürətlə inkişaf etməsi gözlənilir. 2007-ci ilin yekunlarına görə, Azərbaycanda adambaşına düşən ümumi daxili məhsul 3700 dollar təşkil edir və gözlənilir ki, 2008-ci ildə 4500 dollara çatacaqdır. Bu onu göstərir ki, Azərbaycan iqtisadiyyatı çox sürətlə inkişaf edir və bu inkişaf, əlbəttə ki, həyatımızın bütün sahələrinə öz müsbət təsirini göstərir.

Azərbaycan iqtisadiyyatının inkişafı, əlbəttə ki, xalqın rifah halının yaxşılaşmasına gətirib çıxarır. Azərbaycanda valyuta ehtiyatları artır. Bu gün bizim valyuta ehtiyatlarımızın həcmi 7,3 milyard dollar səviyyəsindədir. Çox güman ki, 2008-ci ildə bu məbləğ ən azı 2 dəfə artacaqdır. İldən-ilə artan büdcə xərcləri bizə imkan verir ki, ölkənin qarşısında duran bütün vacib məsələlər öz həllini tapsın. Dörd il ərzində Azərbaycanın büdcəsi 10 dəfə artmışdır. Bu da yəqin ki, analoqu olmayan bir göstəricidir. Bizim icmal büdcəmiz bu il 12 milyard dollar təşkil edir. İstisna olunmur ki, müəyyən mərhələdə büdcəyə yeni əlavələr edilə bilsin. Yəni Azərbaycan iqtisadiyyatı bütün istiqamətlərdə uğurla inkişaf edir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının əsas vəzifəsi ondan ibarət olmuşdur ki, bölgələr sürətlə inkişaf etsin, bölgələrdə proseslər müsbət istiqamətdə getsin, bölgələrdə yaşayan insanların həyat səviyyəsi yaxşılaşsın, xidmət sektoru yaxşılaşsın və infrastruktur da inkişaf etsin.

Eyni zamanda, sirr deyil ki, proqramın əsas məqsədlərindən biri də yoxsulluğun və işsizliyin azaldılmasına yönəldilmişdir. Deyə bilərəm ki, bu istiqamətdə də uğurlar çox müsbətdir.

2003-cü ildə biz bəyan etmişdik ki, Azərbaycanda yoxsulluğun və işsizliyin aradan qaldırılması üçün 5 il ərzində 600 min yeni iş yeri açılmalıdır. Artıq dörd il ərzində 650 min yeni iş yeri açılmışdır ki, onlardan 480 mini daimi iş yerləridir. Bu o deməkdir ki, insanlar işlə təmin olunur, yerli istehsal güclənir. Yerli istehsalın güclənməsi nəticəsində Azərbaycanda qeyri-neft sektoru daha da sürətlə inkişaf edir. Azərbaycan iqtisadiyyatı tam şəkildə bazar iqtisadiyyatı prinsipləri əsasında qurulubdur. Özəl sektorun inkişafı da məhz bunun nəticəsində baş verir. Azərbaycan bu istiqamətdə siyasəti çox düzgün aparmışdır və yeni iş yerlərinin açılması, əlbəttə, ölkəmizin güclənməsinə gətirib çıxarmışdır. Mən əminəm ki, bu meyil davam edəcəkdir. Baxmayaraq ki, biz 5 ilə nəzərdə tutmuşduq, lakin dörd il ərzində buna nail olduq və əminəm ki, gələcəkdə Azərbaycanda işsizlik problemi tamamilə aradan qaldırılacaqdır.

Eyni zamanda, yoxsulluğun azaldılmasına da regional inkişaf proqramının çox böyük təsiri olmuşdur. Azərbaycan iqtisadiyyatı güclü dərəcədə neft-qaz amilindən asılıdır və bu da təbiidir. Ona görə ki, Azərbaycanda son illər ərzində neft-qaz hasilatı çox yüksək dərəcədə artıbdır. Dünyada neftin qiyməti qalxır. Beləliklə, iqtisadiyyatımızın bu seqmenti istər-istəməz daha da böyük çəkiyə malik olur. Ancaq bu sahədə yeni iş yerlərinin yaradılması o qədər də məqbul deyildir. İş yerlərinin yaradılması məhz regionlarda, bölgələrdə, qeyri-neft sektorunda mümkündür. Yoxsulluğun azaldılması bilavasitə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası ilə bağlı olmuşdur. Bu proqramı biz Dünya Bankı ilə birlikdə icra edirik və bu istiqamətdə də böyük uğurlar əldə etmişik. Son dörd il ərzində Azərbaycanda yoxsulluq 49 faizdən 16 faizə düşmüşdür. Bu, bir tərəfdən, onu göstərir ki, Azərbaycanda iqtisadi siyasət çox düzgün aparılır. Böyük iqtisadi imkanlar,

birinci növbədə, neft gəlirləri Azərbaycanda ədalətli şəkildə bölünür. Neftlə zəngin olan bəzi ölkələrə xas olan təbəqələşmə prosesi Azərbaycanda getmir. Halbuki, bazar iqtisadiyyatı şəraitində yaşayan cəmiyyətlərdə bu, istər-istəməz bu və ya digər formada özünü büruzə verir. Digər tərəfdən, yoxsulluğun kəskin şəkildə azalması onu göstərir ki, Azərbaycanın təbii sərvətləri, bütün iqtisadi potensialı və dövlətin siyasəti məhz ən çətin vəziyyətdə yaşayan insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldilibdir. Sözün düzü, mənim üçün yoxsulluğun azaldılması daha böyük əhəmiyyət daşıyır, nəinki iqtisadi göstəricilər. Çünki iqtisadi göstəricilərin səbəbləri bəllidir. Burada həm neft amili var, həm də, əlbəttə, bizim uğurla apardığımız iqtisadi islahatlar. Ancaq ilk növbədə biz xalqı düşünməliyik, biz xalq üçün yaşayırıq. Elə etməliyik ki, Azərbaycan xalqı yaxşı yaşasın, Azərbaycanda kasıblar təbəqəsi olmasın, işsizlər olmasın, işləmək istəyənlər mütləq işlə təmin edilsinlər. Bu proses artıq gedir.

Onu da görürük ki, Azərbaycandan miqrasiya edənlərin sayı xeyli azalıbdır. Daha doğrusu, vaxtilə Vətəni tərk etmiş insanlar indi qayıdırlar. Çünki Azərbaycanda imkanlar artır, yaşayış səviyyəsi yaxşılaşır və beləliklə, bizim gələcək inkişaf perspektivlərimiz çox aydın görünür.

Biz iqtisadi siyasətin aparılması ilə ölkəmizdə çox böyük və güclü iqtisadi zəmin yaradırıq. Azərbaycan çətin, böhranlı illərini arxada qoyubdur. Biz bundan sonra yalnız və yalnız inkişaf edəcəyik. Bu inkişafı hərtərəfli və çoxşaxəli etmək üçün mütləq və mütləq regionların sosial-iqtisadi inkişafı proqramı davam etdirilməlidir.

Bir ildən sonra proqramın müddəti başa çatır. Deyə bilərəm ki, aparılan təhlil göstərir ki, proqramda təsbit olunan bütün maddələrin 98 faizi ya tamamilə, ya da qismən icra olunubdur. Yəni dörd il ərzində proqram, demək olar ki, icra olunubdur. Nəzərə alsaq ki, bu illər ərzində proqrama böyük əlavələr edilmişdir və proqrama əlavələr etmək üçün təkcə mənim tərəfimdən 13 sərəncam imzalanmışdır. Əlbəttə, biz görürük ki,

2004-cü ildə qəbul edilmiş proqramla reallıq çox fərqlənir. Əgər bu əlavə tədbirləri də nəzərə alsaq, görərik ki, proqramın həcmi daha böyükdür, daha böyük vəsait tələb edir və şübhəsiz ki, bu, proqramı daha da gücləndirir.

Mən hesab edirəm ki, proqramın başa çatmasından sonra biz bununla kifayətlənməməliyik. Həm hökumətə, həm də bütün yerli icra orqanlarına artıq müvafiq göstərişlər verilibdir ki, növbəti 5 illik proqram hazırlansın və təqdim olunsun. Mən artıq bu barədə bir neçə dəfə demişəm, o proqramda bütün məsələlər öz həllini tapmalıdır, hər bir kəndin məsələsi öz həllini tapmalıdır. Elə etməliyik ki, Azərbaycan xalqını narahat edən bütün məsələlər 2009–2013-cü illərdə öz həllini tapsın.

Bildiyiniz kimi, biz işimizi müxtəlif istiqamətlərdə aparırıq. Əlbəttə, ilk növbədə, dövlət siyasəti, dövlət investisiya proqramları. O proqramlar indi icra olunur. Təkcə bu ilin dövlət investisiya xərcləri təxminən 3,5 milyard dollar təşkil edəcəkdir. Bu, demək olar ki, ölkə qarşısında duran əsas infrastruktur layihələrinin həlli üçün bizə kifayət edəcəkdir. Nəzərə alsaq ki, Azərbaycanın maliyyə vəziyyəti ildən-ilə yaxşılaşacaq, biz növbəti illərdə də dövlət investisiya xərclərimizi artıracağıq. Eyni zamanda, bu, sahibkarlığın inkişafına böyük təkan verir. Hər bir infrastruktur layihəsi sahibkarlığın inkişafına gətirib çıxarır. Sahibkarlara dövlət tərəfindən dəstək verilir – mənim tərəfimdən həm siyasi dəstək, həm də iqtisadi dəstək. Bildiyiniz kimi, Sahibkarlığa Kömək Milli Fondundan hər il böyük məbləğdə vəsait ayrılır. Bu il 95 milyon manat həcmində kreditlər veriləcəkdir.

Bu kreditlərin işlənməsini biz regionların inkişafında görürük və bu gün burada nümayiş etdirilən sərgidə görürük. Sərgidə təmsil edilən istehsal sahələrinin böyük bir hissəsi məhz o kreditlərin hesabına mümkün olmuşdur. Çünki başqa cür mümkün deyildir. Sahibkarlıqla məşğul olmaq üçün ilkin kapital olmalıdır. Əgər ilkin kapital yoxdursa, sahibkarlıqla məşğul olmaq mümkün deyildir. Ona görə dövlət bu funksiyanı öz üzərinə götürür. İlk növbədə, sahibkarlara siyasi dəstək

verilməlidir. Cəmiyyətdə və icra strukturlarında onlara müsbət münasibət göstərilməlidir. Dövlət xətti ilə icra olunan investisiya layihələri – elektrik enerjisi, su, qaz təchizatı, yolların çəkilməsi – sahibkarlıq üçün yaxşı şərait yaradır. Bununla bərabər, sahibkarlara dövlət güzəştli şərtlərlə kreditlər verir. Eyni zamanda, bu yaxınlarda yaradılmış Dövlət İnvestisiya Şirkəti də həmin işlərdə fəal iştirak edəcək və Azərbaycanın iqtisadi inkişafı bu istiqamətdə davam etdiriləcəkdir.

Mən bir neçə dəfə demişəm, bu gün də demək istəyirəm ki, biz öz iqtisadi potensialımızı qeyri-neft sektorunun əsasında qurmalıyıq, bu sahəni gücləndirməliyik.

Bizim bütün qlobal layihələrimiz uğurla icra edilir, bütün neft-qaz layihələrimiz vaxtlı-vaxtında icra olunur. Son dörd il ərzində bu istiqamətdə, deyə bilərəm ki, tarixi nailiyyətlər əldə edilibdir. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri işə düşüb, böyük «Şahdəniz» qaz yatağından ilk qaz hasil edilməyə başlanmışdır. Biz, demək olar ki, bütün neft-qaz sektoruna aid qarşıya qoyduğumuz məsələləri həll etdik. Deyə bilərəm ki, 100 faiz səviyyəsində həll etdik. Bundan sonra onilliklər ərzində Azərbaycanın uğurlu və gözəl inkişafını təmin etdik. Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması üçün əməli-praktik tədbirlər gördük. Onu da deyə bilərəm ki, son dörd il ərzində maaşlar da bir neçə dəfə artırılıbdır. Minimum əməkhaqqı bu illər ərzində 6-7 dəfə artırılıbdır. Düzdür, hələ ki, bu bizi tam qane edə bilməz. Amma dinamika çox müsbətdir. Əlbəttə ki, biz bu gözəl və güclü enerji potensialımızdan gələcəkdə də səmərəli şəkildə istifadə edəcəyik. Biz indiyə qədər bundan çox səmərəli şəkildə istifadə etdik. Biz gəlirlərin şəffaflığını təmin etdik. Azərbaycanın Şəffaflıq Təşəbbüsünə qoşulması çox düzgün addım idi və biz bu addımın real nəticələrini görürük. Azərbaycanda neftdən əldə olunan bütün gəlirlər çox şəffaf şəkildə Neft Fondunda cəmləşir, beynəlxalq audit keçirilir və ondan sonra vəsaitin xərclənməsi də çox şəffaf şəkildə baş verir. Büdcə təsdiq

olunanda büdcə paketi ilə bərabər, Neft Fondundan büdcəyə transferlər də parlament tərəfindən təsdiq edilir. Yəni ki, bütün Azərbaycan xalqı Milli Məclisdəki öz nümayəndələri vasitəsilə gəlirlərin bölünməsində iştirak edir. Bu belə də olmalıdır. Bu sərvət – təbii sərvətlər xalqa məxsusdur və Azərbaycan xalqı qərar verməlidir ki, o vəsait hansı istiqamətə yönəldilsin.

Əminəm ki, biz gələcək illərdə də bu yüksək dinamikanı saxlayacağıq. Azərbaycanın inkişafını təmin edəcəyik, qlobal layihələrin uğurlu davam etdirilməsi üçün səylərimizi göstərəcəyik. Bölgədə proseslər çox müsbət istiqamətdə gedir. Energetika, nəqliyyat sahəsində Azərbaycanın irəli sürdüyü təşəbbüslər həm öz ölkəmizə və xalqımıza xeyir gətirir, həm də ki, bizim üçün dost, qonşu ölkələrin inkişafına böyük töhfə verir.

Bildiyiniz kimi, nəqliyyat sektorunda Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi ilə yeni bir mərhələ başlayır. Azərbaycan tranzit ölkəyə çevriləcəkdir. Bu layihənin çox böyük həm siyasi, həm iqtisadi, həm də regional mənası var. Deyə bilərəm ki, bu dövr ərzində qarşıya qoyduğumuz bütün qlobal layihələr həyatda öz həllini tapıbdır. Baxmayaraq ki, bunu etmək bəzi hallarda o qədər də asan deyildi, bəzən biz müəyyən əngəllərlə də üzləşirdik. Ancaq Azərbaycan dövlətinin və xalqının iradəsi və qətiyyətli siyasəti, Azərbaycan xalqının bizim bütün təşəbbüslərimizə dəstək olması bu işləri reallığa çevirir.

Qlobal məsələlər, əlbəttə ki, Azərbaycanın dünyadakı mövqelərini daha da möhkəmləndirir, Azərbaycanın təsir imkanlarını artırır və ölkəni hərtərəfli şəkildə gücləndirir. Ancaq bununla bərabər, biz – bugünkü toplantının əsas məqsədi bundadır – qeyri-neft sektorunda baş verən hadisələri təhlil etməliyik, qərarlar verməliyik və gələcək planlar haqqında danışmalıyıq.

Biz böyük təbii sərvətlərə malikik və bu təbii sərvətləri biz artıq ixrac etməyə başlamışıq. Ancaq bununla bərabər, biz mütləq qeyri-neft sektorunu inkişaf etdirməliyik: yerli istehsal,

idxalı əvəzləyən məhsulların istehsal olunması, yeni zavodların, fabriklərin işə düşməsi, iş yerlərinin açılması, regionların abadlaşması, infrastruktur layihələrinin davam etdirilməsi, eyni zamanda, sosial məsələlər öz həllini tapmalıdır. Azərbaycanda cəmi 4500 məktəb var, 1200 məktəb 4 il ərzində tikilmişdir və növbəti illərdə bu iş davam etdiriləcəkdir. Onlarca yeni xəstəxana, tibb mərkəzi tikilib və 2008-ci ilin Dövlət İnvestisiya Proqramında yeni xəstəxanaların tikintisi nəzərdə tutulur.

Yenə deyirəm, sosial məsələlərə böyük diqqət göstərilir. Düzdür, biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Ancaq onu da bilirik ki, keçid dövrünü yaşayan, bir sistemdən digərinə keçən ölkələrdə bəzən islahatlar da çox çətin gedir və insanlara əziyyət verir. Bazar iqtisadiyyatına keçmək üçün atılan addımlar bəzi hallarda insanların həyat səviyyəsinə mənfi təsir göstərir. Bütün bunların qarşısını almaq və başqa ölkələrin mənfi təcrübəsini təkrarlamamaq üçün biz güclü sosial siyasət aparırıq. Bizim büdcəmiz həm investisiyayönümlü, həm də sosialyönümlüdür. İldən-ilə, ildə bir neçə dəfə maaşlar, pensiyalar artırılır, sosial obyektlər tikilir. Nəhəng infrastruktur layihələri ilə bərabər, sosial infrastrukturun yaranması Dövlət İnvestisiya Proqramında böyük yer tutur. Bu bizi xoşbəxt gələcəyə aparan yoldur. Deyə bilərəm ki, artıq Azərbaycan öz imkanlarını tam şəkildə işə salıbdır. Həm energetika, həm də qeyri-neft sektorunda qəbul edilmiş proqramlar uğurla icra edilir. Bu illər ərzində həyatımızın, demək olar ki, bütün sahələrini əhatə edən çoxsaylı dövlət proqramları qəbul edilib və bu proqramların əsasında, təməlində real imkanlar dayanır. Heç bir proqram, sadəcə olaraq, şüar naminə qəbul edilmir. Hər birinin arxasında icra mexanizmləri, maliyyə resursları və güclü dövlət siyasəti dayanır. Məhz bu təqdirdə biz uğura nail ola bilərik. Onu da deyə bilərəm ki, bu günə qədər başladığımız bütün layihələr öz həllini tapıb, verdiyimiz bütün vədlər həyatda öz əksini tapıbdır. Elə bir məsələ olmayıb ki, biz onu etmək istəmişik, edə bilməmişik. Elə bir məsələ olmayıb ki, söz verilib, icra olunmayıbdır. Bütün verilən

vədlər vaxtlı-vaxtında yerinə yetirilir və bu, əlbəttə ki, cəmiyyətdə çox gözəl ab-hava yaradır.

Bizim cəmiyyətimiz vahid cəmiyyətdir. Azərbaycanın qarşısında duran bütün məsələlərdə – istər daxili siyasət, xarici siyasət, istərsə də iqtisadi, sosial siyasət sahəsində – cəmiyyətdə fikir ayrılığı yoxdur. Biz bilirik haraya gedirik. Biz ölkəmizi müasirləşdiririk, güclü dövlət yaradırıq. Azərbaycan müasir güclü dövlətə çevrilməlidir. Bunu etmək üçün bizim bütün imkanlarımız var. Həm iqtisadi, həm siyasi imkanlar, həm də insanların intellektual səviyyəsi, dövlət siyasəti, dövlətin iradəsi və açıq-aydın görünən gələcəyin üfüqləri. Bütün bunlar bir yerdə olanda, əlbəttə ki, ölkə dinamik şəkildə inkişaf edəcəkdir.

Mən böyük qürur hissi ilə deyə bilərəm ki, dörd il ərzində Azərbaycanın iqtisadiyyatı dünyada analoqu olmayan sürətlə inkişaf edibdir. Heç bir başqa ölkədə dörd il ərzində ümumi daxili məhsul iki dəfə artmayıbdır. Heç bir başqa ölkədə büdcə 10 dəfə artmayıbdır. Heç bir başqa ölkədə cəmi 4 il ərzində yoxsulluq 3 dəfə azalmayıbdır. Təsadüfi deyil ki, ciddi beynəlxalq maliyyə qurumları Azərbaycanın iqtisadi inkişaf imkanlarını çox düzgün dəyərləndirirlər. Bir müddət bundan əvvəl Davos Dünya İqtisadi Forumunun hesabatında rəqabətqabiliyyətlilik sahəsində Azərbaycan 66-cı yeri tutubdur. «Qoldman Saks» kimi çox mötəbər qurumun reytinqində isə elə bu göstəriciyə görə Azərbaycan 61-ci yerdə idi və bütün başqa MDB ölkələrindən qabaqda idi. Bu, ciddi beynəlxalq təşkilatların hesabatlarıdır və sadəcə olaraq, reallığı əks etdirir. Bu hesabatlar ədalətlidir. Hesabatlar ədalətli olanda, orada reallıq əks olunur. Bu, əlbəttə ki, bizi çox sevindirir. Ancaq məni ən çox sevindirən odur ki, bizim apardığımız siyasət real işlərdə özünü göstərir. İnsanların həyat səviyyəsinin yaxşılaşmasında, şəhərlərimizin gözəlləşməsində, ölkəmizin güclənməsində və Azərbaycanın iqtisadi inkişafının artmasında özünü göstərir.

Bu gün bu toplantıda bütün yerli icra orqanlarının nümayəndələri, rəhbərləri, nazirlər, iş adamları, xarici nüma-

yəndələr iştirak edirlər. Deyə bilərəm ki, Azərbaycanda keçirilən tədbirlər içərisində bu, ən böyük tədbirdir. Hər il bu tədbirdə ötən il ərzində görülən işlər və ən əsası, gələcək planlar müzakirə edilir. 2008-ci ildə biz hansı işləri görməliyik, necə görməliyik, bunun nəticəsi nə olacaqdır? Bütün orqanların işinin əlaqələndirilməsi çox vacibdir. Həm nazirliklər, dövlət şirkətləri, yerli icra orqanları, həm də iş adamları, fəallar və Azərbaycanda fəaliyyət göstərən beynəlxalq maliyyə qurumlarının nümayəndəlikləri – biz hamımız birlikdə bu işləri görməliyik. Bu baxımdan bu konfrans çox nadir xarakter daşıyır.

Mən bir daha demək istəyirəm ki, görülən bütün işlər məni qane edir. Bu gün burada problemlərdən də danışılacaqdır. Əlbəttə ki, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da problemlər var və biz regional proqramla, başqa proqramlarla məhz bu problemlərin aradan qaldırılması üçün çalışırıq ki, Azərbaycanda ədalətli cəmiyyət, hüquqi dövlət tam şəkildə bərqərar olsun. Azərbaycanda sosial ədalət geniş şəkildə tətbiq edilsin, iqtisadi azadlıqlar, siyasi azadlıqlar, demokratiyanın inkişafı, müasirlik və gələcək inkişaf – budur bizim qarşımızda duran əsas vəzifələr və bu vəzifələrin icrası üçün bugünkü konfransda biz danışacağıq və əməli-praktik qərarlar qəbul edəcəyik.

## YEKUN NİTQİ

Dünya Bankının Azərbaycan üzrə direktorunun çıxışında çox vacib və maraqlı fikirlər səslənmişdir. Mən birini xüsusilə qeyd etmək istəyirəm ki, Azərbaycan dövlət müstəqilliyini bərpa edəndə başqa respublikalarla müqayisədə ən ağır və acınacaqlı vəziyyətdə idi. Həm iqtisadi cəhətdən, həm də siyasi baxımdan Azərbaycanda total böhran hökm sürürdü. Siyasi böhran, vətəndaş qarşıdurması başlanmışdı. Azərbaycan torpaqları işğal altına düşürdü. Demək olar ki, iqtisadiyyat iflic vəziyyətində idi. Sənaye istehsalı aşağı düşürdü, daxili məhsul istehsalı faktiki olaraq böyük sürətlə aşağı düşürdü. Ölkə həm siyasi, həm də iqtisadi cəhətdən idarəolunmaz vəziyyətə düşmüşdü. Bütövlükdə, Azərbaycanın gələcək perspektivləri, müstəqil dövlət kimi yaşaması sual altında idi. Ümumiyyətlə, inkişafdan söhbət getmirdi. Söhbət ondan gedirdi ki, ölkəmiz üçün xoşagəlməz, dağıdıcı proseslərin qarşısı alınsın və Azərbaycan bu ağır vəziyyətdən çıxa bilsin.

Demək olar ki, o illərdə Azərbaycanın müstəqilliyi artıq suallar doğururdu. Azərbaycan xalqının XX əsrin əvvəllərində üzləşdiyi vəziyyət təkrarlana bilərdi. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 2 ilə yaxın yaşaya bilmişdi, ondan sonra süqut etdi. Azərbaycan dövlət müstəqilliyini 1991-ci ildə bərpa edəndən sonra, demək olar ki, iki ildən sonra bizim müstəqilliyimizə son qoyula bilərdi. Biz o günləri yaxşı xatırlayırıq. Hamımız yaxşı anlayırıq ki, Azərbaycan üçün həlledici məqamlar məhz 1993-cü ildə baş verdi. O vaxt Azərbaycan xalqı öz liderinə müraciət etdi, ulu öndər Heydər Əliyevi rəhbərliyə dəvət etdi. Onun Azərbaycana rəhbərliyə gəlişindən sonra xoşagəlməz proseslər dayandırıldı və bir neçə ildən sonra Azərbaycan özünün inkişaf dövrünə başladı. 90-cı illərin ortalarında başlanmış iqtisadi və siyasi islahatlar, demək olar ki, Azərbaycanın bugünkü inkişafının təməlində dayanan əsas amillərdir.

Bu gün isə ölkəmiz tam şəkildə öz imkanlarını işə sala bilib, müstəqilliyimizi əbədi, dönməz edibdir. Azərbaycan inkişaf potensialına görə çox güclü ölkəyə çevriləcəkdir. Bizim vəzifəmiz ondan ibarətdir ki, həm siyasi, həm də iqtisadi islahatları dərinləşdirək. Azərbaycanda çox güclü, iqtisadi potensial yaratmalıyıq.

Beləliklə, bu vaxta qədər aparılan çox vacib iqtisadi islahatlar davam etdirilməlidir. Bunu etmək üçün əlavə tədbirlər görüləcəkdir. Bütün dövlət proqramları vaxtlı-vaxtında icra olunmalıdır. Mən artıq bu barədə demişəm, bunu etmək üçün maliyyə imkanları və icra mexanizmləri var. Sadəcə olaraq, yerlərdə icra orqanları və aidiyyəti mərkəzi orqanlar üzərlərinə düşən bütün vəzifələri yüksək səviyyədə icra etməlidirlər.

2008-ci ildə infrastruktur layihələrinə böyük vəsait qoyulacaqdır. Dövlət İnvestisiya Proqramında bütün bunlar var. Azərbaycanda çox güclü elektrik enerjisi potensialı yaranır. Deyə bilərəm ki, 2004–2009-cu illərdə 3 min meqavat gücündə elektrik stansiyaları işə düşməli idi. Onlardan 700 meqavat gücündə stansiyalar artıq fəaliyyətdədir. Növbəti iki ildə biz bunu 3 min meqavata çatdırmalıyıq. Nəzərə alsaq ki, Azərbaycanda bütövlükdə bütün dövrlər ərzində 4,5 min meqavat gücündə elektrik stansiyaları yaranmışdır, onda görərik ki, biz faktiki olaraq, 5 il ərzində öz enerji potensialımızı təxminən iki dəfə gücləndiririk. Bunu etmək üçün müvafiq sazişlər bağlanmışdır. Həm kredit sazişləri, həm də bütün texniki məsələlər öz həllini tapıbdır.

Azərbaycanda iqtisadi inkişaf çox sürətlə gedir, tələbat artır. İstisna olunmur ki, gələcəkdə Azərbaycan elektrik enerjisini ixrac edə biləcəkdir. Ancaq hazırkı mərhələdə biz öz tələbatımızı, bu günə olan tələbatımızı və 10–15 il bundan sonrakı tələbatımızı ödəmək üçün indidən bütün işləri görməliyik. Bununla bərabər, elektrik xətlərinin çəkilişi proqramı da var. Demək olar ki, Azərbaycanda uzun illər ərzində problemə çevrilmiş enerji qıtlığı artıq aradan qaldırılıbdır. Hətta bu ilin çox sərt qışında belə, problemlər müvəqqəti xarakter

daşıyırdı. Bütövlükdə, bölgələrdə elektrik enerjisi ilə təminat xeyli yaxşılaşmışdır. Demək olar ki, biz bu problemi həll edə bilmişik.

Qazpaylayıcı şəbəkələrin yaradılması prosesi davam edir. Biz bu vaxta qədər qaz almayan bölgələrin, demək olar ki, hamısını qazla təmin etmişik. Bir-iki rayon istisna olmaqla, bütün rayon mərkəzlərinə qaz verilir. Qalanlarının da problemini biz bu ilin birinci yarısına qədər həll etməliyik. Artıq əməli-praktik işlər gedir. Bütövlükdə, Azərbaycanda qazlaşdırma vaxtilə, 1970–80-ci illərdə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə, demək olar ki, 95–100 faizə çatmışdı. İndi Azərbaycanda qazlaşdırma 80 faiz təşkil edir. Bu da çox böyük göstəricidir. Hətta bizdən daha böyük həcmdə qaz hasil və ixrac edən ölkələrdə bu göstərici bizdən aşağıdır. Amma vəzifə qoyulubdur ki, Azərbaycan əhalisi maksimum dərəcədə qazla təmin olunsun. Beləliklə, 2008–2009-cu illərdə qazlaşdırma prosesi daha da sürətlə getməlidir. Biz indi öz təbii qazımızı dünya bazarlarına çıxarırıq. Belə olan halda, mütləq və mütləq daxili tələbat maksimum dərəcədə təmin olunmalıdır.

Əhalini içməli su ilə təmin etmək üçün növbəti illərdə çox böyük işlər görüləcəkdir. Burada qeyd olundu ki, Dünya Bankı ilə birlikdə bu layihə hazırlanıb və icraya hazırdır. Biz buna çox böyük əhəmiyyət veririk. Mən ümid edirəm ki, proqramın icrası nəticəsində Azərbaycanda içməli su ilə təminat əhalini tam şəkildə qane edəcəkdir. Beləliklə, bu ağır və Azərbaycan üçün bütün dövrlərdə ciddi olan problem öz həllini tapacaqdır. Bütün rayonlarda su və kanalizasiya xətlərinin tikilməsi nəzərdə tutulur. Azərbaycan dövləti ayrılan kreditlərdən başqa, öz tərəfindən də maliyyə öhdəliyi götürməyə hazırdır. Biz bu sahədə işləyirik və yaxın zamanlarda çox vacib qərarlar qəbul ediləcəkdir.

Bilirsiniz ki, Bakını yüksək keyfiyyətli içməli su ilə təmin etmək üçün Oğuz–Qəbələ–Bakı su kəməri tikilməkdədir. Bu layihə də uzun illər müzakirə predmeti olmuşdur və müəyyən

səbəblər üzündən icra edilmirdi. Ancaq biz bunu icra etməyə başladıq. Çox rəmzi xarakter daşıyan odur ki, bu, Neft Fondunun hesabına icra olunur. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin fəaliyyəti nəticəsində əldə edilmiş gəlirləri biz Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisinə yönəltmişik. Bu bir daha onu göstərir ki, Azərbaycan nefti Azərbaycan xalqına xidmət edir.

Taxtakörpü su anbarının tikintisi başlanmışdır. Bu da nəhəng, qlobal bir layihədir. Həm meliorasiya üçün, həm də insanları təmiz su ilə təmin etmək üçün çox böyük əhəmiyyət daşıyır. Bir neçə ay bundan əvvəl Taxtakörpüdə işlərin təməlini qoyduq və orada su elektrik stansiyası da tikiləcəkdir. Bütövlükdə, biz çaylarımızın imkanlarından daha da səmərəli istifadə etməliyik. «Azərenerji»yə müvafiq göstərişlər verilib ki, biz Azərbaycanda alternativ enerji mənbələrindən maksimum dərəcədə istifadə edək, lazımi investisiyaları qoyaq. Azərbaycan çaylarında yeni kiçikhəcmli elektrik stansiyaları yaratmalıyıq.

Yol infrastrukturuna böyük vəsait qoyulur və bunu həm bölgələrdə, həm də Bakıda hamı görür. Bakının nəqliyyat infrastrukturu yeniləşir, müasirləşir. Bütün Bakını, Azərbaycanı başqa qonşu ölkələrlə birləşdirən magistral yollarda tikinti gedir. Həm qərb, həm cənub, həm şimal istiqamətində. Eyni zamanda, şəhərlərarası yolların tikintisi layihələri hazırlanır. Biz elə etməliyik ki, Azərbaycanın bütün yolları – həm magistral yollar, həm də kənd yolları ən yüksək dünya standartlarına cavab versin. Elə etməliyik ki, növbəti regionların inkişafı proqramında bu məsələlər tam şəkildə öz əksini tapsın və elə bir məntəqə olmasın ki, oraya normal yol çəkilməsin.

Bu infrastruktur layihələri, əlbəttə, Azərbaycanda sahibkarlığın inkişafına öz müsbət təsirini göstərəcəkdir. Biz bunu görürük. Elektrik enerjisi, qaz, yaxud yol çəkiləndən sonra bölgələr dirçəlir, turizm imkanları artır və sahibkarlar da, əlbəttə, bundan istifadə edirlər. Növbəti illərdə və xüsusən 2008-ci ildə böyük işlər görüləcəkdir. Bütün bu sahələr üçün lazımi proqramlar var. Aidiyyəti qurumlar və yerli icra

orqanları gərək birlikdə işləsinlər, bir-birinə kömək göstərsinlər. Çünki bu, ölkə üçün əhəmiyyətli olan sahədir. İnfrastruktur layihələri belə inkişaf edəcəkdir.

Sosial infrastrukturun güclənməsi üçün də 2008-ci ildə kifayət qədər vəsait nəzərdə tutulubdur. Təhsil məsələlərinin həlli üçün təxminən 1 milyard dollar vəsait nəzərdə tutulubdur. Yeni məktəblər, yeni tədris korpusları tikiləcək, kompyuterləşdirmə prosesi davam etdiriləcəkdir. Biz elə etməliyik ki, Azərbaycanda yetişən gənc nəsil bilikli, savadlı olsun, çünki ölkəmizin gələcəyini məhz bilik, savad təmin edəcəkdir. İnkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, onların inkişafı təbii sərvətlər hesabına deyil, bilik, savad, elmi-texniki tərəqqi hesabına mümkün olmuşdur. Biz də bu yolla getməliyik və gedirik. Azərbaycanda bu sahəyə böyük diqqət göstərilir. Təhsilin maddi-texniki bazası möhkəmlənir. Ümid edirəm ki, 2-3 il ərzində, demək olar, bütün infrastruktur layihələri başa çatdırılacaqdır. Təhsilin keyfiyyəti və biliyin səviyyəsi qaldırılmalıdır.

Səhiyyə məsələlərinin həlli üçün indi müxtəlif mənbələrdən vəsait ayrılır. Bilirsiniz ki, mən bir müddət bundan əvvəl Dövlət Neft Şirkətinə tapşırıq vermişdim ki, onların imkanlarından istifadə etməliyik, bölgələrdə müasir müalicə-diaqnostika mərkəzlərinin tikintisinə nail olmalıyıq. Artıq bir neçə şəhərdə – Siyəzən, Lənkəran, Naxçıvan və sonra Əli Bayramlıda yeni müasir müalicə-diaqnostika mərkəzləri tikilmişdir. 10 bölgədə isə tikinti ya başlanmışdır, yaxud da başlanması nəzərdə tutulur.

Bununla bərabər, Səhiyyə Nazirliyinin xətti ilə dövlət büdcəsindən ayrılan vəsait hesabına yeni xəstəxanalar, tibb məntəqələri, poliklinikalar tikilir və səhiyyə xidmətinin səviyyəsi yüksəlir. Bildiyiniz kimi, bu yaxınlarda səhiyyə sistemində pullu xidmət tamamilə aradan qaldırılmışdır. Pullu xidmət rüşvətxorluğun mənbəyi olmuşdu və təhlil göstərmişdir ki, buradan yığılan pullar başqa istiqamətlərə gedir. Ona görə qərar qəbul edilmişdir ki, pullu xidmət tamamilə aradan qaldırılsın. Dövlətin kifayət qədər imkanları var ki, bu sahəyə

vəsait ayırsın və bütün xəstəxanaları lazım olan avadanlıqla, tibbi ləvazimatla, yeməklə – hər şeylə təmin edə bilsin. Bu sahə həmişə, bundan sonrakı illərdə də prioritet sahə olacaqdır. Bu sahəyə çox böyük vəsait qoyulmalıdır. Bildiyiniz kimi, bölgələrdə xəstəxanaların böyük əksəriyyəti bizi qane etməyən vəziyyətdədir, onların hamısını müasir səviyyəyə qaldırmaq üçün böyük işlər görülməlidir. Biz bunu edəcəyik ki, Azərbaycanda insanların yaşaması, sağlamlığı üçün olan bu vacib sahə dünya səviyyəsinə qaldırılsın.

Köçkünlərin məşğulluğu məsələləri bizi çox düşündürür və bu sahədə işlər görülür. Əlbəttə, ilk növbədə, onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün çadır şəhərcikləri ləğv edilibdir. Bu da tarixi nailiyyətdir. İndi Azərbaycanda bir dənə də çadır şəhərciyi yoxdur. Yenə də biz sözümüzün üstündə durduq. İndiki mərhələdə qaçqınların və məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması və məşğulluğun artırılmasına dair Dövlət Proqramına əlavələr edilibdir. Bu əlavələrin xərcləri təxminən 500 milyon manat həcmindədir. Nəzərə alsaq ki, bu vaxta qədər bu proqrama 400 milyon manata yaxın vəsait ayrılmışdı, deməli, bütövlükdə milyard manatadək vəsait ayrılacaq ki, çətin vəziyyətdə yaşayan, erməni işğalından əziyyət çəkən soydaşlarımız həm normal evlərlə təmin olunsunlar, həm də onların məşğulluq məsələləri həll edilsin. Dövlət bu sahəyə öz diqqətini bundan sonra da göstərəcəkdir.

Bildiyiniz kimi, bir müddət bundan əvvəl yenə də ölkəmizin inkişafı və insanların sağlamlığının möhkəmləndirilməsi üçün geniş ekoloji proqram qəbul edilmişdir. Proqram icra olunmağa başlamışdır və ilk növbədə, Bakıda və Abşeron yarımadasında neftlə çirklənmiş gölməçələrin qurudulması, təmizlənməsi və onların yerində müasir infrastrukturun yaradılması, parkların salınması, ağacların əkilməsi nəzərdə tutulur. Bu işlər artıq başlanmışdır.

Eyni zamanda, içməli su baxımından ən ağır vəziyyətdə olan 50 kənddə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə

yeni sutəmizləyici qurğular quraşdırılıbdır. Bu çox vacib məsələdir. Çünki Azərbaycanda bu baxımdan ən pis vəziyyətdə olan cəmi 100 kənd var. Orada içməli suyun keyfiyyəti çox aşağı idi, insanlar, demək olar ki, suyu birbaşa arxdan götürüb içirdilər. İndi biz 50 kənddə proqramı icra etdik. Növbəti 50 kənddə bu yaxınlarda işlər tamamlanmalıdır. Görəndə ki, bu tədbirlərin çox gözəl səmərəsi var, mən göstəriş verdim ki, bu praktikanı başqa kəndlərə də tətbiq edək. Yəni, içməli suyun səviyyəsini yaxşılaşdıraq. Mənə verilən məlumata görə, hazırlanmış tədbirlər planının icrası nəticəsində 450 minə qədər əhali təmizlənmiş, ən yüksək keyfiyyətli su ilə təmin olunacaqdır. Bu da sağlamlıq deməkdir. Gələcək nəsillərin sağlamlığı, insanların həyatının keyfiyyəti deməkdir. Bu proqram da çox vacibdir. Mən buna çox böyük əhəmiyyət verirəm.

Ümumiyyətlə, bildiyiniz kimi, Azərbaycanda meşələrin sahəsi o qədər də böyük deyildir. Bizim ərazimizin, demək olar, 8–10 faizi qoruqlardır. Biz bu qoruqları ona görə yaratdıq ki, orada ağaclar kəsilməsin, o yerlər zəbt olunmasın. O yerlər, bizim təbiətimiz qorunub saxlanılmalıdır. Bununla bərabər, indi proqram işlənib hazırlanıb ki, Azərbaycanda maksimum dərəcədə ağaclar əkilsin və artıq bu iş başlanmışdır. Onu daha da sürətlə davam etdirmək üçün xüsusi tədbirlər planı hazırlanır.

2008-ci ildə idman komplekslərinin tikintisi davam etdiriləcəkdir. 13 müasir olimpiya kompleksi tikilibdir, 23-ü isə tikilir. Bu da insanların birbaşa sağlamlığına yönəldilən tədbirdir. Yəni, əgər bizim bu planlarımıza fikir verilsə, hər kəs görər ki, qəbul edilmiş bütün planlar, ilk növbədə, iqtisadi potensialın möhkəmlənməsinə, infrastruktur layihələrinin icrasına, sahibkarlığın dəstəklənməsi məqsədi ilə görülən tədbirlərə və insanların sağlamlığına, normal həyat tərzinin təmin olunmasına yönəldilibdir. Bu bir daha onu göstərir ki, Azərbaycanda həm bazar iqtisadiyyatı prinsipləri, həm də sosial ədalət prinsipləri eyni dərəcədə əhəmiyyət daşıyır.

Sahibkarlığın inkişafına dəstək bundan sonra da davam etdiriləcəkdir. Mən bu gün bütün sahibkarlara öz siyasi dəstəyimi bir daha bildirmək istəyirəm. Bütün icra orqanlarına, onların rəhbərlərinə, yerlərdə, Bakıda, mərkəzi icra orqanlarında işləyən bütün məmurlara göstəriş verirəm ki, sahibkarlara maksimum dərəcədə kömək etsinlər, onlara problem yaratmasınlar, işinə müdaxilə etməsinlər. Onlara qarşı əsassız və qanunsuz tələblər irəli sürməsinlər və imkan versinlər ki, Azərbaycanda sahibkarlıq güclənsin, möhkəmlənsin. Bu bizim gələcəyimizdir, iqtisadi müstəqilliyimizdir. Sahibkarlığın inkişafı olmadan Azərbaycanın hərtərəfli inkişafı davam etdirilə bilməz.

Deyə bilərəm ki, son illər ərzində bu cür mənfi halların sayı azalıbdır. Amma yenə də var. Biz bunu bilirik və çox ciddi tələb edirik ki, bütün dövlət məmurları maksimum dərəcədə öz fəaliyyətində sahibkarlara kömək etsinlər. Sahibkarlar da öz bizneslərini elə qursunlar ki, dövlətə çatacaq vergini tam şəkildə ödəsinlər və öz işlərində şəffaflığı təmin etsinlər. İndi şəffaflıq hər yerdə tətbiq olunmalıdır. Bizim bütün maliyyə sistemimiz şəffaf olmalıdır. Bütün biznes strukturları şəffaf olmalıdır. Biznes strukturları başa düşməlidirlər ki, əgər onlar dünya iqtisadiyyatına inteqrasiya etmək istəyirlərsə, öz biznesini böyütmək və xarici bazarlara çıxmaq istəyirlərsə – mən görürəm ki, bu var – onlar mütləq və mütləq dünya praktikasını tətbiq etməlidirlər. Onlar beynəlxalq auditdən keçməlidirlər, bütün mühasibat sistemini müasir səviyyəyə qaldırmalıdırlar. Bütün pul əməliyyatları şəffaf olmalıdır. Belə olmasa, onları dünya biznes məkanında heç kim qəbul etməyəcəkdir.

Artıq ilkin kapitalın toplanması prosesi başa çatmaq üzrədir. Bu, bütün MDB ölkələrinə xas olan bir prosesdir. Dünyanın inkişaf etmiş ölkələri də vaxtilə bu prosesdən keçmişlər. İndi o dövrdür ki, bütün mühasibat, maliyyə sistemi, özəl sektorun bütün fəaliyyəti şəffaf olmalıdır. Şəffaf olanda, onların vəziyyəti daha da yaxşı olacaq, daha da inamla işləyəcəklər, daha da inamla öz hüquqlarını tələb edəcəklər, müdafiə

edəcəklər. Ona görə mənim onlara tövsiyəm bundan ibarətdir. Dövlət öz dəstəyini verəcəkdir. Ancaq hər şey dünyanın ən inkişaf etmiş ölkələrinin praktikasına uyğunlaşdırılmalıdır.

Bildiyiniz kimi, biznesi təşviq etmək üçün bu yaxınlarda Azərbaycanda «bir pəncərə» sistemi tətbiq olunubdur. Vaxtilə bir şirkəti yaratmaq üçün iki aydan çox vaxt lazım idi. İndi cəmi üç gün lazımdır və özü də bir yerdən, bir pəncərədən təşkil olunur. Burada, əlbəttə, həm korrupsiyanın, rüşvətxorluğun qarşısı alınır, həm də iş adamları cəmi üç gün ərzində biznesə başlaya bilərlər. Bundan sonra da biznes işini yüngülləşdirmək, xarici investisiyaları cəlb etmək üçün buna oxşar tədbirlər görüləcəkdir. Azərbaycan biznes fəaliyyəti üçün çox cəlbedici ölkəyə çevrilməlidir. Onsuz da bizim investisiya imkanlarımız dünya şirkətləri tərəfindən tanınır, onlara bəllidir. Adambaşına düşən xarici sərmayənin həcminə görə Azərbaycan MDB məkanında qabaqcıl yerlərdədir. Nəzərə alsaq ki, öz imkanlarımız da artır, xarici investisiyaları cəlb etmək üçün bizim heç bir problemimiz yoxdur. Amma mən çox istəyirəm ki, qeyri-neft sektoruna xaricdən daha da böyük investisiyalar gəlsin. Dünyanın tanınmış şirkətləri Azərbaycana gəlsinlər. Onları cəlb etmək üçün biz indi həm danışıqlar aparırıq, həm də Azərbaycanda biznes fəaliyyəti üçün şərait elə olmalıdır ki, böyük şirkətlər Azərbaycana özləri gəlsinlər.

İndi ölkəmiz inkişafdadır, iqtisadi potensial artır və gələcək perspektivlərimiz çox aydındır: həm iqtisadi imkanlar baxımından, həm də ölkədə sabitliyin möhkəm olması baxımından. Yəni Azərbaycan biznes qurmaq üçün xarici investorlardan ötrü cəlbedici ölkədir. Biz çalışmalıyıq ki, onu daha da cəlbedici edək.

Bildiyiniz kimi, indiki şəraitdə ərzaq təhlükəsizliyi məsələsi ortaya çıxır. Bu vaxta qədər bu mövzu haqqında, ümumiyyətlə, söhbət getmirdi. Bir müddət bundan əvvəl enerji təhlükəsizliyi məsələsi dünyanın gündəliyinə çıxmışdı və Azərbaycan dərhal bir etibarlı tərəfdaş kimi, öz imkanlarını təklif etdi. Biz bu gün bölgənin və gələcəkdə daha böyük mənada qitənin enerji

təhlükəsizliyinin təmin olunmasında iştirak edəcəyik. Biz bunu etibarlı tərəfdaş və dost kimi edirik. Ancaq bu gün ərzaq təhlükəsizliyi məsələsi artıq gündəliyə daxil olur. Bəlkə də hələ buna qlobal şəkildə o qədər də əhəmiyyət verilmir. Amma biz bunu görürük və bilməliyik ki, gələcəkdə bu sahədə problemlər yarana bilər.

Bildiyiniz kimi, 2007-ci ildə dünyanın bütün ölkələrində, ən inkişaf etmiş ölkələrdə də qida məhsullarının kəskin şəkildə bahalaşması getmişdir. O cümlədən də Azərbaycanda. Bu, qlobal bir problemdir. Belə olan halda, biz maksimum çalışmalıyıq ki, özümüzü əsas qida məhsulları ilə təmin edə bilək. Hələ ki, Azərbaycan iqtisadiyyatında Sovet İttifaqı zamanı mövcud olan xalq təsərrüfatının bölgü prinsipi müəyyən dərəcədə qalır. Bildiyiniz kimi, o vaxt elə təşkil olunmuşdu ki, bütün respublikalar bir-birindən asılı olsunlar. Bir yerdə məhsul istehsal olunurdu, başqa yerdə emal edilirdi. Yəni bu, bütün ölkə iqtisadiyyatını birləşdirmək üçün idi və əlbəttə, dezinteqrasiya proseslərinin qarşısının alınması üçün nəzərdə tutulmuşdu. Halbuki, Sovet İttifaqının dağılması baş verdi və bu iqtisadi əlaqələr, bir-birindən asılı olmağımız burada heç bir rol oynamadı. Sadəcə olaraq, müstəqillik qazanmış ölkələr üçün ona görə çox çətin bir dövr başlanmışdı ki, bütün iqtisadi əlaqələr pozulmuşdu.

Əlbəttə, Azərbaycanda da belə idi. Biz elə etməliyik ki, strateji məhsulları maksimum dərəcədə Azərbaycanda istehsal edək. Bilirsiniz ki, bu yaxınlarda taxıl əkini üçün nəzərdə tutulan vəsait ayrılıbdır və hər hektara görə 40 manat, yəni 50 dollar vəsait verilir. Gələcəkdə biz əlavə tədbirlər görməliyik. Biz elə etməliyik ki, Azərbaycan maksimum dərəcədə özünü təmin edə bilsin. Mən bu gün səhər sərgidə olarkən süd zavodlarının məhsulu ilə tanış oldum və çox sevindim. Çünki həmişə, bütün dövrlərdə süd məhsulları Azərbaycana xaricdən gətirilirdi, o cümlədən bu gün də xaricdən gətirilir. Xaricdən gətirilsin, heç kim buna etiraz etmir, əksinə. Amma biz özümüzü təmin etməliyik. Həm kəndlilər, fermerlər bundan

fayda götürəcək, həm də ölkəmizin ərzaq təhlükəsizliyi təmin olunacaqdır.

«Aqrolizinq» Səhmdar Cəmiyyətinin fəaliyyəti sayəsində Azərbaycanda artıq kənd təsərrüfatı texnikası istehsal olunmağa başlanmışdır. Bu da çox vacibdir. Biz maksimum dərəcədə yerli istehsalı gücləndirməliyik və bu bizim iqtisadi sahədəki prioritet məsələlərimizdən biridir. Mən sahibkarlara da tövsiyə edirəm ki, onlar bu istiqamətdə bundan sonra da lazımi addımları atsınlar.

Şəhərlərimizin xarici görünüşü də dəyişir. Şəhərlər gözəlləşir, abadlaşır. Mən artıq iki ildir ki, rayonların icra hakimiyyətinin başçılarını ayrı-ayrı qruplarla Avropanın ən inkişaf etmiş ölkələrinin şəhərlərinə göndərirəm ki, orada onlar şəhər təsərrüfatı ilə tanış olsunlar, yaşadıqları bölgələrdə abadlıq işlərinə daha da yüksək zövqlə yanaşsınlar. Bu praktika çox müsbətdir. Biz bunu davam etdirəcəyik. Ancaq onu da demək istəyirəm ki, indi gözəllik görmək üçün bəlkə də Avropa məkanına getmək lazım deyildir. Bakının gözəlliyi, hesab edirəm ki, bütün bölgələr üçün nümunə olmalıdır. Biz Bakının tarixi simasını bərpa edirik, bütün tarixi binaları təmizləyirik, işıqlandırırıq. Bakıda infrastruktur layihələrinin icrası üçün çox böyük vəsait qoyulur, həm nəqliyyat, həm də kommunal infrastrukturuna, bütün başqa sahələrə. Bütün bölgələrdə buna oxşar proseslər getməlidir və gedir. Mən tez-tez rayonlara gedirəm, öz gözümlə görürəm. Görürəm ki, vaxtilə olan primitiv yanaşmanın, zövqsüz binaların sayı azalır və müasir, gözəl, adamın ürəyini açan, göz oxşayan yeniliklər meydana çıxır. Bu çox vacibdir. Biz müasirliyə doğru gedirik. Xüsusilə də indi maddi imkanlarımız da var. Elə etməliyik ki, fərqi yoxdur, hər bir tikilən bina, müəssisə estetik baxımdan gözəl olsun. Ona görə, əlbəttə ki, mən icra hakimiyyətinin başçılarını bundan sonra da xaricə göndərəcəyəm.

Amma yenə də deyirəm, Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməlidir. Artıq bizim başladığımız layihələr özünü göstərir. Nəzərdə tutulan layihələr icra olunandan sonra isə hamı görəcək ki, doğrudan da Bakıda həm yaşamaq üçün,

həm istirahət etmək üçün, həm də işləmək üçün çox gözəl imkanlar olacaqdır.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasına bir daha qayıtmaq istəyirəm. Bu məsələlər bu gün fasilədən sonra daha da müfəssəl qaydada müzakirə olunacaqdır. Bütün icra hakimiyyəti başçıları buradadır, onlar öz məsələlərini qoyacaqlar. Bütün nazirlər buradadır, onlar öz məsələlərini qoyacaqlar. Elə etməliyik ki, növbəti illərdə də regionların inkişafı bu sürətlə getsin.

Bir daha demək istəyirəm ki, 2009–2013-cü illər üçün regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının hazırlanması işi başlanmışdır. Bütün yerlərdən tövsiyələr, yəni sifarişlər alınmışdır. Biz buna yenə də baxacağıq. Bu proqramda bütün problemlərin həlli məsələləri maksimum dərəcədə nəzərdə tutulacaqdır.

Yenə də Dünya Bankının Azərbaycan üzrə direktorunun çıxışına qayıtmaq istəyirəm. O da öz çıxışında bildirdi ki, növbəti proqramın icrasında Dünya Bankı bizimlə birlikdə işləmək arzusundadır. Biz bunu çox alqışlayırıq. Bizim əməkdaşlığımız çox uğurlu, Azərbaycan üçün çox vacib olmuşdur. Müstəqilliyimizin ilk illərində bizə maliyyə resursları lazım idi, indiki şəraitdə isə bizə daha çox tövsiyələr, məsləhətlər lazımdır. Regionların inkişafına dair ikinci proqramın nəticəsi bu olmalıdır ki, Azərbaycanda bütün infrastruktur dünya səviyyəsinə çatsın və Avropa İttifaqının meyarlarına bərabər olsun. Bu, bütövlükdə bizim siyasətimizin əsasıdır. Biz il yarım bundan əvvəl Avropa İttifaqı ilə qonşuluq siyasətinə başlayanda – proqramın müddəti 5 ildir – məhz bu məqsədi qarşımıza qoymuşduq ki, beş il ərzində Azərbaycanda mümkün olan bütün meyarlar Avropa İttifaqının meyarlarına uyğunlaşdırılsın. İstər siyasi məsələlər, siyasi sistem, istərsə də iqtisadi, regional, infrastruktur baxımından. Avropa İttifaqının təcrübəsi çox müsbətdir və əlbəttə, əgər biz növbəti illərdə buna nail olsaq, demək olar ki, qarşımıza qoyduğumuz əsas məsələləri həll etmiş olarıq. Ona görə çox vacibdir ki, növbəti proqramda məhz bu meyarlar əsas götürülsün və

proqramın icrası üçün lazımi tədbirlər görüləcəkdir. Maliyyə resursları, icra mexanizmləri təmin olunacaqdır. Birinci proqramın icrasında üzləşdiyimiz bəzi problemlər artıq aradan qaldırılacaqdır.

Bütövlükdə, demək istəyirəm ki – mən bunu giriş sözümdə də dedim – birinci proqramın əsas məsələləri 98 faiz həll olunmuşdur və növbəti illərdə biz bunu davam etdirəcəyik. Beləliklə, Azərbaycanın bölgələri inkişaf edəcək, Azərbaycan dövləti inkişaf edəcək və biz müasir, güclü dövlət yaradacağıq. Bu işdə sizin hamınıza uğurlar arzulayıram.

Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTANIN İQTİSADİ İNKİŞAF VƏ TİCARƏT NAZİRİ BOBOZODƏ QULOMCONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*13 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Prezident sarayında Tacikistanın İqtisadi İnkişaf və Ticarət naziri, Tacikistan Respublikası ilə Azərbaycan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası komissiyanın həmsədri Bobozodə Qulomconun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Bobozodə Qulomcon bildirdi ki, Azərbaycan və Tacikistan prezidentlərinin görüşlərindən irəli gələn vəzifələrə uyğun olaraq Tacikistanla Azərbaycan arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası komissiyanın işçi qrupu artıq öz işinə başlayıb və Bakıda bir sıra məhsuldar görüşlər keçirib. Qonaq növbəti iclasın bu il Düşənbə şəhərində keçiriləcəyi barədə də prezident İlham Əliyevə məlumat verdi.*

*Dövlətimizin başçısı Tacikistan prezidenti ilə görüşlərini məmnunluqla xatırlayaraq həmin görüşlərdə ikitərəfli ticarət dövriyyəsinin səviyyəsinin artırılması və uzunmüddətli iqtisadi əlaqələrin qurulması kimi mühüm məsələləri müzakirə etdiklərini vurğuladı. Prezident İlham Əliyev Bakıda keçirilən birgə Hökumətlərarası komissiyanın işçi qrupunun iclasının işə başlamasının iqtisadi əməkdaşlığımızın genişləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BMT-nin ÖLKƏMİZDƏKİ REZİDENT - ƏLAQƏLƏNDİRİCİSİ BRUNO PUEZANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*14 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Prezident sarayında BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Bruno Puezanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Bruno Pueza prezident İlham Əliyevin ölkənin regional inkişafı strategiyası ilə bağlı nitqinin diqqətlə dinlənildiyini bildirdi. O, Azərbaycanda gedən inkişafın BMT səviyyəsində böyük maraqla izlənildiyini söyləyərək dedi ki, təşkilatın Bakı ofisinin əsas məqsədi Azərbaycanda gedən bu proseslərə dəstək verməkdən ibarətdir. Bruno Pueza bu baxımdan Azərbaycan prezidenti ilə fikirlərini bölüşmək arzusunda olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatların ölkəmizin strategiyası və gələcək inkişaf proqramları barədə məlumatlı olduğunu bildirdi. Ölkə iqtisadiyyatının uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev bu inkişafda dövlətin dəstəyi ilə özəl sektorun önəmli rol oynadığını xatırlatdı. Dövlətimizin başçısı Azərbaycanın gələcək inkişafla bağlı yeni proqramlarının da olduğunu bildirdi.*

## KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

Əlahəzrət!

Milli bayramınız – Milli gün münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan ilə Küveyt arasındakı münasibətlər həm ikitərəfli qaydada, həm də beynəlxalq qurumlar çərçivəsində müvəffəqiyyətlə inkişaf etməkdədir. Əminəm ki, dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın genişləndirilməsi yolunda səylərimiz bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Küveyt xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 fevral 2008-ci il*

**BRUNEY DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Milli gün münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Bruney Darüssalam arasındakı mövcud dövlətlərarası münasibətlərin, dostluq və əməkdaşlığımızın inkişafı üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Bruney Darüssalamın dost xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 fevral 2008-ci il*

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TOMAS HENDRİK İLVESƏ**

Hörmətli cənab Prezident!

Estoniyanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, daim dostluq və əməkdaşlıq şəraitində yaşamış xalqlarımızın mənafelərinə uyğun olaraq ikitərəfli münasibətlərimiz bundan sonra da öz inkişafını davam etdirəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Estoniya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 fevral 2008-ci il*

## «XƏZƏR-LƏNKƏRAN» FUTBOL KLUBUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Prezident sarayında «Xəzər-Lənkəran» futbol klubunun üzvlərini qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar!

Əziz futbolçular, «Xəzər-Lənkəran» klubunun üzvləri!

Bu gün mən sizi «Birlik kuboku»nun qalibləri kimi qəbul edirəm. Bu gözəl qələbə münasibətilə sizi ürəkdən təbrik edirəm.

Hər bir idman növündə qazanılan uğur məni çox sevindirir. Xüsusilə futbolda. Çünki biz hamımız çox istəyirik ki, Azərbaycanda futbol daha da sürətlə inkişaf etsin və futbolçularımız bütün beynəlxalq yarışlarda yaxşı nəticələr göstərə bilsinlər. Əminəm ki, gələcəkdə bu sahə daha da sürətlə inkişaf edəcək və sizin bu kubok yarışında qazandığınız uğur, əlbəttə ki, Azərbaycanda futbolun tərəqqisinə güclü təkan verməlidir.

Çox gərgin mübarizədə çox güclü rəqiblərlə üzləşərək siz çox gözəl oyun nümayiş etdirdiniz. Mən final oyununa baxmışam və çox gərgin mübarizədə siz kuboku qazana bilmisiniz və bütün Azərbaycan xalqına sevinc bəxş etmisiniz. Xüsusilə Lənkəran sakinlərinə. O da çox vacibdir ki, «Birlik kuboku»nun qalibi paytaxt komandası deyil, Azərbaycanın gözəl guşəsi olan Lənkəran şəhərini təmsil edən komandanın futbolçularıdır. Bu onu göstərir ki, Azərbaycanın regionlarında da çox sürətlə işlər gedir, bütün sahələr inkişaf edir.

Bu yaxınlarda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının dördüncü ildönümünü qeyd edərkən bir daha gördük ki, son illər ərzində bölgələrdə nə qədər inkişaf ol-

muşdur. Mən «Xəzər-Lənkəran» klubunun stadionunun da açılışında iştirak etmişəm, tikinti zamanı da stadionla tanış olmuşam. Yəni idmanla məşğul olmaq üçün Lənkəranda çox gözəl şərait var. Əlbəttə ki, burada əsas rolu sizin sponsorunuz «Palmali» şirkəti oynayıbdır. Öz hesabına gözəl, bütün beynəlxalq standartlara uyğun olan stadion yaratmışdır və futbolçuların məişət problemlərinin həlli ilə də yaxşı məşğul olur. Azərbaycanın idmanı belə inkişaf edəcəkdir. İdmanın bütün sahələrində, bütün növlərdə güclü dövlət siyasəti hiss olunur, Milli Olimpiya Komitəsinin fəaliyyəti bu istiqamətə yönəlibdir. Gənclər və İdman Nazirliyi, federasiyalar, klublar, özəl şirkətlər, sponsorlar – biz hamımız bir nöqtəyə vurmalıyıq, elə etməliyik ki, Azərbaycanda bütün idman növləri və o cümlədən ən populyar idman növü olan futbol sürətlə inkişaf etsin.

Siz yaxşı bilirsiniz ki, futbolun inkişafında hələ çox böyük işlər görülməlidir. Baxmayaraq ki, sizin klubunuz bu yüksək mükafatı alıbdır. Deyə bilərəm və siz də bilirsiniz ki, bu, birinci qələbə deyil və burada mən xüsusilə Ağasəlim müəllimin fəaliyyətini qeyd etmək istəyirəm. İki il bundan əvvəl «Neftçi»nin Baş məşqçisi kimi, o, komandaya bu kuboku qazandırmışdır. Bu dəfə isə «Xəzər-Lənkəran» klubunun Baş məşqçisi kimi, eyni uğuru qazanmışdır. Bu onu göstərir ki, Ağasəlim Mircavadov çox peşəkar mütəxəssisdir və onun rəhbərliyi altında bizim klublarımız böyük uğurlar qazana bilirlər.

Sizin fəaliyyətinizə mən böyük qiymət verirəm və sizə yeni uğurlar arzulamaq istəyirəm.

Ancaq o da reallıqdır ki, bizim futbolumuzun inkişafı bu qələbələrlə məhdudlaşmamalıdır. Biz elə etməliyik ki, bütün beynəlxalq yarışlarda – istər klublararası, istər milli komandalar arasında – Azərbaycan futbolçuları daha da yüksək yerləri tuta bilsinlər, daha da məzmunlu oyun nümayiş etdirə bilsinlər. Həm Azərbaycanın futbol azarkeşlərini sevindirsinlər, həm də ki, Azərbaycanın futbol şöhrətini daha yüksək səviyyəyə qaldıra bilsinlər.

Futbol elə idman növüdür ki, bütün dünya kütləvi informasiya vasitələri buna böyük diqqət ayırır. Avropada, Asiyada, başqa qitələrdə keçirilən istər çempionatlar, istərsə də klublararası yarışlar həmişə dünyanın aparıcı kütləvi informasiya vasitələrinin diqqət mərkəzindədir. Televiziya verilişlərində gedən məlumat ölkələr üçün də vacibdir, çünki ölkənin beynəlxalq nüfuzuna təsir göstərir. Mən çox istəyirəm ki, yaxın gələcəkdə Azərbaycanın futbol klubları, həm də milli komanda daha yüksək nailiyyətlərə nail olsunlar, reytinqdə öz yerini artıra bilsinlər və yaxşı, gözəl futbol nümayiş etdirsinlər. Buna nail olmaq üçün indi Azərbaycanda çox geniş proqram hazırlanıbdır. Futbol klubları möhkəmləndirilir, futbol sahəsində islahatlar başlanmışdır, dövlət qayğısı artırılır, sponsorluq məsələləri öz həllini tapır. Biz elə etməliyik ki, Azərbaycanda bir neçə futbol klubu böyük potensiala malik olsun. Əgər bir, yaxud da ki, iki futbol komandası yaxşı oyun nümayiş etdirirsə və qalanları onlardan çox fərqlənirlərsə, bu həm milli çempionata o qədər də böyük maraq doğurmaz, həm də ki, bu güclü klublar da güclülərlə yarışmalıdır. Ona görə Azərbaycanda bir neçə klub Avropa səviyyəsində olmalıdır. Həm struktur baxımından, həm maliyyə məsələlərinin həlli baxımından, həm də peşəkarlıq baxımından. Biz bu sahədə ən qabaqcıl təcrübəni götürməli və tətbiq etməliyik. Əlbəttə ki, burada əsas vəzifə klubların rəhbərliyinin və sahiblərinin üzərinə düşür. Eyni zamanda, Azərbaycan dövləti də əlindən gələni edəcək ki, öz dəstəyini göstərsin.

Yəqin siz də bilirsiniz ki, indi Azərbaycanda yeni böyük olimpiya stadionunun tikintisi məsələsi müzakirə olunur. Hətta deyə bilərəm ki, ilkin layihə də mənə təqdim edilmişdir. Memarlıq baxımından da çox gözəl stadion olacaqdır. Uşaq, yeniyetmə futbolunda çox böyük yeniliklər olacaqdır. Bütün bölgələrdə stadionlar tikiləcəkdir. Necə ki, indi bütün bölgələrdə olimpiya idman kompleksləri tikilir – 13 rayonda tikilibdir, 23 rayonda indi tikilməkdədir.

O cümlədən, Lənkəranda hələ 2003-cü ildə olimpiya kompleksi tikilmişdir. Cənub bölgəsində bu yaxınlarda Masallıda da çox gözəl kompleks tikilmişdir və bütün başqa ra-

yonlarda da olacaqdır. Eyni qaydada, futbol stadionları da tikilməlidir. Həm yarışların keçirilməsi üçün, həm də məşqlər, təlim-məşq toplanışlarının keçirilməsi üçün belə imkanlar olmalıdır. Mən bilirəm ki, «Xəzər-Lənkəran» klubunda bu məsələlərə böyük diqqət göstərilir.

Yarışdan sonra mən sizinlə daha tez görüşmək istəyirdim. Amma eşitdim ki, siz Antalyaya getmisiniz, orada məşq etmiş, həm də dincəlmisiniz. Yəni bu da artıq səviyyəni göstərir. İndi dünyanın aparıcı klubları öz təlim-məşq toplanışlarını müxtəlif yerlərdə keçirirlər. Vaxt gələcək və belə təlim-məşq toplanışlarının keçirilməsi üçün başqa ölkələrdən, xaricdən Azərbaycana komandalar gələcəkdir. Hər bir imkan var – gözəl şərait, infrastruktur, iqlim. Sadəcə olaraq, gözəl idman bazası yaradılmalıdır.

Bir daha demək istəyirəm ki, qələbəniz sizin üçün çox əzizdir, sizin tərcümeyi-halınızda bu qələbənin çox böyük yeri var və olacaqdır. Əminəm ki, siz ömür boyu bu qələbə ilə fəxr edəcəksiniz. Çünki bu böyük beynəlxalq yarışda siz öz gücünüzü göstərmisiniz. Bu yarış təxminən əvvəllər Sovet İttifaqı zamanı keçirilmiş SSRİ çempionatlarına, yaxud da ki, kubok yarışlarına bənzəyir. O vaxt Azərbaycan ancaq 1966-cı ildə bürünc medala nail ola bilmişdi. O qələbə indiyədək futbol azarkeşlərinin yadındadır. Amma müstəqil Azərbaycanı təmsil edən komandalar iki dəfə kuboku əldə ediblər, qazanıblar. Ona görə bu həm sizin üçün, həm də bütün Azərbaycan futbolunun inkişafı üçün, gənc nəslin yetişməsi üçün çox vacibdir. Mən ümid edirəm ki, bu qələbədən sonra uşaqların idman bölmələrinə axını daha da güclənəcəkdir. Həm də bütövlükdə Azərbaycanda yaxşı, güclü, müasir futbol infrastrukturunun yaradılması üçün çox gözəl bir təkandır.

Mən bu gözəl qələbə münasibətilə sizi bir daha təbrik etmək istəyirəm. Siz Azərbaycanın Dövlət bayrağını qaldırmısınız, qalib gəlmisiniz, hamımızı sevindirmisiniz. Sizə yeni uğurlar arzulamaq istəyirəm. Əminəm ki, siz bundan sonra da Azərbaycan azarkeşlərini sevindirəcəksiniz. Fürsətdən istifadə edib, kamera qarşısında bütün Lənkəran sakinlərini bu gözəl

qələbə münasibətilə təbrik etmək istəyirəm. Mən bilirəm və əlbəttə, siz də bilirsiniz ki, Lənkəranda sizi necə dəstəkləyirlər, alqışlayırlar. Hətta Bakıda keçirilən klub oyunlarına sizi dəstəkləmək üçün Lənkərandan minlərlə insan gəlir. Bu məni çox sevindirir. Mən çox sevinirəm ki, məhz bölgədən olan komanda həm Azərbaycan çempionatında yüksək nəticələr göstərir, həm də beynəlxalq müstəvidə böyük qələbə qazanır. Bəlkə də Lənkəranı tanımayan, adını eşitməyən insanlar artıq bilirlər ki, Azərbaycanın belə bir şəhəri var və o şəhərin komandası MDB-dən və Baltikyanı ölkələrdən olan bütün başqa komandalardan daha güclüdür.

Sizə yeni uğurlar, cansağlığı və yeni-yeni qələbələr arzulayıram.

**Mübariz Mənsimov** *(«Xəzər-Lənkəran» klubunun Fəxri prezidenti)*: Cənab Prezident, hər şeydən öncə, vaxt ayırıb bizi qəbul etdiyinizə görə «Xəzər-Lənkəran» komandası adından dərin minnətdarlığımızı bildirmək istəyirik. «Xəzər-Lənkəran»ın Sankt-Peterburqda «Birlik kuboku»nu qazanıb Azərbaycana gətirməsinin ən böyük səbəbkarı Sizsiniz və Azərbaycan xalqıdır. Bu qələbə, sadəcə «Xəzər-Lənkəran»ın deyil, Sizin və Azərbaycan xalqının qələbəsidir. Biz belə düşünürük.

Möhtərəm cənab Prezident, son illərdə Azərbaycanda Sizin rəhbərliyiniz altında iqtisadi, siyasi, mədəni sahədə olduğu kimi, idmanda da nə qədər inkişafın olduğunu artıq hər kəs görür. Yəni, bu hər şeydən öncə, Sizin və ancaq Sizin zəfərinizdir. «Xəzər-Lənkəran» klubu olaraq biz bu qələbə ilə kifayətlənmir, bunun davamını gətirməyə söz veririk. Sizə builki seçkilərdə uğurlar diləyirik. İnşallah, seçkilərdən sonra Sizin başçılığınız altında bu uğurun daha da yüksək olacağına inanırıq. Siz dediyiniz kimi, Azərbaycanın bayrağını daha yüksəklərə qaldıracağıq, rəhbərliyiniz dövründə daha uğurlu nəticələr əldə ediləcəyinə inanırıq.

Cənab Prezident, bizi qəbul etdiyinizə və «Xəzər-Lənkəran» komandasını yüksək qiymətləndirdiyinizə görə Sizə bir daha minnətdarıq.

**A ğ a s ə l i m   M i r c a v a d o v** *(«Xəzər-Lənkəran» klubunun Baş məşqçisi*): Hörmətli cənab Prezident, Azərbaycanı təmsil edən hər bir komanda, hər bir oyunçu və yaxud hər bir şəxs ancaq bayrağımızı və bizim prezidentimizi düşünməlidir. Biz çox şadıq ki, bu qələbəni qazandıq. Mən haşiyə çıxaraq Sizə demək istəyirəm ki, final oyununda stadionda bizim azarkeşlərimiz çox idi. Klub rəhbərliyi onları «Xəzər-Lənkəran» klubunun bütün atributları ilə təmin etmişdi. FİFA-nın prezidenti Yozef Blatter, UEFA-nın prezidenti Mişel Platini və Rusiya Futbol İttifaqının prezidenti Vitali Mutko stadiona daxil olanda inanmadılar ki, onlar həqiqətən Sankt-Peterburqdadırlar, yoxsa Azərbaycanın hansısa şəhərində. Yəni bütün stadion ağ rəngdə idi. Bizim oyunçuların köynəyi ağ rəngdə idi. Final oyunu qurtardıqdan sonra Mişel Platini bir söz dedi: «Mən çox şadam ki, kubok Asiyaya yox, Avropaya gəldi». Bildiyiniz kimi, «Paxtakor» (Daşkənd) Asiya klubudur. Biz həddindən artıq çox sevindik ki, Azərbaycan Avropanı təmsil etdi və orada Azərbaycanın bayrağı dalğalandı.

Mən deyərdim ki, Azərbaycanda futbol inqilabı 1997-ci ildən, Siz Milli Olimpiya Komitəsinin prezidenti seçildiyiniz ildən başlayıbdır. O vaxtdan idmana, əsasən də, futbola daha çox diqqət göstərilibdir. Mən o vaxt orada olmuşam və indiyədək Sizin bir sözünüz yadımdadır. Dediniz ki, indi nə məşqçilərdən, nə də idmançılardan uğur gözləmək lazım deyil. Əvvəlcə onlar üçün şərait yaratmalıyıq, sonra isə uğur tələb etməliyik. Doğrudan da bizim idmançılarımız sonuncu olimpiadada qızıl medal qazandılar, olimpiya çempionu oldular.

Biz qələbədən sonra Lənkərana getdik, camaatın bizi necə qarşıladığının şahidi olduq. Onların bizi belə qarşılaması çox sevindiricidir. Cənab Prezident, bizimlə bərabər, bu hamımızı, bütün Azərbaycan xalqını sevindirir. Ona görə mən öz adımdan, klubum adından, futbolçuların adından Sizə bir daha minnətdarlığımı bildirirəm ki, Siz vaxt tapıb bizi qəbul etmisiniz. İnşallah, çalışacağıq və bu bizim borcumuzdur ki, Avropada da yaxşı çıxış edək, Azərbaycanın adını qaldıraq.

**İ l h a m  Ə l i y e v:** Vətənə dönəndə sizi qarşılamışdılar, mən bunu bilirəm. Amma növbəti qələbə ilə qayıdanda yəqin ki, siz birbaşa Lənkərana uçacaqsınız. Çünki bilirsiniz, mənim təşəbbüsümlə indi Lənkəranda beynəlxalq aeroport tikilir. Lənkəranda vaxtilə, Sovet İttifaqı zamanı aeroport var idi. Sonra o faktiki olaraq dağılmışdı. Mən səfərlərimin birində Lənkəranda olarkən gedib o əraziyə baxdım. Orada aeroportdan əsər-əlamət də qalmamışdı. Qərar qəbul etdim ki, biz Lənkəranda nəinki aeroportu bərpa edək, hətta beynəlxalq aeroport tikək. Elə aeroport ki, dünyanın istənilən yerindən oraya birbaşa uçuşlar təşkil edə bilsinlər, ən ağır yük təyyarələri də enə bilsin. Bu işlər gedir. Bu il aeroportun açılışı gözlənilir. Həm cənub bölgəsi üçün, həm də bütövlükdə Azərbaycanda müasir infrastrukturun yaradılması işində böyük hadisə olacaqdır. İndi Bakı, Naxçıvan, Gəncə beynəlxalq aeroportları var və Lənkəran Beynəlxalq Aeroportu da olacaqdır. Ona görə növbəti qələbə ilə qayıdanda siz artıq birbaşa Lənkərana uçacaqsınız.

Qeyd etdiniz ki, dünya və Avropa futbol federasiyalarının rəhbərləri o yarışda sizin oyununuzu seyr etmişlər. Mən bunu bilirəm. Bir neçə ay bundan əvvəl FİFA və UEFA-nın prezidentləri Blatter və Platini Azərbaycanda olmuşlar. Bu onların Azərbaycana ikinci səfəri idi. O vaxt mən Bakıda deyildim, Naxçıvanda səfərdə idim. Onlar mənimlə görüşmək üçün Naxçıvana gəldilər və biz orada görüşdük.

Bilirsiniz ki, həm cənab Blatter, həm də cənab Platini Azərbaycanın dostlarıdır və onların bizə dəstəyini nəzərə alaraq, mən hər ikisini «Şöhrət» ordeni ilə təltif etmişdim. Bu dəfə cənab Blatterə prezidentin Fəxri diplomu təqdim edilmişdir. Onlar da Azərbaycanda futbolun inkişafına çox böyük nikbinliklə baxırlar. Çox şadam ki, onlar artıq Azərbaycanda futbolun inkişafını öz gözləri ilə görmüşlər, o yarışı seyr etmişlər.

Onu da qeyd etmək istəyirəm ki, vurulan dörd qolun hamısı gözəl idi. Siz hamıdan yaxşı bilirsiniz ki, qol qoldan fərqlənir. Sizin vurduğunuz qollar çox gözəl, peşəkarlıq səviyyəsini göstərən qollar idi. O qollar ən qabaqcıl komandanın oyununu

belə, gözəlləşdirə bilərdi. Artıq bu, peşəkarlıq deməkdir, səviyyə deməkdir. Yenə də deyirəm ki, bu qələbə bizim hamımızda böyük ümidlər yaradır və Azərbaycanın başqa klubları üçün də bir nümunə olmalıdır. Başqa klublar da çalışmalıdır ki, Azərbaycanda birinciliyi əldə etsinlər, ondan sonra beynəlxalq yarışlara çıxsınlar və orada Azərbaycanın idman şöhrətini sizin kimi qaldırsınlar.

Mən sizi bir daha ürəkdən təbrik edirəm və sizə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTANA DÖVLƏT SƏFƏRİ

*Bakı, Heydər Əliyev Beynəlxalq Aeroportu*

*18 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Macarıstana dövlət səfərinə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Macarıstan Respublikasına dövlət səfərinə gəlmişdir.*

*Azərbaycanın və Macarıstanın dövlət bayraqlarının asıldığı Budapeştin «Farihegi-2» Beynəlxalq Hava Limanında Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı təyyarənin pilləkəni yanında Macarıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Budapeşt, Şandor sarayı*

*18 fevral 2008-ci il*

*Macarıstan prezidentinin iqamətgahının, Şandor sarayının önündəki müqəddəs Georgi meydanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Macarıstanın dövlət bayraqları ilə bəzədilmiş meydanda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul və süvari dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidentinin avtomobili sarayın girişində süvarilərin müşayiəti ilə və hərbi marşın sədaları altında meydana daxil oldu.*

*Macarıstan prezidenti Laslo Şoyom Azərbaycan prezidenti İlham Əliyevi böyük hörmət və ehtiramla qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Azərbaycanın və Macarıstanın dövlət himnləri səsləndi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin önündən keçdilər.*

*Macarıstanın dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Macarıstan prezidenti Laslo Şoyoma təqdim olundu.*

*Fəxri qarovul dəstəsi və süvarilər prezidentlərin qarşısından keçdilər.*

*Azərbaycan prezidenti İlham Əliyevin Macarıstana dövlət səfərinə böyük maraq göstərən paytaxt sakinləri də rəsmi qarşılanma mərasimini izləmək üçün meydana toplaşmışdılar.*

* * *

*Mərasim başa çatdıqdan sonra prezident İlham Əliyev Fəxri qonaqlar kitabını imzaladı. Prezidentlər rəsmi foto çəkdirdilər, qarşılıqlı xatirə hədiyyələri təqdim edildi. Dövlət başçıları Prezident sarayından Budapeştin mənzərəsini seyr etdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTAN PREZİDENTİ LASLO ŞOYOM İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Budapeşt, Şandor sarayı*

*18 fevral 2008-ci il*

*Fevralın 18-də Budapeştdə Şandor sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstan prezidenti Laslo Şoyomun geniş tərkibdə görüşü olmuşdur.*

*Macarıstan prezidenti Laslo Şoyom görüşü açaraq dedi ki, biz Qafqazda Azərbaycana strateji tərəfdaş kimi baxırıq, ölkələrimiz arasındakı əlaqələr dinamik şəkildə inkişaf edir. İkitərəfli münasibətlərimiz Avropa İttifaqı çərçivəsində də əməkdaşlığımızın genişlənməsinə xidmət edir. Macarıstan prezidenti vurğuladı ki, iqtisadi əlaqələrin inkişafı üçün yaxşı imkanlar var, biz xüsusilə energetika sahəsində Azərbaycanla əməkdaşlığa böyük diqqət yetiririk. Eyni zamanda, təhsil və elm sahəsində də əlaqələrin inkişaf etdirilməsində maraqlıyıq.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Macarıstan arasında əlaqələrin müxtəlif sahələr üzrə genişləndiyini bildirərək dedi ki, biz indi yeni səviyyəyə qədəm qoyuruq. Bu gün imzalanacaq sənədlər bu əlaqələrin hüquqi bazasını yaradacaqdır. Avroatlantik strukturlara inteqrasiya istiqamətində Macarıstanla əməkdaşlığımız, eyni zamanda, Azərbaycanın Avropaya inteqrasiyasının daha da genişlənməsinə xidmət edəcəkdir. İqtisadi əlaqələrin yaxşı perspektivlərinin olduğunu deyən prezident İlham Əliyev fevralın 19-da keçiriləcək Azərbaycan–Macarıstan biznes-forumunun əhəmiyyətli olacağını vurğuladı, energetika sahəsində müzakirələrin yaxşı getdiyini söylədi.*

*Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxundu, torpaqlarımızın 20 faizinin işğal edildiyini, ölkəmizdə 1 milyondan çox qaçqın və məcburi köçkünün olduğunu xatırlatdı.*

*Macarıstan prezidenti ölkəmizin ərazi bütövlüyünü dəstəklədiyini və münaqişənin məhz bu çərçivədə sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirdi.*

*Sonra sənədlərin imzalanma mərasimi oldu.*

## Sənədlərin imzalanma mərasimi

*Macarıstan prezidentinin iqamətgahında, Şandor sarayında ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyevin və Macarıstan prezidenti Laslo Şoyomun birgə bəyanatı qəbul olundu.*

*Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən İqtisadi İnkişaf naziri Heydər Babayev, Macarıstan tərəfindən İqtisadiyyat və Nəqliyyat naziri Cabo Kakoşi, Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında sazişi Azərbaycan tərəfindən Vergilər naziri Fazil Məmmədov, Macarıstan tərəfindən Maliyyə naziri Yanoş Vereş imzaladılar.*

*Azərbaycanın Sənaye və Energetika naziri Natiq Əliyev və Macarıstanın İqtisadiyyat və Nəqliyyat naziri Cabo Kakoşi Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi arasında əməkdaşlığa dair sazişi imzaladılar.*

*Azərbaycan Respublikasının və Macarıstan Respublikasının xarici işlər nazirlərinin birgə bəyannaməsi də qəbul olundu.*

*Sənədlərin imzalanmasından sonra prezidentlər birgə mətbuat konfransı keçirdilər.*

## AZƏRBAYCAN VƏ MACARISTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ BƏYANATLARLA ÇIXIŞLARI

*Fevralın 18-də Macarıstan prezidentinin sarayında ölkələrimiz arasında ikitərəfli münasibətlərə dair sənədlərin imzalanma mərasimi başa çatdıqdan sonra prezidentlərin birgə mətbuat konfransı keçirilmişdir. Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.*

### Macarıstan prezidenti Laslo Şoyomun bəyanatı

Xanımlar və cənablar!

Biz sizi mətbuat konfransında salamlayırıq. Mən bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə «Xoş gəlmisiniz!» deyirəm.

Cənab prezidentin ölkəmizə dövlət səfəri başlayıbdır. Bu gün bizim danışıqlarımız oldu. Sabah da danışıqlarımızı davam etdirəcəyik. Biz hesab edirik ki, iki ölkə arasında olan münasibətlər çox yüksək səviyyədədir və bugünkü münasibətlərin gələcək inkişafının çox yaxşı perspektivləri var. Xüsusən də, sənədlərin imzalanması ilə bu perspektivlər üçün möhkəm hüquqi əsaslar yaradılmışdır.

Azərbaycan Cənubi Qafqaz regionunda bizim strateji tərəfdaşımızdır. Biz Azərbaycanı belə qəbul etmişik. Münasibətlərimizdə heç bir siyasi problemin olmamasından son dərəcə məmnunuq. İkinci dünya müharibəsi zamanı Azərbaycanda həlak olmuş macar əsgərlərinin xatirəsini yad etmək məqsədi ilə Azərbaycanda xatirə lövhəsinin qoyulmasına görə mən cənab prezidentə öz minnətdarlığımı bildirirəm.

Biz cənab prezidentlə yekdil bir fikrə gəldik ki, iki ölkə arasında olan iqtisadi münasibətlərin çox yaxşı perspektivləri var. Xüsusən də, macar şirkətləri gələcəkdə Azərbaycanın kənd

təsərrüfatı sektoruna sərmayə qoymaqda maraqlıdır. Biz bunu da etiraf edirik ki, hər iki ölkə neft və qaz təchizatı sahəsində daşınma yollarının müxtəlifləşdirilməsinə böyük maraq göstərir. Bunu Avropaya, xüsusən də Macarıstan ərazisindən keçməklə çatdırılmasında maraqlıdırlar. Bu baxımdan Macarıstan Nabukko layihəsinin həyata keçirilməsini dəstəkləyir.

Macarıstan Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» çərçivəsində inteqrasiya sahəsində Azərbaycanla öz təcrübəsini bölüşmək istəyir. Biz Azərbaycanda qanunun aliliyini və demokratiyanın tam bərqərar olunması sahəsində aparılan islahatları dəstəkləyirik. Eyni zamanda, Avropa İttifaqının standartlarının, xüsusən də, insan hüquqları və mətbuat azadlığı sahəsində standartların Azərbaycanda tam bərqərar olunmasını dəstəkləyəcəyik. Sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, məni ölkənizə dövlət səfərinə dəvət etdiyinizə görə Sizə öz təşəkkürümü bildirmək istəyirəm.

Cənab Prezident, Sizin qeyd etdiyiniz kimi, bizim münasibətlərimiz strateji xarakter daşıyır və şübhə etmirəm ki, bu səfərdən sonra bu münasibətlər bütün istiqamətlərdə daha da möhkəmlənəcəkdir. Siyasi əlaqələr inkişaf etdikcə, əlbəttə ki, iqtisadi sahədə də əməkdaşlıq daha yüksək pilləyə qalxacaqdır. Beləliklə, ikitərəfli münasibətlər hərtərəfli şəkildə inkişaf edəcəkdir.

2006-cı ildə Azərbaycan Avropa İttifaqı ilə Yeni qonşuluq proqramının icrasına başlayanda bizim məqsədimiz 5 il ərzində Azərbaycanda mövcud olan meyarları Avropa İttifaqının meyarlarına yaxınlaşdırmaq olmuşdur və bu istiqamətdə biz çox sürətlə irəliyə gedirik. Macarıstanın qonşuluq proqramı çərçivəsində bizə verdiyi dəstəyə görə mən Sizə öz təşəkkürümü bildirirəm.

Bu gün ikitərəfli münasibətlərin, demək olar ki, bütün aspektləri müzakirə olundu və vahid bir qərara, fikrə gəldik ki, biz münasibətlərimizi bundan sonra da sürətlə inkişaf etdirməliyik, ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmalıyıq. İndiki zamanda dünya və Avropa üçün xüsusi əhəmiyyət daşıyan enerji təhlükəsizliyi məsələləri də bu gün müzakirə olunmuşdur. Əminəm ki, ikitərəfli münasibətlərin inkişafında bu amil də öz rolunu oynayacaqdır.

Azərbaycan çox zəngin neft və qaz yataqlarına malikdir. Azərbaycanda çıxarılan neft və qaz dörd istiqamətdə, dörd boru kəməri vasitəsilə Avropa və dünya bazarlarına nəql edilir. Keçən ilin sonunda tarixdə ilk dəfə olaraq, Azərbaycan qazı Avropa İttifaqı məkanına göndərilmişdir. Avropa İttifaqı və Macarıstanla bu sahədəki əməkdaşlığımız davam etdiriləcəkdir. Biz yeni layihələrin üzərində işləyirik və bu layihələr həyata keçdikcə, Avropanın enerji təhlükəsizliyi daha da yüksək dərəcədə təmin olunacaqdır. Azərbaycanın isə ixrac imkanları daha dolğun şəkildə icra ediləcəkdir.

Bir sözlə, mən aparılan danışıqların məzmunundan çox razıyam. Onu da qeyd etmək istəyirəm ki, mən cənab prezidenti Azərbaycana dövlət səfərinə dəvət etdim və münasib bildiyi vaxtda biz onu Azərbaycanda qarşılamağa hazırıq. Əminəm ki, bu səfər də şübhəsiz, uğurlu olacaq və ikitərəfli münasibətlərin inkişafında çox ciddi rol oynayacaqdır. Təşəkkür edirəm.

# MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ LASLO ŞOYOMUN ADINDAN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ NİTQ

*Budapeşt, Qala salonu*

*18 fevral 2008-ci il*

*Fevralın 18-də Budapeştdə, Milli Muzeyin Qala salonunda Macarıstan Respublikasının Prezidenti Laslo Şoyomun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə ziyafət verilmişdir.*

*Macarıstan və Azərbaycan prezidentləri ziyafətdə nitq söylədilər.*

## Macarıstan prezidenti Laslo Şoyomun nitqi

Cənab Prezident!

Hörmətli azərbaycanlı qonaqlar!

Xanımlar və cənablar!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi və onun nümayəndə heyətinin hörmətli üzvlərini Macarıstanda səmimiyyətlə salamlayım.

Münasibətlərimizin kökləri tarixdən gəlir: ölkələrimizdə türkdilli mədəni və dilçilik əlaqələrini yaxşı xatırlayırlar. Azərbaycan diyarını ziyarət etmiş macar səyahətçiləri və alimləri tərəfindən ümumi irsimizin ən vacib elementlərinin formalaşdırılmasından fərəhlənirik. Onların səyahət hekayətləri və gündəliklərində azərbaycanlı ev sahiblərinin qonaqpərvərliyi, məğrurluğu və cəsarəti hər zaman təsvir olunurdu. Xalqlarımızın arasında mövcud olan qarşılıqlı rəğbət həyatımızın bütün sahələrində əməkdaşlığımızı daha da

asanlaşdırır. Biz bir-birimizin adət-ənənələrini anlayırıq və dəyərlərimizi qiymətləndiririk.

Mən həyatlarını müharibə əsirləri kimi itirmiş macarları yad edən Qırıqlı kəndində qoyulmuş xatirə lövhəsinə görə Azərbaycan hökumətinə öz minnətdarlığımı bildirmək istəyirəm. Taleyin hökmü ilə bir daha öz ailələrinə heç vaxt qayıtmamış vətəndaşlarımızın xatirəsinin Azərbaycan xalqının qəlbində səmimiyyətlə yaşadığını bilmək mənə çox böyük təəssürat bağışladı.

Biz Azərbaycanı Qafqaz regionunun ən sürətlə inkişaf edən ölkəsi kimi görürük. Əhəmiyyəti ildən-ilə artan amil ondan ibarətdir ki, ölkəniz nəinki bizim üçün, həm də bütün Avropa İttifaqı üçün əsas strateji tərəfdaşdır.

Əminəm ki, təhsil və elm əməkdaşlığımızın aparıcı sahələri ola bilər. Universitet tələbələrinin mübadiləsi, birgə tədqiqat proqramları və birgə arxeoloji qazıntıların aparılması yaxşı nümunə ola bilər. Macarıstan tərəfi olaraq biz təhsil və mədəniyyət sahəsində potensial əlaqələrimizin genişləndirilməsinə və onların qarşılıqlı razılaşmalar səviyyəsinə qaldırılmasına hazır olduğumuzu məmnunluqla bir daha bəyan edirik.

Dövlətlərimiz arasında iqtisadi tərəfdaşlığın çərçivəsini formalaşdıran ən mühüm sazişlər ötən il ərzində işlənilmiş və onların əksər hissəsi bu səfər zamanı imzalanmışdır. Biz ticarət dövriyyəsinin həcmini artırmaq, qarşılıqlı sərmayələri və iqtisadi əməkdaşlığın hazırkı formalarını intensivləşdirmək arzusundayıq. Macarıstan ilə Azərbaycanın işgüzar dairələri arasında sıx və davamlı təmaslar böyük əhəmiyyət kəsb edir. Azərbaycanın sürətlə artan bazarı və ölkənizdə tələbatın dinamik artımı macar şirkətləri üçün əlavə imkanlar açır.

Enerji təhlükəsizliyinin daha da gücləndirilməsinə gəldikdə, Macarıstan Xəzər regionundan nəql edilən yanacaqlara arxalanır. Biz enerji məsələsini tərəfdaşlığımızın prioritet sahəsi kimi dəyərləndiririk. Bu sahə nəinki Macarıstan ilə Azərbaycan,

o cümlədən bütövlükdə Avropa İttifaqı üçün mühüm nəticələr verə bilər.

Macarıstan son zamanlar Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin intensivləşməsini alqışlayır. Macarıstan öz təcrübəsi ilə bu prosesə töhfə verməyə hazırdır. Biz, həmçinin Avropa İttifaqı ilə sizin mühüm ölkəniz arasında əməkdaşlıq layihələrində iştirak etməyə hazırıq.

Bu gün cənab prezidentlə bizim uğurlu danışıqlarımız oldu. Bu səfər zamanı nəinki iqtisadi sazişlər, o cümlədən bir sıra digər razılaşmalar imzalandı. Bu o deməkdir ki, biz bünövrəni uğurla qoya bilərik və hazırda onun üzərində quruculuq işlərini aparmalıyıq. Belə olan halda, azərbaycanlı dostlarımız Macarıstan tərəfinin xoş niyyətlərinə, səmimiyyətinə və dostluğa sadiqliyinə arxalana bilərlər.

Bu sözlərlə mən badəmi prezident Əliyevin və qonaqlarımızın sağlığına, Azərbaycanın daim artan uğurlarının, onun xalqının xoşbəxtliyi və Azərbaycan ilə Macarıstan arasında uzunmüddətli tərəfdaşlığın şərəfinə qaldırmaq istəyirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, səfər zamanı Macarıstan torpağında mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. İnanıram ki, mənim səfərim ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır. Keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və imzaladığımız sənədlər qarşılıqlı fəaliyyətimiz üçün yeni istiqamətlər müəyyən edəcək, əlaqələrimizin genişlənməsinə və dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Macar və Azərbaycan xalqları arasındakı münasibətlərin qədim tarixi vardır. XV–XVII əsrlərdə Azərbaycanın Ağqo-

yunlular və Səfəvilər dövlətləri ilə macar krallıqları arasında diplomatik əlaqələr və ticarət münasibətləri mövcud olmuşdur. Müxtəlif dövrlərdə Azərbaycan ədəbiyyatının görkəmli simalarının əsərləri macar dilinə, macar ədiblərinin əsərləri Azərbaycan dilinə tərcümə edilmişdir. Macar bəstəkarlarının əsərləri Azərbaycan teatrlarında tamaşaya qoyulmuşdur. Azərbaycan musiqisi, o cümlədən dünyada məşhur olan muğam və Azərbaycan simfonik musiqisi Macarıstanda maraqla dinlənilir.

Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra bu, Azərbaycan prezidentinin Macarıstana ilk dövlət səfəridir. Mən Macarıstan ilə Azərbaycan arasında münasibətlərin inkişafına xüsusi əhəmiyyət verirəm. Macarıstan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Elə o vaxtdan ölkələrimiz arasında münasibətlər qarşılıqlı anlaşma, dostluq prinsipləri əsasında inkişaf etməyə başlamışdır.

Ölkələrimiz arasında həm ikitərəfli əsasda, həm də beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq, beynəlxalq terrorçuluğa qarşı mübarizədə birgə fəaliyyətimiz böyük məmnunluq doğurur. Lakin iqtisadi əlaqələrimiz hələlik arzu olunan səviyyədə deyildir.

Son illərdə irimiqyaslı beynəlxalq layihələrin həyata keçirilməsi, xüsusən Böyük İpək Yolunun bərpası, Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin yaradılması, eləcə də Avropanın və dünyanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində səylərimiz dövlətlərimizi və xalqlarımızı bir-birinə yaxınlaşdırır.

Bu baxımdan, Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» proqramı və Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında imzalanmış anlaşma memorandumu daha geniş əməkdaşlığımız üçün xüsusi əhəmiyyət daşıyır. Energetika, sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, turizm və digər sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığımızın yaxşı perspektivləri vardır. Əminəm ki, bu gün ikitərəfli sənədlərin imzalanması,

habelə cənab Prezident, Sizinlə apardığımız danışıqlar ölkələrimiz arasında mal dövriyyəsinin həcminin artmasına, ticarət sahəsində imkanlarımızın reallaşmasına və qarşılıqlı investisiya qoymaq işinə təkan verəcəkdir.

Azərbaycan regionda təhlükəsizliyin, sabitliyin və beynəlxalq əməkdaşlığın inkişafında mühüm rol oynayır. Lakin artıq 20 ilə yaxındır ki, Azərbaycan Respublikası Ermənistanın hərbi təcavüzünə məruz qalmışdır. Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal etmiş və burada etnik təmizləmə siyasəti aparmışdır. Nəticədə ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır.

ATƏT-in faktaraşdırıcı missiyası Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etmiş, Dağlıq Qarabağın və işğal altındakı digər rayonların ermənilər tərəfindən kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırılması haqqında hesabat hazırlamışdır. Eyni zamanda, həmin ərazilərdə Azərbaycanın qədim mədəniyyət abidələri məhv edilmiş, məktəblər, muzeylər, məscidlər dağıdılmışdır.

Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə nizama salınmasını dəstəkləyir. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Şurası Parlament Assambleyası və digər beynəlxalq təşkilatların qərar və qətnamələri var.

Bu münaqişə ancaq beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, icazə verin, Avropanın ən gözəl şəhərlərindən biri olan Budapeştdə olduğumuz ilk dəqiqələrdən mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə bir daha Sizə təşəkkür edim və bu badəni Sizin şərəfinizə, dost macar xalqının xoşbəxtliyi və rifahı şərəfinə qaldırım.

Sağ olun!

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ MACARISTANIN NÜFUZLU KORVİNUS UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİ

*Budapeşt*

*18 fevral 2008-ci il*

*Fevralın 18-də Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Macarıstanın nüfuzlu dövlət ali məktəblərindən biri olan Korvinus Universitetinin Fəxri doktoru adı verilmişdir.*

*Ali təhsil ocağına gələn Azərbaycan prezidenti İlham Əliyevi universitetin rektoru Tamaş Mesaroş binanın önündə hörmətlə qarşıladı.*

*Əvvəlcə Elmi Şura üzvlərinin iştirakı ilə görüş keçirildi. Tamaş Mesaroş dövlətimizin başçısına təhsil ocağı barədə məlumat verərək bildirdi ki, Mərkəzi Avropada ən böyük ali məktəblərdən sayılan bu universitetin 7 fakültəsində 620 nəfərdən çox professor-müəllim heyəti çalışır, 17 mindən artıq tələbə təhsil alır.*

*Son 5 ildə universitet Fəxri doktor adını yalnız Azərbaycan prezidenti İlham Əliyevə vermişdir. 1919-cu ildə yaradılmış universitet İkinci dünya müharibəsi zamanı bağlansa da, sonradan öz fəaliyyətini bərpa etmişdir.*

*Prezident İlham Əliyev Fəxri doktor mantiyasını geyindi.*

*Sonra mərasim geniş konfrans salonunda davam etdirildi. Salona toplaşanlar dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı alqışlarla qarşıladılar.*

*Universitetin prorektoru Nolberd Kiş dövlətimizin başçısını və xanımını, eləcə də Azərbaycan nümayəndə heyətini salam-*

*ladı, universitetin rəhbərliyini və Elmi Şuranın üzvlərini təqdim etdi.*

*İctimai-sosial elmlər fakültəsinin dekanı prezident İlham Əliyevin tərcümeyi-halını oxudu. Universitetin rektoru Tamaş Mesaroş bildirdi ki, Azərbaycan–Macarıstan əlaqələrinin inkişafındakı roluna, eləcə də elmi, siyasi, iqtisadi sahələrdə xidmətlərinə, Azərbaycanda iqtisadi inkişafa nail olunduğuna, beynəlxalq layihələrin uğurla həyata keçirilməsində göstərdiyi xidmətlərinə görə prezident İlham Əliyevə İctimai elmlər doktoru adı verilmişdir. Rektor Fəxri doktor diplomunu dövlətimizin başçısına təqdim etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

## MACARISTANIN NÜFUZLU KORVİNUS UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*18 fevral 2008-ci il*

Hörmətli universitetin Elmi Şurasının üzvləri!
Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!

İlk növbədə, Korvinus Universitetinin bu cür yüksək dərəcəsini, Fəxri doktor adını mənə verdiyinə görə, universitetin Elmi Şurasına dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən Macarıstan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi üçün öz işimi ən yüksək səviyyədə davam etdirəcəyəm. Əminəm ki, gələn illər ərzində həmin münasibətlər strateji tərəfdaşlığın yeni mərhələsinə qədəm qoyacaqdır. Bu gün Macarıstan prezidenti tərəfindən və şəxsən mənim tərəfimdən bəyan edilmişdir ki, əlaqələrimiz strateji tərəfdaşlıq səviyyəsinə qaldırılıbdır.

İnanıram ki, bu gün mənə göstərilmiş dost münasibəti və hörmət bu siyasətin davam etdirilməsinə təkan verəcəkdir.

Bu gün mən gözəl ölkənizə dövlət səfəri edirəm. Bu, tarixi bir hadisədir, çünki Azərbaycan Respublikasının Prezidenti Macarıstana ilk dövlət səfərini edir. Qeyd olunduğu kimi, mən prezident seçildikdən dərhal sonra münasibətlərimizi möhkəmləndirmək məqsədi ilə Budapeşt şəhərində səfirliyin açılması barədə qərar qəbul etdim. Bu, ikitərəfli münasibətlərimizə verdiyimiz əhəmiyyəti göstərirdi. Mən çox şadam, ötən müddət ərzində ölkələrimiz arasında əlaqələr gücləndi. Bu gün isə olduqca mühüm ikitərəfli sənədlərin imzalanmasından sonra həmin əlaqələr tərəfdaşlığımızın yeni sahələrini də əhatə edəcəkdir.

Biz Azərbaycanda gənclərin təhsilinə çox böyük diqqət veririk. Bizim yaxşı iqtisadi göstəricilərimiz və olduqca sürətli iqtisadi inkişafımız var və nailiyyətlərimizi insan kapitalına çevirməyə çalışırıq. Biz xüsusi təhsil proqramlarını həyata keçiririk. Hökumətin təhsilə ayırdığı xərclər dövlət büdcəsində ən böyük yer tutur. Təkcə son üç-dörd il ərzində Azərbaycanda 1200 məktəb tikilmişdir. Təhsil siyasəti tədricən daha da güclənir. Biz bütün məktəblərin kompyuterləşdirilməsi və internetə qoşulması proqramını yekunlaşdırırıq. Bir neçə il bundan əvvəl belə imkanlar yox idi. Əminəm ki, ölkələrimiz arasında əməkdaşlığı daha da möhkəmləndirmək üçün biz təhsil sahəsində işbirliyimizi genişləndirməliyik. Gələcək təhsildədir. Təhsil bilik, texnologiyalar deməkdir. Hər bir ölkənin gələcək uğurları məhz onun insanlarının biliyindən, bacarığından və peşəkarlığından asılı olacaqdır.

Azərbaycan zəngin enerji ehtiyatlarına malikdir. Lakin əminəm ki, gələcəyimiz insanlarımızın peşəkarlıq və bilik səviyyəsindən asılı olacaqdır. Ölkəmiz müstəqilliyin ilk illərində ortaya çıxan əsas problemləri aradan qaldırmağa nail oldu.

Sosialist sistemindən bazar iqtisadiyyatı sisteminə keçid asan olmamışdır, lakin uğurla getmişdir. 1991-ci ildə müstəqilliyini qazanmış Azərbaycanda bazar iqtisadiyyatını əks etdirən heç bir element və ya meyar yox idi. Bu gün isə iqtisadiyyatımızın 80 faizdən çoxu bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır. Ötən illər böyük keçid dövrü kimi yadda qaldı. Mühüm iqtisadi və siyasi islahatlar bizə əsas çətinlikləri aradan qaldırmağa imkan verdi. Hazırda Azərbaycan sürətlə inkişaf edən ölkədir. Biz siyasi və iqtisadi islahatları, Avropa strukturlarına inteqrasiyanı davam etdiririk.

Artıq qeyd edildiyi kimi, bu gün Azərbaycanın Avroatlantik strukturlarına inteqrasiya siyasəti olduqca aydındır və ardıcıl şəkildə həyata keçirilir. Uzun illər ərzində biz həmin siyasəti aparmışıq. Avropa Şurasına üzvlük, «Yeni qonşuluq siyasəti» çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlıq, enerji ilə bağlı məsələlər müəyyən vaxt keçdikdən sonra Azərbaycanın hansı

nəticələri əldə edəcəyindən xəbər verir. Biz düzgün yoldayıq, yaxşı sürətlə irəliləyirik. Sizə deyə bilərəm ki, siyasi və iqtisadi islahatlar, liberallaşma, ölkədə gedən demokratik proseslər, Avropa İttifaqı ilə və regiondakı müttəfiq ölkələrlə güclü tərəfdaşlıq iqtisadi vəziyyəti gözəçarpan dərəcədə yaxşılaşdırmaq imkanını açdı.

Son dörd il ərzində iqtisadi artım sürətinə görə biz dünyada birinci yeri tutmuşuq. Son dörd ildə iqtisadiyyatımız 96 faiz artmışdır. Biz, demək olar ki, iqtisadiyyatı iki dəfə artırmışıq. Sənaye istehsalı da təqribən eyni sürətlə artmışdır. Yoxsulluq şəraitində yaşayan insanların sayını nəzərəçarpan dərəcədə azalda bildik. Son dörd il ərzində bu göstərici 49 faizdən 16 faizə düşmüşdür. Əminəm ki, yaxın gələcəkdə ölkəmizdə yoxsulluq tam aradan qaldırılacaqdır.

Azərbaycanda iqtisadi və siyasi islahatlar paralel şəkildə aparılır. Onlar bir-birini tamamlayır. Əminəm ki, bu, düzgün siyasətdir. Demokratik inkişaf, siyasi islahatlar, siyasi sistemin təkmilləşməsi, qanunun aliliyinin təmin edilməsi və eyni zamanda, iqtisadiyyatın liberallaşdırılması, özəl sektorun dəstəklənməsi, açıq iqtisadiyyat, xarici sərmayələrin cəlb edilməsi kimi bu və ya digər amillər özümüzə əminliyə və müstəqil olmağa, xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət yürütməyə imkan yaradır.

Ölkəmizin və xalqımızın qədim tarixi var. Lakin əsrlər boyu bizim dövlətçiliyimiz olmayıb, digər ölkələrin tərkibində yaşamışıq. Yalnız Sovet İttifaqının süqutundan sonra biz müstəqil ölkəyə çevrildik. Lakin bu, kifayət deyildi. Biz əsl müstəqil siyasəti, öz milli maraqlarımıza əsaslanan siyasəti, Azərbaycan xalqına sülh və əmin-amanlıq şəraitində yaşamağa imkan verəcək siyasəti həyata keçirməyə qadir olmalı idik. Sizə deyə bilərəm ki, müstəqilliyimizdən artıq 16 il keçdikdən sonra əsas strateji məqsədlərə nail olmuşuq. Azərbaycan regionda öz mövqeyini qətiyyətlə tutur. Biz tam şəkildə öz tələbatlarını ödəyən ölkəyik. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə regionda lider ölkəyik. Dünyanın əsas şirkətlərini tərəfdaş və

sərmayədar kimi cəlb etmək məqsədi ilə ölkəmizdə olduqca cəlbedici sərmayə mühitini yarada bilmişik.

Biz Azərbaycanın nəhəng neft və qaz yataqlarının işlənilməsinə başladıq və bəziləri üçün xülya kimi görünən boru kəmərlərini çəkməyə qadir olduq, bunu reallığa çevirdik. Biz boru kəmərlərimiz vasitəsilə Xəzər dənizini Qara dənizlə, eləcə də Aralıq dənizi ilə birləşdirə bildik.

Azərbaycanın böyük həcmdə neft və qazının Avropa bazarına və beynəlxalq bazarlara çıxarılmasını təmin edən infrastruktur yaratmışıq. Bu, yalnız müstəqil siyasət aparmaq qabiliyyətimiz sayəsində mümkün olmuşdur. Bunsuz həmin layihələrin heç biri reallığa çevrilə bilməzdi. Bunlar olmasaydı, biz indi özümüzə arxayın ola bilməzdik. Regionumuzda Azərbaycan əsas regional layihələrdə iştirak edir və bir çox hallarda onların təşəbbüskarıdır. Regional miqyaslı layihələr Mərkəzi Asiya, Xəzər dənizi, Qafqaz, Qara dəniz və Baltik dənizi regionları arasında daha fəal əməkdaşlıq etməyə imkan yaradacaqdır.

Əlbəttə ki, enerji amili olduqca mühüm rol oynayır. Hazırda Azərbaycan gündə 1 milyon barrel neft hasil edən ölkədir. Ölkəmiz bir əsrdən də çox müddət ərzində özümüzün və dostlarımızın tələbatlarını ödəyəcək böyük qaz yataqlarına malikdir. Biz neft və qazı nəinki hasil etməyə, onu nəql etməyə də qadir olduq.

Macarıstanla ikitərəfli məsələlər gündəliyində duran digər bir sahə enerji sahəsindəki əməkdaşlığa aiddir.

Eyni zamanda, Avropa İttifaqı və Azərbaycan strateji enerji tərəfdaşlığı çərçivəsi yaradıblar. Memorandum il yarım bundan əvvəl imzalanmışdır. Bu, zənnimcə, mühüm praktik nəticələrini verən strateji siyasətimizin aydın göstəricisidir. Azərbaycan neft və qaz sahəsində böyük potensiala, nəqletmə marşrutlarına malik olan və Xəzərdə hasil edilən qazı artıq Avropa bazarına çatdırmış ölkədir. Bu, bir neçə ay bundan əvvəl baş vermiş tarixi hadisə oldu.

Hazırkı mərhələdə biz Avropa İttifaqı və üzv ölkələrlə, eləcə də sizin regionun ölkələri, xüsusən də Macarıstanla əməkdaşlığımızı davam etdirməliyik. Bu, tərəfdaşlığımızın möhkəmləndirilməsinə xidmət edəcəkdir. Enerji ehtiyatlarımız Azərbaycan xalqının rifahına xidmət edir və regionumuzda sülhə, əməkdaşlığa, istehsalçı ilə istehlakçı arasında maraqların tarazlığına töhfə verir. Bu tarazlıq tapılmalıdır, ona görə də biz işimizi davam etdiririk və fikrimcə, artıq yaxşı nailiyyətlər əldə etmişik. Belə olan halda, enerji bazarı və enerji məsələləri bugünkü qədər vacib olmayacaqdır.

Əgər yadınızdadırsa, üç-dörd il bundan əvvəl enerji təhlükəsizliyi məsələsi gündəlikdə yox idi. Bu mövzu müzakirə obyekti deyildi və narahatlıq doğurmurdu. Lakin bu gün bunlar baş verir. Niyə? Çünki məhdud ehtiyatlar, bazara məhdud çıxış və bəzi hallarda potensial bazarların qeyri-ədalətli bölüşdürülməsi gərginlik yaradır. Əgər enerji siyasəti, enerji amili istehlakçılarla istehsalçıların maraqlarının tarazlığına, azad bazar iqtisadiyyatına, infrastruktura azad çıxışa, əməkdaşlıq və dostluğa, eləcə də qarşılıqlı dəstəyə əsaslanırsa, onda əminəm ki, enerji təhlükəsizliyi ilə bağlı gərginlik və bu məsələlərin müzakirəsinin təcili olması azalacaqdır. Əminəm ki, gördüyümüz işlər bu sahədə potensial gərginliyin azalmasına yönəlibdir.

Bir daha bəyan etmək istəyirəm, bizim enerji ehtiyatlarımız sülhə, əməkdaşlığa və tərəfdaşlığa xidmət edir. Bu siyasət davam edəcəkdir. Bu baxımdan, Azərbaycan özünün mühüm rolunu davam etdirəcəkdir. Əminəm ki, bu amil bizə Avropa İttifaqı ilə daha geniş münasibətlər qurmağa imkan yaradacaqdır. Azərbaycanın qoşulduğu Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nin həyata keçirilməsi nəticəsində biz həyatımızın meyarlarını Avropa İttifaqının meyarlarına yaxınlaşdıracağıq. Bunlar bizim planlaşdırdığımız işlərdir.

Yaxşı coğrafi mövqeyimiz var. Şərq ilə Qərbin kəsişdiyi məkanda yerləşirik. Hazırda Asiya ilə Avropa arasında Azərbaycan vasitəsilə müasir nəqliyyat infrastrukturunun yaradılmasına

töhfə veririk və mühüm rol oynayırıq. Çünki coğrafi baxımdan bunu Azərbaycanın iştirakı olmadan etmək mümkün deyildir. Biz nəqliyyat sahəsində olduqca ciddi infrastruktur yaradırıq. Zəngin təbii sərvətlərimiz, güclü siyasi iradəmiz və Azərbaycan xalqının apardığımız siyasətə tam dəstəyi var. Xarici siyasətə və enerji siyasətinə, eləcə də yerli proqramlara, yoxsulluğun və işsizliyin azaldılmasına dair atdığımız addımlar Azərbaycan xalqı tərəfindən dəstəklənir. Ölkəmizdə çox sabit və proqnozlaşdırılan vəziyyət mövcuddur.

Artıq qeyd etdiyim kimi, biz əlçatmaz səviyyəyə nail ola bildik. Dörd ildə ümumi daxili məhsulun 96 faiz artımı ciddi nailiyyətdir. Hazırkı mərhələdə biz siyasətimizi davam etdirməyi, qonşuluqda və Avropa İttifaqında olan dostlarımızla yeni razılaşmalar əldə etməyi və tərəfdaşlıq təşəbbüslərinə qoşulmağı planlaşdırırıq. Bu halda biz yenə də Macarıstanın dəstəyinə arxalanırıq. Biz həmin dəstəyi hər zaman, xüsusən də Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» ilə bağlı hiss etmişik. Əminəm ki, gələcəkdə təşəbbüslərimiz və birgə fəaliyyətimiz davam edəcəkdir.

Bütün bunlar Azərbaycanın mühüm rol oynadığı regiondakı müsbət inkişaf prosesləridir. Lakin eyni zamanda, regionda narahatlıq doğuran məsələlər də var. Yəni nail olmağa və yerinə yetirməyə planlaşdırdığımız işlər Azərbaycanın və keçmiş SSRİ-nin bəzi digər ölkələrinin uzun illər üzləşdiyi təhlükəli meyillər nəticəsində şübhə altına düşə bilər. Bu, separatizm siyasəti, ölkəmizə qarşı Ermənistanın təcavüzü, torpaqlarımızın 20 faizinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğalıdır. Azərbaycana qarşı təcavüz hətta müstəqillikdən öncə, Sovet İttifaqı vaxtlarında başlamışdır. Həmin dövrdə Sovet İttifaqının o vaxtkı rəhbərliyinin Dağlıq Qarabağdakı separatçılara birtərəfli dəstəyi nəticəsində ərazilərimiz Ermənistan silahlı qüvvələrinin təcavüzünə məruz qaldı. Torpaqlarımızın işğalı etnik təmizləmə ilə nəticələndi. Bir milyon azərbaycanlı doğma yurdundan qovulmuşdur. Hazırda həmin insanlar çətin şəraitdə yaşayırlar. Biz onlara yardım etməyə, həyat şəraitini yaxşılaşdırmağa çalışırıq. Lakin ən vacibi ondan

ibarətdir ki, onlar öz doğma yurd-yuvalarına qayıtmaq hüququna malik olmalıdırlar.

Bu gün Dağlıq Qarabağ tanınmamış, qeyri-qanuni qurumdur, orada heç bir beynəlxalq nəzarət və ya monitorinq yoxdur. Siz burada, Avropada beynəlxalq nəzarətdən kənar olan heç bir belə məkan tapa bilməzsiniz. Təhlükə məhz bundadır. Bu, bütün regiona təhlükədir. Erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə, Avropa Şurası Parlament Assambleyasının və ATƏT-in oxşar qətnaməsinə baxmayaraq, münaqişə hələ də həll olunmayıbdır. Sülh danışıqlarına sadiq qalmaq məqsədi ilə biz maksimum şəkildə konstruktiv yanaşmanı nümayiş etdiririk. Lakin hamı başa düşməlidir ki, bu, daim davam edə bilməz. Atəşkəs rejimi yarandıqdan sonra artıq 14 ildir ki, biz danışıqlar prosesindəyik. Lakin praktik nəticələr yoxdur. Bu elə bir məsələdir ki, beynəlxalq ictimaiyyət, xüsusən də Avropa strukturları ona daha fəal mövqedən yanaşmalıdırlar.

ATƏT nizamlama mandatına malikdir, lakin bu o demək deyil ki, Avropanın qalan hissəsi buna laqeyd baxmalıdır. Bu təhlükədir və bizə qarşı ədalətsizlikdir, öz torpaqlarına qayıda bilməyən 1 milyon vətəndaşın insan hüquqlarının pozulmasıdır. Nəinki Dağlıq Qarabağın özü, həm də onun hüdudlarından kənarda yerləşən və ermənilərin heç vaxt yaşamadığı yeddi rayon da işğal altındadır. Bu təhlükədir. Biz məsələnin həllinə çox çalışırıq. Lakin həll variantı kiminsə arzularına deyil, beynəlxalq hüquq normalarına, ədalətə və dünyada mövcud olan çərçivəyə əsaslanmalıdır. Belə olmasa, dünyanın quruluşu bundan əziyyət çəkəcəkdir. Belə olmasa, bu ədalətsizlik digər yerlərdə də ədalətsizliyə zəmin yaradacaqdır. Bilirik ki, dünyada və Avropada separatizm təhlükəsi olan bir çox yerlər var. Əgər bu başlasa, onun sonu olmayacaq və bizi uçuruma, düşmənçiliyə və gözlənilməyən nəticələrə aparacaqdır.

Bir sözlə, bu, bütün planlarımıza və layihələrimizə olan yeganə təhlükədir. Mən bir daha demək istəyirəm ki, biz həll

yolunu tapmaq məqsədi ilə əlimizdən gələni edəcəyik. Lakin eyni zamanda, anlayırıq ki, beynəlxalq hüquq normalarına əsaslanan ədalətli həll yolu üçün özümüz güclü olmalıyıq. Ona görə biz siyasi və iqtisadi islahatların aparılması, ölkənin müasirləşdirilməsi, ölkədəki meyarların beynəlxalq meyarlara yaxınlaşdırılması baxımından çox çalışırıq.

Biz təhsil, informasiya texnologiyaları, yeni texnologiyalar sahəsinə, iqtisadiyyatın enerji ilə bağlı olmayan sektorlarının inkişafına böyük sərmayələr yatırırıq ki, Azərbaycanın iqtisadiyyatını daha da şaxələndirək. Bu sahədə macar dostlarımızla əməkdaşlıq üçün bir çox imkanlar var. Enerji sahəsində tərəfdaşlıq uğurla gedir. Enerji şirkətlərimiz qarşılıqlı maraq doğuran məsələlər üzrə çox fəal ünsiyyət saxlayırlar. Biz bu tərəfdaşlığı neftlə bağlı olmayan sahələrə qədər genişləndirmək arzusundayıq. Bundan əlavə, humanitar aspekt var. Təhsil sahəsində əməkdaşlıq, tələbə-müəllim mübadiləsi, mədəni əlaqələr vacibdir. Biz bir-birimizi daha yaxşı tanımalıyıq, təmaslarımızı səfərdən-səfərə yox, dövri olaraq qurmalıyıq.

Bu səfərim son 16 il ərzində Azərbaycanın dövlət başçısının Macarıstana ilk dövlət səfəridir. Mən Macarıstan prezidentini ölkəmizə səfərə dəvət etdim və ümidvaram ki, o, dəvətimi qəbul edib Azərbaycana gələcəkdir.

Mən universitetin Elmi Şurasının üzvlərini, həmkarlarımı da Azərbaycana səfərə dəvət edirəm. Beləliklə, siz azərbaycanlı həmkarlarınız və tələbələrlə təmaslar qura bilərsiniz. Bu yaxınlarda biz gənc tələbələrin xaricdə, dünyanın aparıcı universitetlərində təhsil alması ilə bağlı prezident proqramını qəbul etmişik. Ötən il mən xüsusi fərman imzalamışam və bu ildən etibarən, biz ilk 60 tələbəni dünyanın aparıcı universitetlərinə göndərəcəyik. İlbəil həmin tələbələrin sayını artıracaq və onların sayını 100-ə çatdıracağıq. Tələbələr digər ölkələrdə həm də dostluq münasibətləri yaradacaqlar. Hesab edirəm ki, tələbələrimizin yollanacağı ünvanlardan biri də Macarıstan və sizin universitetiniz ola bilər. Nəzərə alsaq ki, mənim artıq bu universitetlə əlaqəm

yaranıb, mən tələbələri sizin təhsil ocağınızda oxumaq üçün bu imkandan istifadə etməyə dəvət edəcəyəm.

Hörmətli dostlar, vaxtınızı çox almaq istəmirəm. Sıralarınıza qoşulmaq şərəfinə görə sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Siz mənə yüksək Fəxri doktor adını verdiniz. Bir daha bildirmək istəyirəm, gələcək fəaliyyətim zamanı ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdırmaq və Macarıstan ilə Azərbaycan xalqlarının maraqlarına xidmət edəcək strateji tərəfdaşlıq qurmaq üçün əlimdən gələni edəcəyəm.

Sizə bir daha çox minnətdaram.

## AZƏRBAYCAN–MACARISTAN BİZNES-FORUMU

*Budapeşt, «Gresham Palace Four Seasons» mehmanxanası*

*19 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana dövlət səfəri çərçivəsində fevralın 19-da Budapeştdə Azərbaycan–Macarıstan biznes-forumu keçirilmişdir. Hər iki ölkənin dövlət başçılarının iştirak etdiyi forum Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi və Azərbaycanda İxracın və İqtisadiyyatın Təşviqi Fondu (AZPROMO) tərəfindən təşkil olunmuşdu. Forumda ölkəmizi dövlət rəsmiləri ilə yanaşı, kənd təsərrüfatı, bank, maliyyə, sənaye və digər sahələrdə fəaliyyət göstərən 30 şirkətin nümayəndələri təmsil edirdi. Macarıstan tərəfindən isə 70-dək iş adamı iştirak edirdi.*

*Forum Macarıstan prezidenti Laslo Şoyomun və Azərbaycan prezidenti İlham Əliyevin çıxışları ilə başlandı.*

*Biznes-forumun rəsmi açılışı başa çatdıqdan sonra Macarıstan prezidenti Laslo Şoyom Azərbaycan prezidenti İlham Əliyev ilə səmimiyyətlə sağollaşdı.*

### Macarıstan prezidenti Laslo Şoyomun çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən böyük şərəf hissi ilə sizin hamınızı Azərbaycan–Macarıstan biznes-forumunda salamlamaq istəyirəm. Bu biznes-forum cənab Əliyevin Macarıstana dövlət səfəri çərçivəsində təşkil olunmuşdur. Azərbaycan İpək Yolunun əsas bir hissəsində yerləşir və vaxtilə Asiyanı, Çini Avropa ilə birləşdirirdi. Hazırda İpək Yolu bərpa olunmaqdadır. Bu regionda

zəngin qaz və neft yataqları vardır. Eyni zamanda, iki ölkə – Azərbaycan və Qazaxıstan enerji tərəfdaşlığına dair saziş imzalamışdır. Bu sahədə Macarıstan da maraqlıdır və biz alternativ nəqletmə yollarının olmasında və xüsusən də, Nabukko layihəsinin həyata keçirilməsində çox maraqlıyıq.

Hazırda Azərbaycan böyük sürətlə inkişaf etməkdə olan ölkədir. Əlavə imkanlar artdıqca, Azərbaycan öz gələcəyini fikirləşir və bu gələcəyini nəinki karbohidrogen yataqları ilə, həm də iqtisadiyyatın digər sahələrinin inkişafı ilə bağlayır. Təbii ki, gərək macar şirkətləri də bu əməkdaşlığa qoşulsun.

Macar firmalarının infrastrukturun inkişafında və digər layihələrdə iştirak etmək imkanları var. İri macar firmaları ilə yanaşı, Azərbaycanla işbirliyi qurmaqda maraqlı olan kiçik müəssisələr də var və buna imkanlar yaradılmışdır. Biz dünən iki mühüm sənəd – iqtisadi əməkdaşlıq haqqında hökumətlərarası saziş, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında saziş imzaladıq. Sərmayələrin qorunması ilə bağlı saziş isə artıq qüvvəyə minmişdir.

Eyni zamanda, iqtisadi əməkdaşlıq üzrə müştərək hökumətlərarası komissiyanın yaradılması məsələsi qarşımızda duran mühüm vəzifədir. İki ölkə arasında ticarət dövriyyəsi artıq inkişaf etməkdədir. Lakin arzuedilən səviyyəyə çatmayıbdır. Ölkələr arasında təmaslar olmalıdır, ticarət palataları əlaqələr yaratmalıdır və sərmayə sahəsində əməkdaşlığa cavabdeh olan qurumlar bu işə daha fəal qoşulmalıdır. Mən bu sahədə sizə böyük uğurlar arzulayıram.

Diqqətinizə görə çox sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Bu gün mənim Macarıstana dövlət səfərimin ikinci günüdür və biz onu biznes-forumun açılması ilə başlayırıq. Bu

çox əlamətdar bir hadisədir. Bu onu göstərir ki, bizim əməkdaşlığımızın gözəl perspektivləri var.

Dünən keçirilən danışıqlarda və imzalanmış sənədlərdə əməkdaşlığımızın əsas istiqamətləri müəyyən edilmiş və bir daha iki ölkənin siyasi baxımdan yaxın olmasını əks etdirən qərarlar qəbul edilmişdir. Birgə bəyanatda bizim ikitərəfli münasibətlərimizin əsas parametrləri öz əksini tapmışdır. İndi isə biz elə etməliyik ki, imzalanmış sənədləri həyata keçirək və əldə edilmiş razılaşmaları, o cümlədən iqtisadi inkişafa yönəldək. Bunun üçün çox gözəl imkanlar var. Macarıstanla Azərbaycan arasında siyasi əlaqələr çox yüksək səviyyədədir. Mənim Macarıstana dövlət səfərimin əsas nəticələri bundan ibarətdir ki, bu siyasi əlaqələr daha da güclənəcək və yeni müstəviyə çıxacaqdır.

Bizim aramızda energetika sahəsində başlanan əməkdaşlıq çox ümidvericidir. Əminəm ki, biz buna nail olacağıq və müzakirə edilən bütün məsələlərdə bizim aramızda fikir ayrılığı yoxdur. Azərbaycan neft-qaz ölkəsidir və artıq dünya bazarlarına və o cümlədən, Avropa bazarlarına böyük həcmdə neft və qaz çıxarır. Gələcəkdə hasilatımız daha da artacaq və bizə imkan verəcək ki, həm öz milli maraqlarımızı maksimum dərəcədə həll edək, eyni zamanda, dostlarımız, tərəfdaşlarımız üçün etibarlı tərəfdaşa çevrilək. Bizim apardığımız siyasət çox aydındır, açıqdır və bu siyasət əməkdaşlığa yönəldilibdir. Biz çalışırıq və bundan sonra da çalışacağıq ki, Azərbaycanın neft-qaz ehtiyatları bu günə qədər olduğu kimi, gələcəkdə də bölgədə sülhün möhkəmlənməsinə, əməkdaşlığın dərinləşməsinə xidmət etsin.

Macarıstanla energetika sahəsində əməkdaşlıq çox uğurludur. Əminəm ki, yaxın zamanlarda bu əməkdaşlığın yeni, çox mühüm əlamətləri üzə çıxacaqdır. Beləliklə, əməkdaşlığımız həm bizim bölgə üçün, həm də Avropa İttifaqı üçün çox əhəmiyyətli olacaqdır. Eyni zamanda, biz qeyri-neft sektorunun inkişafına da çox böyük önəm veririk və çalışırıq ki, Azərbaycan iqtisadiyyatını çoxşaxəli formada inkişaf etdirək.

Bunu etmək üçün bizim öz imkanlarımız da var. İldən-ilə artan maliyyə ehtiyatlarımız imkan verir ki, Azərbaycanda genişmiqyaslı dövlət investisiya layihələrini həyata keçirək.

Biz növbəti illərdə yüz milyardlarla dollar həcmində gəlir əldə edəcəyik. Dünya Bankının hesablamalarına görə, növbəti 15 il ərzində bu məbləğ 200 milyard dollar olacaqdır, bəlkə də ondan da çox. Əlbəttə ki, bizim maliyyə çətinliklərimiz yoxdur. Amma bununla bərabər, biz istəyirik ki, ölkəmizin inkişafı üçün lazım olan iqtisadiyyat və infrastruktur layihələrinə xarici tərəfdaşlarımızı da cəlb edək. Biz Macarıstanı özümüz üçün çox yaxın dost, tərəfdaş bir ölkə kimi tanıyırıq. Macarıstan Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir və o vaxtdan bu günə qədər bütün sahələrdə əməkdaşlıq çox uğurlu olmuşdur.

Biz bütün imkanlarımızı sizin üçün təqdim edirik. Hesab edirəm ki, bugünkü biznes-forumun əsas məqsədi iş adamları arasında əməkdaşlığı dərinləşdirmək, qarşılıqlı imkanları ortaya qoymaq, təqdimat keçirmək və göstərməkdir ki, hansı sahədə hansı imkanlar var, hansı ölkə və onun şirkətləri hansı sahədə iştirak edə bilər. Biz investisiyalar üçün, o cümlədən xarici investisiyalar üçün çox cəlbedici ölkəyik. Bu günə qədər ölkəmizə on milyardlarla dollar həcmində investisiyalar qoyulub və adambaşına düşən xarici sərmayənin həcminə görə Azərbaycan bölgədə birinci sıralardadır.

Azərbaycanda bütün investisiyalar, o cümlədən xarici investisiyalar çox etibarlı şəkildə qorunur. Bizim üçün strateji olan layihələr hətta qanun kimi qəbul edilir və beləliklə, həm investorlarda, həm də yerli qurumlarda tam əminlik var ki, bu sazişlərə, layihələrə, razılaşmalara heç kim müdaxilə etməyəcəkdir. Biz xarici investisiyaları maksimum dərəcədə qorumaq üçün əlimizdən gələni edirik və bu günə qədər bu sahədə heç bir narazılıq, yaxud da mübahisəli məqam olmamışdır. Biz bu etibarı qazanmışıq və onu çox yüksək qiymətləndiririk. Əminəm ki, Macarıstan şirkətləri üçün Azərbaycanda iş görmək çox yaxşı nəticə verə bilər.

Azərbaycan bu yaxınlarda Dövlət İnvestisiya Şirkətini yaratmışdır və əminəm ki, o şirkətin imkanları barəsində bu gün burada danışılacaqdır. Şirkətin əsas məqsədi ondan ibarətdir ki, dövlət xarici investisiyaları cəlb etmək üçün özü müəyyən layihələrdə səhmdar kimi iştirak edə bilər, edir və edəcəkdir. Beləliklə, xarici investorlarda daha da böyük inam yaranır. Əminəm ki, Azərbaycan Dövlət İnvestisiya Şirkətinin çox gözəl və uğurlu gələcəyi olacaqdır. Ümid edirəm ki, Macarıstan şirkətləri də Dövlət İnvestisiya Şirkəti ilə bərabər, Azərbaycanda müxtəlif layihələri icra edəcəklər.

Eyni zamanda, dövlət xətti ilə investisiyaların həcmi ildən-ilə artır. Bu il 3,5 milyard dollar həcmində təkcə dövlət xətti ilə və ilk növbədə, infrastruktur layihələrinə və ölkənin inkişafı üçün zəruri olan bütün istiqamətlərə investisiyalar qoyulacaqdır. Mən fürsətdən istifadə edərək, Macarıstan şirkətlərini Azərbaycanda dövlət xətti ilə həyata keçiriləcək investisiya layihələrində iştirak etməyə dəvət edirəm.

Onu da demək istəyirəm ki, artıq Azərbaycan şirkətləri də xaricə investisiyalar qoyur. Bu investisiyalar artıq milyard dollarla ölçülür. Əlbəttə ki, bizim üçün maraq doğuran sahələr müxtəlifdir. İlk növbədə, bizə dost, yaxın olan ölkələrə sərmayə qoymağı nəzərdə tutmuşuq və öz şirkətlərimizi bu istiqamətə yönəldirik. Əminəm ki, biznes-forum qarşılıqlı investisiyaların qoyuluşu işinə güclü təkan verəcəkdir.

Bu fürsətdən istifadə edib, mənə və nümayəndə heyətinə göstərdiyi qonaqpərvərliyə görə cənab prezidentə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu səfər və onun nəticələri iki ölkə arasında olan dostluq əlaqələrini əhəmiyyətli dərəcədə möhkəmləndirəcəkdir.

Təşəkkür edirəm.

* * *

*Sonra forum öz işini davam etdirdi. Azərbaycanın İqtisadi İnkişaf naziri Heydər Babayev iki ölkə arasında olan iqtisadi əlaqələrdən, AZPROMO-nun prezidenti Emil Məcidov isə Azərbaycanda Macarıstan sərmayələri üçün perspektivlərdən danışdılar. Anar Axundov rəhbərlik etdiyi Azərbaycan İnvestisiya Şirkətinin təqdimatını etdi.*

*Forum çərçivəsində iş adamları arasında bir sıra ikitərəfli görüşlər keçirildi, Azərbaycanın «NJT-2000» və Macarıstanın «Borsod Chem» şirkətləri arasında 14 milyon dollarlıq xammal alınması barədə memorandum imzalandı.*

## «MACARISTAN QƏHRƏMANLARI» MEMORİALINDA ƏKLİLQOYMA MƏRASİMİ

*Budapeşt*

*19 fevral 2008-ci il*

*Fevralın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Budapeştin mərkəzində yerləşən «Macarıstan qəhrəmanları» memorialına əklil qoymuşdur.*

*Memorialın yerləşdiyi meydan XIX əsrin sonlarında, indiki parlament binasının tikildiyi vaxt salınmışdır. Macarıstanın azadlığı, ərazi bütövlüyü, suverenliyi uğrunda mübarizə aparmış bütün milli qəhrəmanların burada heykəlləri qoyulmuşdur. Bu meydan həm də ölkənin azadlıq rəmzi kimi qəbul olunur.*

*Azərbaycanın və Macarıstanın dövlət bayraqlarının asıldığı meydanda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev meydanda ucaldılmış abidə kompleksinin önünə əklil qoydu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTANIN BAŞ NAZİRİ FERENTS DYURÇAN İLƏ GÖRÜŞÜ

*Budapeşt, parlament binası*

*19 fevral 2008-ci il*

*Fevralın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstan parlamentinə gəlmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Macarıstanın Baş naziri Ferents Dyurçan və xanımı Klara Dobrev binanın önündə böyük hörmət və ehtiramla qarşıladılar.*

*Parlamentin binasında prezident İlham Əliyev ilə Baş nazir Ferents Dyurçan arasında görüş oldu.*

*Baş nazir iqtisadi əlaqələrin müxtəlif sahələrinin müəyyənləşdirilməsi və inkişafı baxımından görüşün əhəmiyyətini vurğuladı. O, prezident İlham Əliyev ilə ötən ay Davosda Dünya İqtisadi Forumu çərçivəsində görüşünü xatırlatdı və dedi ki, biz energetika, qeyri-neft sektoru və humanitar, yəni elm, təhsil, mədəniyyət sahələrində Azərbaycanla əməkdaşlığa maraqlıyıq. Macarıstan Azərbaycana regionda etibarlı tərəfdaş kimi baxır.*

*Görüşdə həm ikitərəfli baxımdan, həm də Avropa strukturları çərçivəsində elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın vacibliyi vurğulandı və gələcəkdə əlaqələrin daha da genişləndiriləcəyi bildirildi.*

*Prezident İlham Əliyev Macarıstanla iqtisadi əlaqələrin yaxşı perspektivləri olduğunu vurğuladı, Azərbaycan–Macarıstan biznes-forumunun əhəmiyyətindən danışdı. Qarşılıqlı investisiya qoyuluşu imkanlarına toxunan dövlətimizin başçısı Azərbaycanda gedən iqtisadi inkişaf proseslərindən bəhs etdi, ölkəmizin Asiya ilə Avropa arasında körpü rolunu oynadığını, bunun həm də regional baxımdan çox əhəmiyyətli olduğunu bildirdi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTAN PARLAMENTİNİN SƏDRİ XANIM KATALİN SİLİ İLƏ GÖRÜŞÜ

*Budapeşt, Macarıstan parlamenti*

*19 fevral 2008-ci il*

*Fevralın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstan Respublikası parlamentinin – Milli Assambleyanın sədri xanım Katalin Sili ilə görüşmüşdür.*

*Görüşdə parlamentlərarası əlaqələrdən danışan xanım Katalin Sili dedi ki, biz Azərbaycanı strateji tərəfdaş hesab edir, müxtəlif sahələrdə və beynəlxalq təşkilatlarda əməkdaşlığa böyük əhəmiyyət veririk.*

*O, Avropanın enerji təhlükəsizliyi məsələsində Azərbaycanın önəminin çox böyük olduğunu vurğuladı və humanitar sahədə əməkdaşlığın faydasından da danışdı.*

*Prezident İlham Əliyev qarşılıqlı əlaqələrin uğurla inkişaf etdiyini, ikitərəfli münasibətlərdə parlamentlərarası əməkdaşlığın rolunu xüsusi vurğuladı. Azərbaycanın Avroatlantik strukturlara inteqrasiya etdiyini bildirən dövlətimizin başçısı dedi ki, bu işdə iki ölkənin parlamentləri arasında əməkdaşlıq əhəmiyyətlidir. Prezident İlham Əliyev beynəlxalq təşkilatlarda parlamentarilərin uğurlu əməkdaşlığını xatırlatdı və bunun daha da genişlənəcəyinə əminliyini bildirdi.*

## BUDAPEŞTDƏ AZƏRBAYCAN SƏFİRLİYİNİN YENİ BİNASI İLƏ TANIŞLIQ

*Budapeşt*

*19 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Macarıstana dövlət səfərinin ikinci gününün sonunda ölkəmizin Budapeştdəki səfirliyinin yeni binası ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı binanın önündə ölkəmizin Macarıstandakı səfiri Həsən Həsənov və səfirliyin əməkdaşları böyük ehtiramla, gül-çiçəklə qarşıladılar.*

*Prezident İlham Əliyev səfirliyin binasının xarici görünüşünü seyr etdi. Məlumat verildi ki, yeni bina Budapeştin mərkəzi və ən gözəl məhəllələrindən birində – Ötvöş küçəsində yerləşir. Bu küçə YUNESKO-nun mədəni irs siyahısına daxil edilmişdir. İspaniya, Türkiyə, Avstriya, Çexiya və Rusiya səfirlikləri də bu küçədə yerləşir. XIX əsrin sonu – XX əsrin əvvəllərində tikilmiş bina üç korpusdan ibarətdir və memarlıq abidəsi sayılır. Bina Azərbaycan səfirliyinin mülkiyyətinə keçdikdən sonra tamamilə yenidən təmir olunmuşdur.*

*Ümumi sahəsi 1000 kvadratmetrdən çoxdur. Burada danışıqlar və konfrans salonları, diplomatlar üçün hər cür şəraiti olan iş otaqları var. Konsulluq da bu binada yerləşəcəkdir.*

*Prezident İlham Əliyev səfirliyin sərgi salonuna baxdı, ulu öndər Heydər Əliyevin büstünü ziyarət etdi.*

*Səfirliyin binası ilə yaxından tanış olan dövlətimizin başçısı diplomatları təbrik etdi, onlara uğurlar arzuladı, tövsiyə və tapşırıqlarını verdi.*

## Səfər başa çatdı

*Fevralın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana dövlət səfəri başa çatmışdır.*

*Azərbaycanın və Macarıstanın dövlət bayraqlarının asıldığı Budapeştin «Farihegi-2» Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Macarıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, digər rəsmi şəxslər böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün gecə Bakıya qayıtdı. Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## QEYDLƏR

**1. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min $km^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 5,6,38,86,198.

**2. Akihito** (d.1933) – 1989-cu ildən Yaponiya imperatoru. İmperator Hirohitonun oğlu. – 5.

**3.** ***bp,*** «B r i t i ş P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 7,207.

**4. «Şahdəniz»** – Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 7,122,138, 237,276.

**5. Endryu İnqlis** (d.1960) – britaniyalı mühəndis. 2004–2007-ci illərdə *bp*-nin əvəzedici direktoru və *bp*-nin kəşfiyyat və istehsalat biznesi üzrə Baş direktoru olmuşdur. – 7.

**6. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min $km^2$, əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. – 8.

**7. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa)

birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox Avropa dövlətləri də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 11,12,13,16,195,224–225,243,293, 310,313,314,317,318,321,322,323,325,326,327,333.

**8. «Yeni qonşuluq siyasəti»** (YQS) – Avropa İttifaqının qonşu ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsinə, Avropa İttifaqı və qonşu ölkələr arasında təhlükəsiz və firavan zonalar, Avropa İttifaqı sərhədlərində «dost ölkələr dairəsi» yaratmaga, həmçinin Aİ ilə qonşu ölkələr arasında siyasi, təhlükəsiz, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq etməyə şərait yaradır. YQS-nin əsas məqsədi Avropa İttifaqının qonşu ölkələrində stabilliyin, təhlükəsizliyin qorunması, maraqlı ölkələrdə rifah halının yaxşılaşdırılmasıdır. – 11,12,313,318,321,323,327.

**9. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 12,13,55,107,

108,124,125,126,151,162,163,164,177,178,180,181,182,184,188,195,196,311,319,326,327,328.

**10. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 12,126, 151,162,188.

**11. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,1 milyon $km^2$, əhalisi 146, 3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəharidir. – 12,13, 38,94,126,151,188,198,229, 231,242, 260, 266,340.

**12. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 12,17,126,177,295.

**13. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9 518,9 milyon km$^2$, əhalisi 287,7 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 12,32,51,91,95,114, 115, 126,150,151,188,194, 198,243,252,259.

**14. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58, 4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. –12, 32,51,80,126,151,188,198.

**15. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 16,54,92,105,122,144, 236, 237,238,276,284.

**16. Bakı–Tbilisi –Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan keçir, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). – 16, 44,54,105,122,237,239, 276.

**17. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanmışdır. Yolun uzunluğu 826 km-dir. Gürcüstanın Axalkalaki stansiyasından Qars şəhərinə qədər olacaqdır. – 16,44,54,106,111,239,277.

**18. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası Hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 16.

**19. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 16,17,113,242.

**20. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 76,5 milyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 16,17, 32,36,38,44,47,106,142,198,220–231,340.

**21. İpək Yolu**, Böyük İpək Yolu – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 17,35,318,331.

**22. GUAM –** Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan qurumu tərk etdi. – 17.

**23. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məf-

kurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əli-

yevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu Fəxri adlara layiq görülmüşdür. – 19,26,31,34,46,47,49,145,155,165,170,171, 172,180,184,186,259,260.

**24. Ziya Məmmədov,** Ziya Arzuman oğlu (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2005-ci ildən isə Azər-

baycan Respublikasının Nəqliyyat naziridir. – 22,35–37, 102,129–131.

**25. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. –24,84.

**26. Pərviz Müşərrəf** (d.1943) – 2001–2007-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi olmuş, 1999-cu ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gəlmişdir. – 24,84.

**27. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h - ş ü k ü r H ü m m ə t o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 25,28,29.

**28. Qurani-Şərif,** ə l - Q u r a n – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 25,28,30.

**29. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zil-hiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahlarının bağışlanması günü kimi qeyd edirlər. – 26,28.

**30. Bibiheybət ziyarətgahı –** Bakının Şıx ərazisində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi-Kazımın qızı Hökumə və onun Heybət adlı nökəri dəfn olunmuşdur. «Bibiheybət» adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdi. Respublikamız müstəqillik qazandıqdan sonra prezident Heydər Əliyevin təşəbbüsü ilə məscid yenidən tikilmişdir. – 26–28.

**31. İmam Museyi-Kazım** – şiə məzhəbinə etiqad edənlərin yeddinci (744–799) imamı.– 26,28.

**32. Həzrəti Hökümə,** H ə k i m ə – imam Rzanın bacısı. VII əsrdə yaşamışdır. Təxminən 1257-ci ildə Şirvanşah Fərrux Zal tərəfindən Bibiheybətdə onun şərəfinə birinci türbə tikilmişdir. – 26,28.

**33. Hacı Hikmət Əlizadə** (d.1954) – din xadimi. 1994-cü ildən Bibiheybət məscidinin axundudur. – 27.

**34. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. 1905–14-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadratplanlı Təzəpir məscidinin Baş fasadındakı üçtağlı eyvanı, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı gunbəzlə örtülmüşdür. İbadət zalının quruluşu yerli memarluq konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 29–30.

**35. İslam Universiteti** – Qafqaz Müsəlmanları İdarəsinin nəzdində 1991-ci ildə Bakı İslam Mədrəsəsinin bazası əsasında yaradılmışdır. Hazırda universitetdə İslamşünaslıq və Şəriət

fakültələri var. Universitetdə bakalavr səviyyəsində Dinşünaslıq ixtisası, magistratura səviyyəsində isə Dinlərin tarixi və İslamşünaslıq ixtisasları üzrə kadrlar hazırlanır. –29.

**36. Yavər Camalov** (d.1949) – mühəndis. Azneft İstehsalat Birliyinin Baş direktoru olmuşdur. Hazırda Müdafiə Sənayesi naziridir. – 31–33.

**37. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p ub-l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 32,36,38,47,82,91,261,266.

**38. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 57, 5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 32,36.

**39. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 32,206.

**40. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbə-

kistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 33,76,138,173, 174,229,230,231,244,246,256,257,266,289,303.

**41. «İqlim» Elmi İstehsalat Müəssisəsi** – Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tərkibində müəssisə. Müəssisənin (İSO) 9001–2001 standartının tələblərinə uyğun sertifikatı vardır. – 34.

**42. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan

xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 35,38,46,47,48,49,64,68,80–83,85, 86,155,156,180,181,182,184,185,189,217,220,320,338,340.

**43. Leyla Əliyeva,** Leyla İlham qızı (d.1986) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla

Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. – 38.

**44. Oqtay Şirəliyev,** O q t a y  K a z ı m  o ğ l u (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. – 38,91.

**45. Əli Bayramlı** – Azərbaycanda şəhər. Şəhərin adı 1938-ci ilədək Zubovka, 2010-cu ildən isə şəhər vilayətin tarixi adı ilə Şirvan adlandırıldı. Şəhərin sahəsi 30 $km^2$, əhalisi 81,8 min nəfərdir. – 38–52,93.

**46. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 38,39,122,138,139,142,143,238.

**47. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 0,013 min $km^2$, əhalisi 89,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 39,138,139,305.

**48. Azərbaycan Tibb Universiteti** – respublikada tibb mütəxəssisləri hazırlayan ali məktəb. 1919-cu ildə Bakı universitetinin nəzdində tibb fakültəsi, 1930-ci ildə isə həmin fakültənin əsasında müstəqil tibb institutu yaradılmışdır. Universitetin 7 fakültəsi, 75 kafedrası var, 8 minə yaxın tələbə təhsil alır. – 49,102.

**49. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1539 $km^2$, əhalisi 218 min nəfərdir. – 39,93,299–306.

**50. Etibar Pirverdiyev** (d.1964) – 2001-ci ildən «Azərenerji» ASC-nin prezidenti vəzifəsində çalışır. – 50,98.

**51. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal-qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 $km^2$, əhalisi 329,3 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhərinə çevrildi. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 52.

**52. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 49,222.

**53. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 49,220,340.

**54. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveyjridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 49,220.

**55. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var. – 35,208.

**56. Koreya,** K o r e y a   R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 98,5 min $km^2$, əhalisi 45,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və mərkəzə tabeli 6 şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı – birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 36,61.

**57. Kürdəmir** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1632 $km^2$ , əhalisi 110,1 min nəfərdir. – 35–37,93.

**58. Şamaxı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1610 $km^2$, əhalisi 98,3 min nəfərdir.

Paytaxtı Şamaxı şəhəridir. Şamaxı Azərbaycanın qədim şəhərlərindəndir. Şamaxı haqqında antik dövr, ərəb, fars, türk, həmçinin rus və orta əsr Avropa müəllifləri məlumat vermişlər. Şamaxının adı ilk dəfə yunan coğrafiyaşünası Ptolemeyin (II əsr) «Coğrafi təlimnamə» əsərində «Şamaxeya» və ya «Kemaxeya» kimi çəkilir. Şamaxının salındığı tarix dəqiq məlum deyil. – 36,93.

**59. Cavid Qurbanov,** Cavid Qənbər oğlu (d.1958) – mühəndis. 2007-ci ildən «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin, 2015-ci ildən «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, Texnika elmləri üzrə fəlsəfə doktoru. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Təbii Ehtiyatlar, Energetika və Ekologiya məsələləri daimi Komitəsinin üzvüdür. – 37,130.

**60. Rövnəq Abdullayev,** Rövnəq İbrahim oğlu (1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir.

Rövnəq Abdullayev Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. – 38,142,143.

**61. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı işğal etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 55–56,125,164,183.

**62. Şuşa Mədəni-Maarif Texnikumu** – hazırda (2010-cu ildən) Şuşa Humanitar Kollejidir. – 55–56.

**63. Misir Ərəb Respublikası** – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 57.

**64. İsgəndəriyyə kitabxanası** – qədim dövrün ən məşhur kitabxanası. E.ə. III əsrin əvvəllərində İsgəndəriyyə museyonu nəzdində yaradılmışdı. İsgəndəriyyə kitabxanasına görkəmli alimlər – Eratosfen, Zenodot, Kallimax və başqaları başçılıq etmişlər. Fondunda 100 mindən 700 minədək cild kitab olmuşdur. İsgəndəriyyə müharibəsi dövründə (e.ə.47-ci il) İsgəndəriyyə kitabxanası yanmış, sonradan yenə bərpa edilmişdir. Eramızın 391-ci ilində İsgəndəriyyə kitabxanasının bir hissəsini fanatik xristianlar dağıtmış, ərəblərin hakimiyyəti dövründə (VII–VIII əsr) kitabxana tamamilə məhv edilmişdir. – 57.

**65. İordaniya,** İordaniya Haşimilər Krallığı – Qərbi Asiyada dövlət. Sahəsi 89,4 min km$^2$, əhalisi 6,5 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ammandır. – 58.

**66. II Abdullah,** Abdullah bin Hüseyn (d.1962) – 1999-cu ildən İordaniyanın kralıdır. – 58.

**67. Sudan,** Sudan Respublikası – Şimal–Şərqi Afrikada dövlət. Sahəsi 2,5 milyon km$^2$, əhalisi 31 milyon nəfərdir. İnzibati ərazisi 9 ştata bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı (parlament) Ali Milli Şuradır. Paytaxtı Xartumdur. – 59.

**68. Ömər Həsən əl-Bəşir** (d.1944) – Sudan hərbi və dövlət xadimi, prezident. 1989-cu ildə hərbi çevrilişdən sonra hakimiyyətə gəlmişdir. – 59.

**69**. **Kuba,** K u b a   R e s p u b l i k a s ı – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11,1 milyon nəfərdir. Paytaxtı Havana şəhəridir. Dövlətin ali orqanı birpalatalı Milli Assambleyadır. Dövlətin və hökumətin başçısı – Dövlət Şurasının sədridir. – 60.

**70. Fidel Kastro,** K a s t r o   R u s (d.1926) – 1960–2008-ci illərdə Kuba Respublikası Dövlət Şurası və Nazirlər Sovetinin sədri, 1965–2011-ci illərdə Kuba KP MK-nın Birinci katibi və Kuba Silahlı Qüvvələrinin Baş komandanı. 1953-cü ildə Batista diktaturasına qarşı silahlı üsyana başçılıq etmişdir. – 60.

**71. Li Men Bak** (d.1941) – 2008–2013-cü illərdə Koreya Respublikasının prezidenti olmuşdur. – 61.

**72. Sloveniya,** S l o v e n i y a   R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 20,3 min km$^2$, əhalisi 1,96 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyanadır. – 62.

**73. Danilo Tyurk** (d.1952) – Sloveniya hüquqşünası, Beynəlxalq hüquq üzrə mütəxəssis, diplomat. 2007–2012-ci illərdə Sloveniyanın prezidenti olmuşdur. – 62.

**74. Özbəkistan,** Ö z b ə k i s t a n   R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 23,3 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 63.

**75. İslam Kərimov,** İ s l a m   Ə b d u q ə n i   o ğ l u (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı

illərdə Özbəkistan KP MK-nın Birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 63.

**76. Əbülfəs Qarayev,** Ə b ü l f ə s   M ü r s ə l   o ğ l u (d.1956) – fəlsəfə doktoru. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmiş, mədəniyyət və turizm sahəsində xeyli təqdirəlayiq işlər görülmüşdür. – 64,65.

**77. Toğrul Nərimanbəyov**, T o ğ r u l   F ə r m a n   o ğ l u (d.1930–2013) – rəssam. Azərbaycan və SSRİ Xalq rəssamı. Məişət, portret, mənzərə və natürmort janrlarında, monemental boyakarlıq, illüstrasiya və teatr rəssamlığı sahəsində fəaliyyət göstərmişdir. Yaradıcılığında monumental boyakarlıq mühüm yer tutur. «Qobustan kölgələri» (F.Qarayev), «Yeddi gözəl» (Q.Qarayev), «Min bir gecə» (F.Əmirov) baletlərinə verdiyi bədii tərtibat Azərbaycan teatr rəsamlığının qiymətli nümunələrindəndir. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatıdır. – 65.

**78. Ploşko Uosif Kasperoviç** (1866–1930) – memar. Milliyyətcə polyakdır. 1897-ci ildə Bakıya gəlmiş, burada bir sıra yaşayış binalarının  layihəsini vermişdir. Ploşkonun ən məşhur işləri Bakıda fransız qotikası ruhunda tikilmiş M.Muxtarovun sarayı (indiki Səadət sarayı, 1911–12) və Venesiya qotikası uslubunda inşa edilən «İsmailiyyə» (indiki Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binası, 1908–13) binasıdır. – 65.

**79. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı –** XX əsrin 20-ci illərində yaranmış Azərbaycan teatrı. 1936-cı ildən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı adlanır. Ötən müddət

ərzində teatrda 513 yeni tamaşa hazırlanmış, 33505 tamaşa göstərilmişdir. – 65.

**80. Azərbaycan Dövlət Filarmoniyası** – respublikanın ən böyük musiqi təşkilatı. Azərbaycanda Filarmoniya 1936-cı ildə təşkil olunmuşdur (həmin ildən də M.Maqomayevin adını daşıyır). Filarmoniyanın nəzdində Simfonik orkestr, Mahnı və rəqs ansamblı, Rəqs ansamblı, Xor kapellası, Simli kvartet fəaliyyət göstərir. – 65.

**81. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312, 7 min km$^2$, əhalisi 38, 7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 65,67,209.

**82. Çingiz Hüseynzadə,** Ç i n g i z M u x t a r o ğ l u (d.1951) – şərqşünas. Azərbaycan Atletika Federasiyasının prezidenti. 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 69,78.

**83. Beynəlxalq Olimpiya Komitəsi (BOK)** – muasir olimpiya hərəkatının daim fəaliyyət göstərən ali orqanı. Pyer de Kubertenin təşəbbüsü ilə yaradılmışdır. 1997-ci ildə BOK-un tərkibində 200 üzv (70-dən artıq ölkədən) var idi. BOK-u 200-ə yaxın Milli olimpiya komitəsi tanıyır. Mənzil-qərargahı Lozannadadır (İsveçrə). – 69,75,147,249–250.

**84. Pekin** – Çinin paytaxtı (1949-cu ildən). Ölkənin siyasi, iqtisadi, elm və mədəniyyət mərkəzi. Əhalisinin sayına görə ölkənin ikinci (Şanxaydan sonra) şəhəri, Böyük Çin düzənliyində, Yundinxe çayı hövzəsindədir. Sahəsi 17,8 min km$^2$, əhalisi 19, 7 milyon nəfərdir.

Pekin haqqında ilk məlumat e.ə. ikinci minilliyə aid edilir. Pekin Çinin ən iri sənaye mərkəzlərindəndir. – 69,76.

**85. Olimpiya oyunları** – Qədim Yunanıstanda Olimpiya şəhərində e.ə.776-cı ildən Zevsin şərəfinə (ənənəyə görə 4 ildən bir) keçirilən ümumyunan bayramı və yarışları. Olimpiya oyunlarının keçirildiyi müddətdə bütün yunanlar üçün «Müqəddəs sülh» məcburi idi.

Müasir dövrdə ən böyük beynəlxalq kompleks idman yarışları. P.de Kubertenin təşəbbüsü ilə 1896-cı ildən keçirilir. Olimpiya oyunları proqramına Beynəlxalq Olimpiya Komitəsinin təsdiq etdiyi idman növləri daxil edilə bilər. – 69.

**86. Sidney** – Avstraliyada şəhər. Yeni Cənubi Uels ştatının inzibati mərkəzi. Əsası 1788-ci ildə qoyulmuşdur. –76.

**87. Vüqar Həşimov,** V ü q a r Q a s ı m o ğ l u (1986–2014) – Azərbaycan şahmatçısı, qrossmeyster (2002), şahmat üzrə üçqat Azərbaycan çempionu (1995,1996,1998). 2009-cu ildə Azərbaycan yığmasının heyətində Avropa çempionu, İtaliyada müntəzəm olaraq keçirilən Recco–Emiliya şahmat turnirinin qalibi olmuşdur. – 78.

**88. Elnur Məmmədli** (d.1986) – 2006-cı ildə cüdo üzrə Avropa çempionu, 2007-ci ildə dünya çempionatının gümüş mükafatçısı, 2008-ci il Pekin olimpiya oyunlarında isə 73 kq çəki dərəcəsində olimpiya çempionu olmuşdur. – 78.

**89. Zərifə Salahova,** Z ə r i f ə T e y m u r q ı z ı (d.1932) – ictimai xadim. Miniatür kitab muzeyinin təsisçisi və rəhbəri. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 78.

**90. Azad Rəhimov,** A z a d A r i f o ğ l u (d.1964) – 2006-cı ildən Azərbaycan Respublikası Gənclər və İdman naziridir. – 79.

**91. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend

adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 61,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. –80,198,203,210,211.

**92. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; aqrar elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 80,83.

**93. Nailə Vəlixanlı,** N a i l ə M ə m m ə d ə l i q ı z ı (d.1940) – tarixçi-şərqşünas alim. Tarix elmləri doktoru. MEA-nın həqiqi üzvü. Azərbaycan Tarixi Muzeyinin direktoru. Elmi əsərlərində Azərbaycanın orta əsrlər tarixinin mənbəşünaslıq problemləri, regionun Ərəb Xilafəti tərkibində mövqeyi, sosial-iqtisadi münasibətlər, siyasi-mədəni tarix və tarixi coğrafiya məsələlərinə aydınlıq gətirmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 80–83.

**94. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur messenat, maarifpərvər Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz Səhmdar Cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin Azərbaycan dilinə tərcümələri çap etdirir. 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 80–83.

**95. Bənazir Bhutto** (1953–2007) – Pakistanın dövlət və siyasi xadimi, keçmiş Baş nazir. – 84.

**96. Hacıbala Abutalıbov,** Hacıbala İbrahim oğlu (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 86,128–129,193,307.

**97. Çaykovski,** Pyotr (1840–1893) – böyük rus bəstəkarı. Çaykovski musiqili dramaturgiyada zərif psixoloq, ustad simfoniyaçıdır. O, musiqidə insanın daxili aləmini açmış, operada, baletdə, simfoniyada məşhur obrazlar yaratmışdır. Çaykovskinin «Füsunkar qadın», «Yevgeni Onegin», «Mazepa» «İolanta» operaları, «Yatmış gözəl», «Qu gölü», «Şelkunçik» baletləri və bir sıra simfoniyaları onu dünyada məşhurlaşdırmışdır. – 86.

**98. Ştraus İohann** (ata), (1804–1849) – görkəmli Avstriya bəstəkarı, skripkaçı və dirijor. J.Lanner ilə birgə Ştraus yeni vals növünün – Vyana valsının yaradıcısı sayılır. Ritmik çeviklik, melodiyanın ifadəliliyi Vyana valsına geniş şöhrət qazan-

dırmışdır. Ştrausu «valsın atası» adlandırmışlar. Ştraus 152 valsın müəllifidir. – 86.

**99. Sviridov Georgi** (1915–1998) – rus bəstəkarı, pianoçu, ictimai-musiqi xadimi, klassik rus musiqisinin davamçılarından biri. SSRİ Xalq artisti, Dövlət və Lenin mükafatları laureatı. Sviridovun yaradıcılıq fəaliyyəti vokal musiqi sahəsində daha çox tanınmışdır. – 86.

**100. Alim Qasımov,** A l i m  H ə m z ə  o ğ l u (d.1957) – xanəndə. Azərbaycan Respublikasının Xalq artisti. Muğam sənətinin, xüsusilə də «tarab» janrının biliciləriındəndir. Alim Qasımov 1999-cu ildə Beynəlxalq İMC YUNESKO musiqi mükafatını almışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. Respublika Dövlət mükafatı laureatıdır. – 86,220.

**101. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 $km^2$, əhalisi 324,7 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. –93,305.

**102. Siyəzən** – Azərbaycan Respublikasında inzibati rayon. 1940-cı ildə təşkil edilmişdir. 1959-cu ildə ləğv olunaraq ərazisi Dəvəçi rayonunun tərkibinə qatılmış, 1992-ci ildə yenidən bərpa edilmişdir. Sahəsi 703,4 $km^2$, əhalisi 39,9 min nəfərdir. – 93.

**103. Salyan** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1632 $km^2$, əhalisi 95,6 min nəfərdir. – 93,144.

**104. Masallı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 721 $km^2$, əhalisi 211,9 min nəfərdir. –93.

**105. İmişli** (1938-ci ilədək Qaradonlu rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir.

Cənub-qərbdə İranla həmsərhəddir. Sahəsi 1821 $km^2$, əhalisi 121,9 min nəfərdir. – 93.

**106. Yevlax** – Azərbaycan Respublikasında inzibati rayon. 1935-ci ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Ağdaş, Bərdə, Goranboy rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1555 $km^2$, əhalisi 123,5 min nəfərdir. – 93.

**107. Şəki –** (1968-ci ilədək Nuxa rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Oğuz rayonuna verilmiş, 1965-ci ildə yenidən mustəqil rayon olmuşdur. Sahəsi 2,43 min $km^2$, əhalisi 179,1 min nəfərdir. – 93.

**108. Şəmkir rayonu** (1930–91-ci illərdə Şamxor rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Kiçik Qafqazın şimal-şərq yamacında, Gəncə–Qazax düzənliyində və Acınohur öndağlığında yerləşir. Sahəsi 1656,8 $km^2$, əhalisi 203,9 min nəfərdir. – 93.

**109. Qazax** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2202 $km^2$, əhalisi 92,7 min nəfərdir. – 93.

**110. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 $km^2$, əhalisi 188, 4 min nəfər. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 93, 155–169,172–176.

**111. Ağcabədi** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib, ərazisi Ağdam rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1756 $km^2$, əhalisi 110,4 min nəfərdir. – 93,138,159,170–187.

**112. Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST)–BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s. – 93,216.

**113. Səfər Əbiyev,** S ə f ə r A x u n d b a l a o ğ l u (d.1950) – general-polkovnik. 1995–2013-cü illərdə Azərbaycan Respublikasının Müdafiə naziri olmuşdir. – 95,168.

**114. «Azenko»** – Azərbaycanda tikinti şirkəti. 2006-cı ildən fəaliyyətə başlamışdır. «Azenko Holdinq»in tərkibinə beş tikinti şirkəti daxildir. Yarandığı vaxtdan «Azenko» hotel binalarının, hündür mərtəbəli evlərin, biznes mərkəzlərinin tikinti işləri ilə məşğul olur. – 95.

**115. Fars körfəzi** – Cənub-qərbi Asiyada Hind okeanı sahillərində (BƏƏ, Qətər, Səudiyyə Ərəbistanı, Küveyt, İraq, İran) körfəz. Sahəsi 240 km$^2$, uzunluğu 926 km, eni 320 metrə yaxın, dərinliyi 115 metrə yaxındır. – 96.

**116. Əbu-Dabi** – Birləşmiş Ərəb Əmirliyində, ölkənin mərkəzində Fars körfəzi sahilində əmirlik. Sahəsi 67 min km$^2$, əhalisi 1,5 milyon nəfərdir. – 96.

**117. Əmman** – İordaniyanın paytaxtı (1946). Tarixi memarlıq və arxeoloji abidələrlə zəngin bir şəhərdir. Ölkənin turizm mərkəzidir. Əhalisi 2,8 milyon nəfərdir. – 96.

**118. Akaba** – Cənubi İordaniyada, Akaba körfəzi (Qırmızı dənizdə) sahilində port-şəhər. Əhalisi 40 min nəfərdir. – 96.

**119. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublikanın sahəsi 5,5 min km$^2$, əhalisi 435,3 min nəfərdir. Hazırda 7 inzibati rayonu ( Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi var. – 99.

**120. Zərifə xanım,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 111–112.

**121. Aktau** (1964–91-ci illərdə Şevçenko) – Qazaxıstanın qərbində şəhər. Manqışlaq vilayətindədir. Əhalisi 153,1 min nəfərdir. Xəzər dənizində port, neft-qaz hasilatı rayonunun mərkəzi. – 111.

**122. Türkmənbaşı** – Türkmənistanda Xəzər dənizi sahilində port-şəhər. Əsası 1869-cu ildə qoyulmuşdur. 1933-cü ildə adı Qızılsu, 1993-cü ilə qədər isə Krasnovodsk olmuşdur. – 111.

**123. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas. 2003–2013-cü illər Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri, Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biri olmuşdur. Hazırda Odessa şəhərinin qubernatorudur. – 113.

**124. ABŞ Konqresi,** A m e r i k a B i r l ə ş m i ş Ş t a t l a r ı K o n q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr Palatasından ibarətdir.

Senatın 100 üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr Palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 114,115.

**125. Nümayəndələr Palatası** – ABŞ-da parlamentin aşağı palatasının adı. Nümayəndələr Palatası ABŞ-da 1787-ci il Konstitusiyasına əsasən yaradılmışdır. –114,115.

**126. Telia Sonera** – Skandinaviyada İsveçin Telia və Finlandiyanın Sonera adlı 2 GSM operatorlarının 2002-ci ildə birləşərək qurduqları ən böyük GSM operatoru. Şirkətin 150 milyona yaxın abonenti vardır. «Azercell»in ortaqlarından biridir. – 116.

**127. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 125,164.

**128. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n F ə t t a h o ğ l u (d.1961) – general-polkovnik. 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 131–132.

**129. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. –138,200,218,219.

**130. Hüseynqulu Bağırov,** Hüseynqulu Seyidoğlu (d.1955) – iqtisadçı. 2000-ci ildə Azərbaycan Respublikası Ticarət naziri, 2001-ci ilin may ayından Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. H.Bağırov bir sıra beynəlxalq akademiyaların və assosiasiyaların həqiqi üzvüdür. – 132,144.

**131. Azərbaycan Dövlət İnvestisiya Şirkəti** (ADİŞ) – Açıq Səhmdar Cəmiyyəti. 2006-cı ildə yaradılmışdır. AİŞ-nin məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etmək və öz vəsaiti hesabına müddətli investisiya qoymaq vasitəsilə Azərbaycan ərazisində iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir. – 135,136,276,335.

**132. İsmət Abasov,** İsmət Dursun oğlu (d.1954) – iqtisadçı, iqtisad elmləri namizədi. 2008–2013-cü illərdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri olmuşdur. 2013-cü ildən Baş nazirin müavinidir. – 136.

**133. «Aqrolizinq»** – 2004-cü ildə təsis edilmişdir. Şirkət ölkənin Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxildir. Təşkilatın ölkənin 55 rayonunda xidmət məntəqələri vardır. – 136.

**134. Əlixan Məlikov** (d.1951) – mühəndis. 2000–2009-cu illərdə «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. – 140–141,170.

**135. «Azəriqaz» İstehsalat Birliyi** – ARDNŞ-in hasil etdiyi təbii qazın Rusiya, İran və Gürcüstana ixrac edilən nəqli ilə

məşğuldur. «Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, qaz şəbəkəsini beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. – 140,170.

**136. Dimitri Rupel** (d.1946) – Sloveniya siyasətçisi. 2005-ci ildə Sloveniyanın Xarici İşlər naziri və ATƏT-in sədri olmuşdur. Rupel Pen klubun üzvüdür. – 224–225.

**137. Mətyu Brayzə** – Amerika diplomatı. 2001–2005-ci illərdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi olmuşdur. Sonra isə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya konfliktlərinin sülh yolu ilə həll olunması işi ilə məşğul olmuşdur. 2011–12-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 151, 188.

**138. Merzlyakov Yuri** (d.1949) – Rusiya Federasiyasının Fövqəladə və Səlahiyyətli səfiri. 2003–2010-cu illərdə ATƏT-in Minsk qrupunda Dağlıq Qarabağ məsələsinin nizamlanması üzrə həmsədrlərindən biri olmuşdur. – 151,188.

**139. Hindistan,** H i n d i s t a n R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Millətlər Birliyinin tərkibindədir. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 200 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 152,153.

**140. Pratibha Patil** (d.1934) – hind hüquqşünası, siyasətçi. 2007–2012-ci illərdə Hindistanın prezidenti olmuşdur. – 152.

**141. Manmohan Sinqh** (d.1932) – Hindistan dövlət və siyasi xadimi. Hindistan Respublikasının 14-cü Baş naziri. – 153.

**142. Avstraliya,** A v s t r a l i y a İ t t i f a q ı – Avstraliya qitəsində dövlət. Millətlər Birliyinin tərkibindədir. Sahəsi 7,7

milyon km$^2$, əhalisi 23,7 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və iki əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Ölkədə kraliçanı general-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 154.

**143. Kevin Rud** (d.1957) – Avstraliya siyasi xadimi. 2007–2010-cu və 2013-cü ildən Avstraliyanın Baş naziridir. 2010–2012-ci illərdə Avstraliyanın Xarici İşlər naziri olmuşdur. Avstraliya Leyborist Partiyasının lideridir. – 154.

**144. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batumi neft kəməri bərpa edildi. – 99,165,281.

**145. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 86,7 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 125,164.

**146. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 158,177.

**147. Qubadlı** – Azərbaycan Respublikasında inzibati rayon. 1933-cü ildə təşkil edilmişdir. Sahəsi 802 $km^2$, əhalisi 38,3 min nəfər. 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 125,183.

**148. Zəngilan** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 707 $km^2$, əhalisi 42 min nəfər. 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 125,183.

**149. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarəetməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 156,217,277,284.

**150. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 177,323.

**151. Əfqanıstan,** Əfqanıstan İslam Dövləti– Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və mərkəzə tabeli 2 mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 183.

**152. Şəhidlər xiyabanı –** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda, Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 189.

**153. 1990-cı ilin 20 yanvarı –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və

vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 189.

**154. Yeni Zelandiya** – Sakit okeanın cənub-qərbində dövlət. Sahəsi 270,5 min km$^2$, əhalisi 3,62 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator təmsil edir. Qanunverici orqan parlamentdir. Paytaxtı Vellinqtondur. – 190.

**155. Helen Klark** (d.1950) – Yeni Zelandiyanın Baş naziri (1999–2008). Yeni Zelandiya Liberal Partiyasının lideri. 2003-cü ildə Helen Klark Amerika ordusunun İraqa girməsini bərk tənqid etmiş və həmin ildə Yeni Zelandiyanın respublikaya çevrilməsini «qaçılmaz» hesab etmişdir. – 190.

**156. Şri-Lanka,** Şri-Lanka Sosialist Demokratik Respublikası – Cənubi Asiyada dövlət. Millətlər Birliyinə daxildir. Sahəsi 65,6 min km$^2$, əhalisi 20 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqan parlamentdir. Paytaxtı Cayavardenapura Kotte. – 191.

**157. Mahinda Pacapakse** (1945) – 2005-ci ildən Şri-Lanka Respublikasının prezidenti. 2004–2005-ci illərdə Şri-Lankada Baş nazir olmuşdur. Milli Alyansa daxil olan Şri-Lanka Azadlıq Partiyasının liderlərindən biridir. – 191.

**158. Ramiz Mehdiyev,** Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın

İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 193,307,341.

**159. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 193,307,341.

**160. İsveçrə,** İ s v e ç r ə  K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 193–215.

**161. Davos iqtisadi forumu,** D ü n y a  i q t i s a d i  f o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya iqtisadi forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti bu forumda iştirak etmişdir. – 193–215,246, 279,338.

**162. Macarıstan,** M a c a r ı s t a n  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 10,2 milyon

nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir. – 195,307–341.

**163. Paskal Kuşpen** (d.1942) – İsveçrə dövlət xadimi. 2003–2008-ci illərdə İsveçrə prezidenti olmuşdur. – 196.

**164. Mənuçehr Muttəki** (d.1953) – 2005–2010-cu illərdə İran İslam Respublikasının Xarici İşlər naziri olmuşdur. – 200.

**165. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 200,219.

**166. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati cəhətdən 26 reti və 12 dairəyə bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 201.

**167. Sali Berişa** (d.1944) – Albaniya dövlət və siyasi xadimi. 1992–97-ci illərdə Albaniya prezidenti, 2005-ci ildən Albaniyanın Baş naziridir. – 201.

**168. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatıdır. – 201.

**169. Cənubi Afrika Respublikası** (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon km$^2$, əhalisi 48,7 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (Senat və Milli Məclis). – 202.

**170. Jakov Zuma** (d.1942) – Cənubi Afrika siyasi xadimi, 1999–2005-ci illərdə CAR-da vitse-prezident, 2005-ci ildən

CAR Milli Konqresinin sədri, 2009-cu ildən CAR-ın prezidentidir. – 202.

**171. İraq,** İ r a q R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 438,3 min km$^2$, əhalisi 36 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 198.

**172. Sisko** – əsasən, böyük təşkilatlar və telekommunikasiya müəssisələri üçün rabitə şəbəkə avadanlığını hazırlayıb satan transmilli amerikan kompaniyası. Dünyada yüksək texnologiyalar sahəsində ixtisaslaşan ən iri kompaniyadır. Əvvəllər kompaniya korporativ istiqamətdə fəaliyyət göstərmişdir. Kompaniyanın xüsusiyyətlərindən biri biznes modelində mühəndislərin kompyuter şəbəkəsində çoxəhatəli sertifikasiya sisteminə yiyələnmələridir. Kompaniyanın əsası 1984-cü ildə qoyulmuşdur. – 204.

**173. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,7 min km$^2$, əhalisi 46,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Rada – 205.

**174. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukraynanın prezidenti olmuşdur. – 205.

**175. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşa Respublikasının prezidenti. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri idi. – 209.

**176. Endryu,** York hersoqu, şahzadə (d.1960) –Britaniya şahzadəsi, kontr-admiral. Britaniya kraliçası II Elizabetin ikinci oğlu. Kral ailəsinin üzvü olduğu üçün Böyük Britaniya gerbinə əsasən, öz xüsusi gerbi var. –210.

**177. «Citiqroup»** – maliyyə xidməti sahəsində dünyada ən böyük Beynəlxalq maliyyə konqlomeratı. Kompaniya 1998-ci ildə «Citicorp» və «Travelers Group»un birləşməsi nəticəsində yaradılmışdır. Bankın ümumi gəliri 1,9 trilyon dollardan çox aktivləri idarə edir. «Citiqroup» ABŞ-da qiymətli kağızların ilk diler xəzinədarıdır.

Bank 2010-cu ilin hesabatına görə dünyanın 139 ölkəsinin 200 milyon müştərisinə xidmət etmişdir. Dünyanın 5 qitəsində bankın 2 mindən çox şöbəsi olmuşdur. Bank özünün şəxsi qərargahları olmayan ölkələrə belə, kredit kartları verir. – 212.

**178.** «**Mikrosoft**» – dünyada ən böyük transmilli şirkətlərdən biri. Müxtəlif hesablama sistemləri üçün proqram təminatlarının istehsalı ilə məşğul olur. Hazırda «Mikrosoft» şirkəti Windows əməliyyat sistemlərini istehsal edir. Əsası 1975-ci ildə Vaşinqtonda (ABŞ) qoyulmuşdur. – 214.

**179. Morits Loyenberger** (d.1946) – hüquqşünas. İsveçrə dövlət və siyasi xadimi. 2001–2006-cı illərdə İsveçrənin prezidenti, 2000, 2009-cu illərdə İsveçrənin vitse-prezidenti olmuşdur. – 215.

**180. Marqaret Çan** (d.1947) – həkim, 2006-cı ildən Dünya Səhiyyə Təşkilatının Baş direktorudur. – 216–217.

**181. Xamenei,** Seyid Əli (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının ali dini rəhbəridir. – 218.

**182. İran İslam İnqilabı** – İranın daxilində Milli Cəbhənin, xaricdən isə ruhanilərin Fransada mühacirətdə olan başçısı Ayətullah Ruhulla Xomeyninin rəhbərlik etdiyi ümumxalq

hərəkatı. Bu hərəkat getdikcə gücləndi və 1979-cu ildə şah (Məhəmməd Rza Pəhləvi) ölkəni tərk etdi. Mühacirətdən vətənə qayıtmış imam Xomeyni İran İslam Respublikasını elan etdi. – 218.

**183. Əlibaba Məmmədov,** Ə l i b a b a B a l ə h m ə d o ğ l u (d.1929) – Azərbaycan xanəndəsi, bəstəkar, Azərbaycan Respublikasının Xalq artisti. Əlibaba Məmmədov «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 220.

**184. Arif Babayev,** A r i f İ m r a n o ğ l u (d.1938) – xanəndə, Xalq artisti, professor. Milli konservatoriyanın müğam kafedrasının müdiri. O, Seyid Şuşinski, Xan Şuşinçki, Zülfü Adıgözəlov kimi sənətkarların ənənələrinə əsaslanaraq, özünəməxsus ifaçılıq üslubu yaratmışdır. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 220.

**185. Ağaxan Abdullayev,** A ğ a x a n M i n a x a n o ğ l u (d.1950) – xanəndə, muğam ustası. Muğam sənətinin istedadlı nümayəndələrindən biri. Azərbaycan Respublikasının Xalq artisti. «Humay» Milli mükafatı laureatıdır. – 220.

**186. Səkinə İsmayılova,** S ə k i n ə Q u l u q ı z ı (d.1956) – muğam ifaçısı. Azərbaycan Respublikasının Xalq artisti. Səkinə İsmayılova muğamı qavalla ifa edən ilk qadın xanəndədir. Opera və Balet Teatrının səhnəsində əksər muğam operalarında aparıcı partiyaları – Leyli («Leyli və Məcnun»), Əsli («Əsli və Kərəm»), Gülbahar («Gəlin qayası») və s. ifa edir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 220.

**187. Mənsum İbrahimov,** M ə n s u m İ s r a f i l o ğ l u (d.1960) – muğam xanəndəsi, professor. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Dövlət Opera və Balet Teatrının solistidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 220.

**188. Ramiz Zöhrabov,** R a m i z F ə r z u l l a o ğ l u (d.1939) – sənətşünas, professor, sənətşünaslıq doktoru. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi. «Humay» mükafatı laureatı. – 220.

**189. Peter Semnebi** (d.1959) – İsveç səfiri. 2006–11-ci illərdə səfir Semnebi Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi olmuşdur. – 224–225.

**190. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK)** – Azərbaycanda ilk dəfə 1905-ci ildə Bakı konka fəhlə və qulluqçularının həmkarlar ittifaqı yarandı. 1920-ci ildə isə Azərbaycan Həmkarlar İttifaqları Şurası (AHİŞ) yaradıldı.

Azərbaycan müstəqillik əldə etdikdən (1991) sonra 1993-cü ildə AHİŞ özünü buraxaraq səlahiyyətlərini Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına (AHİK) verdi. Konfederasiyaya 22 sahə, iki federativ tipli həmkarlar ittifaqı və Naxçıvan Həmkarlar İttifaqları Şurası daxildir.

AHİK-in tərkibində olan həmkarlar ittifaqlarının öz nizamnaməsi və Fəaliyyət proqramı var. AHİK-in ali orqanı 5 ildən bir çağırılan qurultaydır. Qurultaylararası konfederasiyanın ali orqanı bütün üzv təşkilatların bərabər sayda təmsil olunduqları Məclisdir. AHİK-in sədri və müavinlərindən ibarət olan İcraiyyə Komitəsi isə Məclisin iclaslararası dövründə onun funksiyasını yerinə yetirir. – 226–227, 228–232.

**191. Serbiya,** Serbiya Respublikası – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Serbiyanın sahəsi 88 min km$^2$, əhalisi 7,920 min nəfərdir. Dövlətin başçısı prezident, qanunvericilik orqanı Skupşinadır. Paytaxtı Belqraddır. – 233.

**192. Boris Tadiç** (d.1958) – Serbiya siyasətçisi, Serbiya Demokratlar Partiyasının sədri. 2004–2012-ci illərdə Serbiya Respublikasının prezidenti olmuşdur. – 233.

**193. Litva,** Litva Respublikası – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 234.

**194. Valdas Adamkus** (d.1955) – 1998–2003 və 2004–2009-cu illərdə Litva Respublikasının prezidenti olmuşdur. – 234.

**195. ANS televiziyası** – Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərən müstəqil televiziya kanallarından biri. – 225–248.

**196. Çingiz Mustafayev,** Çingiz Fuad oğlu (1960–1992) telejurnalist. Azərbaycan Respublikasının Milli Qəhrəmanı. – 235–248.

**197. Vahid Mustafayev,** Vahid Fuad oğlu (d.1968) – ANS Şirkətlər qrupu MMC-nin prezidenti. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 235–248.

**198. Uzaq Şərq** – Şərqi Asiyada ərazi. Buraya Rusiya, Çin, Koreya (KDXR və Koreya Respublikası) və Yaponiya ərazilərinin şərqi aiddir. Bəzən Filippini də Uzaq Şərqə aid edirlər. –238.

**199. «Qoldman Saks»** – maliyyə konqlomeratı olan dünyada ən böyük investisiya banklarından biri. Maliyyə qurumları arasında «The Firm» kimi tanınır. «Qoldman Saks» investisiya baqkinqi, qiymətli kağızların satışı və hər şeydən əvvəl institutsional müştərilərlə fəaliyyət göstərir.

Bank 1869-cu ildə Nyu-Yorkda yaradılmışdır. Bankın 2015-ci ildə gəliri 77,70 milyard dollar olmuşdur. – 246–279.

**200. Jak Roqq** (d.1942) – belçikalı ortoped-cərrah, məşhur yelkənli qayıqsürmə idmançısı. Belçika kralı II Albert tərəfindən rıtsar adlandırılmış və qraf tituluna layiq görülmüşdür. Hazırda Beynəlxalq Olimpiya Komitəsinin sədridir. – 249–250.

**201. Qambiya,** Qambiya Respublikası – Qərbi Afrikada dövlət. Sahəsi 11,3 min km$^2$, əhalisi 1.148 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezidentdir. Qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Banjuldur. – 251.

**202. Yəhya Cammeh** (d.1965) – Qambiya siyasi və dövlət xadimi. 1994-cü ildən Qambiya Respublikasının prezidentidir. – 251.

**203. Ruslan Auşev** (d.1954) **–** tanınmış Rusiya dövlət və siyasi xadimı, İnquşetiya Respublikasının birinci prezidenti, 1991-ci ildən –

256–257.

**204. Astana** (1961-ci ilə qədər Akmolinsk, 1961–92-ci illərdə Selinoqrad, 1992–98-ci illərdə Akmola) – Qazaxıstan Respublikasının paytaxtı. – 259.

**205. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ- l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə eyni zamanda, Ali Sovetin sədri, 1991-cı ildə Qazaxıstan SSR-nin prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 259.

**206. Boris Qromov** (d.1943) – Rusiya dövlət və hərbi xadimi, general-polkovnik. Sovet İttifaqı Qəhrəmanı. 1980–89-cu illərdə Əfqanıstanda (fasilələrlə) sovet ordusuna başçılıq etmişdir. 1992–95-ci illərdə Rusiya Federasiyasının Müdafiə naziri olmuşdur. 2000–2012-ci illərdə Moskva vilayətinin qubernatoru olmuşdur. – 260.

**207. Commerzbank** – Almaniyada bank konserni. Bankın aktivləri 600 milyard avro təşkil edir. Bank Almaniyada aktivlərinin çoxluğuna görə ikinci yeri tutur. Əsası 1870-ci ildə Frankfurt Maynda qoyulmuşdur. Dünyanın 40 ölkəsində 8 milyon müştəriyə 36 min işçi xidmət edir. Bankın 17% aksiyası Almaniya hökumətinə məxsusdur. – 261.

**208. Rassel Conston** (1932–2008) **–** ingilis siyasətçisi. Liberal-demokrat politoloqu. 1999–2008-ci illərdə AŞPA-nın sədri olmuşdur. – 263.

**209. Xınalıq** – Azərbaycan Respublikasının Quba rayonunda kənd. Baş Qafqaz və Yan silsilələri arasında, çökəklikdədir. Əhalisi 2070 nəfərdir. Xınalıq kəndinin erkən orta əsrlərdə salındığı ehtimal edilir.

Xınalıq əsasən dağ kəndləri üçün səciyyəvi üslubda planlaşdırılmışdır; bir evin damı o birisi üçün həyət kimi istifadə olunur. Kəndin əhalisi Xınalıq dilində danışır. Qafqazın ən yüksək dağ kəndlərindəndir. – 268–270.

**210. «Azercell» Telekom MMC** – 1996-cı ildə təsis edilmiş və Azərbaycanda ilk GSM operatoru kimi, öz kommersiya fəaliyyətinə başlamışdır. «Azercell» Azərbaycana bir sıra innovativ texnologiya və konsepsiyaları gətirmişdir. «Azercell» dünya telekommunikasiya sektorunda abonentlərin istifadəsinə öncədən ödəmə sistemini (Sim Sim) təklif edən şirkətlərdən biri oldu. Hal-hazırda «Azercell»in 4 000 000-dan çox abonenti var. Şirkətin rabitə bazarındakı payı 55% təşkil edir. – 269.

**211. Lider–** Azərbaycanda televiziya kanalı. 2000-ci ildən fəaliyyətə başlamışdır. «Lider TV və Radio Azərbaycan» MMC-nin nəzdində fəaliyyət göstərən telekanalın əsas meyarı özəl, professional və rəngarəng proqramların hazırlanmasıdır. 2001-ci ildən Lider televiziyası dünya teleməkanına daxil olaraq, dünyaya yayımlanmağa başlamışdır. – 269.

**212. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton-Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 292.

**213. Küveyt,** K ü v e y t  d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 3 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveytdir. – 296.

**214. Cabir əl-Sabah** (d.1930) – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 296.

**215. Bruney,** B r u n e y  D ə r ü s s a l a m – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min km$^2$, əhalisi 425 min nəfərdir. Bruney

konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bəndər-Səri-Bəqavandır. – 297.

**216. Hacı Həssənal Bolkiah** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsi. – 297.

**217. Estoniya,** E s t o n i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Seymdir. Paytaxtı Tallindir. – 298.

**218. Hendrik İlves** (d.1953) – Estoniya siyasətçisi, diplomat, jurnalist, AŞPA-nın sabiq üzvü. 2006-cı ildən Estoniyanın prezidenti. – 298.

**219. «Xəzər-Lənkəran» futbol klubu** – Azərbaycan Premyer Liqasında çıxış edən Lənkəran şəhərinin futbol klubu. 2004-cü ildə yaradılmışdır. – 299–306.

**220. Ağasəlim Mircavadov,** A ğ a s ə l i m  S e y i d - ə h m ə d  o ğ l u (d.1947) – məşqçi. Azərbaycanın Əməkdar məşqçisi. 1993–95-ci illərdə Azərbaycan Milli futbol komandasının Baş məşqçisi olmuş, 2005–2008-ci illərdə «Neftçi» və «Xəzər» (Lənkəran) klublarının Baş məşqçisi olanda MDB və Baltikyanı ölkələri çempionlarının «Birlik Kuboku» yarışında qızıl medallar qazanmışlar. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 299–306.

**221. «Neftçi» –** Azərbaycanda futbol klubu. SSRİ dövründə bir müddət «Neftyanik» adı ilə fəaliyyət göstərmişdir. «Neftçi» ilk rəsmi oyununu 1937-ci ildə keçirmişdir. Azərbaycan futbolunun flaqmanı olan «Neftçi» 1966-cı ildə SSRİ birinciliyinin bürünc medalını qazanmışdır, 2006-cı ildə Müstəqil Dövlətlər Birliyi Kubokunu almışdır. – 300.

**222. FİFA –** Beynəlxalq Futbol Federasiyası. 1904-cü ildə Parisdə yaradılmışdır. Hazırda 210-a yaxın milli federasiyanı birləşdirir. – 304,305.

**223. Yozef Blatter** (d.1936) – 1998–2015-ci illərdə Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 304,305.

**224. UEFA –** Beynəlxalq Avropa İdman Təş-kilatı – Avropa Futbol Assosiasiya Şurası. Əsası 1954-cü ildə qoyulmuşdur. – 304,305.

**225. Mişel Platini** (d.1955) – məşhur fransız futbolçusu, məşqçi və futbol məmuru. 1984-cü il Avropa çempionatının qalibi. XX əsrin ən yaxşı futbolçularından biri. 1983,1984, 1985-ci illərdə «Qızıl top»un sahibi. 1988–92-ci illərdə Fransa milli komandasının Baş məşqçisi 2007–2015-ci illərdə Avropa Futbol Assosiasiyalar İttifaqının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 304,305.

**226. Laslo Şoyom** (d.1942) – macar hüquqşünası, Macarıstan Elmlər Akademiyasının müxbir üzvü. 2005–2010-cu illərdə Macarıstanın prezidenti olmuşdur. Hazırda hüquq müdafiəsi və ekologiya təşkilatlarının işi ilə məşğul olur. – 308–340.

**227. Heydər Babayev,** Heydər Aydın oğlu (d.1957) – iqtisadçı. 1999–2005-ci illərdə Azərbaycan Respublikası Prezidenti Yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri, 2005-ci ilin oktyabrından 2008-ci ilə qədər Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri olmuşdur. – 311,336.

**228. Fazil Məmmədov,** Fazil Əsəd oğlu (d.1964) – iqtisadçı. 2000-ci ildən Azərbaycan Respublikasının Vergilər naziridir. – 311.

**229. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 312,320.

**230. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 319,328.

**231. Həsən Həsənov,** H ə s ə n Ə z i z o ğ l u (d.1940) – Azərbaycanın dövlət xadimi, diplomat. Ayrı-ayrı illərdə Nazirlər Sovetinin sədri, BMT-də Azərbaycan Respublikasının daimi nümayəndəsi, Azərbaycan Respublikasının Xarici İşlər naziri olmuşdur. 2010-cu ildən Polşada Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiridir. – 340.

## Şəxsi adlar göstəricisi

**Abdulla Şaiq** – 65
**Abasov İsmət** – 136
**II Abdullah** – 58
**Abdullayev Ağaxan** – 220
**Abdullayev Rövnəq** – 38,142,143
**Abutalıbov Hacıbala** – 86,128–129,193,307
**Adamkus Valdas** – 234
**Axundov Nadir** – 220
**Axundov Anar** – 336
**Ağayev Rüfət** – 78
**Akihito** – 5
**Allahverdiyev Yaşar** – 78
**Aslanov Ağalar** – 78
**Auşev Ruslan** – 256–257
**Babayev Arif** – 132,144
**Babayev Heydər** – 311,336
**Bağırov Hüseynqulu** – 132,144
**Berişa Sali** – 201
**Bəşirov Aydın** – 111
**Bhutto Bənazir** – 84
**Bişoff Uin** – 212
**Blatter Yozef** – 304,305
**Blessinq Martin** – 261
**Bobozadə Qulomcon** – 294
**Bolkiah Hacı Həssənal** – 297
**Brayzə Mətyu** – 151,188
**Camalov Yavər** – 31–33
**Cammeh Yəhya** – 251
**Cəfəri Əli** – 262
**Cəfərov Elçin** – 156
**Conston Rassel** – 263
**Çambers Con** – 204
**Çambers Deyvid** – 97
**Çan Marqaret** – 216
**Çaykovski Pyotr** – 86

**Dobrev Klara** – 338
**Dyurçan Ferents** – 195,338
**Endryu** – 210
**Əbiyev Səfər** – 95,168
**Əhmədinejad Mahmud** – 200,219
**Əl-Bəşir Ömər** – 59
**Əl-Fəhim Səid** – 192
**Ələkbərov Füzuli** – 145,146
**Ələkbərov Pərviz** – 168
**Əliyev Elxan** – 78
**Əliyev Heydər** – 19,26,31,34,46,47,49,145,155, 165,170,171,172,180,184, 186,259,260.
**Əliyev Natiq** – 78
**Əliyev Sabir** – 78
**Əliyev Zakir** – 78
**Əliyeva Leyla** – 38
**Əliyeva Mehriban** – 35,38,46,47,48,49,64,68,80–83,85,86,155–156,180,181, 182,184,185,189,217,220,320, 338,340
**Əliyeva Zərifə xanım** – 111–112
**Əlizadə Hikmət** – 27
**Ərəbova Rəvanə** – 221
**Əl-Sabah Cabir** – 296
**Ətəpur Nasir** – 221
**Fallon Padraik** – 203
**Farrell Tomas** – 25
**Fasye Bernar** – 151,188
**Ferrero-Valdner Benita** – 224–225
**Fukuda Yasuo** – 6
**Harris Deyvid** – 194
**Hatton Con** – 211
**Heydərov Kəmaləddin** – 131–132
**Heyvord Entoni** – 207
**Həsənov Faiq** – 78
**Həsənov Həsən** – 340

**Həşimov Vüqar** – 78
**Hökümə xanım** – 26,28
**Hüseynov Ələkbər** – 67
**Hüseynzadə Çingiz** – 69,78
**Hüseynov Ehtiram** – 221
**Xamenei Seyid Əli** – 218
**İbrahimov Elməddin** – 221
**İbrahimov Mənsum** – 220
**İbrahimov Samir** – 78
**İlves Tomas** – 298
**İnqlis Endryu** – 7
**İsmayılova Səkinə** – 220
**Kaçinski Lex** – 209
**Kakoşi Cabo** – 311
**Kas Norman** – 259
**Kaspirşik Anji** – 151,188
**Kastro Fidel** – 60
**Kərimov İslam** – 63
**Kiş Nolberd** – 320
**Klark Helen** – 190
**Kuşpen Paskal** – 196
**Qarayev Əbülfəs** – 64,65
**Qasımov Alim** – 86,220
**Qocayeva İradə** – 78
**Qromov Boris** – 260
**Qurbanov Cavid** – 37,130
**Lemyer Jan** – 208
**Li Men Bak** – 61
**Livni Sipi** – 206
**Loyenberger Morits** – 215
**Luqar Riçard** – 150
**Maltsev Leonid** – 8
**Mandi Kreyq** – 214
**Mehdiyev Ramiz** – 193,307,341
**Merzlyakov Yuri** – 151,188
**Mesaroş Tomas** – 320–330
**Məcidov Emil** – 336

**Məlikov Əlixan** – 140–141,170
**Məmmədli Elnur** – 78
**Məmmədov Əlibaba** – 220
**Məmmədov Ənvər** – 268–270
**Məmmədov Fazil** – 311
**Məmmədov Şahin** – 170
**Məmmədov Zahid** – 78
**Məmmədov Ziya** – 22,35–37,102,129–131
**Mənsimov Mübariz** – 299–306
**Mircavadov Ağasəlim** – 299–306
**Mirzəliyev Abgül** – 221
**Mukanov Serik** – 258–259
**Muradov Aqil** – 170
**Muradov Cavid** – 168
**Muradova Güllü** – 221
**Muttəki Mənuçehr** – 200
**Musayev Araz** – 78
**Museyi Kazım** – 26,28
**Mustafayev Çingiz** – 235–248
**Mustafayev Vahid** – 235–248
**Müşərrəf Pərviz** – 24,84
**Nağıyev Ramil** – 181–185
**Nazarbayev Nursultan** – 259
**Nərimanbəyov Toğrul** – 65
**Nərimanova Natalya** – 78
**Niberq Lars** – 116
**Pacapakse Mahinda** – 191
**Paşayev Telman** – 78
**Paşazadə hacı Allahşükür** – 25,28,29
**Patil Pratibha** – 152
**Pirverdiyev Etibar** – 50,98
**Platini Mişel** – 304,305
**Ploşko İosif** – 65
**Pritzker Tomas** – 213
**Pueza Bruno** – 295
**Rasizadə Artur** – 193,307,341
**Rəhimov Azad** – 79

**Rəhimzadə Elşad** – 66
**Roqq Jak** – 249–250
**Rud Kevin** – 154
**Rupel Dmitri** – 224–225
**Saakaşvili Mixeil** – 113
**Sadıxova Valiyə** – 78
**Salahova Zərifə** – 78
**Sarıyev Həsən** – 156
**Semnebi Peter** – 224–225
**Serageldi İsmayıl** – 57
**Sili Katalin** – 339
**Sinqh Manmohan** – 153
**Sviridov Georgi** – 86
**Şerbakov Vladimir** – 231
**Şərifov Abid** – 80
**Şirəliyev Oqtay** – 38,91
**Şmakov Mixail** – 229–230
**Şoroxov Gennadi** – 260
**Şoyom Laslo** – 308–340
**Ştraus İohann** – 86
**Şuster Bill** – 115
**Tadiç Boris** – 233
**Tağıyev Hacı Zeynalabdin** – 80–83
**Tuayev Kazbek** – 78
**Tyurk Danilo** – 62
**Usubov Ramil** – 186–187
**Veksler Robert** – 114
**Vereş Yanoş** – 311
**Vəlixanlı Nailə** – 80–83
**Vəliyev Ağalar** – 80
**Vəliyev Əzizxan** – 168
**Vurayket Abdullah** – 58
**Vurdakul Nihad** – 230–231
**Yuşşenko Viktor** – 205
**Zeynalov Hacıbala** – 78
**Zöhrabov Ramiz** – 220
**Zuma Jakob** – 202

## Coğrafi adlar göstəricisi


**Abxaziya** – 13
**Abşeron (*yarımada*)** – 286
**Afina** – 76
**Ağcabədi** – 93,138,159,170–187
**Ağdam** – 93,125,155–169,172,176
**Ağdaş** – 93
**Ağstafa** – 93
**Ağsu** – 93
**Aktau** – 111
**Akaba** – 96
**Albaniya** – 201
**Almaniya** – 32,36,38,47,82,91,261,266
**Amerika Birləşmiş Ştatları** – 12,32,51,91,95,114,115,126, 150,151,188,194,198,243, 252, 259
**Astana** – 259
**Astara** – 93,138
**Asiya** – 17,106,239,301,326,331,338
**Avropa** – 11,16,17,18,32,33,44,72,76, 82,92,106,127,237,238,239, 244,270,291,301,314,326, 331,338
**Avstraliya** – 154
**Avstriya** – 340
**Bakı** – 5,6,13,18,24,31,41,45,54,55, 56,59,59,60,61,62,63,65,69,70, 73,74,80,84,85,94,106,109,110, 113,128,130,132,143,144,152,153,154,175,190,191,218,219,226–227, 230, 233,234,251,254, 261, 284, 286,291,294,296,297, 298,303,305
**Balakən** – 93
**Baltik dənizi** – 17,242,325
**Belarus** – 8

**Belçika** – 31,198
**Beyləqan** – 93,172
**Bəhreyn** – 192
**Bərdə** – 93
**Bibiheybət** – 143
**Biləsuvar** – 93
**Böyük Britaniya** – 80,198,203,210,211
**Braziliya** – 86
**Bruney** – 297
**Budapeşt** – 307–341
**Cenevrə** – 217
**Ceyhan** – 142,237
**Cəbrayıl** – 125
**Cəlilabad** – 93
**Cənubi Afrika** – 202
**Cənubi Amerika** – 238
**Cənubi Qafqaz** – 17,242,312
**Cənubi Osetiya** – 13
**Çexiya** – 36,340
**Çılpaqlı (*qəsəbə*)** – 48
**Çin** – 198,331
**Dağlıq Qarabağ** –12,13,55,107,108,124,125,126, 151,162,163,164,177,178,180, 181,182,184,188,195,196,311, 319, 326,327,328
**Daşkəsən** – 93
**Davos** – 193–215
**Dəvəçi** – 93
**Dnestryanı** – 13
**Estoniya** – 298

**Əli Bayramlı** – 38–52,93
**Əbu-Dabi** – 96
**Əfqanıstan** – 183
**Əmman** – 96
**Fars körfəzi** – 96
**Fransa** – 12,32,51,80,126,151,188,198

**Füzuli** – 125,172
**Gədəbəy** – 93
**Gəncə** – 93,305
**Göyçay** – 93
**Goranboy** – 93
**Gürcüstan** – 16,17,113,242
**Hacıqabul** – 93
**Hindistan** – 152,153
**Hollandiya** – 31,32
**Xaçmaz** – 93
**Xanlar** – 93
**Xəzər dənizi** – 17,111,112,242,316,325
**Xızı** – 93
**Xorvatiya** – 111
**Xınalıq** –268–270
**Xudat** – 93
**İmişli** – 93
**İordaniya** – 58
**İraq** – 198
**İran** – 138,200,218,219
**İsmayıllı** – 93
**İspaniya** – 340
**İsrail** – 32,206
**İsveçrə** – 193–215
**İtaliya** – 32,36
**Kəlbəcər** – 125,164
**Koreya Respublikası** – 36,61
**Kuba** – 60
**Kürdəmir** – 35,37,93
**Küveyt** – 198,296
**Qafqaz** – 17,310,316,325
**Qax** – 93
**Qambiya** – 251
**Qara dəniz** – 16,17,238,242,325
**Qazax** – 93
**Qazaxıstan** – 231,258
**Qəbələ** – 23,93

**Qərbi Avropa** – 65
**Qətər** – 198
**Qırıqlı** – 316
**Qusar** – 93
**Quba** – 93,268–270
**Qubadlı** – 125,183
**Quzanlı** – 155–156,158
**Laçın** – 125,164
**Lerik** – 93
**Lənkəran** – 39,93,299–306
**Litva** – 198,234
**Lozanna** – 69
**Macarıstan** – 195,307–341
**Masallı** – 93
**Mehrabpur** – 24
**Mərkəzi Asiya** – 16,17,325
**Mərkəzi Avropa** – 320
**Mingəçevir** – 93
**Misir** – 57
**Moldova** – 11–19
**Naftalan** – 93
**Naxçıvan** – 39,138,139,305
**Naxçıvan MR** – 99
**Neftçala** – 93,144
**Norveç** – 198
**Nigeriya** – 198
**Orta Asiya** – 44,242
**Oğuz** – 23,93
**Özbəkistan** – 63
**Pakistan** – 24,84
**Pekin** – 69,76
**Polşa** – 65,67,209
**Ravalpindi** – 84
**Rusiya** – 12,13,38,94,126,151,188,198, 229, 231, 242, 260,266,340
**Saatlı** – 93
**Sabirabad** – 93

**Salyan** – 93,144
**Samux** – 93
**Sankt-Peterburq** – 303
**Serbiya** – 233
**Səngəçal** – 52
**Səudiyyə Ərəbistanı** – 262
**Sidney** – 76
**Siyəzən** – 93
**Sloveniya** – 62
**Sudan** – 59
**Sumqayıt** – 52
**Sürix** – 193
**Şamaxı** – 36,93
**Şəki** – 93
**Şəmkir** – 93
**Şərqi Asiya** – 32
**Şərqi Avropa** – 76,88
**Şimali Amerika** – 238
**Şri-Lanka** – 191
**Şuşa** – 55–56,125,164,183
**Tacikistan** – 294
**Tərtər** – 93
**Tovuz** – 93
**Türkiyə** – 16,17,32,36,38,44,47,106,142,198, 230–231,340
**Türkmənbaşı** – 111
**Ucar** – 93
**Ukrayna** – 205
**Uzaq Şərq** – 238
**Yaponiya** – 5,6,38,86,198
**Yardımlı** – 93
**Yeni Zelandiya** – 190
**Yevlax** – 36,93
**Yunanıstan** – 16
**Zaqatala** – 93
**Zəngilan** – 125,183
**Zərdab** – 93

# MÜNDƏRİCAT

YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

*17 dekabr 2007-ci il*........................................................................... *5*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB YASUO FUKUDAYA

*17 dekabr 2007-ci il*........................................................................... *6*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
*bp* ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ
ENDRYU İNQLİS İLƏ GÖRÜŞÜ

*17 dekabr 2007-ci il*........................................................................... *7*

BELARUS RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ LEONİD
MALTSEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*18 dekabr 2007-ci il*........................................................................... *8*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKININ NƏRİ-
MANOV RAYONU ƏRAZİSİNDƏ SALINMIŞ YENİ YOLUN
AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*19 dekabr 2007-ci il*........................................................................... *9*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN MOLDOVANIN KANAL–4
TELEVİZİYASINA MÜSAHİBƏSİ

*19 dekabr 2007-ci il*......................................................................... *11*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜASİR TİPLİ
KÖRPÜNÜN VƏ YENİ YOLUN AÇILIŞINDA İŞTİRAK
ETMİŞDİR

*19 dekabr 2007-ci il*......................................................................... *20*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ

*20 dekabr 2007-ci il.......................................................................................... 24*

ƏJDƏRBƏY MƏSCİDİNDƏ VƏ ONUN ƏRAZİSİNDƏ APARILAN TƏMİR-TİKİNTİ, ABADLIQ İŞLƏRİ İLƏ TANIŞLIQ

*20 dekabr 2007-ci il.......................................................................................... 25*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİBİHEYBƏT ZİYARƏTGAH KOMPLEKSİNDƏ

*20 dekabr 2007-ci il.......................................................................................... 26*

TƏZƏPİR MƏSCİDİNDƏ APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*20 dekabr 2007-ci il.......................................................................................... 29*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV «PEYK» ZAVODUNUN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*21 dekabr 2007-ci il.......................................................................................... 31*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV «İQLİM» ELM-İSTEHSALAT MÜƏSSİSƏSİNDƏ OLMUŞDUR

*21 dekabr 2007-ci il.......................................................................................... 34*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HACIQABUL–KÜRDƏMİR AVTOMOBİL YOLUNUN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

*24 dekabr 2007-ci il.......................................................................................... 35*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ƏLİ BAYRAMLI ŞƏHƏRİNƏ SƏFƏRİ

*24 dekabr 2007-ci il.......................................................................................... 38*

MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN «TELEMEXANİKA» ZAVODUNDA GÖRÜŞ

*24 dekabr 2007-ci il*........................................................................... *46*

ƏLİ BAYRAMLIDA YAĞ EMALI ZAVODUNUN AÇILIŞ MƏRASİMİ

*24 dekabr 2007-ci il*........................................................................... *47*

ƏLİ BAYRAMLI ŞƏHƏRİNİN ÇILPAQLI QƏSƏBƏSİNDƏKİ YENİ ORTA MƏKTƏBLƏ TANIŞLIQ

*24 dekabr 2007-ci il*........................................................................... *48*

«CƏNUB» ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ

*24 dekabr 2007-ci il*........................................................................... *50*

DÜNYA AZƏRBAYCANLILARINA!

*25 dekabr 2007-ci il*........................................................................... *53*

ŞUŞA MƏDƏNİ-MAARİF TEXNİKUMUNUN KOLLEKTİVİNƏ

*25 dekabr 2007-ci il*........................................................................... *55*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSGƏNDƏRİYYƏ KİTABXANASININ DİREKTORU, MİSİR PREZİDENTİNİN ELM VƏ TƏHSİL ÜZRƏ MÜŞAVİRİ İSMAYIL SERAGELDİN İLƏ GÖRÜŞÜ

*25 dekabr 2007-ci il*........................................................................... *57*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İORDANİYA KRALININ ORTA ASİYA VƏ AZƏRBAYCAN ÜZRƏ XÜSUSİ ELÇİSİ ABDULLAH VUREYKƏT İLƏ GÖRÜŞÜ

*25 dekabr 2007-ci il*........................................................................... *58*

SUDAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ

*25 dekabr 2007-ci il*........................................................................... *59*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ
NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ
CƏNAB FİDEL KASTRO RUSA

25 *dekabr 2007-ci il*........................................................................................ *60*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB Lİ MEN BAKA

*25 dekabr 2007-ci il*........................................................................................ *61*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DANİLO TYURKA

*25 dekabr 2007-ci il*........................................................................................ *62*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*25 dekabr 2007-ci il*........................................................................................ *63*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT
KUKLA TEATRI BİNASININ ƏSASLI TƏMİRDƏN SONRA
AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*26 dekabr 2007-ci il*........................................................................................ *64*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAYTAXTIN
MƏRKƏZİNDƏKİ BAĞDA APARILAN YENİDƏNQURMA
İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*26 dekabr 2007-ci il*........................................................................................ *68*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ
OLİMPİYA KOMİTƏSİNİN 2007-ci İLİN YEKUNLARINA HƏSR
OLUNMUŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*27 dekabr 2007-ci il*........................................................................................ *69*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN
TARİXİ MUZEYİNİN TƏMİR-BƏRPA İŞLƏRİNDƏN SONRA
AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*28 dekabr 2007-ci il............................................................................ 80*
PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ

*28 dekabr 2007-ci il............................................................................ 84*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR
ƏLİYEV ADINA SARAYDA APARILAN ƏSASLI
YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*28 dekabr 2007-ci il............................................................................ 85*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ PARK-
DAKI MUSİQİLİ FƏVVARƏNİN AÇILIŞ MƏRASİMİNDƏ
İŞTİRAK ETMİŞDİR

*28 dekabr 2007-ci il............................................................................ 86*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SAHİBKAR-
LIĞIN İNKİŞAFINDA MÜHÜM MƏRHƏLƏ OLAN «BİR
PƏNCƏRƏ» SİSTEMİNİN TƏQDİMAT MƏRASİMİNDƏ
İŞTİRAK ETMİŞDİR

*29 dekabr 2007-ci il............................................................................ 87*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏHİYYƏ
NAZİRLİYİNİN ALDIĞI YENİ TƏCİLİ TİBBİ YARDIM AV-
TOMOBİLLƏRİ VƏ AVADANLIĞI İLƏ TANIŞ OLMUŞDUR

*29 dekabr 2007-ci il............................................................................ 91*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA
DÖVLƏT BAYRAĞI MEYDANININ TƏMƏLQOYMA MƏRA-
SİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*30 dekabr 2007-ci il............................................................................ 95*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKININ
NƏRİMANOV RAYONU ƏRAZİSİNDƏ YENİ SALINAN YOLUN
AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

*30 dekabr 2007-ci il.......................................................................... 101*

PREZİDENT İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCAN-
LILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ
AZƏRBAYCAN XALQINA TƏBRİKİ

*31 dekabr 2007-ci il*............................................................................... *103*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*5 yanvar 2008-ci il*................................................................................. *110*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV «AKADEMİK
ZƏRİFƏ ƏLİYEVA» GƏMİ-BƏRƏSİNİN İSTİFADƏYƏ
VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*8 yanvar 2008-ci il*................................................................................. *111*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ

*8 yanvar 2008-ci il*................................................................................. *113*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN ABŞ KONQRESİNİN ÜMAYƏNDƏLƏR
PALATASININ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏSİNİN
AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ ALT KOMİTƏSİNİN SƏDRİ
ROBERT VEKSLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞÜ

*9 yanvar 2008-ci il*................................................................................. *114*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ KON-
QRESİNİN NÜMAYƏNDƏLƏR PALATASINDAKI AZƏR-
BAYCAN ÜZRƏ İŞÇİ QRUPUNUN HƏMSƏDRİ BİLL ŞUSTERİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*10 yanvar 2008-ci il*............................................................................... *115*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «TELİA
SONERA» ŞİRKƏTİNİN PREZİDENTİ LARS NİBERQİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*10 yanvar 2008-ci il*............................................................................... *116*

PREZİDENT İLHAM ƏLİYEVİN NAZİRLƏR KABİNETİNİN 2007-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ 2008-ci İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA NİTQİ

*11 yanvar 2008-ci il*........................................................................... *117*

YEKUN NİTQİ ........................................................................... *128*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ SENATORU RİÇARD LUQARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*13 yanvar 2008-ci il*........................................................................... *150*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞÜ

*14 yanvar 2008-ci il*........................................................................... *151*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM PRATİBHA PATİLƏ

*16 yanvar 2008-ci il*........................................................................... *152*

HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB MANMOHAN SİNQHƏ

*16 yanvar 2008-ci il*........................................................................... *153*

AVSTRALİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB KEVİN RUDA

*16 yanvar 2008-ci il*........................................................................... *154*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞDAM RAYONUNA SƏFƏRİ

*17 yanvar 2008-ci il*........................................................................... *155*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞDAM OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQİ

*17 yanvar 2008-ci il*........................................................................... *157*

AZƏRBAYCAN PREZİDENTİ, ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV CƏBHƏ XƏTTİNDƏ OLMUŞ HƏRBÇİLƏRİ MÜKAFATLANDIRMIŞDIR

*17 yanvar 2008-ci il*........................................................................... *168*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞCABƏDİ RAYONUNA SƏFƏRİ

*17 yanvar 2008-ci il*........................................................................... *170*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞCABƏDİ ŞƏHƏRİNƏ TƏBİİ QAZIN VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQİ

*17 yanvar 2008-ci il*........................................................................... *171*

HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞI

*17 yanvar 2008-ci il*........................................................................... *180*

AĞCABƏDİDƏ ŞƏHİD AİLƏLƏRİ VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİ ÜÇÜN YAŞAYIŞ BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*17 yanvar 2008-ci il* ........................................................................... *181*

DAXİLİ QOŞUNLARIN «N» HƏRBİ HİSSƏSİ İLƏ TANIŞLIQ

*17 yanvar 2008-ci il*........................................................................... *186*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞÜ

*18 yanvar 2008-ci il*........................................................................... *188*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏHİDLƏRİN ƏZİZ XATİRƏSİNİ YAD ETMİŞDİR

*20 yanvar 2008-ci il........................................................................... 189*

YENİ ZELANDİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ XANIM HELEN KLARKA

*21 yanvar 2008-ci il........................................................................... 190*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA RA-CAPAKSEYƏ

*21 yanvar 2008-ci il........................................................................... 191*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏHREYN BEYNƏLXALQ İNVESTİSİYA BANKI-NIN VƏ ƏL-FƏHİM QRUPUNUN SƏDRİ İLƏ GÖRÜŞÜ

*21 yanvar 2008-ci il........................................................................... 192*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ SƏFƏRİ

*23 yanvar 2008-ci il........................................................................... 193*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEYVİD HARRİS İLƏ GÖRÜŞÜ

*23 yanvar 2008-ci il........................................................................... 194*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARIS-TANIN BAŞ NAZİRİ FERENTS DYURÇAN İLƏ GÖRÜŞÜ

*23 yanvar 2008-ci il........................................................................... 195*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏ PREZİDENTİ PASKAL KUŞPEN İLƏ GÖRÜŞÜ

*24 yanvar 2008-ci il .......................................................................... 196*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAVOS FORUMUNUN «ENERGETİKA SƏNAYESİNDƏ GÜNƏŞ ENERJİSİNİN ROLU» MÖVZUSUNUN ƏSAS İCLASINDA İŞTİRAK ETMİŞDİR

*24 yanvar 2008-ci il*......................................................................... *197*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MUTTƏKİ İLƏ GÖRÜŞÜ

*24 yanvar 2008-ci il*......................................................................... *200*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALBANİYA NAZİRLƏR ŞURASININ SƏDRİ SALİ BERİŞA İLƏ GÖRÜŞÜ

*24 yanvar 2008-ci il*......................................................................... *201*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN CƏNUBİ AFRİKA MİLLİ KONQRESİNİN SƏDRİ CAKOB ZUMA İLƏ GÖRÜŞÜ

*24 yanvar 2008-ci il*......................................................................... *202*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN «EUROMONEY İNSTİTUTİONAL İNVESTOR PLC» ŞİRKƏTİNİN SƏDRİ PADRAİK FALLON İLƏ GÖRÜŞÜ

*24 yanvar 2008-ci il*......................................................................... *203*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «SİSKO» ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU CON ÇAMBERS İLƏ GÖRÜŞÜ

*24 yanvar 2008-ci il*......................................................................... *204*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO İLƏ GÖRÜŞÜ

*24 yanvar 2008-ci il*......................................................................... *205*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSRAİLİN XARİCİ İŞLƏR NAZİRİ SİPİ LİVNİ İLƏ GÖRÜŞÜ

*24 yanvar 2008-ci il............................................................................... 206*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «*bp* GROUP»
ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
ENTONİ HEYVORD İLƏ GÖRÜŞÜ

*24 yanvar 2008-ci il............................................................................... 207*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA
YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ
JAN LEMYER İLƏ GÖRÜŞÜ

*25 yanvar 2008-ci il............................................................................... 208*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB LEX KAÇİNSKİYƏ

*25 yanvar 2008-ci il............................................................................... 209*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK
BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ
GÖRÜŞÜ

*25 yanvar 2008-ci il............................................................................... 210*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK
BRİTANİYANIN BİZNES, MÜƏSSİSƏLƏRİN İNKİŞAFI,
TƏNZİMLƏNMƏ İSLAHATLARI ÜZRƏ DÖVLƏT KATİBİ CON
HATTON İLƏ GÖRÜŞÜ

*25 yanvar 2008-ci il............................................................................... 211*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «CİTİ-
GROUP»un SƏDRİ UİN BİŞOFF İLƏ GÖRÜŞÜ

*25 yanvar 2008-ci il............................................................................... 212*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-ın
«GLOBAL HYATT» ŞİRKƏTİNİN SƏDRİ VƏ SAHİBİ
TOMAS PRİTZKER İLƏ GÖRÜŞÜ

*25 yanvar 2008-ci il............................................................................... 213*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «MİCRO-SOFT» KORPORASİYASININ TƏDQİQAT VƏ STRATEGİYA ÜZRƏ DİREKTORU KREYQ MANDİ İLƏ GÖRÜŞÜ

*25 yanvar 2008-ci il*............................................................................ *214*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏ KONFEDERASİYASININ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ, NƏQLİYYAT, ENERGETİKA VƏ RABİTƏ DEPARTAMENTİNİN RƏHBƏRİ MORİTS LOYENBERGER İLƏ GÖRÜŞÜ

*25 yanvar 2008-ci il*............................................................................ *215*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU MARQARET ÇANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*31 yanvar 2008-ci il*............................................................................ *216*

İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ

*1 fevral 2008-ci il* ............................................................................ *218*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*1 fevral 2008-ci il* ............................................................................ *219*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV «MUĞAM TELEVİZİYA MÜSABİQƏSİ – 2007» QALİBLƏRİNİN KON-SERTİNDƏ OLMUŞDUR

*1 fevral 2008-ci il* ............................................................................ *220*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA İTTİFAQI «ÜÇLÜYÜ»NÜN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*4 fevral 2008-ci il* ............................................................................ *224*

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDE-RASİYASININ ÜÇÜNCÜ QURULTAYINA

*4 fevral 2008-ci il* ........................................................................ *226*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AHİK-in III QURULTAYININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

*5 fevral 2008-ci il* ........................................................................ *228*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS TADİÇƏ

*5 fevral 2008-ci il* ........................................................................ *233*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VALDAS ADAMKUSA

*6 fevral 2008-ci il* ........................................................................ *234*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «2007-ci İLİN ADAMI» MÜKAFATININ TƏQDİM OLUNMASI MƏ-RASİMİNDƏ NİTQİ

*6 fevral 2008-ci il* ........................................................................ *235*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ JAK ROQUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*6 fevral 2008-ci il* ........................................................................ *249*

QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YƏHYA CAMMEHƏ

*6 fevral 2008-ci il* ........................................................................ *251*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ DÖVLƏT KATİBİNİN AKADEMİK PROQRAMLAR ÜZRƏ MÜŞAVİRİ TOMAS FARRELL İLƏ GÖRÜŞÜ

*6 fevral 2008-ci il* ........................................................................ *252*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

İLHAM ƏLİYEVİN AŞPA-nın MONİTORİNQ KOMİTƏSİNİN HƏMSƏDRLƏRİ ANDRES HERKEL VƏ YEVGENİYA JİVKOVA İLƏ GÖRÜŞÜ

*6 fevral 2008-ci il* ........................................................................ *253*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «MÜHARİBƏ VETERANLARININ İCTİMAİ KOMİTƏSİ» BEYNƏLXALQ İCTİMAİ BİRLİKLƏR İTTİFAQININ III QURULTAYININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞÜ

*6 fevral 2008-ci il* ........................................................................ *254*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYANIN «COMMERZBANK»ININ SƏDR VƏZİFƏSİNİ İCRA EDƏN MARTİN BLESSİNQ İLƏ GÖRÜŞÜ

*7 fevral 2008-ci il* ........................................................................ *261*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANININ ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ƏLİ HƏSƏN ƏHMƏD CƏFFƏRİ İLƏ GÖRÜŞÜ

*8 fevral 2008-ci il* ........................................................................ *262*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ DAĞLIQ QARABAĞ ÜZRƏ ALT KOMİTƏSİNİN SƏDRİ LORD RASSEL CONSTON İLƏ GÖRÜŞÜ

*8 fevral 2008-ci il* ........................................................................ *263*

AZADLIQ MEYDANI–ZIĞ DAİRƏSİ–HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTU AVTOMOBİL YOLUNUN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*8 fevral 2008-ci il* ........................................................................ *264*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MKT İSTEHSALAT-KOMMERSİYA MMC-nin BAKI İPLİK FABRİKİNİN VƏ BEYNƏLXALQ TİCARƏT MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ

*8 fevral 2008-ci il* ........................................................................ *266*

REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMININ İCRASININ DÖRDİLLİK YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANS

*11 fevral 2008-ci il* ........................................................................................ *268*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMININ İCRASININ DÖRDİLLİK YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA NİTQİ

*11 fevral 2008-ci il* ........................................................................................ *271*

YEKUN NİTQİ ........................................................................................ *281*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTANIN İQTİSADİ İNKİŞAF VƏ TİCARƏT NAZİRİ BOBOZODƏ QULOMCONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*13 fevral 2008-ci il* ........................................................................................ *294*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BMT-nin ÖLKƏMİZDƏKİ REZİDENT – ƏLAQƏLƏNDİRİCİSİ BRUNO PUEZANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*14 fevral 2008-ci il* ........................................................................................ *295*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*14 fevral 2008-ci il* ........................................................................................ *296*

BRUNEY DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA

*14 fevral 2008-ci il* ........................................................................................ *297*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOMAS HENDRİK İLVESƏ

*14 fevral 2008-ci il* ........................................................................................ *298*

«XƏZƏR-LƏNKƏRAN» FUTBOL KLUBUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*15 fevral 2008-ci il* ............................................................................ *299*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTANA DÖVLƏT SƏFƏRİ

*18 fevral 2008-ci il* ............................................................................ *307*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*18 fevral 2008-ci il* ............................................................................ *308*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTAN PREZİDENTİ LASLO ŞOYOM İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*18 fevral 2008-ci il* ............................................................................ *310*

AZƏRBAYCAN VƏ MACARISTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ BƏYANATLARLA ÇIXIŞLARI

*18 fevral 2008-ci il* ............................................................................ *312*

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ LASLO ŞOYOMUN ADINDAN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ NİTQ

*18 fevral 2008-ci il* ............................................................................ *315*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ MACARISTANIN NÜFUZLU KORVİNUS UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİ

*18 fevral 2008-ci il* ............................................................................ *320*

MACARISTANIN NÜFUZLU KORVİNUS UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*18 fevral 2008-ci il* ........................................................................... *322*

AZƏRBAYCAN–MACARISTAN BİZNES-FORUMU

*19 fevral 2008-ci il* ........................................................................... *331*

«MACARISTAN QƏHRƏMANLARI» MEMORİALINDA ƏKLİLQOY-
MA MƏRASİMİ

*19 fevral 2008-ci il* ........................................................................... *337*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARIS-
TANIN BAŞ NAZİRİ FERENTS DYURÇAN İLƏ GÖRÜŞÜ

*19 fevral 2008-ci il* ........................................................................... *338*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACA-
RISTAN PARLAMENTİNİN SƏDRİ XANIM KATALİN
SİLİ İLƏ GÖRÜŞÜ

*19 fevral 2008-ci il* ........................................................................... *339*

BUDAPEŞTDƏ AZƏRBAYCAN SƏFİRLİYİNİN YENİ BİNASI
İLƏ TANIŞLIQ

*19 fevral 2008-ci il* ........................................................................... *340*

*Q E Y D L Ə R* ........................................................................... *342*

*Şəxsi adlar göstəricisi* ........................................................................... *389*

*Coğrafi adlar göstəricisi* ........................................................................... *394*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompyuter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,5. Uçot vərəqi 26,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.